**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ**

# Tarix, insan və cəmiyyət

***Elmi-nəzəri və elmi-metodik jurnal***

**2019, 1 (24)**

**BAKI-2019**

# Tarix, insan və cəmiyyət

Elmi-nəzəri və elmi-metodik jurnal № 1 (24), 2019

*Jurnal Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən 16 aprel 2005-ci il tarixdə qeydə alınmış (№ 1279), 2005-ci ildən Bakı Pedaqoji Kadrların İxtisasartırma və Yenidənhazırlanma İnstitutunda nəşr edilmişdir. Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən 2011-ci ildən tarix, tarixin tədrisi metodikası, 2015-ci ildən psixologiya və pedaqogika, 2017-ci ildən siyasi elmlər, antropologiya elmi istiqamətləri üzrə də "Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlər siyahısı"na daxil edilmişdir. 2016-cı ildən Azərbaycan Dövlət Pedaqoji Universitetinin təsisçiliyi ilə nəşr edilir.*

## REDAKSİYA HEYƏTİ

**Tarix üzrə elmlər doktoru, professor Cəfər Cəfərov** *(baş redaktor)*
**Fizika-riyaziyyat elmləri doktoru, professor Asəf Zamanov**
**AMEA-nın müxbir üzvü, psixologiya elmləri doktoru, professor Bəxtiyar Əliyev**
**AMEA-nın həqiqi üzvü, Biologiya elmləri doktoru, professor Urxan Ələkbərov**
**AMEA-nın həqiqi üzvü, tarix elmləri doktoru, professor Yaqub Mahmudov**
**AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru, professor Vəli Əliyev**
**Fəlsəfə elmləri doktoru, professor İzzət Rüstəmov**
**Tarix elmləri doktoru, professor Abbas Seyidov** *(baş redaktorun müavini)*
**Tarix elmləri doktoru, professor İradə Hüseynova**
**Tarix elmləri doktoru, professor Oqtay Sultanov**
**Tarix elmləri doktoru, professor Anar İsgəndərov**
**Psixologiya elmləri doktoru, professor Ramiz Əliyev**
**Pedaqoji elmlər doktoru, professor Fərrux Rüstəmov**
**Pedaqoji elmlər doktoru, professor Rüfət Hüseynzadə**
**Sevinc Quliyeva** *(məsul katib)*

**UOT 37**

# GƏLƏCƏYİN MÜƏLLİMİ MÜASİRLİK KONTEKSTİNDƏ

***Cəfər Məmməd oğlu Cəfərov***
***Azərbaycan Dövlət Pedaqoji Universiteti***
***rector@adpu.edu.az***

**Açar sözlər:** *təhsil, təhsil istiqamətləri, müəllim hazırlığı, müəllim nüfuzu, fasilitator*

*Tədqiqatın məqsədi təhsil sistemindəki yenilikləri, "gələcəyin müəllimi"nin profilini, Azərbaycan Dövlət Pedaqoji Universitetinin bu sahədəki fəaliyyətinin bəzi istiqamətlərini müəyyənləşdirməkdir. Bildiyimiz kimi, təhsildə ideologiyanın rolu olduqca vacibdir. Hər bir müəllim fasilitator mövqeyindən çıxış edərək tələbələrdə idrak fəallığını, tədqiqat bacarığını formalaşdırmaqla yanaşı, gənclərin milli ruhda, milli-mənəvi dəyərlərlə tərbiyələndirməsi işində məsuliyyət daşıyır. Çünki müəllim milli şüuru inşa edən sosial mühəndisdir. Təhsil strateji fəaliyyət sahəsi, müəllim hazırlığı isə ölkəmizin milli təhlükəsizlik məsələsidir. Sadaladığımız keyfiyyətlərə uyğun gələcək nəsil yetişdirmək üçün gələcəyin müəllimi müstəqil düşüncəli, yaradıcı və təşəbbüskar olmalıdır.*

# УЧИТЕЛЬ БУДУЩЕГО В КОНТЕКСТЕ СОВРЕМЕННОСТИ

***Джафар Джафаров***

**Ключевые слова:** *образование, образовательные направления, подготовка учителей, репутация учителя, координатор*

*Целью данного исследования является выявление тенденций в системе образования, профиля «будущего учителя», некоторых аспектов деятельности Азербайджанского государственного педагогического университета в этой области. Как известно, роль идеологии в образовании является решающей. Каждый преподаватель несет ответственность за роль фасилитатора в формировании познавательной деятельности учащихся, их исследовательских способностей и обучении молодежи национальному духу, национально-нравственным ценностям. Потому что учитель - социальный инженер, который строит национальное самосознание. Образование является стратегическим направлением*

## FUTURE TEACHER IN THE CONTEXT OF CONTEMPORARY

***Jafar Jafarov***

**Keywords:** *education, education trends, teacher training, teacher reputation, facilitator*

*The purpose of this study is to identify trends in the education system, the "future teacher" profile, some aspects of the activity of the Azerbaijan State Pedagogical University in this area. As is known, the role of ideology in education is crucial. Each teacher is responsible for the role of the facilitator in shaping the cognitive activity of students, their research abilities and teaching young people the national spirit, national and moral values. Because the teacher is a social engineer who builds a national identity. Education is a strategic activity, and teacher training is a matter of national security. In order to educate the future generation, which will meet the entrepreneurial quality, the future teacher must be independent, creative and enterprising.*

IV sənaye inqilabını yaşayan müasir dünyamız sürətlə dəyişir və inkişaf edir. Elmin, texnikanın inkişaf sürətinə nəzər salsaq, V sənaye inqilabı da uzaq görünmür. Bu da özlüyündə yeni dövrün tələblərinə uyğun "yeni növ insan"ın formalaşması deməkdir. Uzaqda olmayan, hətta artıq başlamış süni intellekt dövrü özünün müsbət tərəfləri ilə yanaşı, mənfi tərəfləri ilə də həyatımıza daxil olur. Bu cür sürətli inkişafa necə uyğunlaşmaq olar?! İ.Maskın da qeyd etdiyi kimi, süni intellektdən qorunmağın yeganə yolu insan intellektinin də onunla paralel təkmilləşməsidir[3].Bunu da təhsilsiz etmək mümkün deyildir. Bu günümüzü və gələcəyimizi təhsilin və elmin üzərində qurmalıyıq. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) hesabatında qeyd edildiyi kimi, bizim sürətlə dəyişən müasir dünyamızda təhsil yalnız keçmiş dərslərdən istifadə etməklə gələcəyə hazırlaşa bilmir. Bir çox ölkələrdə təhsil əvvəlki kimi yenə də bugünün dəyişikliklərinə uyğunlaşmaq üçün mübarizə aparır və sabahkı günün dəyişikliklərinə hazır deyil. Düşünülmüş siyasət gələcək hadisələri bu günlə əlaqələndirir, onları öyrənməyə və gələcəyə hazırlanmağa imkan verir" [4]. Çünki hazırda təhsil dedikdə yalnız biliklərin öyrənilməsi deyil, bacarıqların formalaşdırılması nəzərdə tutulur. Bu gün siyasi, iqtisadi, sosial və texnoloji trendlər kompleks şəkildə təhsilin məzmununu ifadə edir. OECD "2019-cu ilin təhsil trendləri"ndə 3 meqatendensiya qeyd edilmişdir:

1) qloballaşma;

2) rəqəmsallaşma;

3) qocalma.

Bunlar fundamental inqilab dövrünün tendensiyalarıdır. Bütün bu yeniliklərə uyğun gəncləri yetişdirmək üçün öncə bu günün müəllimlərini yetişdirməliyik. Dünyanın qabaqcıl ölkələri bir çox sahələrdə olduğu kimi, təhsil və elm sahəsində də irəlidədirlər. Sürətlə inkişaf edən elm və texnikanın yeniliklərinə uyğunlaşmaq, çatmaq üçün biz daha çox çalışmalıyıq.

Hamıya məlumdur ki, son illərdə təhsildə köklü dəyişikliklər aparılmış və aparılmaqdadır. Bu dəyişikliklərin aparılmasındakı məqsəd təhsili məzmunca və formaca təkmilləşdirmək dünya standartlarına uyğunlaşdırmaqdır. Hazırda ali məktəblərimizdə bakalavr səviyyəsində 157662, magistratura səviyyəsində 13442, orta ixtisas təhsili müəssisələrində 51819, peşə təhsili müəssisələrində isə 23000 tələbə təhsil alır. Günümüzün tələblərinə uyğun bir nəsil yetişdirmək üçün müəllim amili olduqca vacibdir.

Ölkə Prezidentinin Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" çərçivəsində aparılan islahatlarda da bunu görürük. Bu gün müəllim peşəsinin nüfuzunun artırılması istiqamətində müəllimlik ixtisasına stimul yaradan təqaüd proqramı, modul üzrə ixtisasartırmanın təşkili, müəllimlərin bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi kimi işlər görülür.

Müəllimlər hər bir qabaqcıl cəmiyyətdə ən dəyərli peşə sahibləri sayılmışlar. Hər bir inkişaf prosesinin önündə gedən kadrları və peşəkar mütəxəssisləri müəllimlər hazırladığından ümumi tərəqqinin başlanğıc nöqtəsi də təhsil və müəllim əməyidir. Həqiqi və layiqli Azərbaycan müəllimi cəmiyyətdə həmişə öncül və nüfuzlu mövqeyi ilə seçilmişdir. Buna görə də ölkəmizdə müəllimliklə bağlı müraciət forması, bəlkə də, dünyada təkrarı olmayan bir ucalıq qazanmışdır. Kütləvi maariflənmədən sonrakı illərdən başlayaraq müəllimlər nəslinin yetirməsi olan təhsilli, nüfuzlu digər peşə sahiblərinə də "müəllim" deyə müraciət olunmaqdadır.

XX əsrin 90-cı illərinin əvvəllərində respublikada baş verən dağıdıcı proseslər, müharibə şəraiti, ümumi geriləmə müəllimlərin vəziyyətini ağırlaşdırsa da, müstəqillik ideallarına dərindən bağlı olan həqiqi pedaqoqlar sinif və auditoriyaları tərk etmədilər, ehtiyaca boyun əyməyib bu adın şərəf və nüfuzunu qorudular. Müəllim adını aşağılamağa müəyyən cəhdlər olsa da, bütövlükdə, cəmiyyət onlara layiqli ehtiram göstərdi.

Müəllimlər də o dövrdə heç kəsdən incimədilər, sadəcə, "müəllim" müraciətindən məmnunluq duyub çətin, məsul fəaliyyətlərini sabaha inamla davam etdirdilər. Yəni xalqımızın ictimai-mədəni düşüncəsində müəllim peşəsi ilə bağlı kök salmış yüksək qənaəti heç bir siyasi dəyişiklik və iqtisadi böhran sarsıda bilmədi. Azərbaycan müəllimlərinin böyük dostu və hamisi olan ümummilli lider Heydər Əliyev o günlərdə söylədiyi "Mən Yer üzündə müəllim

adından uca ad tanımıram” – kəlamı isə təzə şəraitdə müəllimlik şərəfini yeni bir ucalığa yüksəltdi.

Yeni əsrin ilk onilliklərində beynəlxalq təhsil xidmətləri bazarında rəqabətin artması müəllim ixtisasının məzmun və keyfiyyətcə yenilənməsinə, təkmilləşməsinə ehtiyac yaradır. Bunun üçün də müstəqil Azərbaycanın təhsil quruculuğunda müəllim hazırlığının yeni trendləri gerçəkləşdirilməlidir. Müəllim hazırlığının yeni istiqamət və hədəflərinin müəyyənləşdirilməsində, ilk növbədə, təhsildə varislik və müasirlik prinsipinin vəhdətinin xüsusi əhəmiyyət kəsb etdiyini unutmamalıyıq. Milli təhsilimizin ən yaxşı ənənələri, həmişəyaşar irsi yaşadılmalı və zənginləşdirilməlidir.

Azərbaycanın ictimai-siyasi fikir və dövlətçilik tarixində böyük rol oynamış və cəmi 23 ay yaşamış Azərbaycan Xalq Cümhuriyyəti ən çətin siyasi və iqtisadi problemlərlə üzləşdiyi aylarda belə müəllimlərin fəaliyyətinə geniş meydan açmış, əhatəli təhsil siyasəti yeritmişdi. AXC hökuməti məktəblərin milliləşdirilməsi, yeni dərslik və proqramların hazırlanması, Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsinin Qazaxa köçürülməsi, Bakı Dövlət Universitetinin yaradılması, xarici ölkələrə təhsil almaq üçün 100 gəncin göndərilməsi, pedaqoji kursların, anadilli məktəblərin açılması və xalq maarifinin milli məzmunda təşkili kimi tarixi tədbirlərlə pedaqoji fikrin yerli və bəşəri dəyərlər əsasında inkişafında yeni istiqamətlər açmışdı. Xatırlamaq yerinə düşər ki, Azərbaycan Xalq Cümhuriyyətinin o zaman xaricə ali təhsil almağa göndərdiyi gənclərin bir neçəsi ötən əsrin 30-cu illərində Pedaqoji İnstitutda elmi-pedaqoji fəaliyyətlə məşğul olmuş, bu ali təhsil müəssisəsinin böyüməsi və inkişafında yaxından iştirak etmişdilər.

Azərbaycan müəllimlərinin XV qurultayında təhsil naziri Ceyhun Bayramov hesabat məruzəsində söylədiyi kimi, “Xüsusi iftixar hissi ilə qeyd etmək lazımdır ki, cümhuriyyətin müstəqillik ideallarını ulu öndər Heydər Əliyev gerçəkləşdirdi. Özünün böyük dühası, zəngin idarəçilik təcrübəsi, dönməz iradəsi ilə müstəqil və güclü Azərbaycanın möhkəm təməlini yaratdı”[5]. Gələcəyin müəllimlərini hazırlayarkən ümummilli lider Heydər Əliyevin müəllim peşəsinə verdiyi tarixi qiymətdən nəticə çıxaracağımız bir çox məqamlar var. Ulu öndər “Cəmiyyətin gələcək tərəqqisi bir çox cəhətdən indi gənclərimizə nəyi və necə öyrətməyimizdən asılı olacaqdır” xəbərdarlığı milli pedaqoji düşüncəyə güclü təkan vermişdir. Bu dahi şəxsiyyətin Azərbaycan müəlliminin gənclərə nəyi və necə öyrətməsinin həlledici məqam olduğunu söyləməsi tarixi uzaqgörənlik nümunəsidir.

Ümummilli liderimiz Heydər Əliyevin də qeyd etdiyi kimi, “Gənclərimiz milli ruhda tərbiyə olunmalıdır, bizim milli-mənəvi dəyərlərimizin əsasında tərbiyələnməlidir. Gənclərimiz bizim tariximizi yaxşı bilməlidir, keçmişi yaxşı bilməlidir, dilimizi yaxşı bilməlidir, milli dəyərlərimizi yaxşı bilməlidir. Milli dəyərlərimizi, milli ənənələrimizi yaxşı bilməyən, tariximizi yaxşı bilməyən

gənc vətənpərvər ola bilməz" [2]. Unutmamalıyıq ki, müəllim milli şüuru inşa edən sosial mühəndisdir. Müəllim dövlətimizin və millətimizin mənəvi təhlükəsizliyini qoruyan mənəviyyat keşikçisidir. Təhsil strateji fəaliyyət sahəsi, müəllim hazırlığı isə ölkəmizin milli təhlükəsizlik məsələsidir. Böyük alman filolosofu Hegelin təbirincə desək, "Müəllimlik insanları mənəviyyatlı etmək peşəsidir".

Bəs müəllim şagirdlərə bu gün nəyi öyrətməlidir? Arzuladığımız gələcəyə gənc nəslə lazım olanları öyrətməklə çata bilərik. Biz uşaq və yeniyetmələri, gəncləri fiziki və mənəvi cəhətdən sağlam yetişdirməklə müasir Azərbaycan dövlətinin gələcəyi üçün möhkəm özüllər atdığımızı və bununla böyük tarixi missiya həyata keçirdiyimizi dərindən dərk etməliyik. Gənc nəslə, hər şeydən əvvəl, Azərbaycan, dövlətçilik sevgisini aşılamalıyıq. Onlar Azərbaycan Respublikasının layiqli vətəndaşları olmaq üçün qədim soy-kökə və milli tarixə bağlı, buraxılmış səhvləri görə bilən, qazanılmış uğurlarla arxayınlaşmayan insanlar kimi formalaşmalıdırlar. Gənclərin xalqına, millətinə ehtiramı valideynlərinə sevgidən, Vətəninə və torpağına məhəbbəti isə doğulub boya-başa çatdığı evə, məhəlləyə bağlılıqdan qaynaqlanmalı və bütün milli-mənəvi məkanı əhatə etməlidir. Bu gün dünya təcrübəsində də bu ənənədən istifadə edilir. Cəmiyyətin gələcəyi uşaqlara ilk təhsildən başlayaraq əxlaqi-mənəvi keyfiyyətlər öyrədilir. Bunu etməyin ən optimal yolu tədris planlarına "mənəvi təhsil" in daxil edilməsidir.

Sürətli texnoloji yeniliklər yaşayan, qloballaşan dünyada müharibə vəziyyətində olan 10 milyonluq Azərbaycan Respublikasının məlum geopolitik vəziyyətində müəllim hazırlığında hansı prinsiplər gözlənilməlidir?

Bu prinsiplərin "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda, "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda, Ömür boyu təhsil üzrə Milli Kvalifikasiyalar çərçivəsində əksini tapmasına, bunların nəticəsi olaraq son illərdə ölkəmizdə təhsil sahəsində müsbət dinamika müşahidə olunmasına, bir sıra əsaslı nailiyyətlər əldə edilməsinə baxmayaraq, onların məzmununun geniş açılmasına və şəraitə uyğun dürüstləşdirilməsinə zərurət qalmaqdadır.

Bu gün Azərbaycanda təhsil sahəsində islahatlar geniş miqyasda və sürətlə həyata keçirilir. Ölkəmizdə insan kapitalının inkişafı məhz təhsil alan şəxslərin müasir bilik və bacarıqlara yiyələnmələri yolu ilə mümkün olacaqdır. Ali təhsil sistemi yeni inkişaf mərhələsindədir. Çağdaş dövrümüzün tələblərinə görə, ali təhsil də xidmət sahəsi hesab edilir. Bürokratik universitetlər dəyişərək sahibkarlıq, tədqiqat universitetlərinə çevrilirlər. Bunu bizdən dövr tələb edir. Bildiyimiz kimi, universitetlər sürətlə dəyişən cəmiyyətin sosial mahiyyətini təşkil edir. Belə ki, universitetlər iqtisadi inkişafa yol açmalı, təhsilalanlara bu məqsədə çatmağın yolları öyrədilməlidir. Artıq bizdə də universitetlərin transformasiyasına başlanılmışdır.

Azərbaycan Dövlət Pedaqoji Universiteti olaraq əsas vəzifəmiz müasir müəllim şəxsiyyətini formalaşdırmaq, cəmiyyətdə müəllim peşəsinə olan inamın və etibarın yüksəldilməsi üçün dövrün tələblərinə uyğun bilik və bacarıqlara malik müəllimlər yetişdirməkdir. Bu məqsədlə ADPU-da tələbələrə hərtərəfli bilik və bacarıqların verilməsi üçün ali pedaqoji təhsilin institusional əsasları, infrastrukturu və insan resursları inkişaf etdirilir. Belə ki, hazırda 4 tədris korpusu, rayonlarda fəaliyyət göstərən 5 filialı və nəzdində olan kollecdə daxil olmaqla ADPU-da ümumilikdə "19637 nəfər təhsil alır, onlara 1243 nəfər akademik və 1124 nəfər inzibati heyət xidmət göstərir". [1, s. 3]

Gənclər müasir dünyamızın üstünlüklərini bilməli, onlardan istifadə etməli, yeniliyin yaradıcılarına çevrilmək eşqi ilə yaşamalıdırlar. Yeni nəsil qabaqcıl cəmiyyət və dövlətlərə kor-koranə pərəstiş etməməli, həmin reallıqları öz ölkəsində yaratmağı bacarmalıdır. Biz gənclərin gələcək dünya üçün bilməli olduqları dəyərləri müəyyən edərkən, onların duyğu-düşüncələrinə milli mənlik – azərbaycançılıq məfkurəsi aşılamalıyıq. Biz müəllimlər olaraq onlara hər şeyi öyrədəcəyimizi düşünsək, səhv etmiş olarıq. Bizim buna, sadəcə olaraq, vaxtımız və imkanımız çatmaz. Biz onlara iki şeyi – Vətən, xalq, dövlət sevgisini və müstəqil öyrənmə bacarığını mütləq öyrətməliyik. Bu ADPU-nun Strateji Bəyannaməsində də öz əksini tapmışdır. ADPU-nun missiyası "milli şüura malik, tədqiqatçı, məhsuldar, dərin düşüncəli, elmə, insan hüquqlarına hörmət edən, yaradıcı və innovativ, fərdlər-pedaqoqlar yetişdirmək; təhsil, tərbiyə, araşdırma və s. digər elmi tədbirlər vasitəsilə cəmiyyətin texnoloji, sosial-iqtisadi və mədəni səviyyəsinin yüksəldilməsinə töhfə vermək"dir [1, s. 5].

Vacib olan bilik və bacarıqları onlara biz öyrədəcəyik, bunu cəmiyyətin sosial sifarişi olaraq zaman bizdən tələb edir. Yeni nəslin sərbəst öyrənə biləcəklərini isə müəllimin yönləndirməsi ilə şagird və ya tələbə özü mənimsəyəcəkdir. Amma biz yeni nəslin necə öyrənəcəyindən öncə, nəyi öyrənməli olacağını bilməsi üçün hökmən ona iki bacarığı aşılamalıyıq. Birincisi, tələb olunan minimum rəqəmsal biliklərdir. Bununla yeni nəsil kompüter və ondan peşəkar istifadəni, gündəlik həyatda bütün ictimai-texnoloji tətbiqlərə yiyələnəcəkdir. İkincisi, doğma, zəngin və gözəl ana dilimizdən sonra gənclərə dünyanın siyasət, elm və texnologiya dili olan ingilis dilinin öyrədilməsidir. Bu günün müəllimi yuxarıda qeyd etdiyimiz metodları gənclərə öyrətmək üçün ilk öncə onları özü öyrənməlidir. Bunun üçün müəllimlərə, ən azı, müasir pedaqoji ədəbiyyata çıxış lazımdır. Bunu isə əcnəbi dil olmadan etmək mümkün deyildir.

"2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində 3558 gənc dünyanın ən nüfuzlu universitetlərində təhsil almışdır. Ali təhsilin keyfiyyətinin yüksəldilməsində, ikili diplom proqramlarının genişləndirilməsində və xaricdə doktorant hazırlığının təşkili

baxımında Prezident İlham Əliyevin sərəncamı ilə təsdiq edilmiş “2019-2023-cü illər üçün ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı” bu baxımdan olduqca əhəmiyyətlidir.Bunlar bizim dünya elminə və siyasətinə, uğurlu işgüzar fəaliyyətimizə çıxışımızın birbaşa yoludur. Milli-mənəvi kök üzərində rəqəmsal bilik, bacarıqlar və dünyaya çıxış üçün ingilis dili, tələb olunan məlumatı əldə etmək üçün dünyagörüşü, maraq dairəsi və s. milli təhsilin istiqamətini formalaşdırmağa kömək edəcək vacib məsələlərdir. Bəs müəllim bunları necə öyrətməlidir?

Etiraf etməliyik ki, biliyin mərkəzləşdiyi, ləng yeniləşdiyi, kütləvi informasiya vasitələrinin kifayət qədər təsirli olmadığı, elmin kommersiyalaşdırılmadığı XIX əsrin ortalarından XX əsrin 80-ci illərinədək mövcud olmuş pedaqoji yanaşmalar bu gün təsirli deyil. Köhnə tədris üsulları ilə bir kitabdan bilik əldə edib, onu yeganə doğru qaynaq kimi şagird və tələbələrə ötürən müəllimin yerini bu gün məlumat bolluğunda azmaq təhlükəsi ilə üzləşmiş gəncin çoxsaylı bilik və mənbələrdən nəyi, necə öyrənəcəyini tənzimləyən bələdçi, yönəldici, mentor müəllim tutmalıdır.

Etiraf edək ki, bu, çox mürəkkəb missiyadır. Əvvəla, yeniləşən bilikləri müntəzəm öyrənməlisən ki, düzgün bələdçilik edə biləsən. İkincisi, əmək bazarını, təhsilin növbəti mərhələsinin tələblərini bilməlisən ki, ona uyğun biliklərə bələdçilik etməyi bacarasan. Üçüncüsü, şagirdi, tələbəni onun milli mənlik şüurunu zədələyə biləcək məlumatlardan uzaqlaşdırmalısan və ya gənclərdə bu “yoluxucu virus”a qarşı immunitet yaratmalısan.

Artıq ötüb keçmiş ehtiyaclar üçün kadr hazırlamaq dövrü deyil. Heç kimə sirr deyil ki, enerji daşıyıcılarının təbiətində ciddi dəyişikliklər baş verir. Artıq kömür və neftə əsaslanmış enerjinin yerini tədricən alternativ (külək, günəş və s.) enerji mənbələri tutur. Gündəlik həyatda saxlanılması mümkün olan, yenilənə bilən enerji daşıyıcılarına tələbat artır. Beynəlxalq şirkətlər bazarı böyütmək, gəlirlərini artırmaq üçün son 30-50 ildə cəlbedici, əksəriyyət üçün əlçatmaz görünən vasitələri klounlaşdırmaqla, yüksək texnologiyalardan istifadə etməklə konveyerləşdirmə yoluna gedir. Bu isə beynəlxalq təhsil xidmətləri bazarında rəqabəti gücləndirir.

OECD-in hesabatına görə, 2030-cu ildə mövcud ixtisasların böyük bir hissəsinə tələbat xeyli azalacaq və yeni ixtisaslar yaranacaq. Bizim üçün ənənəvi sayılan ixtisaslardan sürücü, tərcüməci, liftçi, işıqçı və s. ixtisaslara bir müddət sonra tələbat azalacaq. Sovet dövründəki makinaçıların yerini bir müddət öncə kompüter operatorları tutdu, indi onlara da ehtiyac azalır. Kassirlər də artıq lazım deyil, çünki elektron bankçılıq- ödəmə terminalları bu işi tamamilə gerçəkləşdirir. Bu dəyişikliklər işığında müəllim hansı ixtisasın qalıb-qalmayacağına şəxsən qərar verməsə də, o, gələcək nəslin bilik-peşə profilini dizayn edən mühəndis kimi diqqəti elə hədəflərə yönəltməlidir ki, dəyişənlərin sayı artsa da, yeni nəsil bu prosesə çevik uyğunlaşa bilsin. Nəticə

olaraq, baş verən miqyaslı dəyişikliklərin fövqündə duran yeni nəsil yetişdirməliyik. Yuxarıda da qeyd etdiyimiz kimi, şagirdlərin, tələbələrin şəxsiyyət kimi formalaşmasında, ədəbi irsin öyrənilməsində müəllimin rolu danılmazdır. Müəllim təlim prosesində fasilitator mövqeyindədir. O, dünyagörüşlü, ənənəyə bağlı, yeniliklərlə ayaqlaşan, müasir fikirli gənclər yetişdirməli, onlarda idrak fəallığı, tədqiqatçılıq bacarığı formalaşdırmalıdır. Bütün bunları etmək üçün müəllimlər müstəqil düşüncəli, yaradıcı, təşəbbüskar olmalıdırlar.

Yeri gəlmişkən qeyd edək ki, 2021-ci ildə 100 illik yubileyini qeyd edəcək Pedaqoji Universitet "ADPU-2021 Strateji İnkişaf Planı"nda öz missiyasını pedaqoji sahədə təhsil və tədqiqatın əsas mərkəzi olmaq kimi müəyyən etmişdir. ADPU təhsil-tədqiqat-innovasiya mərkəzinə çevrilməli, tədqiqat universiteti statusunu qazanmalıdır. Elm və təhsilin sürətlə inkişaf etdiyi XXI əsrdə bu çox vacibdir. Bu il Azərbaycan Müəllimlərinin XV Qurultayı keçirildi. Bu, müstəqillik dövründə ölkə müəllimlərinin 5-ci ali toplantısı idi. Bildiyimiz kimi, Azərbaycan müəllimlərinin ilk qurultayı 1906-cı ildə keçirilib və qurultay xalqımızın ictimai fikir tarixinə də ilk ümummilli məfkurəvi toplantı kimi daxil olmuşdur.

Azərbaycan pedaqoji ictimaiyyətinin həyatında çox önəmli hadisə olan, 5 ildən bir keçirilən Qurultayın on beşincisində öz işini "Gələcəyə baxış" konsepsiyası əsasında qurması təsadüfi deyildi. Müəllimlərimizin növbəti ali məclisi təntənəli açılışdan sonra öz işini məhz "Ümumi təhsil: bu günə və gələcəyə baxış" devizi altında – təhsilin məzmunu; şagird nailiyyətlərinin qiymətləndirilməsi; müəllim və cəmiyyət; ümumi təhsilin idarə olunması mövzularında bölmələrdə, eləcə də "Peşəyönümü işinin təşkili və peşə təhsilinin təbliği", "Ali təhsil: mövcud vəziyyət, perspektivlər", "Təhsildə innovasiyalar" adlı panellərdə davam etdirdi. Məruzə və çıxışlarda müstəqil ölkənin təhsil sisteminin çağdaş durumu və inkişaf perspektivləri geniş müzakirə olundu, qarşıda duran önəmli vəzifələr konkretləşdirildi və cari inkişaf konsepsiyası müəyyənləşdirildi.

Bu ənənəni layiqincə davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi davamlı inkişaf siyasəti, elm və təhsilə göstərdiyi xüsusi diqqət və qayğı, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın bu önəmli sahənin problemlərinin həllini daim nəzarətdə saxlaması təhsil ictimaiyyətinə geniş imkanlar yaradır. Məhz bu diqqət və qayğı nəticəsində son 5 ildə pedaqoji kadr hazırlığında, müəllimlik peşəsinə maraqda ciddi dəyişikliklər yaşanır.

Ötən tədris ilində 500-dən çox bal toplayıb müəllimlik peşəsini 1-ci yerdə seçən abituriyentlərin sayı 25 nəfər olduğu halda, bu tədris ilində həmin göstərici ölkə üzrə 2090 nəfər, ADPU üzrə isə 566 nəfər olmuşdur. Bu, Pedaqoji Universitetin timsalında nəticənin 22 dəfə yaxşılaşması deməkdir və bizə yaxın gələcəkdə yeni nəsil müəllim hazırlığı üçün böyük ümidlər verir.

İndi əsas iş bu gənclərə ümummilli lider Heydər Əliyevin təbirincə desək, "nəyi və necə öyrətməyimizdən asılı olacaqdır".

Biz əldə edilmiş uğurlarla kifayətlənməməli, qarşımızda dayanan strateji hədəflərə, ali məqsədlərə çatmaq üçün əzmlə, fədakarlıqla çalışmalıyıq. Universitetin fəaliyyətinin gücləndirilməsi, şəffaf və obyektiv tədris mühitinin təmin edilməsi, məzmun və keyfiyyətin yüksəldilməsi, akademik mühitin formalaşdırılması, peşəkar menecmentin tətbiqi, təhsildə beynəlmiləlləşmə, ikidilli təhsil, ikili diplom, xaricdə doktorantura, tanınmış və nüfuzlu beynəlxalq təhsil mütəxəssislərinin universitetə cəlb edilmələri, tələbə təşəbbüslərinin dəstəklənməsi olduqca vacibdir.

Qeyd etmək lazımdır ki, "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda ikinci strateji istiqamət olaraq təhsil sahəsində insan resurslarının müasirləşdirilməsi nəzərdə tutulur. Bu istiqamət innovativ təlim metodlarını gerçəkləşdirən, təhsilin məzmununun səmərəli mənimsənilməsinə nail olan səriştəli təhsilverənlərin formalaşdırılmasına xidmət edir. Bu hədəf həm də özündə təhsilverənlərin peşəkarlığının yüksəldilməsi, təhsilalanların uğurlarının qiymətləndirilməsi üzrə yeni sistemlərin qurulmasını, təhsilalanların istedadının aşkar olunması və inkişafını, xüsusi qayğıya ehtiyacı olanlar üçün inklüziv təlim metodologiyasının yaradılmasını ehtiva edir.

Əminliklə qeyd etməliyik ki, ADPU təhsil sahəsində görülən işlərdən irəli gələn vəzifələrin uğurla həyata keçirilməsində, ölkəmizin maddi dəyərlərinin, iqtisadi potensialının insan kapitalına çevrilməsində bilavasitə iştirak edərək proqressiv Azərbaycan müəllimi obrazının yaradılmasına öz töhfəsini verəcəkdir.

## ƏDƏBİYYAT

1. ADPU. 2018-2021-ci illər üzrə strateji inkişaf planı. Bakı: ADPU nəşriyyatı, 2018, 71 s.
2. Əliyev H. Müstəqil Azərbaycan Respublikası Gənclərinin I Forumunda nitqi. "Azərbaycan" qəzeti, Bakı, 1996, 6 fevral
3. https://www.muallim.edu.az/news.php?id=3493)
4. http://azedu.az/az/news/10839
5. https://muallim.edu.az/news.php?id=3295
6. https://www.english.com/blog/education-trends/
7. https://www.eschoolnews.com/2018/01/05/industry-experts-10-education-trends-2018/

деятельности, а подготовка учителей - вопросом национальной безопасности. Чтобы воспитать будущее поколение, которое будет соотвествовать предприимчивым качеством, будущий учитель должен быть независимым, творческим и предприимчивым.

**UOT 070+32**

# SÖZ AZADLIĞI SİYASİ VƏ İCTİMAİ SİSTEMİN SABİTLƏŞDİRİCİ FAKTORUDUR

***Vüqar Gəncəli oğlu Rəhimzadə***
***Bakı Slavyan Universiteti***
***vuqarrehimzade@mail.ru***

**Açar sözlər:** *Söz azadlığı, plüralizm, tolerantlıq, liberalizm, azad düşüncə, demokratiya, insan haqları, azad media*

*Söz azadlığı həqiqətin bərqərar olması, özünüidarəetmə, siyasi sistemin möhkəmliyinin təmin olunması, şəxsiyyətin özünü reallaşdırması, insanların təbii hüquqlarının tanınması və qorunması kimi məsələlərlə sıx bağlıdır.*

*Söz azadlığına etinasız münasibət həmişə kataklizmlərə, ideoloji və hüquqi mübarizə və çəkişmələrə təkan verir. Bu mənada, müasir mərhələdə söz azadlığının siyasi dəyərə çevrildiyi danılmazdır.*

*Hüquqi dövlət quruculuğu və demokratiyanın ölçülməsində də bu hüquq və azadlıqlar əsas indikatorlardan biri sayılaraq bir çox indekslərdə istifadə olunur və Azərbaycanda azad medianın, insan hüquq və azadlıqlarının müdafiəsinin demokratik mexanizmlərinin mövcudluğunun əsas şərtlərindən biri kimi qəbul edilir*

## СВОБОДА СЛОВА ЯВЛЯЕТСЯ СТАБИЛИЗИРУЮЩИМ ФАКТОРОМ ПОЛИТИЧЕСКИХ И СОЦИАЛЬНЫХ СИСТЕМ

***Вугар Рагимзаде***

**Ключевые слова:** *свобода слова, плюрализм, толерантность, либерализм, свобода мысли, демократия, права человека, свободные СМИ.*

*Свобода слова тесно связана с такими вопросами, как установление истины, самоуправление, обеспечение политической системы, самореализация, признание и защита естественных прав людей.*

*Пренебрежительное отношение к свободе слова всегда приводит к катаклизмам, идеологическим и правовой борьбе и конфликтам. В этом*

*смысле невероятно, что свобода слова на современном этапе превратилась в политическую ценность.*

*Эти права и свободы являются одним из ключевых показателей и используются во многих показателях при установлении правовой государственности и демократии и рассматриваются как одно из основных условий существования демократических механизмов защиты свободных средств массовой информации, прав и свобод человека в Азербайджане.*

## FREEDOM OF SPEECH IS A STABILIZING FACTOR OF POLITICAL AND SOCIAL SYSTEM

***Vugar Rahimzadeh***

**Key words:** *Freedom of speech, pluralism, tolerance, liberalism, free thought, democracy, human rights, free media*

*Freedom of speech is closely linked to the issues such as the emergence of truth, self-governance, securing the political system, self-realization, recognition and protection of the natural rights of people. Obviously, neglected attitude to the to freedom of speech always leads to cataclysms, ideological and legal battles and conflicts. In this sense, it is a fact that freedom of speech at the modern stage has became into the political value. These rights and freedoms are one of the key indicators in measuring legal state building and democracy and are used in many indices and regarded as one of the main terms of the existence of democratic mechanisms for the protection of free media, human rights and freedoms in Azerbaijan.*

Müasir mərhələdə qərarlaşan münasibətlər sistemində plüralizm, tolerantlıq, liberalizm, azad düşüncə və s. kimi dəyərlər daim təkamül edir. Bunun səbəbi odur ki, ictimai münasibətlərin subyekti özünün tələbatları, mənafeləri və digər özəl xüsusiyyətləri ilə çıxış edən insandır. Dinamik şəkildə dəyişən situasiyaların xarakterindən asılı olaraq, insan haqlarının reallaşması və təsbiti mexanizmləri, formaları çeşidli olması ilə xarakterikdir. Çünki söz azadlığı həqiqətin bərqərar olması, özünüidarəetmə, siyasi sistemin möhkəmliyinin təmin olunması, şəxsiyyətin özünü reallaşdırması, insanların təbii hüquqlarının tanınması və qorunması kimi məsələlərlə sıx bağlıdır. Şübhəsiz ki, söz azadlığı insanların yaşadıqları ölkədən asılı olmayaraq, hüquq və azadlıqlardan istifadəni nəzərdə tutan ən mühüm dəyərlərdən biridir. İnsan haqlarının

qorunmasının aktuallığı cəmiyyətdaxili münasibətlər sisteminin təkamülü ilə də əlaqədardır. Bu mənada ki, şəxsi azadlıqlar insan həyatını digər müdaxilələrdən qoruyan hüquqlardır [1].

Söz azadlığı ilə bağlı doktrinaları nəzərdən keçirərək qeyd edək ki, bu məfhum dinamikliyi və məzmununun transformasiyası baxımından çevik anlayışdır.

Birmənalıdır ki, söz azadlığına etinasız münasibət həmişə kataklizmlərə, ideoloji və hüquqi mübarizə və çəkişmələrə təkan verir. Bu mənada, müasir mərhələdə söz azadlığının siyasi dəyərə çevrildiyi danılmazdır. Deyilənlər bir daha göstərir ki, söz azadlığı müasir sivil aləmin universal dəyəridir. Bunsuz siyasi, sosial-iqtisadi, mədəni, mənəvi, beynəlxalq əlaqə və prinsiplərin bütün sisteminin təkamülü qeyri-mümkündür [2].

İnsan haqları ictimai həyatın dinamik sosial məzmununa uyğun problemi olaraq, ziddiyyətli təbiətə malik bir sıra məsələlərin paralel tədqiqini labüd edir. Belə ki, insan haqları toplumun təkamülünə adekvat olaraq daim yeniləşən bir çox sosial keyfiyyətləri özündə ehtiva edir. Hər bir cəmiyyətdə demokratikləşmənin səviyyəsi, dövrün xarakteri, ictimai şüurun səviyyəsi və digər amillər fərdlərin bir şəxsiyyət kimi imkanlarının səviyyəsinə təsir göstərir.

Vətəndaş cəmiyyəti quruculuğu, hüquqi dövlətin bərqərar olması hər bir fərdin daxili dünyası, yaşayış tərzi, birgəyaşayış qaydalarına əməl etmə səviyyəsi ilə müəyyənləşir. Elə KİV sahəsində aparılan modernləşmə xətti quruluşların leqallığı və legitimliyi kontekstində də nəzərdən keçirilə bilər. Məlumat azadlığının qanunvericilik əsaslarının demokratik normalara cavab verməsi və geniş xalq kütlələrinin və KİV-in bu hüquqdan istifadəsinin hüquqi cəhətdən təmini hakimiyyətin və quruluşların leqallığı və legitimliyinin artırılması və onun indeksinin yüksəlməsi kimi prosesə yol açmış olur. Bu iki proses də özü-özlüyündə KİV və legitimlik prosesi arasında dolayı asılılığın və əlaqənin olduğunu göstərir. Təsadüfi deyildir ki, məlumat azadlığı sahəsində mükəmməl qanunvericiliyin mövcudluğu və bu hüquq və azadlıqların təmininin hansı səviyyədə olması xalqın mövcud siyasi hakimiyyətə etimadının səviyyəsinin göstəricisi kimi də qəbul edilir. İnformasiya əldə etmək zamanı bir sıra süni problemlərin üzə çıxması isə hüquqi hadisə olan leqallıq və siyasi hadisə olan legitimlik indeksini zədələyir. Ona görə də demokratik siyasi sistemlər bu faktora ciddi fikir verirlər. Bu mənada, demokratiyaya keçidin əsas xüsusiyyətlərindən biri olan hüquq sahəsində islahatlar və qanunvericilik sisteminin yenidən qurulması demokratiyaya keçid zamanı üzə çıxan sistem problemlərinin öhdəsindən gəlinməkdə xüsusi rola malikdir. Təsadüfi deyil ki, amerikalı politoloq Samuel Hantinqton "Demokratikləşmənin üçüncü dalğası" əsərində demokratik tranzisiyanın və demokratiyanın konsolidasiyasının reallaşması zamanı üç tip problemin üzə çıxdığını göstərir. Sistem problemləri, tranzit problemləri və kontekstual problemlər [3].

Hüquqi dövlət quruculuğu, həmçinin demokratiyanın ölçülməsində də bu hüquq və azadlıqlar əsas indikatorlardan biri sayılaraq bir çox indekslərdə istifadə olunur. Bu, Azərbaycanda azad medianın, insan hüquq və azadlıqlarının müdafiəsinin demokratik mexanizmlərinin mövcudluğunun əsas şərtlərindən biri kimi qəbul edilir. Məhz xalqın təkidli tələbi ilə ümummilli lider Heydər Əliyevin Azərbaycanda ikinci dəfə hakimiyyətə qayıdışından sonra ölkədə hüquqi islahatlar aparılmağa başlanıldı. Akademik Ramiz Mehdiyev qeyd edir ki, Azərbaycanda azad kütləvi informasiya vasitələrinin yaranması hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğunun əsas şərtlərindən biri kimi qəbul olunmuşdur və daim dövlətin diqqət mərkəzindədir. Ümummilli lider Heydər Əliyev söz və məlumat azadlığını, KİV-in müstəqilliyini demokratik cəmiyyət quruculuğunun vacib şərti hesab edirdi: "XX əsrdə ikinci dəfə müstəqillik əldə etdikdən sonra Azərbaycanda demokratikləşmə milli inkişafın vacib faktoru kimi strateji seçim və dövlət siyasətinin prioritetinə çevrildi. 1995-ci ildə qəbul edilmiş müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası insan hüquqlarının, fikir plüralizminin, söz və məlumat azadlığının, vətəndaş cəmiyyəti institutlarının formalaşdırılması və inkişafına etibarlı zəmin yaratdı" [4].

Konstitusiyanın qəbulundan sonra ölkədə medianın fəaliyyətinin tənzimlənməsi və media sahəsində mükəmməl qanunvericilik bazasına nail olmaq üçün bir sıra addımlar atıldı. Belə ki, 1998-ci ildə senzura ləğv edildi, "Məlumat azadlığı haqqında" Qanun qəbul edildi. Bu qanun məlumat əldə etmək, ötürmək və s. kimi məsələləri hüquqi cəhətdən tənzimləyərək demokratiyaya tranzisiya yolunda irəliləyiş kimi qiymətləndirilməlidir. Eyni zamanda, bu istiqamətdə atılan növbəti addımlar isə 7 dekabr 1999-cu ildə "Kütləvi informasiya vasitələri haqqında" Qanunun və 30 sentyabr 2005-ci ildə "İnformasiya əldə etmək haqqında" Qanunun qəbulu oldu. "İnformasiya əldə etmək haqqında" Qanunda deyilir ki, bu qanunun məqsədi Konstitusiyanın 50-ci maddəsi ilə təsbit olunmuş məlumat əldə etmək hüququnun sərbəst, maneəsiz və hamı üçün bərabər şərtlərlə, hüquqi dövlətin prinsipləri əsasında təmin edilməsinin hüquqi əsaslarını müəyyənləşdirməkdən ibarətdir. Elə bu faktorlar sübut edir ki, söz azadlığı, insanların informasiya əldə etmək hüquqlarının tanınması vətəndaş cəmiyyətini inkişaf etdirir, demokratik tranziti sürətləndirir və siyasi sistemi möhkəmləndirir. Bu mənada, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev bildirir ki, 1991-ci ildə dövlət müstəqilliyini bərpa etmiş Azərbaycanda söz və ifadə azadlığı təmin olunub, çoxsaylı vətəndaş cəmiyyəti institutları və müxtəlif dillərdə nəşr edilən plüralist media məkanı formalaşıb. Bu gün ölkəmizdə minlərlə kütləvi informasiya vasitəsi - televiziya, radio, qəzet, jurnal, sayt və xəbər portalı fəaliyyət göstərir [5].

Təhlillər göstərir ki, demokratik inkişaf dövrünü yaşayan ölkələrdə söz azadlığı və medianın sərbəst fəaliyyəti ilə əlaqədar təxirəsalınmaz addımlar

atılır. Çünki söz azadlığı siyasi və ictimai sistemin sabitləşdirici faktoru kimi çoxdan həyata "vəsiqə qazanıb". Elə söz azadlığına dair nəzəri fikirlərin tarixi ardıcıllığını nəzərdən keçirdikdə bəlli olan ümumi cəhət budur ki, bu haqda mülahizələr müxtəlif qəbildən olan məsələlərin nəzərə alınmasını zəruri edir. Bu isə ondan irəli gəlir ki, universal kateqoriya kimi söz azadlığı çoxtərəfli dəyərləndirməyə imkan yaradır. Liberalizm konsepsiyası, insan yaşayışının təbii əsasları dedikdə insanın dünyaya gəlməsi ilə yaranan ilkin haqlar, yəni, onun mövcudluğu üçün vacib olan haqlar başa düşülür. Bura yaşamaq, azadlıq, toxunulmazlıq, plüralizm, söz azadlığı kimi hüquqlar daxildir.

Fəlsəfə elmləri doktoru Dilqəm İsmayılov qeyd edir ki, liberalizmin başlıca dəyərləri bütün dünyada kütləvi siyasi baxışlarda köklü dəyişikliklərə səbəb olmuşdur. Müasir demokratiyanın aparıcı konsepsiyaları olan siyasi iştirakçılıq, demokratik elita nəzəriyyələri liberalizm prinsiplərinə əsaslanır. İnsan hüquq və azadlıqları prinsiplərinin ümumbəşəri dəyər kimi geniş yayılması bu gün bəşəriyyətin qarşısında duran fundamental problemlərin həllini mümkünləşdirərək dövlətlər arasında bir çox ziddiyyətlərin aradan qaldırılmasına zəmin hazırlayır. Liberalizm müasir dünyanın siyasi fikrinin inkişafına güclü təkan vermişdir [6].

Söz azadlığı və insan hüquqları ilə bağlı nəzərdən keçirilənlərin yekunu olaraq təkrarən bildirək ki, bu məfhum dinamikliyi və məzmununun transformasiyası baxımından çevik anlayışdır. Hər bir tarixi mərhələ bu anlayışa öz möhürünü vurur. Sosial-iqtisadi quruluşlar, siyasi rejimlər bu fenomenə müxtəlif şəkildə yanaşmışdır. Birmənalıdır ki, belə stereotiplər həmişə kataklizmlərə, ideoloji və hüquqi mübarizə və çəkişmələrə təkan vermişdir. Bu mənada müasir mərhələdə söz azadlığının siyasi dəyərə çevrildiyi danılmazdır. Deyilənlər bir daha göstərir ki, söz azadlığı müasir sivil aləmin universal dəyəridir. Bunsuz siyasi, sosial-iqtisadi, mədəni, beynəlxalq əlaqə və prinsiplərin bütün sisteminin təkamülü qeyri-mümkündür.

İctimai mənsubiyyətin çeşidli rollarda təzahür tapması insanın sosial davranışı ilə yanaşı, onun mənəvi-psixoloji, emosional durumuna da fərqlilik gətirir. Müxtəlif məntiqli bu rəngarənglik insanın digərləri ilə qarşılıqlı münasibətlərində yeni dəyərlər doğurur. Bu situasiyaların hər birinin özəl şərtlənmə xüsusiyyətləri olduğundan müxtəlif reallaşma mexanizmlərinə malikliyi ilə xarakterizə edilir. Söz azadlığının bərqərar olduğu cəmiyyətlərdə siyasi plürazlizmlə yanaşı, fikir müxtəlifliyi də meydana çıxır. Bu da öz növbəsində həmin cəmiyyətlərin hərtərəfli inkişafına və demokratikləşməsinə gətirib çıxarır.

## ƏDƏBİYYAT

1. Смирнов А. Ю. Свобода слова по-французски: либеральное движение в эпоху Реставрации (начало) // Знание. Понимание. Умение. 2004. № 1. стр. 153.

2. Соболева А. Толкование понятия «ограничения, необходимые в демократическом обществе» в свете статьи 10 ЕКПЧ// Российский бюллетень по правам человека, № 25. Москва, Институт прав человека, 2008, стр. 95.

3. Хантингтон С. Столкновение цивилизаций. Москва, ООО «Издательство АСТ», 2003. стр. 603.

4. Mehdiyev R. Azərbaycanın efir məkanı: problemlər və vəzifələr. "Azərbaycan" qəzeti, 2009, səh. 3-6.

5. www.trend.az/news/politics/2267811.html

6. İsmayılov D. Neoliberalizmin əsas prinsipləri. AMEA Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutunun 60 illiyi və YUNESKO-nun "Ümumdünya Fəlsəfə Günü"nə həsr olunmuş elmi konfransın materialları. Bakı, 2005.

**UOT 930.85**

# QƏDİM TÜRK ULULARINI ƏBƏDİLƏŞDİRƏN DAŞ HEYKƏLLƏR

***Abbas Qadir oğlu Seyidov***
***Azərbaycan Dövlət İqtisad Universiteti***
***abbas.seyidov@gmail.com***

**Açar sözlər:** *Qədim türklər, daş heykəllər, skiflər, qıpçaqlar, Göytürk xaqanlığı*

*Məqalədə Sibirin, Altayın, Tıvanın, Monqolustanın, Moldovanın, Azərbaycanın, Ukraynanın, Cənubi Koreyanın tarix-diyarşünaslıq muzeylərində qorunub saxlanılan daş heykəllərdən bəhs olunur. Qədim türklərin yaşadığı coğrafi regionda günümüzə qədər gəlib çatan çoxsaylı monumental abidələr vardır. Bu heykəllərdən görünür ki, türklər 4-5 min il bundan əvvəldən başlayaraq tanınmış sərkərdələrə, tayfa başçılarına, cəmiyyətdə seçilən insanların məzarları üzərində kurqan düzəldər, orada ölən adamın daş heykəlini ucaldar, onun axirət dünyasını qeyd edərdilər. Bu heykəllər türk xalqlarının qədim incəsənətini və mədəniyyətini öyrənmək baxımından dəyərli mənbələrdir. Haqqında yazılan daş heykəllərin bir qismi müəllif tərəfindən adı çəkilən region və ölkələrdə fotoya alınıb.*

## КАМЕННЫЕ СТАТУИ, УВЕКОВЕЧИВШИЕ ПРЕДКОВ ДРЕВНИХ ТЮРКОВ

***Аббас Сеидов***

**Ключевые слова:** *Древние тюрки, каменные статуи, скифы, кипчаки, Гёк-тюркский каганат*

*В статье рассказывается о каменных статуях, сохранившихся в историко-краеведческих музеях Азербайджана, Алтая, Молдавии, Монголии, Сибири, Тывы, Украины и Южной Кореи. До наших дней дошло множество памятников географического региона, где жили древние тюрки. Эти статуи свидетельствуют о том, что начиная с 4-5 тысяч лет тому назад, тюрки строили курганы над гробами полководцев, вождей племени, и других важных лиц, ставили ему статую, отмечали его потустороннюю жизнь. Эти статуи являются ценными*

*источниками для изучения древнего искусства и культуры тюркских народов. Часть упомянутых каменных статуй была сфотографирована автором в стране их нахождения.*

## STONE STATUES IMMORTALIZE ANCESTORS OF ANCIENT TURKIC

***Abbas Seyidov***

**Key words:** *Ancient Turkic, stone statues, Scythians, Kipchaks, Goey-Turkic Khaganate*

*The article is about the preserved stone statues in local history museums of Azerbaijan, Altai, Moldova, Mongolia, Siberia, Tyva, Ukraine and South Korea. An abundant number of monuments survived at the geographical region the ancient Turks lived. These statues witness that starting from 4-5 thousand years ago, the Turks built tumuli over the graves of commanders, tribal leaders, and other important persons. There, they raised a statue to him, noted his otherworldly life. These statues are valuable sources for the study of ancient art and culture of the Turkic nations. Some of the mentioned stone statues were photographed by the author in their location.*

Arxeoloji araşdırmaların nəticəsindən məlum olur ki, insan yarandığı və özünü dərk etdiyi gündən kortəbii şəkildə olsa da, müxtəlif sənət nümunələri yaratmışdır. Zaman-zaman belə yaradıcılıq işləri təkmilləşmiş, genişlənmiş və tarixin müəyyən mərhələsində sənətkarlıq həyatın ayrılmaz təsərrüfat sahəsinə çevrilmişdir.

Qədim türklərin yaşadığı coğrafi regionda günümüzə qədər gəlib çatan çoxsaylı monumental abidələr vardır. Onlar daş stelalar üzərində ustalıqla oyularaq düzəldilmiş nadir görünüşlü heyvan təsvirləri, maral başlı daşlar və daş heykəllər, menhir və bəngüdaşlar (qədim türk ulularının müqəddəs sözlərinin əbədiləşdiyi yazılı daşlar) və sair sənət nümunələrindən ibarətdir. Bu monumental sənət əsərləri arasında qədim türklərə məxsus daş heykəllər xüsusi yer tutur. Bu məqalədə beş min illik bir tarixi mərhələdən – ilk tunc dövründən son orta əsrlərə qədər öz varlığını saxlayan daş heykəllərdən bəhs edəcəyik (Qeyd edək ki, İslam dininin köklü şəkildə yayıldığı ərazilərdə daş heykəllər tədricən aradan çıxmağa başlayır). Bu daş heykəllərin günümüzə qədər mövcud olan yüzlərlə nümunəsi Sibirin, Altayın, Tıvanın, Monqolustanın, Moldovanın, Azərbaycanın, Ukraynanın, Cənubi Koreyanın çöllərində, adı çəkilən ölkələrin

tarix – diyarşünaslıq muzeylərində qorunub saxlanılır. Əvvəllər daş heykəllərin nə məna daşıdığı məlum olmasa da, XIX əsrin sonlarında-daha doğrusu 1893-cü ildə Orxon yazılarının oxunması bu məsələyə aydınlıq gətirmiş oldu. Yazılardan birində göstərilir ki, atam Xaqan öləndə heykəlini tikdik. Məqalədə haqqında yazılan daş heykəllərin (balbal) bir qismi müəllifin Sibir, Altay, Monqolustan, Tıva və Moldovada çəkdiyi fotoşəkillərdən ibarətdir.

İlk tunc dövrünə aid daş heykəllər (bütlər) Naxçıvan Muxtar Respublikasının Şərur rayonu ərazisində - I Maxta qədim yaşayış yerinin e.ə.III minilliyə aid təbəqəsində 1988-ci ildə aparılan arxeoloji qazıntılar zamanı aşkar edilmişdir. Abidədə dairəvi planlı ibadətgah yerindən üç ədəd daş heykəl aşkar olunmuşdur. Kişi cinsinə mənsub olan bu daş heykəllərin hündürlüyü 87-95 sm-dir (şəkil 1). Onlar ibadətgahda bir cərgə boyunca düzülmüşdü [1, s.157, şəkil, 163].

Orta tunc dövründə bu cür daş heykəllərin sayı artmışdır. Dörd min il yaşı olan daş heykəlin (bütün) biri Naxçıvan yaxınlığında yerləşən II Kültəpə qədim yaşayış yerinin orta tunc dövrü təbəqəsindən aşkar olunmuşdur (şəkil 2). Bu sənətkarlıq nümunəsi hazırda Naxçıvan Dövlət Tarix Muzeyinin eksponatları sırasında nümayiş olunur.

Eramızdan əvvəl II minilliyə aid daş heykəllərə Türkiyənin Hakkari bölgəsində də rast gəlinib (şəkil 3). Arxeoloq Veli Sevin qeyd edir ki, bu tapıntılar türklərin min illər bundan əvvəl Kiçik Asiyanın, Şərqi Anadolunun Hatay və Hakkari bölgələrinin, İran, Azərbaycan, Cənubi Qafqaz və Ön Asiyanın yerli sakinlərindən olmasını göstərir. Türkiyə tarixçisi Əkrəm Memişin uzun illər apardığı araşdırmadan sonra “Anadolu ərazisində e.ə.II minillikdə soyları Hürri tayfalarına söykənən bir türk krallığı mövcud olub” deməsi, nəhayət ki, arxeoloji qazıntılarla sübuta yetirildi [2].

Qədim türklərə məxsus daş heykəllərə inkişaf etmiş Dəmir (şəkil 4) və Antik dövrlərdə də rast gəlinir. Şamaxı rayonunun Çıraqlı kəndi ərazisindən tapılan Eramızdan əvvəl III - eramızın II əsrlərinə aid edilən daş heykəllər AMEA Azərbaycan Milli Tarix Muzeyində saxlanılır. Onlardan biri qadına məxsusdur. Heykəlin baş hissəsi qırılıb. Digər iki kişi heykəlinin əlləri qarın nahiyəsində dayanıb. Üçüncü heykəldə təsvir olunan döyüşçü sağ əli ilə qılıncın qəbzəsindən, sol əli isə qabından tutub (şəkil 5).

Moldovanın paytaxtı Kişinyov şəhərində Tarix Muzeyinin həyətində nümayiş olunan skif döyüşçüsünə məxsus daş heykəl maraqlıdır (şəkil 6). Butor kurqanından tapılan və e.ə.V-IV əsrlərə aid edilən bu heykəlin [3, s.32] boynunda mifə görə göydən əta olunan boyunduruq, sinəsinə tərəf uzanan sağ əlinin yuxarısında qab təsvir olunub. Döyüşçü sol əli ilə kəmərindən tutub. Kəmərin aşağı hissəsində qılıncın qəbzəsi görünür.

Ümumiyyətlə, e.ə.I minillikdən etibarən skif tayfaları Şərqdə Sakit okeandan qərbdə Şərqi Avropa düzlərinə qədər geniş bir ərazidə yayılmışdılar.

Onların etnik mənsubiyyəti çox zaman yanlış olaraq irandilli göstərilir. Lakin Herodot skif tayfalarının yeddi dildə danışmaları haqda məlumat verir. Araşdırmalar göstərir ki, skiflərin əksəriyyəti – xüsusən də “çar skiflər” türklərdir. Tədqiqatçı Z.H.Həsənov qeyd edir ki, Herodotun skiflərin adı ilə bağlı olan yazısı ruslar tərəfindən yanlış olaraq “skif” transkripsiyasında oxunmuşdur. Amma Herodotun yazdığı söz qədim yunan dilinin düzgün transkripsiyasında “kuz” və ya “quz” kimi oxunur ki, bu da “çar skiflər”in əslində “quzlar” oğuzlar (türklər) olduğunu göstərir. Manna dövləti yaranan zaman (e.ə.IX əsr) skiflərə qohum sayılan kimmerlərin bu ərazidə dövlət qurumları olmuşdur. Skiflər e.ə.VII əsrdə Azərbaycan ərazisində Sakasena adlı dövlət yaratmış, Manna və Midiya dövlətlərinin fəaliyyətlərində və regionun siyasi tarixində yaxından iştirak etmişlər [4, s.15-16].

Strabon İberiyanın dağlıq hissəsinin əhalisi barədə məlumat verərkən yazır ki, “...dağlıq hissədə sadə adamlar və döyüşçülər məskunlaşıb, onlar özlərinə qohum və qonşu olan skif və sarmatların adətləri ilə yaşayırlar. Hər hansı təhlükəli vəziyyət yarandıqda onlar həm öz aralarından, həm də skif və sarmatlar arasından on minlərlə döyüşçü çıxara bilirlər”. Burada həmçinin qeyd olunur ki, “Girkan (Kaspi) dənizinin şərq tərəfində skiflər və sarmatlar yaşayırlar” [5, c.480].

Bir məsələyə diqqət etməyi lazım bilirik. Bir sıra yabançı əsərlərdə göstərilir ki, Sakit okeandan Şərqi Avropa düzlərinə qədər bu ucsuz-bucaqsız çöllərdə eramızın ilk əsrlərinə qədər skiflər məskun idilər və onlar türk deyildilər. Amma birdən birə bu ucsuz-bucaqsız çöllərdə skiflər yoxa çıxdı, onların yerində bütün ərazi türklərlə doldu və bu gün də yaşamaqdadırlar. Absurd fikir deyilmi? Bu qədər skif hara yoxa çıxdı? Bəs bu qədər türk necə? Göylərdən endi? Bu ərazidə yaşayanlar həmin türklərin (skiflərin) davamçılarıdır ki, bu gün hər biri özünün mənsub olduğu adla tanınır.

Digər bir mülahizəyə görə, e.ə.II-I və eramızın ilk əsrlərində Azərbaycan ərazisinə axın edən Hun tayfalarının çoxluğu burada əhalinin tədricən türkləşməsinə gətirib çıxardı. Və ya alban tayfaları türkləşməyə məruz qaldılar və s. Necə olur ki, 400 il sasani, bir o qədər də ərəb işğalında qalan xalqı, farslaşdırmaq, ərəbləşdirmək mümkün olmur, amma 100-200 il ərzində gələn hun tayfaları buradakıları türkləşdirirlər? Daha bu köhnə konsepsiyaların vaxtı keçib. Baxmayaraq ki, ərazinin əksər türk abidələri qeyri-türk xalqlar tərəfindən məhv edilib, dağıdılıb, yenə də xalq öz genetik mənsubiyyətini qoruyub saxlaya bilib. Bəzən digər məsələ üzərində dayananlar da olur. Guya ki, XI əsrdə səlcuq türklərinin gəlməsi nəticəsində burada yaşayan əhali türkləşməyə məruz qalıb. Sual oluna bilər: - necə məruz qalıb ki, ərazidə yaşayan qafqazdilli xalqlar – elə bu gün də qafqazdilli, irandilli xalqlar isə irandilli olaraq qalıblar?!. Sadəcə, demək olar ki, oğuz türklərinin gəlişindən sonra yerli - aborigen türk xalqının danışdığı türk dili gəlmə fars, ərəb dili ilə

eyni səviyyəyə qalxmağa başladı və bu da monqolların yürüşündən sonra bir qədər də təkmilləşdi.

Bu gün daş heykəllərə daha çox Mərkəzi Asiya, Monqolustan [6], Altay, Tıva [7] çöllərində rast gəlinir (şəkil 7). Onlar əsasən qranitdən oyularaq düzəldilib. Qumdaşı və əhəngdaşından olanlar da var. Onların hazırlanması üçün uzun daş və plitələr seçilmiş, daşların səthi diqqətlə kəsilmişdir. Bəzi heykəllərin üz və arxa tərəfləri səliqəsiz işlənib. Daş heykəllər adətən kişilərə mənsub olub – döyüşçülərə aiddir. Lakin az halda qadın heykəllərinə də rast gəlinir. Onların əksəriyyətində təsvir olunan döyüşçü sağ əli və ya hər iki əli müxtəlif formalı qab tutub. Onun belinə bağlanan kəmərdən xəncər və ya qılınc asılıb. Bəzi heykəllərin əynində geyindiyi paltarın detalları da əks olunub. Söz yox ki, bu heykəllər əsasən xüsusi heykəltəraşlar tərəfindən hazırlanıb.

Mərkəzi Asiya və Cənubi Sibir çöllərini bəzəyən daş heykəllər daha çox Birinci (551-630-cu illər) və İkinci (687-742-ci illər) Göytürk [8, s.92-107], sonralar isə Uyğur (745-840-cı illər) və Qırğız (IX əsrin ortaları-XI əsr) xaqanlıqları dövründə daha geniş yayılıb. Tədqiqatçılar qeyd edirlər ki, təkcə Rusiya Altayında 300-dən, Tıva Respublikasında 100-dən, Monqolustan ərazisində 600-dən artıq [7, c.6-7], Azərbaycanda 13, Türkmənistanda 61, Tacikistanda 26, Özbəkistanda 78, Xakasiyada 265, Qırğızıstanda 366, Qazaxıstanda 690 belə daş heykəl aşkar olunub. Qeyd edək ki, Monqolustanın paytaxtı Ulan-Bator şəhərində yerləşən Tarix Muzeyində saxlanılan daş heykəllərin bir neçəsinin üzərində Orxon-Yenisey əlifbası ilə türk dilində yazılar vardır (şəkil 8).

Ukraynanın cənubunda, Qara və Azov dənizləri hövzəsində sənətkarlıq baxımından daha çox diqqəti cəlb edən daş heykəllər qeydə alınıb. Polovetsk daş heykəlləri adlanan bu balballar qıpçaq türklərinə mənsub olub, eramızın XI-XII əsrlərinə aiddir. Bu gün onlara Zaporojye vilayətində, Dnepropetrovsk və Kiyev tarix muzeylərində, Xersonda, Luganskdə, eləcə də digər ərazilərdə rast gəlmək olar. Bu yerlərdə qıpçaq türklərinə aid qəbir abidələri də qeydə alınıb. Qara dənizin şimal sahillərində, Xerson vilayətində Ukrayna arxeoloqlarının apardığı qazıntı işləri zamanı qədim türk (qıpçaq) döyüşçüsünün taxta qutuda məzarı aşkar edilib. Abidəni tədqiq edən arxeoloq Y.P.Qerşkoviç yazır ki, türklərə məxsus bu məzarda dəfn olunan döyüşçü həm də musiqiçi olub. Dəfn olunan döyüşçünün yanından silahlarla yanaşı, üç simli musiqi aləti – qobuz da aşkarlanıb (şəkil 9). Məzar XI əsrə aiddir. Qobuz musiqi alətinin bənzəri sonrakı dövrlərdə ukraynalılar arasında “qobzu” adı ilə tanınan simli alətə çevrilib [9, c.40-49].

Cənubi Koreyanın Cecu adasında da türk incəsənətinin incilərinə - daş balballara rast gəlinir (şəkil 10). Burada aşkarlanan daş heykəllər XIV əsrə aiddir. O dövrdə türk-monqol (tatar-monqol) qoşunları adanı işğal etmiş və burada türk incəsənətinin nümunələri yayılmışdır. Adanın müxtəlif yerlərindən

toplanmış daş heykəllər muzey parkında etnoqrafik nümunələr kimi sərgilənir. Adada toplanılan bu daş heykəllər "Haruban" adlanır. Onlar əvvəllər ibadət məqsədi daşısa da, indi adanın simvolu kimi turistlər üçün ən sevimli hədiyyəyə çevrilib. Amma monqollar bu daş heykəlləri “Turban” da adlandırırlar [6, s.246].

Göründüyü kimi qədim türklər 4000 - 5000 il bundan əvvəldən başlayaraq sayılan sərkərdələrinə, tayfa başçılarına, cəmiyyətdə seçilən insanların məzarları üzərində kurqan düzəldər, oraya ölən adamın daş heykəlini tikər, onun axirət dünyasını qeyd edərdilər. Bundan əlavə, nəzərə almaq lazımdır ki, o dövrün kurqan və qəbirləri hələ qədim zamanlarda soyğunçular tərəfindən dəfələrlə yağmalanıb. Buna görə daş heykəllərin bir qismi qəbir avadanlığı ilə birlikdə dövrümüzə gəlib çatmayıb. Əgər yad əllər türk dünyasının bu nadir əsərlərinə uzanmış olmasaydı, bu gün onların sayı on minlərlə olardı. Bəzi kurqanların üzərinə qoyulan daş heykəllər müəyyən mənada bir növ bugünkü dəfn mərasimindən sonra qoyulan başdaşı rolunu oynamışdır. Çünki Xubilay xanın (1260-1294-cü illər) Çini işğalından sonra paytaxtı Pekinə köçürməsi (1264-cü il) və yaratdığı Yuan imperiyasının (1271-ci il) ərazisində vaxtilə saysız-hesabsız daş balbalın olması haqqında rəvayətlər dolaşmaqdadır. Bu daş heykəllər türk xalqlarının qədim incəsənətini və mədəniyyətini öyrənmək baxımından dəyərli mənbələrdir.

## ƏDƏBİYYAT


1. Seyidov A.Q., Baxşəliyev V.B., Məmmədov S.M., Aşurov S.H. Qədim Şərur, Bakı: Nurlan, 2012, 466 s.
2. (http://www.ttk.gov.tr/index.php?Page=Print&BasindaNo=375&Yer=Basinda)
3. Seyidov A.Q. Avropada türk toplumu: Qaqauzlar. “Tarix, insan və cəmiyyət” jurnalı, № 2, 2016, s.28-35.
4. Həsənov Z.H. Çar skiflər *(Çar skiflərin və qədim oğuzların etno-dil eyniləşdirilməsi).* Bakı: Əbilov, Zeynalov və oğulları, 2005, 480 s.
5. Страбон. География *(перевод, статья и комментарии Г.А.Стратановского),* Москва, 1994, Книга XI, Глава VI.
6. Nowgorodova E. Alte Kunst der Monqolei. E.A.Seemann Verlag, Leipzig, 1980, 280 p.
7. Кубарев В.Д., Кубарев Г.В. Каменные изваяния древних тюрок Южной Сибири. Новосибирск, Изд-во ИАЭТ СО РАН, 2013, 79 стр.
8. Özdək Rəfik. Türkün Qızıl Kitabı. Birinci kitab,Bakı:Yazıçı,1992,184 s.
9. Гершкович Я.П., Наследие Коркута в Половецкой среде Северного Причерноморья. Киев, журн. «Археология», №1, 2011, с.40-49.



Şəkil 1. Maxta (e.ə.III minillik)



Şəkil 2. II Kultepe (e.ə.II minillik) Foto müəllifindir



Şəkil 3. Hakkari-Türkiyə (e.ə.II minillik



Şəkil 4.e.ə.VII-VI yüzilliklər



**Şəkil 5. Az.Tarixi Muzeyi (e.ə.III-eramızın II əsri). Foto müəllifindir**



**Şəkil 6. MOLDOVA. Kişinyov Tarix Muzeyi.(e.ə.V-IV əsrlər). Foto müəllifindir**



**Şəkil 7. Altay. VII-XI əsrlər. Foto müəllifindir**



**Şəkil 8. MONQOLUSTAN. Ulan-Bator Tarix Muzeyi. VI əsr. Foto müəllifindir**




**Şəkil 9. Ukrayna. Qıpçaq qəbri. XI əsr**



**Şəkil 10. Cənubi Koreya. XİV əsr**

**UOT 94(479.24)**

# TOVUZ RAYONU ƏRAZİSİNDƏN TƏSADÜFİ AŞKAR EDİLMİŞ İNSAN KƏLLƏ SÜMÜYÜNÜN TƏDQİQİNƏ DAİR: ORBİTAL SELLULİT

***Dmitri Aleksandroviç Kiriçenko***
***AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu***
***dmakirichenko@mail.ru***

***Vüsal Paşa oğlu Həsənov***
***AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu***
***gasanovivusal@gmail.com***

**Açar sözlər:** *Orta əsr, Tovuz, Xocaxan, paleopatologiya, Orbital Sellulit, diş absesi*

*Bioloji antropologiyanın əsas sahələrindən biri olan paleopatologiya müxtəlif tarixi dövrlərdə yaşamış insanların yaxşı saxlanmış paleoantropoloji qalıqlarını - fosil, sümük və mumiyalarda mövcud olan xəstəlik izlərini araşdıran elm sahəsidir. Əvvəlki dövrlərdə yaşamış insan qruplarının morfoloji və demoqrafik strukturunu, həmçinin sağlıq vəziyyətini, bu cəmiyyətlərə aid olan insanların sümüklərinin palepatoloji tədqiqi sayəsində qismən öyrənmək mümkündür. Qədim insanların sağlıq durumunu müəyyən etmək məqsədilə, əsasən, dişlər və sümüklərdə mövcud olan patogen və travma mənşəli izlərin makroskopik, mikroskopik və radioloji analizi həyata keçirilir. Skelet nümunələrinin tədqiqi zamanı insanların bioloji, mədəni və ekoloji şəraiti də diqqətə alınmalıdır [8, s.96]. Bir şeyi də nəzərə almaq lazımdır ki, xəstəliklərin çoxu sadəcə yumşaq toxumalara təsir edir və sümük üzərində hər hansı bir iz buraxmır. Son illərdə Azərbaycanda paleantropologiya sahəsində araşdırmalar yeni mərhələyə qədəm qoymuşdur. Belə ki, antropoloji tipin müəyyən olunmasında tətbiq olunan kraniometrik çalışmalarla yanaşı, demoqrafik və patolojik tədqiqatlara da start verilmişdir.*

# ОБ ИССЛЕДОВАНИИ ЧЕРЕПА, ОБНАРУЖЕННОГО СЛУЧАЙНО НА ТЕРРИТОРИИ ТОВУЗСКОГО РАЙОНА АЗЕРБАЙДЖАНА: ОРБИТАЛЬНЫЙ ЦЕЛЛЮЛИТ

***Дмитрий Кириченко***
***Вюсал Гасанов***

**Ключевые слова:** *Средневековый, Товузский район, Ходжахан, палеопатология, орбитальный целлюлит, зубных абсцесс*

*В статье рассмотрен палеоантропологический материал эпохи средневековья, выявленный на территории Товузского района Азербайджана. Женский череп (20-25 лет) был обнаружен в ходе земляных работ во время строительства трубопровода SCPX (проект по расширению Южно-Кавказского трубопровода) на его 344.2 км близ села Эюблу в местности Ходжахан. Череп гипербрахикранный. Рост женщины составлял 158 см. Из патологий на черепе отмечен орбитальный целлюлит на медиальной стенке двух орбит, в результате чего была нарушена целостность кости. На затылочной кости отмечены вормиевые кости и две округлые остеомы. Из зубных патологий – абсцесс на верхней челюсти.*

# ABOUT THE INVESTIGATION OF SKULL BONE DISCOVERED BY ACCIDENT IN THE TOVUZ REGION: ORBITAL CELLULITES

***Dmitry Kirichenko***
***Vusal Gasanov***

**Key words:** *Medieval, Tovuz region, Kodjakhan, paleopatology, Orbital cellulitis, periapical abscess*

*The article deals with the paleoanthropological material of medieval times discovered in the Tovuz region of Azerbaijan. A female skull (20-25 years old) was discovered during earthworks while construction of the SCPX pipeline (South Caucasus Pipeline Expansion Project) at its 344.2 km near the village of Eyublu in the Khodjakhan area. The skull is Hyperbrachycranic. The stature of the woman was 158 cm. Bone tissue damage associated with the orbital cellulitis in the lower medial walls of both orbits was recorded, as a result of which the integrity of the bone was disrupted. Wormian bones and two button*

*osteomas are marked on the occipital bone. Moreover, a periapical abscess was found in upper jaw bone.*

**Material və metod:** Tədqiqatın materialını orta əsrlərin son mərhələsinə aid edilən eyni insana məxsus 3 ədəd sümük fraqmenti təşkil edir. Paleoantropoloji material “Cənubi Qafqaz Boru Kəmərinin Genişləndirilməsi” lahiyəsi çərçivəsində 2018-ci ilin fevral ayında aparılan inşaat işləri zamanı kəmərin 344.4-cü kilometrliyində təsadüfən üzə çıxmışdır. Qeyd edilən ərazi Tovuz rayonunun Eyyublu kəndi yaxınlığında yerləşir. Ağır texnika vasitəsilə həyata keçirilən iş prosesi zamanı qəbir kamerası dağıldığı üçün, skeleti təşkil edən digər sümük hissələrinin torpaq layının arasında itdiyi güman edilir. Sadəcə kəllə qutusu və sağ bazu sümüyü Arxeologiya və Etnoqrafiya İnstitutunun Fonduna gətirilərək makroskopik metodla tədqiq olunmuşdur. Skeletin cinsiyyətinin təyin edilməsində kəllə və çənə sümüyündəki spesifik fərqliliklər-qlabellanın və qaş kəmərlərinin inkişafı, əzələlərin birləşmə nöqtələrinin görünmə dərəcələri, məməyəbənzər çıxıntınım həcmi və s. əsas götürülmüşdür. Ölüm yaşının təxmin edilməsində “sutural yaşlandırma” metodu, daimi dişlərin çıxma ardıcıllığı, həmçinin dişlərin təmas səthlərinin aşınma dərəcəsi diqqətə alınmışdır [7; 11; 12, s.518-549]. Kəllədən alınan 13 kraniometrik ölçü əsasında 7 fərqli indeks hesablanmışdır. Qeyd etmək lazımdır ki, paleoantropologiya sahəsində kraniometriya metodundan, əsasən, antropoloji tipin müəyyən edilməsi üçün istifadə olunur [1, s.1-128; 5, s. 1-518]. Boyun hesablanmasında mövcud olan sağ bazu sümüyünün maksimum uzunluğu ölçülmüşdür [9]. Tədqiqatın son mərhələsində sümüklərdə patoloji izlərin və variasiyaların olub-olmaması gözdən keçirilmişdir [2, s.87-147; 6].

**Morfoloji quruluş:** Aşkar olunan sümük fraqmentləri 20-25 yaşlarında qadına məxsusdur. Mehmet Sağırın tərtib etdiyi boy hesablama şkalasına görə, predmetin boyu ortalama 157-158 sm olmuşdur. Kəllə qutusu vertikaldan sfenoid formalı olub, ümumi kranial indeksi 87.56-dır. Kəllənin ümumi hündürlüyü uzunluğuna və genişliyinə nisbətdə çox qısadır. Üzün üst hissəsi kəllənin almacıq sümüyünün genişliyinə olan nisbətdə xeyli dar və yüksəkdir. Alın sümüyünün maililik dərəcəsi zəif olub, qaş kəmərləri və qlabella yaxşı inkişaf etməmişdir. Göz yuvasının diametri orta genişlikdədir, burun boşluğu isə dardır (Tablo 1). Ənsə sümüyü yan profildən yuvarlaq (rounded occiput) formalıdır [7, s.148].

**Tablo 1. Kraniometrik dəyərlər və göstəricilər**

| N | Ölçülər | Dəyərlər |
|---|---|---|
| 1 | M. Kəllə uzunluğu | 172.8 |
| 2 | M. Kəllə eni | 151.3 |
| 3 | Nasion-basion | 91.5 |

| | | |
|---|---|---|
| 4 | FT. FT. | 96 |
| 5 | Basion- Breqma | 120.4 |
| 6 | Basion- Porion | 123 |
| 7 | Basion- prosthion | 88 |
| 8 | Zy- Zy | 132 |
| 9 | Nasion- prosthion | 76 |
| 10 | Orbital en (d-d) | 41 |
| 11 | Orbital hündürlük | 36 |
| 12 | Nasal en | 22 |
| 13 | Nasal hündürlük | 53 |
| 2:1 | **Kranial indeks** | 87.56 |
| 4:2 | **Fronto-Parietal indeksi** | 63.45 |
| 5:1 | **Hündürlük- uzunluq İndeksi** | 65.67 |
| 5:2 | **Hündürlük-genişlik indeksi** | 79.58 |
| 9:8 | **Üst Üz İndeksi** | 57.4 |
| 11:10 | **Orbital İndeks** | 87.8 |
| 12:13 | **Nasal İndeks** | 41.5 |

Skelet materiallarında qeydə alınan yeganə sümük variasiyası təpə sümüyü ilə ənsə sümüyünü birləşdirən lambdayabənzər tikişin sağ bölməsində mövcud olan üç (3) ədəd kiçik ölçülü *wormian* sümükcüyüdür.

**Patologiya:** Sümük fraqmentlərinə makroskopik baxış zamanı TX2018.1. inventar nömrəli kəllə qutusunda 3 fərqli patolojik vəziyyət müşadidə edilmişdir. Bunlardan biri ənsə sümüyünün pullu hissəsində mövcud olan iki (2) ədəd xoşxassəli sümük *tümörüdür*. Ortalama 1 sm diametrində olan şişlərdən biri oval, digəri isə dəyirmidir. Latınca "şişlik" ya da"kütlə" mənasını verən tümör, vücudda normal toxumaların xaricində inkişaf edir, müxtəlif forma və ölçülərdə olur. Həm bədxassəli, həm də xoşxassəli olan sümük şişlərinin ayrı-ayrı növləri mövcuddur (Şəkil 1). Müasir dövrdə də çox geniş yayılmış sümük şişlərinə qədim insanların osteoloji qalıqlarında da tez-tez rast gəlinir [10, s.9-26].

İkinci patologiya üst çənəyə aid olan hər iki köpək dişin alveollarında qeydə alınan periapikal (diş kökü ucunun ətrafına aid) *diş absesidir*. Absesin nəticəsi olaraq, dişlərin kökünə bitişik olan sümük toxumalarının tamlığı qismən pozulmuşdur (şəkil 2B). Odontogen mənşəli infeksiyanın bir növü olan diş absesi iltihablı prosesin yekunu olub, dişləri əhatə edən toxumaları zədələyən irinli kütlədir. Diş qırılmaları və çürük absesin yaranmasında əsas faktorlardandır. Abses lokallaşmış vəziyyətdə sadəcə ətraf toxumaları zadələyir. Qarşısı alınmadıqda isə, diffuz sellulitə çevrilmə ehtimalı var. Belə olduğu

halda, ağır fəsadlara aparıb çıxara bilir. Ağız gigiyenasının və tibbi biliklərin yetərli səviyyədə olmadığı keçmiş dövrlərdə digər infeksiya mənşəli xəstəliklər kimi, abses də insanların sağlığı üçün ciddi təhlükə mənbəyi idi.

Kəllə skeletində üçüncü və əsas patoloji vəziyyət göz yuvasının iltihablı xəstəliyi olan orbital sellulitlə əlaqəli hər iki orbitanın aşağı-medial divarlarında sümük toxumalarının zədələnməsi – orbital absesin mövcud olmasıdır. (Şəkil 2 A,C). Sellulit, əsasən, derma və dərialtı toxumanı zədələyən, sərhədləri aydın görünməyən, kəskin yayılan dəri infeksiyasıdır. Orbital sellulit isə göz yuvasında yerləşən əzələ və piy toxumalarını əhatə edir. Hər yaş dövründə təsadüf edilsə də, azyaşlı uşaqlar arasında daha geniş yayılmışdır. Orbitada yaranan iltihablanmanın bir çox səbəbi var ki, onların başında paranazal sinusit, diş mənşəli infeksiyalar, yuxarı tənəffüs yollarının infeksiyası, travma və s. gəlir [3, s.143-152]. Orbitanın patologiyası onun sümük divarlarında, periostda, tenon kapsulunda və retrobulbar hüceyrələrdə yaranan prosesləri əhatə edir [4, s.37-43].

Göz yuvası paranazal sinuslarla əhatə olunub. Frontal sinus yuxarıdan, ethmoid sinusu - medial, əng sinusu isə göz yuvasını aşağıdan əhatə edir. Göz yuvası periosteumla örtülüdür. Ethmoid sinuslar göz yuvasından kağız qədər çox nazik bir lamina *papyracea* ilə ayrılmışdır. Lamina *papyracea*-da bir çox dəliklər vardır ki, bəzi sinir və qan damarları buradan keçir. Göz yuvasına infeksiyanın keçməsinin geniş yayılmış yolu məhz həmin dəliklər vasitəsilə ethmoid sinuslardandır. Göz yuvasının orbital damarlar vasitəsilə kəllənin kavernoz sinusu ilə birbaşa əlaqəsi, habelə aşağı orbital venaların klapansız olması infeksiyanın göz yuvasından kəllədaxili strukturlara yayılmasını asanlaşdırır. Ağırlaşmış orbital sellulit supperiosteal və orbital abses yaranmasına səbəb ola bilir. Azyaşlı uşaqlarda və yeniyetmələrdə orbital abses, adətən, orbitanın medial divarında meydana gəlir. Bəzi hallarda infeksiya göz yuvasının zirvəsinə qədər uzana bilər. Belə olduqda görmə qabiliyyətinin itirilməsi və ya kəllə daxilinə keçərək beyin absesi, meninqit, kavernoz sinusun trombozu və ya dural sinusun trombozuna və s. səbəb ola bilər [13].

**Nəticə.** Paleoantropologiya elm sahəsində aparılan paleopatolojik araşdırmalar keçmişdə yaşamış olan insan qrupları ilə müasir dövr insanları arasında sağlıq problemlərinin bənzərlikləri və fərqlilikləri baxımından əlaqələr qurur. Günümüzdə geniş yayılmış bir çox xəstəliklərin mənşəyinin keçmişdə axtarılması, xəstəliklərin səbəblərinin və inkişafının başa düşülməsində xüsusi əhəmiyyət kəsb edir. Hələ antibiotik preparatların kəşf edilmədiyi dövrlərdə bir çox infeksiyon xəstəliklər insanların həyatı üçün ciddi təhlükə yaradırdı. Bu gün çox asanlıqla müalicə olunan xəstəlik növü keçmişdə insanların ölümünə səbəb olurdu. Tədqiqatın materialını təşkil edən gənc qadına məxsus kəllə sümüyünün orbitasında aşkar edilən patoloji simptomun miqyası və əlamətləri qadının bu xəstəlikdən öldüyü fikrini irəli sürməyə əsas verir. Hər

iki göz yuvasında absesin orbitanın zirvəsinə doğru irəlilədiyini nəzərə alsaq, mərhumun ölüm ərəfəsində (perimortem) görmə qabiliyyətini itirmiş olduğunu əminliklə söyləmək olar.

## ƏDƏBİYYAT

1. Алексеев В.П., Дебец Г.Ф. Краниометрия. Методика антропометрических исследований, М.: Наука, 1964, 128 с.

2. Бужилова А.П. Палеопатология в биоархеологических реконструкциях //Историческая экология человека. Методика биологических исследований. – М., 1998. – С. 87–147.

3. Çırak M.T. Antik Dönemde Orbital Selülit: Cide/Türbetepe Tümülüsü`nden bir örnek. Hitit Üniversitesi Sosyal Bilimler Enstitüsü, Sayı 1, Haziran 2015. S.143-152

4.Qasımov E.M., İbrahimzadə G.T., Babayeva S.M., İsayeva G.Z., "Orbitanın Patologiyasında Şüa Diaqnostika Metodlarının Əhəmiyyəti" Oftalmologiya , Elmi Praktiki Jurnal, 2018 , s. 37-43

5. Martin R., Saller K. Lehrbuch der Anthropologie in Systematischer Darstellung, mit Besonderer Berücksichtigung der Anthropologischen Methoden. Bd. I. Stuttgart: Fischer, 1957, 518 p.

6.Ortner D.J., Putschar W.G.J. Identifcation of Pathological Conditions in Human Skeletal Remains. Washington: Smithsonian Institution Press, 1981, 479 p.

7.Olivier, G. (1969) Practical Anthropology, Illionis: Charles C. Thomas Publisher.

8.Özdemir S., Sevim A., "Minnetpinarı İskeletlerinin Paleopatolojik Açıdan Analizi" Ankara Üniversitesi, DTÇF Antropoloji Dergisi 23, 2015, s.95-127

9.Sağır. M., "Uzun Kemik Radyografilerinden Boy Formülü Hesaplanması",Basılmamış Doktora Tezi, Ankara Üniversitesi Sosyal Bilimler Enstitüsü, Ankara, 2000

10. Sağır M., Sağır S., " Eski Anadolu İnsanlarının Sağlıq Sorunları" Ankara Üniversitesi Dil ve Tarih Coğrafya Fakültesi Dergisi,53, 1 (2013), s.9-26

11.Ubelaker, D.H., (1978), Human Skeletal Remain: Excavation, Analysis, Interpretation, Chicago:Smithsonian Institution, Aldire Publishering Company

12.WEA, 1980, "Recommendation for Age and Sex Diagnoses of Skeletons", Journal Human Evolution, C.9, S.7, s.518 -549

13.http://www.uptodate.az/index.php/uptodate/11-pediatriya/1882-orbital-sellulit-klinika-diazhnostika-v-muealidz-3.html




**Şəkil 1. Ənsə sümüyü üzərində tümörlər**




**Şəkil 2. A-sağdan görünüş, B-öndən görünüş, C-soldan görünüş**

UOT 930.85

# ƏBU MİXNƏFİN "MƏQTƏLÜL-HÜSEYN" ADLI ƏSƏRİ TARİXİ MƏNBƏ KİMİ

***Elnurə Akif qızı Əzizova***
***Azərbaycan İlahiyyat İnstitutu***
***elnuraazizova@ait.edu.az***

**Açar sözlər:** *məqtəl ədəbiyyatı, Əbu Mixnəf, Məqtəlül-Hüseyn*

*Xilafətin ilk dövrlərində xəlifələrin və digər məşhur şəxslərin siyasi səbəblərlə qətlə yetirilməsi hadisəsi ilə əlaqəli olaraq ərəb-islam tarixçiliyində müstəqil bir növ kimi yaranan "məqtəl" əsərlərinin ən məşhur nümunəsi Əbu Mixnəf olaraq tanınan Lut ibn Yəhyanın (ö. 157/774) "Məqtəlül-Hüseyn" adlı əsəridir. Əbu Mixnəfin "Məqtəlül-Hüseyn" əsərinin həm ərəbdilli, həm H.Kaşifinin "Rövzətüş-şühəda"sı daxil olmaqla farsdilli, həm də M.Füzulinin "Hədiqətüs-süədası"sı başda olmaq üzrə türkdilli xalqların ədəbiyyatındakı "məqtəllərə" mənbə və üslub baxımından böyük təsiri olmuşdur.*

*Bu məqalədə Əbu Mixnəfin "Məqtəlül-Hüseyn" adlı əsərinin tarixi mənbə dəyəri təhlil edilmişdir. Müqayisəli təhlil üçün IX-X əsr tarix əsərlərində Əbu Mixnəfin "Məqtəlül-Hüseyn" əsərinə istinad edilən rəvayətlərlə, Əbu Mixnəfə nisbət edilərək müstəqil şəkildə müasir dövrə gəlmiş "Məqtəlül-Hüseyn" əsərindəki rəvayətlər arasındakı fərqliliklərin qarşılaşdırılmışdır. Məqalədə göstərilmişdir ki, Əbu Mixnəfə nisbət edilən "Məqtəlül-Hüseyn" əsəri ilə eyni müəllifin IX-X əsr müəlliflərin əsərlərindəki rəvayətləri arasında rəvayətlərin təfsilatı, fövqəltəbii faktlara istinadlar və mübaliğəli rəqəmlər cəhətdən fərqliliklər mövcuddur.*

## «МАКТАЛЬ АЛЬ-ХУСЕЙН» АБУ МИХНАФА КАК ИСТОРИЧЕСКИЙ ИСТОЧНИК

***Эльнура Азизова***

**Ключевые слова:** *макталская литература, Абу Михнаф, Мактал аль-Хусайн*

*Самым известным примером «maqtal» литературы, которая возникла как самостоятельная форма арабо-исламской историографии в связи с убийствами халифов и других выдающихся личностей по политическим мотивам в ранний период халифата, является «Maqtal al-Husayn» Лут ибн. Яхьйи (157/774), известный как Абу Михнаф. Эта*

*важная работа Абу Михнафа повлияла на арабскую, а также на персидскую и тюркоязычную литературу по «maqtal», в частности «Раудат аш-Шухада» Х. Кашифи и «Хадикат ас-Суада» М.Фузули.*

*В данной статье рассматривается историческая ценность книги Абу Михнафа «Мактал аль-Хусейн». Для сравнительного анализа были изучены повествования в «Мактал аль-Хусейн» Абу Михнафа и его доклады, цитируемые историками 9-10 веков, и проанализированы различия. В статье показано, что существуют различия между повествованиями «Мактал аль-Хусайн», связанными с Абу Михнафом, и его докладами, цитируемыми авторами 9–10-го века, с точки зрения деталей повествований, ссылок на сверхъестественные факты и преувеличенные числа.*

## ABU MIKHNAF'S "MAQTAL AL-HUSAYN" AS A HISTORICAL SOURCE

***Elnura Azizova***

**Key words:** *maqtal literature, Abu Mikhnaf, Maqtal al-Husayn*

*The most well-known example of "maqtal" literature that emerged as an independent form of Arabic-Islamic historiography in connection with the killing of the Caliphs and other prominent individuals for political reasons in the early period of the Caliphate, is that of Lut ibn Yahya's (157/774), known as Abu Mikhnaf, "Maqtal al-Husayn". This important work of Abu Mikhnaf has affected the Arabic, as well as Persian and Turkic-speaking people's literature on "maqtal" as H. Kashifi's "Raudat ash-Shuhada" and M.Fuzuli's "Hadiqat as-Suada".*

*This paper studies the historical source value of Abu Mikhnaf's book "Maqtal al-Husayn". For a comparative analysis narratives in Abu Mikhnaf's "Maqtal al-Husayn" and his reports quoted by historians of the 9-10th centuries have been studied and differences have been analyzed. The article shows that there are differences between the narratives of "Maqtal al-Husayn" associated to Abu Mikhnaf and his reports quoted by the authors of the 9-10th century, in terms of the details of the narratives, references to the supernatural facts and exaggerated numbers.*

**Giriş.** Erkən orta əsr ərəb tarixində mühüm siyasi simaların dini-siyasi hadisələr nəticəsində qətlə yetirilməsi məsələsi tarix əsərlərində geniş yer tutmuş, VIII əsrdən etibarən həmin hadisələrlə əlaqəli müstəqil "məqtəl"

əsərləri yazılmağa başlamışdır. Xilafət tarixinin ilkin dövrlərini əhatə edən hadisələrlə əlaqəli olması səbəbi ilə ilk nümunələri ərəbcə yazılan məqtəllər daha sonra fars, türk, urdu və digər dillərdə də qələmə alınmışdır. Xüsusilə VIII-X əsrin "məqtəl" növündə əsər qələmə almış Hişam ibn Məhəmməd əl-Kəlbi (204/819), Nəsr ibn Müzahim əl-Minqəri (ö. 202/817), İbrahim ibn Məhəmməd əs-Səqəfi (ö. 283/896), Əli ibn Məhəmməd əl-Mədaini (ö. 245/845), Əbu Bəkr Abdullah İbn Əbüd-Dünya (ö. 281/894), Məhəmməd ibn Zəkəriyyə (ö. 308/940) və digər ərəb tarixçilərin əsərləri Osman ibn Əffan və Əli ibn Əbu Talib kimi ilk xəlifələr, Həsən ibn Əli və Hüseyn ibn Əli kimi Məhəmməd Peyğəmbərin nəvələri, Məhəmməd ibn Əbu Bəkr, Hücr ibn Ədiy, Məhəmməd ibn Əbu Hüseyfə, Müsəb ibn Zübeyr kimi xilafət tarixinin ilk dövrünün siyasi hadisələrində qətlə yetirilmiş şəxslərlə əlaqəli qələmə alınmışdır (17, I, 315, 321; 24, 102- 114).
Ərəbdilli "məqtəl" müəllifləri arasında Əbu Mixnəfin özünəməxsus bir yeri vardır. Bu, ilk növbədə Əbu Mixnəfin Osman ibn Əffan və Əli ibn Əbu Talib kimi xəlifələr, Müsəb ibn Zübeyr, Hücr ibn Ədi, Məhəmməd ibn Əbu Bəkir, Məhəmməd İbn Hüzeyfə və s. kimi xilafətin ilk əsrində siyasi motivlərlə qətl edilmiş şəxslərə dair sayı onu keçən "məqtəl" əsərlərinin müəllifi olması ilə əlaqəlidir (6, 105-106; 19, 155-156; 15, 245; 17, I, 308-309; 24, 99-100). Lakin Əbu Mixnəfi "məqtəl" sahəsində məşhurlaşdıran ilk önəmli səbəb, ümumilikdə məqtəl ədəbiyyatının ən geniş yayılmış növü olan Hüseyn ibn Əlinin şəhadətinə həsr olunmuş "Məqtəlül-Hüseyn"lərin müasir dövrə gəlib çatmış ən qədim nümunəsinin müəllifi olmasıdır. Əbu Mixnəfin bu əsəri Bəlazüri, Məsudi, Tarixi və digər tarixçilərin əsərləri ilə yanaşı, həmçinin "Məqtəlül-Hüseyn" haqqında müstəqil əsər yazmış müəlliflərin əsərlərinə də mənbə təşkil etmişdir.

## 1. Əbu Mixnəf erkən orta əsr ərəb tarixçisi kimi

Əməvilər və Abbasilər dövründə yaşamış tarixçi Əbu Mixnəf Lut ibn Yəhya ibn Səid əl-Əzdi (ö. 157/774) Kufədə dünyaya gəlmişdir. Əbu Mixnəfin atasının Sıffin müharibəsində Əli ibn Talib tərəfində döyüşdüyünə dair rus şərqşünas Prozorovun verdiyi məlumat səhvdir (16, 51). 657-ci ildə baş vermiş Sıffin döyüşündə iştirak etmiş atanın oğlu olaraq Əbu Mixnəfin həmin tarixdən 117 il sonra vəfat etməsi mümkün olmadığı kimi, ilk dövr mənbələrində də Sıffinda döyüşənin Əbu Mixnəfin atası Yəhya ibn Səid deyil, ulu babası Mixnəf ibn Süleym olduğunu qeyd olunur. Xəlifə Əli İbn Əbu Talibin İsfahan valisi təyin etdiyi Mixnəf ibn Süleym Sıffin döyüşündə Əzd qəbiləsinin bayraqdarı kimi döyüşərək öldürülmüş, üç qardaşından ikisi Cəməl (656), biri isə Nüxeylə (658) döyüşündə xəlifə Əli İbn Əbu Talibin ordusunda döyüşərək öldürülmüşdür (4, IV, 1467; 10, V, 122).

Ənənəvi olaraq xəlifə Əli ibn Əbu Talibin siyasi hakimiyyətini dəstəkləyən, onunla döyüşlərə qatılaraq qətledilən və xəlifənin şəhadətindən sonra onun tərəfdarları arasında yer alan ailənin bir üzvü olaraq Əbu Mixnəf də əsərlərində Əməvilərə qarşı tutduğu mövqeyi ilə seçilmişdir. Bununla birlikdə Əbu Mixnəfin qeyd olunan bu tərəfkeşliyi, onun nəql etdiyi rivayətlərdə hadisələri təhrif etməsinə səbəb olacaq qədər tarixçiliyinə təsir etməmişdir. Bəzi alimlərin qeyd etdikləri kimi, Əbu Mixnəf siyasi hadisələr qarşısında tərəfkeşliyini rəvayətləri “təhrif etməklə” deyil, onları “seçməklə” həyata keçirmişdir. Məsələn, “Kitabüs-Sıffin” adlı əsərin müəllifi olan Əbu Mixnəfin, Əqil ibn Əbu Talibin Sıffin döyüşündə qardaşı Əli ibn Əbu Talibə qarşı Müaviyə ibn Əbu Süfyanın ordusunda döyüşdüyünü qeyd etməməsi rəvayətləri seçmə metodunu tətbiq etdiyinin nümunələrindəndir (20, iv-v; 16, 52).

Ərəb-islam tarixçiliyinin elm və mədəniyyət tarixi baxımından ən mühüm mənbələrindən sayılan “əl-Fihrist” adlı əsərində İbn Nədimin xüsusilə İraq bölgəsi tarixçiliyinin önəmli mütəxəssisi olaraq göstərdiyi Əbu Mixnəfin (6, 105-106) yaradıcılığında islamaqədərki ərəb tarixi və yaxud erkən islam tarixindən daha çox irtidad müharibələri, Bizans və Sasani istiqamətindəki fəthlər, vətəndaş müharibələri (Cəməl, Sıffin, Xaricilər və digərləri) və yaşadığı dövrün hadisələrinə dair kitab və risalə həcmində otuzdan çox əsər yazdığı qeyd olunur. “Məğazi”, “Fütuhül-İraq”, “Fütuh Xorasan”, “Fütuhül-İslam”, “əl-Qarat”, “Cəməl”, “Siffin”, “Əhlün-Nəhrəvan vəl-xəvaric”, “Əxbarül-Muxtar ibn Əbi Übeyd”, “Zeyd ibn Əli”, “Yəhya ibn Zeyd”, “Sirə imam əl-müttəqin Zeyd ibn Əli”, “Əxbar İbn əl-Hənəfiyyə”, Süleyman ibn Sürad vəl-eynül-vərdə”, “Həkəmeyn”, “Riddə”, “Səqifə” və s. ilk xəlifələr və Əməvilər dövrünü əhatə edən hadisələrlə əlaqəli əsərlərindən başqa, ən məşhuru “Məqtəlül-Hüseyn” olmaqla Əbu Mixnəf həm də çoxsaylı “məqtəl” əsərinin müəllifidir. “əş-Şura vəl-məqtəl Osman” “Məqtəli Əli”, “Məqtəl Hücr ibn Ədi”, “Məqtəlül-Hüseyn”, “Məqtəl Abdullah ibn Zübeyr”, “Məqtəl Səid ibnül-As”, “Məqtəl Məhəmməd ibn Əbu Bəkr vəl-Əştər və Məhəmməd ibn Hüzeyfə” Əbu Mixnəfin yazdığı “məqtəl” əsərlərindən bir neçəsidir (6, 105-106; 19, 155-156; 15, 245; 17, I, 308-309; 24, 99-100). Əsərlərinin çoxu müasir dövrə müstəqil şəkildə gəlib çatmasa da, Əməvilər dövrünün sonuna qədərki hadisələrə dair əsərləri Əhməd ibn Yəhya əl-Bəlazürinin “Ənsabül-Əşraf”, Məhəmməd Cərir Təbərinin “Tarixül-üməm vəl-müluk”, Əbül-Fərəc əl-İsfahaninin “Məqatilüt-talibiyyin” və Məsudinin “Mürucuz-zəhəbi” kimi IX-X əsrlərin tarixçilərinin əsərlərində müasir dövrə qədər gəlib çatmışdır (24, 39-63).

## 2. “Məqtəlül-Hüseyn” əsərinin təhlili

Əbu Mixnəfin “Məqtəlül-Hüseyn” əsəri ilə əlaqəli rəvayətlər ilk növbədə klassik ərəb-islam tarixçilərinin əsərlərində qorunub saxlanmışdır. Hadisələrin xronoloji ardıcıllığa görə nəql olunduğu ərəb-islam tarixçiliyinə dair mənbələrdən Təbərinin (ö. 310/922) “Tarixül-üməm vəl-müluk” əsərində, Yezid ibn Müaviyənin hakimiyyətə gəlməsindən Kərbəla hadisəsinə qədərki hicri 60-61-ci illərin hadisələri geniş şəkildə Əbu Mixnəfin rəvayətlərinə istinadla nəql edilir. Təbəri, Əbu Mixnəfdən nəql etdiyi geniş rəvayətlərlə yanaşı Əmmar əd-Düxninin, Əvanə ibn Həkəmin, İbn Şəbbənin, bəzən də Vaqidinin mövzuya dair müxtəlif rəvayətlərini nəql edir. Hadisələri Təbəriyə nisbətən daha xülasə şəklində təqdim edən Xəlifə ibn Xəyyatın (ö. 240/850) “Tarix”, Əbu Hənifə əd-Dinəvərinin (ö. 282/895) “əl-Əxbarüt-tival”, Məsudinin (ö. 346/957) “Mürucuz-zəhəb” adlı əsərləri də Əbu Mixnəfin rəvayətlərinin müqayisəli təhlili üçün istifadə olunmuşdur. Məşhur şəxslərin həyatı ilə əlaqəli məlumat verməsi baxımından mühüm mənbələrdən sayılan “ənsab” əsərlərindən Bəlazürinin (ö. 279/892) “Ənsabül-əşraf” adlı əsərindən xüsusilə Hüseyn ibn Əlinin həyatından təfsilatlı şəkildə bəhs edərkən Əbu Mixnəfdən də sitatlar gətirdiyinə görə istifadə olunmuşdur. Hüseyn ibn Əlinin Yezid ibn Əbu Süfyanın xilafətinə müxalifət göstərməsindən Kərbəlada şəhid edilməsinə qədərki dövrün Əbu Mixnəfə nisbət edilən müasir dövrə gəlib çatmış “Məqtəlül-Hüseyn” əsəri ilə ərəb-islam tarixçiliyinin klassik mənbələri olan əl-Bəlazürinin “Ənsabül-Əşraf”, Məsudinin “Mürucuz-zəhəb” və Təbərinin “Tarixül-üməm vəl-müluk” adlı əsərlərindəki Əbu Mixnəfin rəvayətləri müqayisəli təhlili, Əbu Mixnəfə nisbət edilən əsərin tarixi dövr içində keçirdiyi dəyişikliyi göstərməsi baxımından mühümdür.

IX-X əsrlər ərəb-islam tarixçiliyinə aid bu əsərlərlə yanaşı, xüsusilə Əbu Mixnəfin müstəqil “Məqtəl”indəki mənqibəvi və dastanvari bir çox rəvayətə paralelliyin göstərilməsi məqsədilə XII-XIII əsr kimi daha gec dövrə aid mənbələrlə müqayisə aparılmışdır. Bu mənbələr arasında İbn Şəhraşubun (ö. 588/1192) imamların mənqibələrindən bəhs edən “Mənaqib”, əl-Xarəzminin (ö. 568/1173) əsasən İbn Əsəm əl-Kufinin rəvayətlərinə yer verdiyi “Məqtəlül-Hüseyn”, İbn Tavusun (ö. 664/1266) “Kitabul-Məlhuf əla qətlət-tufuf” adlı əsərləri qeyd oluna bilər.

Əbu Mixnəfə nisbət edilən “Məqtəlül-Hüseyn” əsərindəki rəvayətlərlə eyni müəllifin Bəlazüri, Təbəri və Məsudi kimi erkən dövr tarix mənbələrindəki rəvayətləri təhlil edilərkən, hadisələrin gedişatı üç xronoloji mərhələyə ayrılmışdır. Birinci hissədə Hüseyn ibn Əlinin Mədinə və Məkkədə Yezid ibn Müaviyəyə müxalifətinə, ikinci hissədə Kufədə Müslim ibn Əqilin fəaliyyətlərinə, üçüncü hissədə isə Kərbəla hadisəsi ilə əlaqəli rəvayətlərdəki fərqliliklərdən nümunələr verilərək müqayisəli təhlil aparılmışdır.

## 2.1. Hüseyn ibn Əlinin Mədinə və Məkkədəki siyasi fəaliyyəti

Əbu Mixnəfin rəvayətləri arasında fərqliliklər ilk olaraq Müaviyə ibn Əbu Süfyanın vəfatından sonra hakimiyyətə keçən oğlu Yezid ibn Müaviyənin müxaliflərinə qarşı siyasəti ilə əlaqəli xəbərlərdə ortaya çıxır. Təbərinin "Tarix" əsərində keçən Əbu Mixnəfin rəvayətinə görə, Müaviyə ibn Əbu Süfyanın vəfatından sonra hakimiyyətə gələn Yezid ibn Müaviyə Mədinə valisi Vəlid ibn Ütbə ibn Əbu Süfyana atasının vəfat etdiyini bildirən bir məktub göndərmişdir. Bu məktuba əlavə olaraq, sanki ələ keçməsindən ehtiyat edildiyi üçün "siçan qulağı" qədər kiçik bir kağız parçasına Hüseyn, Abdullah ibn Ömər və Abdullah ibn Zübeyrdən zorla biət almasını yazmışdır (18, III, 269). Təbərinin nəql etdiyi Əbu Mixnəf rəvayətində müxaliflərinə qarşı zorakılığa baş vurulması təlimatını verməyən, lakin bunu qətletməklə başlatmayan, siyasi ehtiyatlılıqla davranan Yezid ibn Müaviyə portreti ortaya çıxır.

Əbu Mixnəfə nisbət edilən Məqtəlül-Hüseyn adlı müstəqil əsərdə isə Yezidin ikinci bir məktubundan bəhs olunmamaqla birlikdə, Mədinə valisinə çox açıq bir şəkildə həm xalqdan, həm də Hüseyn ibn Əli, Abdullah ibn Zübeyr, Abdullah ibn Ömər və Əbdürrəhman ibn Əbu Bəkirdən biət almağı, etiraz edənin kəlləsinin cavab məktubu ilə birlikdə xəlifəyə göndərilməsini əmr etdiyi rəvayət olunur (2, 10). Əbu Mixnəfin Təbəridə keçən rəvayətindən fərqli olaraq, hakimiyyətə gələn kimi Yezid ibn Müaviyənin siyasi müxalifəti birbaşa ölümlə cəzalandırması nisbətən şübhəli görünür. Rəvayətin doğruluğuna xələl gətirən tək ünsür Təbəridəki rəvayətlə arasındakı fərqdən ibarət deyil, həm də ciddi bir anaxronizmdir. 673-cü ildə vəfat etmiş Əbdürəhman ibn Əbu Bəkirin (4, II, 825; 10, III, 462) adının 7 il sonra baş vermiş hadisədə digər səhabə övladları ilə birlikdə qeyd olunması rəvayətin sonradan tarix metodları diqqətə alınmadan dəyişikliyə məruz qaldığının açıq göstəricisidir. Əbu Mixnəfə nisbət edilən müstəqil "Məqtəl"də keçən bu rəvayətə uyğun olaraq, Yezidə biət etmədiyi təqdirdə Hüseyn ibn Əlinin başının xəlifəyə göndərilməsi məsələsi Yaqubi və İbn Əsəm əl-Kufi kimi IX-X əsrlərin tarixçiləri ilə yanaşı, İbn Şəhraşub və İbn Tavus kimi XII-XIII əsrlərin müəllifləri tərəfindən də qeyd olunmuşdur (23, II, 24; 8, IV, 88; 9, 96-97). İbn Əsəmin nəql etdiyi rəvayət Təbərinin "Tarix"ində keçən Əbu Mixnəfin rəvayətinə bənzəyir, lakin biət etməyənlərin boyunlarının vurulması əmri də əlavə olunur (5, II, 75).

Hadisələrin sonrakı gedişinə dair Əbu Mixnəfin rəvayətləri arasında fərqliliklərin mövcudluğu davam edir. Təbərinin nəql etdiyi Əbu Mixnəfin rəvayətinə görə elçi olaraq göndərilən Abdullah ibn Əmr ibn Osman valinin dəvətini həmin əsnada məsciddə olan Hüseyn ibn Əli və Abdullah ibn Zübeyrə çatdırmışdır. Gecəyarısı valinin tələsik çağırmasından Müaviyənin vəfat etdiyini anlayan İbn Zübeyr dəvəti qəbul etmədiyi halda, Hüseyn ibn Əli yaxınlarını valinin qapısının qarşısında qoyub hüzura girmişdir (18, III, 269-270). Əbu Mixnəfin Məqtəl əsərindəki eyni məzmunlu rəvayətdə isə Mərvanla

məsləhətləşdikdən sonra Vəlidin göndərdiyi elçi Əbdürrəhman ibn Əbu Bəkir, Abdullah ibn Ömər, Abdullah ibn Zübeyr və Hüseyn ibn Əlini axtarıb Məhəmməd Peyğəmbərin qəbrinin yanında tapmış, valinin əmrini eşidən Əbdürrəhman evinə qapanacağını, İbn Ömər elmlə məşğul olacağını, İbn Zübeyr biət etməyəcəyini və valinin yanına getməyəcəyini bildirmiş, Hüseyn ibn Əli isə evinə gedərək yaxınlarını da özü ilə götürmüş və təhlükəsizliyi üçün onları valinin qapısında saxlayaraq özü valinin hüzuruna girmişdir (2, 11-12). Əbu Mixnəfin rəvayəti ilə paralelliyi göstərmək üçün qeyd etmək lazımdır ki, İbn Şəhraşubun əsərində də hadisə Əbu Mixnəfin müstəqil “Məqtəl”indəki kimi nəql olunur (8, IV, 88).

Həmin hadisəyə dair bir digər rəvayət isə İbn Əsəm əl-Kufidən nəql olunur. Bu rəvayətə görə Əbu Mixnəfin də bildirdiyi kimi valinin göndərdiyi elçi biətini istədiyi dörd nəfəri Məhəmməd Peyğəmbərin qəbrinin yanında tapmış, valinin əmrini onlara çatdırdıqda Hüseyn ibn Əli Müaviyə ibn Əbu Süfyanın vəfatı haqqında bir röya gördüyünə, beləliklə Yezidə biət etmək üçün çağırıldıqlarına, lakin Müaviyənin də Həsən ibn Əli ilə müqaviləsinə əsasən qardaşından sonra hakimiyyətin Hüseyn ibn Əliyə verilməsinin zəruriliyinə dair bir nitq söyləmiş və bundan sonra yaxın adamları ilə birlikdə valinin yanına getmişdir (5, II, 76-77; 22, I, 264-266).

Əbu Mixnəflə birlikdə daha sonrakı dövrə aid bəzi müəlliflərin rəvayətlərinə görə Müaviyənin vəfat xəbərini alan və Yezidə biət etməsi tələb olunan Hüseyn ibn Əli qəti bir cavab verməmiş, sadəcə növbəti gün xalq biətə çağırıldığı zaman dəvət olunmasını istəmişdir. Vali bunu qəbul etsə də, məsələyə müdaxilə edən Mərvanın ya Hüseyn ibn Əlinin biət etməsini, ya da qətl olunmasını tövsiyə etməsi nəticəsində aralarında mübahisə başlamışdır. Yaqubi, Mərvanın belə bir tövsiyəsini qeyd etməkə birikdə hər hansı bir mübahisədən bəhs etməməkdədir (23, II, 241; 5, II, 76; 18, III, 270 -Əbu Mixnəfdən nəqlən). İbn Şəhraşub və İbn Tavus Hüseyn ibn Əlinin qohumlarının mübahisəni eşidən kimi köməyə gəldiklərini nəql edir (8, IV, 88; 9, 97 vd.). İbn Sədin rəvayətində isə, Hüseyn ibn Əlinin Vəlidlə mübahisə etdiyi qeyd olunur (7, I, 442-443).

Əbu Mixnəfin rəvayətləri arasındakı fərqliliklərdən bir digəri Hüseyn ibn Əlinin Mədinədən çıxması hadisəsi ilə əlaqəlidir. Əbu Mixnəfə nisbət edilən əsərdə Hüseyn ibn Əlinin Mədinədən çıxmağa qərar verdikdən sonra Məhəmməd Peyğəmbərin qəbrini ziyarət etdiyi, vəziyyətdən şikayət etdiyi, orada yuxuya keçdiyi və röyasında Peyğəmbərin onun yanına gələrək tezliklə ailəsinə qovuşacağını, ona cənnətdə yalnız şəhadətlə çata biləcəyi bir məqam təxsis olunduğunu bildirərək onu təsəlli etdiyi bildirilmişdir (2, 14-15). İbn Əsəm, Xarəzmi və Məclisinin Şeyx Səduqdan nəql etdiyi rəvayətdə isə Hüseyn ibn Əlinin bu röyayı üç gün Məhəmməd Peyğəmbərin qəbrinə getdikdən sonra gördüyü bildirilir (5, II, 84-85; 22, I, 270-271; 12, XLIV, 312).

Həm Təbərinin Tarix əsərində, həm də Əbu Mixnəfə aid edilən Məqtəlül-Hüseyn əsərində Hüseyn ibn Əlinin Mədinədən Məkkəyə getmə hadisəsinə bağlı olaraq ata bir kiçik qardaşı Məhəmməd ibn Hənəfiyyənin məsləhəti ilə əlaqəli rəvayət qeyd olunur. Bu rəvayətə görə Məhəmməd ibn Hənəfiyyə, Mədinədən çıxan böyük qardaşı Hüseyn ibn Əliyə Məkkəyə gedib oradan xilafətin müxtəlif bölgələrinə elçilər göndərərək xalqı biətə dəvət etməsini, qəbul edilməsə bunun Hüseyn ibn Əlinin fəzilətindən heç bir şey əskiltməyəcəyini söyləyərək nəsihət etmiş və əks halda müsəlmanlar arasında qan tökülməsindən duyduğu narahatlığı dilə gətirmişdir (2, 14; 18, III, 271). Əbu Mixnəfin qeyd etdiyi bu rəvayət Müfid və İbn Şəhraşubun əsərlərində də qeyd olunur (14, II, 34-35; 8, IV, 88-89). Lakin İbn Əsəm əl-Kufinin əsərində və ondan nəql edən Xarəzminin "məqtəlində" isə Hüseyn ibn Əlinin Mədinədən çıxdığı əsnada qardaşı İbn Hənəfiyyəyə Peyğəmbərin yolunu davam etdirmək üçün çıxdığını, müsəlmanların arasını bölmək kimi bir məqsədi olmadığını vəsiyyət etdiyi bildirilmişdir (5, II, 87-88; 22, I, 273).

Rəvayətlər arasındakı fərqliliyin təsbit olunduğu bir digər məsələ, Hüseyn ibn Əlinin Məkkəyə getməsi və oradakı fəaliyyətləri haqqındadır. Mədinədə qalmağın yaradacağı fəsadları diqqətə alaraq Hüseyn ibn Əli 28 rəcəb 60/4 may 680-ci ildə ailə üzvlərini də götürərək Məkkəyə doğru yola çıxmışdır. Mövzu ilə əlaqəli Təbərinin Əbu Mixnəfdən nəql etdiyi rəvayətdə keçməməklə birlikdə, Əbu Mixnəfə nisbət edilən "Məqtəlül-Hüseyn" əsərində keçən rəvayətə görə, bu səfər əsnasında Hüseyn ibn Əli Mədinə və Məkkə arasındakı əsas yoldan getmiş, qohumlarının və Abdullah ibn Zübeyrin ikinci yoldan getməsi üçün təkid etmələrinə baxmayaraq qədərdə olana razılaşmış və zalımların əlindən Misirdən əndişə içində çıxan Musa Peyğəmbərlə əlaqəli əl-Qəsas surəsinin 21-ci ayəsini oxutdurmuşdur (2, 15). Əbu Mixnəfə nisbət edilən müstəqil "Məqtəlül-Hüseyndə" keçən bu rəvayətdə Hüseyn ibn Əlinin cəsarət və təslimiyyəti vurğulanmışdır. Qeyd etmək lazımdır ki, eyni rəvayət İbn Əsəm, Müfid və İbn Şəhraşub tərəfindən də nəql olunmuşdur (5, II, 88; 14, II, 35; 8, IV, 89).

Hüseyn ibn Əlinin Müaviyənin vəfatından sonra hakimiyyətə gələn Yezidə biət etməyib Məkkəyə getdiyini öyrənən kufəlilər, dördüncü xəlifə Əli ibn Əbu Talibin tərəfdarlarının liderləri sayılan Süleyman ibn Süradın evində toplanıb Hüseyn ibn Əliyə rəhbərliyi qəbul etməsi üçün dəvət məktubu göndərmişdirlər (2, 17; 18, III, 277). Bu məktubların birincisində Kufə valisinin hakimiyyətini qəbul etmədikləri, ikincisində Kufədə çoxsayda tərəfdarının olduğu bildirilmişdir. Üçüncü qrup məktubda isə Kufədə onun arxasınca gedəcək çoxsaylı hərbi qüvvə olduğu bildirilmişdir (2, 17-20; 18, III, 277-278). Əbu Mixnəfin həm müstəqil əsərində, həm də Təbərinin Tarix adlı əsərindəki rəvayətində əlliyə yaxın məktubdan danışılmaqla birlikdə (2, 18; 18,

III, 277), daha sonrakı mənbələrdə bu rəqəm yüz əlliyə qədər artır (14, II, 38; 8, IV, 90; 9, 105).

### 2.2. Müslim ibn Əqilin Kufədəki fəaliyyətləri

15 ramazan 60/19 iyun 680-ci ildə kufəlilərin məktublarında bildirdikləri vəziyyətin uyğunluğunu yoxlamaq məqsədilə Hüseyn ibn Əli Müslim ibn Əqili Kufəyə göndərmişdir. Həmin tarixdən sonrakı hadisələrlə əlaqəli mənbələr əsasən Kufədə baş verən hadisələrdən bəhs edir. Təbərinin Əbu Mixnəfdən nəql etdiyi rəvayətə görə, Müslim ibn Əqil çətin keçən səfəri barəsində Hüseyn ibn Əlini məlumatlandıraraq vəzifəsindən azad edilməsini istəsə də, Hüseyn ibn Əli bu şikayəti Müslimin cəsarətsizliyi ilə əlaqələndirərək qəbul etməmişdir (18, III, 278-279). Eyni rəvayət və Müfid tərəfindən də nəql olunmuşdur (1, III, 370-371; 14, II, 39-40). Əbu Mixnəfə istinad edilən müstəqil "Məqtəlül-Hüseyn" əsərində isə, Hüseyn ibn Əlinin cavab məktubunda "Əhli-Beytin başına bədbəxtlik gəlməyəcəyinə" dair Məhəmməd Peyğəmbərin hədisini yazaraq yola davam etməsi təlimatını vermişdir (2, 19-20).

Hüseyn ibn Əlinin adına Müslim ibn Əqilin biətini aldığı kufəlilərlə əlaqəli Əbu Mixnəfin rəvayətləri arasında da ciddi fərqlilik müşahidə olunur. Təbəridə keçən, eyni zamanda Məsudi və Dinəvərinin də nəql etdiyi rəvayətdə 12-18000 kufəlidən danışıldığı halda (13, III, 64; 18, III, 275) Əbu Mixnəfə nisbət edilən əsərdə bu rəqəm 80000 olaraq göstərilmişdir (2, 20-21). İbn Nüma və Şəbidən nəql etdiyi rəvayətlərdə Məclisi bu rəqəmin 40-100000 arasında olduğunu qeyd edir (12, XLIV, 337).

Yezid ibn Müaviyənin Hüseyn ibn Əlinin biət etməməsinə münasibəti məsələsində də Əbu Mixnəfin rəvayətləri arasında fərqlilik görünür. Hadisə ilə əlaqəli Təbərinin Əbu Mixnəfdən nəql etdiyi rəvayətdə keçməməklə birlikdə, Əbu Mixnəfə nisbət edilən müstəqil Məqtəlül-Hüseyndə keçən rəvayətə görə Yezid ibn Müaviyə Kufəyə vali təyin etdiyi Übeydullah ibn Ziyada verdiyi təlimatda sadəcə Kufədəki Müslim ibn Əqilin qətl edilərək başının xəlifəyə göndərilməsini deyil, bir nəfərini belə sağ qoymayacaq şəkildə Əli ibn Əbu Talibin nəslini qılıncdan keçirməsini əmr etmişdir (2, 21-22).

Əbu Mixnəfin rəvayətlərindəki fərqlilik Müslim ibn Əqilin Kufə valisini qətl etməmə səbəbində də nəzərə çarpır. Müslimin Kufədə Hani ibn Ürvənin evində qaldığı əsnada ev sahibini ziyarətə gələn vali Übeydullah ibn Ziyadı öldürmə şansı olmasına baxmayaraq bunu etmədiyi mənbələrdə qeyd olunur (2, 26; 7, I, 460; 11, 98-99; 18, III, 283-284). Əbu Mixnəfin Təbərinin tarixində keçməyən rəvayətinə görə, xəstə ziyarətinə gələn Übeydullah ibn Ziyadı qətl etməsi üçün Hani ibn Ürvənin Müslim ibn Əqili təşviq etməsinə baxmayaraq Müslim, "imanın insanın suiqəsd etməsinə mane olduğuna" dair Məhəmməd Peyğəmbərin sözlərini xatırlayaraq bundan imtina etmişdir (2, 26). Təbəri və

İsfahani kimi tarixçilərə görə isə, Müslimin Übeydullah ibn Ziyadı öldürməsinə səbəb olan məsələ, rəsmi dövlət məmuru olan valinin Haninin evində öldürülməsinin yaradacağı mənfi nəticələrindən çəkinməsi idi (18, III, 283-284; 11, 98-99).

Əbu Mixnəfin rəvayətlərindəki fərqliliklərdən bir digəri Müslim ibn Əqilin Übeydullah ibn Ziyadın göndərdiyi dəstə tərəfindən ələ keçirilməsi ilə əlaqəli təfərrüatlarla əlaqəlidir. Təbərinin "Tarix" adlı əsərində keçən Əbu Mixnəfin rəvayətinə görə, Müslim ibn Əqil bir müddət Ubeydullahın göndərdiyi dəstə ilə döyüşdükdən sonra Məhəmməd İbn Əşasın aman verməsinə görə təslim olmuşdur (18, III, 289). Eyni rəvayət Məsudi, İsfahani və Müfid tərəfindən də qeyd olunmuşdur (13, 13, III, 68; 11, 104; 14, II, 58-59). Əbu Mixnəfə nisbət edilən "Məqtəl" əsərində isə hadisə ilə əlaqəli Təbərinin "Tarix" əsərindəkindən fərqli təfsilata rast gəlinir. Əbu Mixnəfin "Məqtəl" əsərindəki rəvayətə görə, Müslim Übeydullah ibn Ziyadın göndərdiyi hərbi dəstənin komandiri Məhəmməd ibn Əşasın verdiyi amanı qəbul etməmiş, 500 nəfərlik dəstəsi olan İbn Əşası Übeydullahdan iki dəfə əlavə ordu istəməyə məcbur etmişdir. Beləliklə, Übeydullah ordusunun 1000 nəfərdən çox mənsubunu qılıncdan keçirən Müslimin təslim olmadığını görən İbn Əşas, hiylə vasitəsilə onu ələ keçirmişdir (2, 29-32).

## 2.3. Hüseyn ibn Əlinin və tərəfdarlarının Kərbəlada şəhid olması

Müsəlman xalqların tarixində əsrlər boyu "Məqtəlül-Hüseyn"lərin yazılmasına təsir edən amillər arasında yalnız Məhəmməd Peyğəmbərin nəvəsinin qətlə yetirilməsindən doğan kədərin deyil, həm də Hüseyin ibn Əlinin göstərdiyi qəhramanlıq və şəhidliyin də mühüm rolu olmuşdur. Bu, erkən ərəb-islam tarixçiliyinə dair əsərlərdə verilən tarixi məlumatlarla da dəstəklənir. Bununla birlikdə, Hüseyin ibn Əlinin və tərəfdarlarının Kərbəlada şəhid olması ilə əlaqəli ilk dövr mənbələrindəki məlumatların tarixilik xüsusiyyətini qismən qorumaqla birlikdə, daha çox dastan və mənqibə xarakteri aldığı müşahidə olunur. Əbu Mixnəfin rəvayətləri arasındakı fərqliliklər bu dəyişikliyin təsbit edilməsi baxımından əhəmiyyət kəsb edir.

Əbu Mixnəfin rəvayətlərində fərqliliyin təsbit olunduğu bir digər mövzu Hüseyn ibn Əlinin Məkkədən Kufəyə getmə səbəbi ilə əlaqəlidir. Təbərinin "Tarix"ində nəql edilən Əbu Mixnəfin rəvayətinə görə, Kufədəki vəziyyətin dəyişməsindən xəbərsiz olan Hüseyn ibn Əli, Müslimin qiyamından 27 gün əvvəl göndərdiyi məktuba istinadla səfər tədarükünə başlamışdır (18, III, 301). Bənzər rəvayət Bəlazürinin və Müfidin əsərlərində də qeyd olunub (1, 1, III, 378; 14, II, 71). Yezidə biət etmədən Məkkədə qalmasının mümkün olmadığını anlayan Hüseyn ibn Əlinin həcc mövsümünün son günlərinə qədər Məkkədə qalması, lakin son anda həcci ümrə ilə əvəz edərək Kufəyə doğru yola çıxmasının səbəbi Əbu Mixnəfin rəvayətində təfsilatlı şəkildə verilən "röya

motivi” ilə izah edilir (2, 36). Bənzər rəvayət İbn Əsəm, Müfid, İbn Şəhraşub və İbn Tavusun əsərlərində də keçir (5, II, 124; 14, II, 69; 8, IV, 94; 9, 128).

Əbu Mixnəfin Təbərinin “Tarix” əsərindəki rəvayəti ilə uyğun olmayan bir digər rəvayətinə görə, Hüseyn ibn Əli qafiləsi Kərbəlaya yaxınlaşdığı zaman həmin yerin “kərb” (sıxıntı) və “bəla” (müsibət) torpağı olduğunu, kişilərin öldürüləcəyini, uşaqların başlarının kəsiləcəyini, qəbirlərinin ziyarət olunacağını və babasının vəd etdiyi yer olduğunu” demişdir (2, 45). Qeyd olunmalıdır ki, Əbu Mixnəfin bu rəvayəti İbn Şəhraşub tərəfindən də nəql edilmişdir (8, IV, 97).

Əbu Mixnəfin rəvayətləri arasındakı bir digər fərqlilik 10 məhərrəm 61/10 oktyabr 680-ci il tarixində səhər vaxtı başlayan döyüş əsnasında Hüseyn ibn Əlinin tərəfdarlarına qarşı mübarizə aparan Übeydullah ibn Ziyadın ordusunun kəmiyyəti ilə əlaqəlidir. 1000 nəfərlik Hürr ibn Yezidin ordusuna 4000 nəfərlə qoşulan Ömər ibn Sədin ordusunun təxminən 5000 nəfərdən ibarət olması gözlənilsə də, bəzi mənbələrdə bu rəqəm 35000-dən 80000-ə qədər yüksəldilmişdir. Bu rəqəmlərin ən yüksəyi Əbu Mixnəfin müstəqil “Məqtəl” əsərində 80000 olaraq qeyd olunur (2, 57). İlk dövr tarix mənbələrində rast gəlinməyən bu rəqəm İbn Əsəmin əsərində 54000 (5, II, 144), İbn Şəhraşubun əsərində isə 35000 olaraq qeyd olunur (8, IV, 98).

Əbu Mixnəfin rəvayətlərinin fərqləndiyi bir digər mövzu orduların qarşı-qarşıya gəldiyi 10 məhərrəm 61/10 oktyabr 680-ci il tarixində kufəlilərin ordusundan öldürülən şəxslərin sayı ilə əlaqəlidir. Əslində həm mənbələrdəki təfsilatlı rəvayətlərdən, həm də Kərbəla faciəsinin ardından hər iki tərəfdən qətlə yetirilənlərin sayına baxdıqda görmək olar ki, Hüseyn ibn Əlinin 70-ə yaxın tərəfdarı təkbətək mübarizə əsnasında üstünlük əldə etmişdirlər. Belə ki, Təbəri və Məsudi kimi tarixçilər kufəlilərdən öldürülənlərin sayının 88 olduğunu qeyd edirlər (13, III, 72; 18, III, 335) ki, bu da Hüseyn ibn Əlinin tərəfdarlarının sayından çoxdur. Bununla birlikdə Əbu Mixnəfin Təbəridə keçən rəvayəti ilə uyğun gəlməyən rəvayətində Hüseyn ibn Əlinin tərəfdarlarının hər birinin rəqib ordusundan onlarla, hətta yüzlərlə insan öldürdüyü nəql edilmiş, bu rəqəmlərin ən yüksəyi Əhli-Beyt mənsubları üçün göstərilmişdir (2, 60-73). XII əsr müəlliflərindən İbn Şəhraşubun rəvayəti də Əbu Mixnəfin rəvayətini dəstəkləyir (8, IV, 101-109).

Əbu Mixnəfin rəvayətlərindəki fərqliliklərdən bir digəri Hüseyn İbn Əlinin savaş meydanına çıxması ilə əlaqəli təfsilatlara dairdir. Təbərinin “Tarix” əsərində keçməyən Əbu Mixnəfin rəvayətinə görə, azsaylı tərəfdarlarının böyük əksəriyyətinin şəhid edilməsi nəticəsində döyüşün sona yaxınlaşdığını görən Hüseyn ibn Əli də döyüş meydanına çıxarkən Məhəmməd Peyğəmbərin xirqəsini, zirehini geyindikdən sonra onun atına mindiyi, Əli ibn Əbu Talibin məşhur qılıncı Zülfiqarı əlinə alaraq Ömər ibn Səd ordusunun içinə hücum etdiyi və qarşısına keçənlərdən təxminən 2000 düşməni qətl etdiyi

nəql olunur (2, 74-80). Bənzər rəvayətlər İbn Şəhraşub və İbn Tavus kimi XII-XIII əsr müəlliflərinin əsərlərində də qeyd olunmuşdur (8, IV, 110; 9, 158).

Yuxarıda fərqli hadisələrlə əlaqəli nümunələri verilən rəvayətlər müqayisəli təhlil edildikdə görmək mümkündür ki, erkən dövr mənbələrində Əbu Mixnəfdən nəql olunan rəvayətlərin digər erkən dövr tarixi mənbələrdəki rəvayətlərlə uyğunluq dərəcəsi daha yüksəkdir. Əbu Mixnəfə nisbət edilən müasir dövrə gəlmiş "Məqtəlül-Hüseyn" əsəri isə rəvayətlərin məzmunu baxımından tarixi mənbə xüsusiyyətindən daha çox ədəbi növə yaxınlaşmışdır. Bu xüsusiyyətinə görədir ki, Əbu Mixnəfin "Məqtəlül-Hüseyn" əsərinin aralarında məzmun fərqliliyi olan dörd müxtəlif əlyazmasının təhqiqli nəşrini hazırlayarkən şərqşünas Heinrich Ferdinand Wüstenfeld, bu nəticəyə gəlmişdir ki, "Məqtəlül-Hüseyn" əsərinin birinci hissəsini Əbu Mixnəfin orijinal əsərinə aid etmək mümkün olsa da, ikinci hissə daha sonrakı dövrə aid mübaliğəli hekayələrdən ibarətdir (21, v-vi). Bu səbəblə Wüstenfeld əsərin orijinal adına "Hüseyn ibn Əlinin qətli və intiqamı: Ərəb dilində tarixi bir roman" ("Der Tod des Husein ben Ali. Ein historischer Roman aus dem Arabischen") sözlərini də əlavə etmişdir. Əbu Mixnəfin Əməvilər dövrü tarixçiliyindəki roluna dair "Abu Mihnaf: ein beitrag zur historiographie der umaiyadischen zeit" adlı fəlsəfə doktorluğu dissertasiyasında Ursula Sezgin də Əbu Mixnəfin müasir dövrə çatmış "Məqtəlül-Hüseyn" adlı əsərinin bir hissəsinin itdiyini, müasir dövrə gələn hissəsinin isə tarixi dövr ərzində dəyişiklik və əlavələrlə təhrif olunduğunu təsbit etmişdir (24, 116-123).

Həm erkən dövr tarixi əsər növü olan "məqtəl" nümunələrinə aid olması, həm də özündən sonrakı bir çox əsərə üslub və məzmun baxımından təsir etməsi səbəbilə Əbu Mixnəfin "Məqtəlül-Hüseyn" əsəri mühüm mənbələrdən biridir. Bununla birlikdə Əbu Mixnəfə nisbət edilən müasir dövrə gəlib çatmış "Məqtəlül-Hüseyn" əsəri ilə Məsudi, Bəlazüri, Təbəri kimi klassik ərəb tarixçilərinin onun əsərindən nəql etdikləri rəvayətlər arasında mühüm fərqliliklər mövcuddur. Əbu Mixnəfin müasir dövrə gəlmiş "Məqtəlül-Hüseyn" əsərində daha çox təxəyyül məhsulu olan mübaliğəli və dastanvari rəvayətlər üstünlük təşkil edir. Hüseyn ibn Əlinin şəhadətinə qədərki prosesdə təqib etdiyi yol, Yezid ibn Müaviyənin müxalifətə qarşı tədbirsiz, qəddar və sərt siyasəti, haşimoğulları mənsublarının Kərbəlada göstərdikləri igidlik nümunəsi və digər mövzularla əlaqəli təfsilatlarda bu fərqlilikləri görmək mümkündür. Xüsusilə kufəlilərin ordusundakı əsgərlərin sayı, Hüseyn ibn Əlinin tərəfdarlarının Kərbəlada qətl etdikləri kufəlilərin sayına dair mübaliğəli rəqəmlər diqqətə alındıqda, Əbu Mixnəfin müstəqil "Məqtəlül-Hüseyn" əsərinin tarixi hadisəni olduğu kimi nəql etmə qayğısından uzaq olduğu, hadisənin dastanlaşdırılaraq ədəbi istiqamətə doğru dəyişdirildiyi bariz şəkildə görünür.

Yekun olaraq demək olar ki, əsl nüsxəsi müasir dövrə çatmayan və tarixi dövr içində qeyd olunan dəyişikliyə məruz qalan Əbu Mixnəfin "Məqtəlül-

Hüseyn" əsəri, yazıldığı ilk dövrlərdə məşhur tarixçilər tərəfindən birinci dərəcəli tarixi mənbə kateqoriyasında istifadə edilsə də, müstəqil əlyazma şəklində davam edən nüsxələri tarixi dövr içində siyasi-ictimai hadisələrin təsiri ilə tədricən tarixi-ədəbi növə çevrilmişdir. Kərbəla hadisəsi ilə əlaqəli tarixi mənbə dəyərini itirməklə birlikdə bu əsər, ilk ərəbcə nümunələri XII-XIII əsrdə ortaya çıxan tarixi-ədəbi növə aid "məqtəl" əsərlərində mənbə xüsusiyyəti daşımağa davam etmişdir.

## ƏDƏBİYYAT


1. Bəlazüri Əhməd ibn Yəhya ibn Cabir. Ənsabül-əşraf. I-XIII, Beyrut, 1996.
2. Əbu Mixnəf Lut ibn Yəhya. Məqtəlül-Hüseyn və məsrəü əhli beytihi və əshabihi fi Kərbəla. Bağdad, 1977.
3. Günther S. Maqatil Literature in Medieval Islam. Journal of Arabic Literature. XXV (1994), E.J.Brill, Leiden, s. 192-212.
4. İbn Əbdülbər Cəmaləddin Yusuf ibn Abdullah. əl-İstiab fi mərifətil-əshab. I-IV, Beyrut, 1992.
5. İbn Əsəm Əbu Məhəmməd Əhməd əl-Kufi. əl-Fütuh. I-III, Beyrut 1992.
6. İbn Nədim. əl-Fihrist. Beyrut, 1978.
7. İbn Səd Əbu Abdullah Məhəmməd. ət-Təbəqatül-kübra: ət-Təbəqatül-xamisə minəs-səhabə. I-II, Taif 1993.
8. İbn Şəhraşub Məhəmməd ibn Əli. Mənaqib Ali Əbi Talib. I-IV, Beyrut, 1985.
9. İbn Tavus Əbül-Qasım Radiyüddin Əli ibn Musa. Kitabül-məlhuf əla qətlət-tüfuf (red. Faris Təbriziyan). Darül-əsvə, 1414.
10. İbnül-Əsir Əbül-Həsən İzzəddin Əli ibn Məhəmməd. Üsdül-ğabə fi mərifətis-səhabə. I-VIII, Beyrut, 1994.
11. İsfahani Əbül-Fərəc Əli ibn Hüseyn, Məqatilüt-Talibiyyin, Beyrut, 1987.
12. Məclisi Məhəmmdə Baqir ibn Məhəmməd Taqi. Biharül-ənvar. I-CV, Beyrut 1983.
13. Məsudi Əbül-Həsən Əli ibn Hüseyn ibn Əli. Mürucüz-zəhəb və məadinül-cövhər.I-IV, Qahirə, 1964.
14. Müfid Əbu Abdullah Məhəmməd ibn Məhəmməd ibn ən-Numan. əl-İrşad fi mərifəti hücəcillahi əlal-ibad. I-II, Beyrut 1993.
15. Nəcaşi Əbül-Abbas Əhməd ibn Əli. Ricalün-Nəcaşi: əhadül-üsulir-ricaliyyə. Beyrut 1988.
16. Prozorov S.M. Arabskaya İstoriçeskaya Literatura: v İrake, İrane i Sredney Azii. Moskva, Nauka, 1980.

17. Sezgin Fuat. Geschichte des arabischen Schrifttums. I-X. Leiden 1967-84.
18. Təbəri Əbu Cəfər Məhəmmdə ibn Cərir. Tarixül-ümәm vəl-müluk. I-V, Beyrut, 1986.
19. Tusi Əbu Cəfər Məhəmməd ibn Həsən. əl-Fihrist. Beyrut 1983.
20. Wellhausen Julius. Das Arabische Reich und Sein Struz. Berlin, 1902.
21. Wüstenfeld Heinrich Ferdinand. Der Tod des Husein ben Ali. Ein historischer Roman aus dem Arabischen. Göttingen, 1883
22. Xarəzmi əl-Müvəffəq ibn Əhməd. Məqtəlül-Hüseyn lil-Xarəzmi. Qum, Ənvarül-xüda, 1418.
23. Yaqubi Əhməd ibn Əbu Yaqub. Tarixül-Yaqubi. I-II, Beyrut t.y.
24. Ursula Sezgin. Abu Mihnaf: ein beitrag zur historiographie der umaiyadischen zeit. Leiden, E.J.Brill, 1971.

UOT94 (479.24)+930.25

# MÜHARİBƏ İLLƏRİNDƏ AZƏRBAYCAN SSR TƏHSİL MÜƏSSİSƏLƏRİNİN İŞİNDƏ NÖQSANLAR VƏ ANTİSOVET MÜLAHİZƏLƏRİN FORMALAŞMASI ARXİV SƏNƏDLƏRİNDƏ

***Mais İsrail oğlu Əmrahov,***
***Eldəniz Əliş oğlu Məmmədov***
***Azərbaycan Dövlət Pedaqoji Universiteti***
***emrahov48@mail.ru***

**Açar sözlər:** *Müharibə, ümumitəhsil müəssisələri, ali məktəblər, antisovet mülahizə, antisovet əhvali-ruhiyyə*

*Məqalə müharibə illərində təhsil müəssisələrinin işinin təşkilində yol verilən nöqsanlara və antisovet mülahizələrinin formalaşmasının arxiv sənədlərində əksinə həsr olunmuşdur. Müəllif Naxçıvan MSSR, Dəvəçi, İmişli, Cəbrayıl, Qusar, Cəbrayıl, Balakən, Qutqaşen (indiki Qəbələ) rayonlarında ümumtəhsil məktəblərinin və ali təhsil müəssisələrinin işini arxiv sənədlərində araşıdırmış, Azərbaycan SSR XDİK-nın Azərbaycan K(b)P MK-ya ünvanlanan məktublarını təhlil etmiş, nöqsanların aradan qaldırılması sahəsində görülən tədbirləri təhlil etmişdir. Müəllifin qənaətinə görə antisovet mülahizələrin formalaşmasının əsas səbəbləri sırasında SSRİ rəhbərliyinin müttəfiq respublikalara, o sıradan Azərbaycan SSR-ə qarşı milli siyasətindəki ikili standartlar və antisovet mülahizələrin formalaşmasında rus və erməni əsilli əhali aparıcı rol oynamışdır.*

## НЕДОРАБОТКИ В РАБОТЕ ОБРАЗОВАТЕЛЬНЫХ УЧРЕЖДЕНИЙ АЗЕРБАЙДЖАНСКОЙ ССР В ГОДЫ ВОЙНЫ И ФОРМИРОВАНИЕ АНТИСОВЕТСКИХ СООБРАЖЕНИЙ В АРХИВНЫХ ДОКУМЕНТАХ

***Маис Амрахов, Эльданиз Мамедов***

**Ключевые слова:** *война, общеобразовательные учреждения, вузы, антисоветское соображение, антисоветское настроение*

*Статья посвящена недостаткам, допущенным в организации работы образовательных учреждений и отражению в архивных документах процесса формирования антисоветских соображений. Автор исследовал в архивных документах работу общеобразовательных школ и*

*вузов в Нахичеванской АССР, и в таких районах, как Девечи, Имишли, Джабраиль, Гусар, Балаканы, Гутгашен (нынешняя Габала), анализированы письма, адресованные НКВД Азербайджанской ССР к ЦК К(б)П Азербайджана, и меры, принятые в сфере устранения недостатков. По заключению автора среди основных причин формирования антисоветских соображений ведущую роль сыграли двойные стандарты в национальной политике руководства ССР в отношении к союзным республикам, а также к Азербайджанской ССР, а также русское и армянское население.*

## FAULTS IN THE ACTIVITY OF AZERBAIJAN SSR EDUCATION INSTITUTIONS AND FORMATION OF ANTI-SOVIET DISCRETIONS DURING WAR YEARS IN ARCHIVE DOCUMENTS

***Mais Amrahov, Eldaniz Mammadov***

**Key words:** *War, general education institutions, higher schools, antisoviet discretion, antisoviet mood*

*Article was devoted to reflection of faults made in the activity of education institutions and formation of antisoviet discetions during war years in archive documents. Author studied in archive documents the activities of general secondary schools nad higher education institutions in Nakhchivan ASSR, Davachi, Imishli,o Jabrayil, Gusar, Balakan, gutgashen (current Gabala) regions, analyzed the letters addressed to CC of Azerbaijan C(b)P of Azerbaijan SSR PCIA, and also analyzed the measures conducted in the sphere of elimination of faults. In accordance with author's conclusion, dual standards in national policy against allied republics, as well as to Azerbaijan SSR by USSR management and russian and armenian population were one of key reasons in formation of antisoviet discretion.*

Giriş. Müharibənin başlanması ilə Azərbaycanın təhsil müəssisələri işini müharibə şəraitinə uyğun qurmağa başladı. Qarşıda duran ən mühüm vəzifələr sırasında məktəblilərin təhsildən yayınmasına yol verməmək, valideynləri orduya səfərbər olunmuş və ya cəbhədə həlak olmuş hərbi qulluqçuların uşaqlarının nəzarətə götürülməsi, cəbhəçi uşaqlarını uşaq müəssisələrinə yerləşdirmək, məktəblilərin hərbi vətənpərvərlik tərbiyəsini gücləndirmək və s. idi.

Müharibənin birinci iki ilində təhsilin yenidən qurulması sahəsində xeyli iş görülməsinə baxmayaraq Azərbaycan SSR-in bəzi rayon və şəhər təhsil müəssisələri qeyd olunan vəzifələrin həyata keçirilməsində nöqsanlara yol verirdilər.

Ümumtəhsil müəssisələrinin işindəki nöqsanlar. Azərbaycan SSR XDİK T.Yaqubovun 12 fevral 1942-ci il tarixli məxfi məktubunda Naxçıvan MSSR, Dəvəçi, Qusar, Jdanov (indiki Beyləqan), Göyçay, Cəbrayıl, Balakən, Qutqaşen (indiki Qəbələ) və digər rayonlarda məktəblilərin təhsilinin təşkilində ciddi nöqsanlar olduğu bildirilirdi [1]. Arayışda göstərilirdi ki, Naxçıvan MSSR məktəblərinin işində ciddi nöqsanlar müşahidə olunurdu. Leninabad orta məktəbinin hərbi rəhbəri-müəllim Əliyev Süleyman Məmməd Həsən oğlu 10-cu sinif şagirdi ilə evlənmiş və onu məktəbə buraxmamışdır. Bu səbəbdən sinfin dgər qız şagirdlərı məktəbə gəlməmiş və nəticədə sinif bağlanmışdır.

Təzəkənd orta məktəbinin müəllimi Abuzərli Məmmədəli antisovet əhvali-ruhiyyəli olub tədris proqramına əməl etməmiş, müəllimlər arasında intriqa yaratmış, müdafiə fonduna vəsait toplanışında antisovet hərəkətlər nümayiş etdirmişdir.

Naxçıvanın bir sıra məktəblərində 1941-1942-ci tədris ilinə hazırlıqlar qənaətbəxş olmamış, məktəblərin təmiri başa çatdırılmamışdır. Əksər məktəblər qızdırılmır. Leninabad orta məktəbində şagirdlərin məktəbdən yayınma göstəricisi 30, Təzəkənd məktəbində 35, Yaxmanin məktəbində 25, Caqrin məktəbində 40 faiz təşkil etmişdir.

Dəvəçi rayonunda fəaliyyət göstərən 46 məktəbdən 7-si orta, 17-si natamamorta, 22-si ibtidai məktəb idi. Bu məktəblərin əksəriyyətinin əsaslı təmirə, bəzilərinin isə təkrar təmirə ehtiyacı vardır. Şıxlı, Çayqaraqaşlı, Qaraçaylı, Sarvan və digər məktəblərin binaları tədris ilində keyfiyyətsiz təmir olunduğundan məşğələlər üçün az yararlıdır. Yağış yağan kimi binanın üst örtüyü su buraxır, tavan dağılıb, pilləkanlar yararsız vəziyyətdədir. Rayonun məktəblərinin qışa hazırığı qeyri-qənaətbəxş olduğundan əksəriyyət məktəblərdə şagirdlər soyuq siniflərdə dərs keçirlər. Dəvəçi Bazar orta məktəbində sinif otaqlarını qızdırmaq üçün odun olmadığından 3 gün məşğələ olmamış, 500 şagird və 18 müəllim məktəbə gəlməmişlər.

Dəvəçi məktəblərini dərslik və dərs vəsaitləri ilə təmin etməli olan qurumlar öhdəliklərini yerinə yetirməyiblər. Nəticədə əsas dərsliklər - təbiətşünaslıq, ədəbiyyat və laboratoriya əyani vəsaitlərinin çatışmaması tədrisin keyfiyyətnə mənfi təsir göstərib [2].

Məxfi məktubda tədrisin keyfiyyətinin artırılmasında məktəb kitabxanalarının əsas halqanı təşkil etdiyi vurğulanaraq bildirilirdi ki, məktəblilərə kömək üçün hər bir məktəbdə kitabxana olmalıdır. Ancaq rayonun əksəriyyət məktəblərində (Aşağı Gəndob, Şıxlı, Çöl-Quşçu və s.) kitabxana olmadığından kitablar bağlı şkaflarda saxlanılır.

Məktubda ayrı-ayrı müəllimlər və XMŞ-nin rəhbər işçiləri tərəfindən şagirdlərlə kobud davranış hallarına yol verilməsi barədə faktlar qeyd olunmuşdur. Bildirilirdi ki, Dəvçi Rayon Xalq Maarif Şöbəsinin müdiri Əli Cavadov, Düz-Bilic orta məktəbinin direktoru, ÜİK(b)P üzvü, rayonda qərargah rəisi vəzifəsinə irəli çəkilən Həsən Süleymanov vəzifə səlahiyyətlərindən sui-istifadə etmiş, müəllimə və rəhbər işçiyə yaraşmayan hərəkətlərə yol vermişlər. Sadalananların nəticəsində Dəvəçi rayonunda şagirdlər məktəbdən yayınmışlar. Dəvəçi-Bazar orta məktəbi 500 şagirdlə tədris ilinə başlasa da, ikinci rübün sonunda onlardan 379 nəfəri dərsə davam etmiş, 121 şagird məktəbdən yayınmışdır. Düz-Bilic orta məktəbində tədris ilinin əvvəlinə 274 şagird olduğu halda, ikinci rübün sonuna 226 şagird qalmış, 45 şagird yayınmışdır. Bu cür vəziyyət rayonun bütün məktəblərində müşahidə olunmuşdur.

Azərbaycan SSR XDİK T.Yaqubovun 12 fevral 1942-ci il tarixli məxfi məktubunda bildirilirdi ki, Azərbaycan SSR XMK kadrlar şöbəsi pedaqoji kadrların seçilməsi ilə ciddi məşğul olmamış, nəticədə pedaqoji kollektivlərə düşmən elementlər daxil ola bilmişlər. Məsələn, Dəvəçi-Bazar orta məktəbinin tədris hissə müdiri Salahov Əbdül Əziz oğlunun qardaşı XDİK tərəfindən həbs olunmuşdur. Kalyagin orta məktəbinin tədris hissə müdiri vəzifəsinə təyin edilən Baba Əfəndiyev dindar ailəsindən çıxmış və xalq düşməni S.M.Əfəndiyevin qohumudur. Nohurlu kənd orta məktəbinin müəllimi Məmmədov Əbdül Salam Molla Şəmsəddin oğlu keçmiş din xadiminin ailəsindəndir. Korqan məktəbinin müəllimi Orucov Pulat Heyicə oğlu qolçomaq oğludur və XDİK tərəfindən aradan götürülmüşdür. Sivan kəndində müəllim işləyən Əfəndiyev Cəfər Paşa Mirzəcan oğlu xalq düşməni Musabəyovun qohumudur [3].

İmişli rayonunun Rəsullu, Muğanlı, Təklə və b. kənd məktəblərində yayınma halları yüksələn xətlə artmışdır. Murguzallı və Cavad-xanlı kənd sovetlərində birinci yarımildə 337 şagird məktəbdən yayınmışdır. Rayonun 10 məktəbi bağlanmış, yayınan uşaqların sayı 1.000 nəfərə çatmışdır. Qeyd edilən kənd sovetlərində ayrı-ayrı valideynlər uşaqlarını məktəbə buraxmaq istəməmişlər [4].

Dəstəfur və Göyçay rayonlarında şagirdlərin məşğələlərə davamiyyəti aşağı düşmüşdür. Göyçay rayonunun Qarabaqqal kənd məktəbində 273 şagirddən 171 nəfəri, Bığır kəndində 356 nəfərdən 114 nəfəri məktəbə davam etmişdir. Kənd sovetləri yaranmış vəziyyətlə əlaqədar heç bir əsaslı tədbir görməmişlər [5].

Cəbrayıl rayonunun Maşanlı, Qumlax, Mehdili, Xudayarlı, Cəbrayıl və digər məktəbləri təmir olunmayıb, qızdırılmır, pəncərələrə şüşə əvəzinə yazı taxtası asılmışdır. Nəticədə 587 şagird məktəbdən yayınmışdır.

Qusar rayonunda Aşağı Lağır orta məktəbinin X sinfi bağlanmış, Dahercalı məktəbinin IX-X siniflərinin bağlanması və 2 ay ərzində dərs

keçilməməsi səbəbli məktəblilər dərsdən yayınmışlar. Analoji vəziyyət Jdanov, İsmayıllı, Qutqaşen (indiki Qəbələ) və digər rayonlarda da müşahidə olunmuşdur. Partiya təşkilatlarının rəhbər işçiləri yaranmış vəziyyəti yanacağın olmaması, səfərbərliklə bağlı uşaqların ailələrinə kömək etməsi ilə əlaqələndirmişlər.

Yaranmış vəziyyət və XDİK T.Yaqubovun arayışı əsasında Azərbaycan K(b)P MK katibi Əziz Əliyevin təklifi ilə Xalq Maarif Komissarlığı Naxçıvan MSSR, Dəvəçi, İmişli, Dəstəfur, Göyçay, Cəbrayıl, Qusar, Jdanov, İsmayıllı və Qutqaşen (indiki Qəbələ) məktəblərinin işini yaxşılaşdırmaq və məktəblilərin məktəbdən yayınmasına yol verməmək məqsədilə müvafiq tədbirlər müəyyənləşdirilmişdir. Azərbaycan KP (b) P MK katibi Əziz Əliyevin 17 fevral 1942-ci il tarixli arayışından aydın olur ki, Dəvəçi rayon kooperativlər ittifaqı şəbəkəsində dərsliklərin alınması faktının yoxlanılması və müvafiq tədbirlər görülməsi barədə “Azərittifaq”a göstəriş verilmişdir. Nuxa, Ağdam, Ağdaş, Akstafa, Astara, Astraxanbazar, Balakən, Göyçay, ümumilikdə 23 rayon və Naxçıvan vilayət partiya təşkilatına məktəblərin vəziyyətini, binaların qışa hazırlığını, tədris əyani vəsaitləri və kadrlarla təminatı, məktəblərdə tədrisin keyfiyyətini yoxlamaq və müəllimlərin işində aşkar olunmuş nöqsanların təcili aradan qaldırılması üçün konkret tədbirlər görmək tapşırılmışdır [6].

1942-ci il dekabrın 16-da Azərbaycan SSR Xalq Maarif Komissarının müavini T.Q.Manvelyan Ə.Əliyevə məlumat verir ki, onun tapşırığı ilə XMK məktəblərin işində olan çatışmazlıqları aşkar etmək, nöqsanların aradan qaldırılması və məktəblərin işini yaxşılaşdırmaq üçün tədbirlər müəyyənləşdirmək məqsədilə göstərilən rayonlara öz işçilərini göndərmişdir [7].

“Azərittifaq”ın Rəyasət Heyətinin sədri də 16 dekabr 1942-ci il tarixli məktubu ilə Dəvəçi rayonundakı faktları yoxlamaq üçün Dəvəçi Rayon Kooperativlər İttifaqının sədri Babayevə göstəriş verildiyini, həmçinin Ticarət İdarəsinin əmtəəşünası Lazarevin Dəvəçi rayonuna ezam olunduğunu bildirirdi [8].

Azərbaycan SSR XDİK məktubunda ali məktəblərin professor-müəllim heyətinin işi də təhlil olunurdu. Tibb institutunun professoru, bitərəf Ozerevskiy Dmitri Sergeyeviç, Sənaye institutunun professoru, bitərəf Elyaşkeviç Zinovyev Borisoviç, həmin institutun dosenti, bitərəf İsrayıl Qarayev, ADU-nun dosenti Maqsud Cavadov və b. Qızıl Ordu hücumlarından, qoşunların müvəffəqiyyətlərindən, faşist ordusunun sıralarının pozulmasından sevindiklərini, sovet xalqının qələbəsinə əmin olduqlarını ifadə etmişlər. XDİK-nın Azərbaycan K(b)P MK-ya göndərdiyi 25 dekabr 1942-ci il tarixli arayışında [9] bildirilirdi ki, Qızıl Ordunun Stalinqrad rayonunda, orta Donbasda və Mərkəz cəbhədə hücumlarının güclənməsi ilə bağlı respublikanın ziyalıları, fəhlə və qulluqçuları və kolxozçularından çoxsaylı vətənpərvərlik fikirləri daxil olumşdur.

Azərbaycan SSR-in ali tədris müəssisələrində antisovet əhval-ruhiyyəsi.

Azərbaycan SSR XDİK Yaqubovun Azərbaycan K(b)P MK katibi Əziz Əliyevə ünvanladığı 02 avqust 1942-ci il tarixli arayışında qeyd edilir ki, Azərbaycan SSR XDİK-nın sərəncamında olan materiallar Azərbaycan Dövlət Universitetində tədris-pedaqoji, həmçinin siyasi-tərbiyə işi istiqamətində işlərin vəziyyətinin qənaətbəxş olmadığını göstərir. Arayışda bildirilir ki, 1941-1942-ci tədris ilində tələbələrin dərsə davamiyyəti kəskin surətdə aşağı düşmüş, əmək intizamı zəifləmiş, tədrisin keyfiyyəti pisləşmişdir. Universitetin partiya, komsomol və ictimai təşkilatları zəif işləyirlər. Professor Mikayıl Rəfili, ədəbiyyat müəllimi Əli Sultanlı, riyaziyyatçı dosent Əşrəf Hüseynov və başqaları öz ətrafında müəllimlər qrupu formalaşdıraraq rəhbərliyi və partiya təşkilatını öz təsir dairəsinə salmağa cəhd edir, azərbaycanlı olmayan dekan və kafedra müdirlərini azərbaycanlılarla əvəz etmək istəyirlər.

Müəllimlərin digər hissəsi - ruslar: prof. Elpatevski Vladimr Sergeyeviç, Rıbinskiy Vladimir Petroviç, Udinsev Vsevolod, dosent əvəzi Qervald Aleksey Konstantinoviç və başqaları prof. Baqriya Aleksandr Vasilyeviç ətrafında qruplaşaraq rektor Ş.Əliyev və prorektor Arişkin arasındakı intriqadan istifadə edərək [10] sonuncu, həmçinin XMK kadr hazırlığı idarəsinin rəis müavini Loginovun himayəsi ilə (hansı ki, Loginov da faktiki bu qrupa daxil idi) öz vəziyyətlərini möhkəmləndirməyə can atır, azərbaycanlı müəllimləri nüfuzdan salmaq siyasəti aparırlar. Gizli mübarizə və iki qrup arasında milli antoqonizm nəticəsində universitet qarşısında vətən müharibəsi şəraitində duran mühüm vəzifə diqqətdən yayınmışdır.

Arayışda göstərilir ki, Azərbaycan Dövlət Universitetində yaranmış mənfi mənəvi iqlim pofessor-müəllim heyəti arasında sovet hakimiyyəti əleyhinə yad və düşmən əhvali-ruhiyyənin güclənməsinə təsir etmişdir. Belə ki, ADU-nun 355 nəfərdən ibarət professor-müəllim heyətinin 70 nəfəri bu və ya digər materiallarla ali məktəbi nüfuzdan salır, bəzi müəllimlərin fikirləri mənfi əhvali-rühyyənin yaranmasına və antisovet fikirlərin formalaşmasına zəmin yaradırdı. Onlardan bir neçəsinin fikirlərinə nəzər salaq.

Məmməd Hüseyn Abbas Qulu oğlu Təhmasib-1907-ci ildə anadan olmuş, Naxçıvan sakini, bitərəf, filologiya elmləri namzədi, ADU-da müəllimdir. M.H.Təhmasib tacir-mülkədar ailəsindən çıxmışdır, müntəzəm olaraq əks-inqilabi, təxribatçı şayiələr yayır, sovet hökuməti və partiya rəhbərləri haqqında yalanlar uydurur, SSRİ-nin sülhsevər siyasətini aqqerssivcəsinə qiymətləndirir, SSRİ-nin Almaniya ilə müharibədə qələbəsinə inanmır, Sovet İnformasiya Bürosunun məlumatlarını yalanlayırdı [11].

Baqriy Aleksandr Vasilyeviç-1891-ci il təvəllüdlü, bitərəf, ADU-nun professorudur. A.V.Baqriy çinovnik oğludur. 1937-ci ildən Ümumittifaq pantürkist mərkəzinin üzvü, məhkum olunmuş Bəkir Çobanzadə, Əziz Qubaydullin və Hənəfi Zeynallının, həmçinin trotskiçi B.M.Tixomirovun ifadəsinə

görə Bakı şəhərindəki rus professorları arasında Ukrayna əks-inqilabi millətçi və burjua-demokratik qrupun rəhbəridir. Düşmən elmi kadrların hazılanmasında şübhəlidir.

Yelpatevskiy Vladimir Sergeyeviç-1907-ci il təvəllüdlü, Moskvada doğulmuşdur. Biologiya elmləri doktoru, ADU-nun professorudur. Keçmiş böyük mülkədar V.S.Yelpatevski Almaniya və İtaliyada ezamiyyətdə olmuş, 1931-ci ildə keçmiş Dövlət Siyasi İdarəsi tərəfindən həbs olunmuşdur. Dövlət Siyasi İdarəsi tərəfindən məhkum olunmuş Hənəfi Zeynallı, Çobanzadə Bəkir və Əziz Qubaydullinin 1937-ci ildə ifadəsinə görə keçmiş xalqçı və əks-inqlabi İşkov-Baqriya qrupundan keçir.

Rəfili Mikayıl Hacı Həsən oğlu- 1906-cü il təvəllüdlü, bitərəf, filologiya elmləri namizədi, ADU-da professor əvəzidir. M.H.Rəfili Kirovabadın (indiki Gəncə) varlı ailəsindən çıxmışdır. «Müsavat» dövründə Cəncə «İziç» Müsavat idman cəmiyyətinin fəal iştirakçılarından olmuşdur. 1927-1930-cu illərdə fəal "Müsavat" kadrları qrupunda fəaliyyət göstərmişdir. Məhkum olunmuşların birbaşa və dolayısı ilə ifadələrində burjua-millətçi və pantürkist təşkilatında Əli Nəzmi, Zeynallı Hənəfi, Əziz Qubaydullin, Bəkir Çobanzadə və başqaları kimi əks-inqilabi təşkilatın iştirakçısı olmuşdur. Universitetdə zəif partiya-komsomol və ictimai kütləvi işin nəticəsidir ki, müəllim heyətində düşmən elementlər özlərinin əks-inqilabi fəaliyyətlərini fəallaşdırmışlar [12].

1941-1942-ci illərdə ADU-nun müəllimlərindən dosent Ağasəf Fətəlizadə, Mədət İsgəndərov, Əkrəm Cəfərov və müəllim Rövşən Əfəndiyev həbs olunaraq əks-inqilabi fəaliyyətlərinə görə məhkum edildilər. 1942-ci il iyulun əvvəlində həbs olunmuş filologiya fakültəsinin II kurs tələbəsi Rzayev Məmmədhüseyn Həbib oğlu özünü günahkar hesab edərək qeyri-leqal Türkiyəyə yönələn antisovet-millətçi gənclər birləşməsinin fəal üzvlərindən olduğunu, sovet hökumətinə qarşı əks-inqilabi təslimçiik və millətçi təbliğat apardığını, əks-inqilabi vərəqələr nəşr edərək yaydığını və gənclər birləşməsinə yeni şəxslər cəlb etdiyini etiraf etmişdir.

1942-ci ilin əvvəlində əks-inqilabi fəaliyyətinə görə həbs olunan, bitərəf, tarix fakültəsinin II kurs tələbəsi Məmmədov Məmmədəli Ağabala oğlu 1942-ci il iyulun 10-dakı ifadəsində yazmışdı ki, Azərbaycan müstəqil Respublika olmalıdır. Azərbaycanı heç kimdən asılı olmayan dövlət quruluşlu demokratik respublika kimi fikirləşir, Demokratik Azərbaycan Respublikasının yaranması imkanını SSRİ-nin məğlubiyyətində görür [13].

Qeyd olunanları ümumiləşdirərək belə qənaətə gəlmək olar ki, təhsil müəssisələrinin işinin təşkilində yol verilən nöqsanlara və antisovet mülahizələrinin formalaşmasının səbəbkarı kadrların düzgün seçilib yeləşdirlməsindəki nöqsanlar olmuşdur. Naxçıvan MSSR, Dəvəçi, İmişli, Gəbrayıl, Qusar, Cəbrayıl, Balakən, Qutqaşen (indiki Qəbələ) rayonlarında ümumtəhsil məktəblərinin və respublika ali təhsil müəssisələrinin işinin təhlili göstərir ki,

Azərbaycan SSR XDİK-nın, Azərbaycan K(b)P MK-nın nöqsaların aradan qaldırılması və antisovet mülahizələrin zərərsizləşdirilməsi sahəsində görülən tədbirlərinin əsasında adamların həbs edilməsi, əhali arasında qorxu hissinin formalaşdırılması təşkil etmişdir. Əslində isə antisovet mülahizələrin formalaşmasının əsas səbəbləri sırasında SSRİ rəhbərliyinin müttəfiq respublikalara, o sıradan Azərbaycan SSR-ə qarşı milli siyasətində ikili standartlar dayanırdı ki, bu cür mülahizələrin formalaşmasında rus və erməni əsilli əhali aparıcı rol oynamışdır.

## ƏDƏBİYYAT


1. ARPİİSSA, f.1, siy.27, sax. vah. 160, v.284
2. ARPİİSSA, f.1, siy.27, sax. vah. 160, v.280
3. ARPİİSSA, f.1, siy.27, sax. vah. 160, v.281
4. ARPİİSSA, f.1, siy.27, sax. vah. 160, v.282-283
5. ARPİİSSA, f.1, siy.27, sax. vah. 160, v.285-286
6. ARPİİSSA, f.1, siy.27, sax. vah. 160, v.286
7. ARPİİSSA, f.1, siy.27, sax. vah. 160, v.287
8. ARPİİSSA, f.1, siy.27, sax. vah. 160, v.287
9. ARPİİSSA, f.1, siy.27, sax. vah. 160, v.276-277
10. ARPİİSSA, f.1, siy.27, sax. vah. 160, v.288
11. ARPİİSSA, f.1, siy.27, sax. vah. 160, v.289
12. ARPİİSSA, f.1, siy.27, sax. vah. 160, v. 191
13. ARPİİSSA, f.1, siy.27, sax. vah. 160, v. 192

**UOT 94(479.24)+323**

# XX ƏSRİN 90-cı İLLƏRİNİN BİRİNCİ YARISINDA AZƏRBAYCAN RESPUBLIKASININ RUSİYA, İRAN, TÜRKİYƏ İLƏ XƏZƏRİN ENERJİ EHTİYATLARININ İŞLƏNMƏSİ SAHƏSİNDƏ ƏMƏKDAŞLIĞI

***Pərviz Səfərov***
***Azərbaycan Dövlət Pedaqoji Universiteti***
***parviz.safarov60@mail.ru***

**Açar sözlər**: *Azərbaycan, Rusiya, İran, Türkiyə, Qərbin neft şirkətləri, Əsrin müqaviləsi, Xəzərin statusu, neftin nəqli marşrutları, maraqlar, ziddiyyətlər*

*Məqalədə XX əsrin 90-cı illərinin birinci yarısında Xəzərin Azərbaycan sektorunda karbohidrogen ehtiyatlarının işlənməsi üzrə yaradılmış Beynəlxalq Konsorsiumda Azərbaycan Respublikasının Rusiya, İran və Türkiyə ilə apardığı müzakirələrdən və əməkdaşlıqdan, neftin nəqli marşrutunun müəyyən edilməsi ətrafında gedən proseslərdən, ortaya çıxan problemlərdən və ziddiyyətlərdən bəhs edilir.*

## СОТРУДНИЧЕСТВО АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ С РОССИЕЙ, ИРАНОМ, ТУРЦИЕЙ В ОСВОЕНИИ ЭНЕРГЕТИЧЕСКИХ РЕСУРСОВ В ПЕРВОЙ ПОЛОВИНЕ 90-х ГОДОВ XX ВЕКА

***Парвиз Сафаров***

**Ключевые слова**: *Азербайджан, Россия, Иран, Турция, западные нефтяные корпорации, контракт века, статус Каспия, маршруты по транзиту нефти, интересы, противоречия*

*В статье рассматриваются сотрудничество Азербайджанской Республики с Россией, Ираном и Турцией, в Международном консорциуме по разработке запасов углеводородов в азербайджанском секторе Каспийского моря в первой половине 20-го века, определение маршрута транспортировки нефти, а также проблемы и противоречия между этими странами.*

# THE COOPERATION OF THE REPUBLIC OF AZERBAIJAN WITH RUSSIA, IRAN, TURKEY IN THE DEVELOPMENT OF ENERGY RESOURCES IN THE FIRST HALF OF THE 90s OF THE TWENTIETH CENTURY

***Parviz Safarov***

**Key words**: *Azerbaijan, Russia, Iran, Turkey, Western oil corporations, Contract of the Century, Status of the Caspian Sea, oil transit routes, interests, contradictions*

*The article discusses the cooperation of the Republic of Azerbaijan with Russia, Iran and Turkey, at the International Consortium for the development of hydrocarbon reserves in the Azerbaijani sector of the Caspian Sea in the first half of the 20th century, determining the route of oil transportation, as well as problems and contradictions between these countries.*

Beynəlxalq münasibətlərin formalaşmasında, dövlətlərarası əlaqələrin genişlənməsi kəskinləşərək silahlı toqquşmalarla nəticələnməsində neftin rolu, təsir dairəsi böyükdür. Bir sıra neft istehsal edən ölkələrin xalqları yüksək yaşayış səviyyəsinə çatdıqlarına görə neftə minnətdar olmalıdırlar! Neft eyni zamanda müstəmləkələrə, istilalara, zorakılıqa, dövlət çevrilişinə, hökumət böhranlarına və müharibələrə səbəb olub!

Bütün bu hadisələr Amerikanı yeni neft mənbələrinə çıxışını təmin etmək üçün uzun vədəli proqramların hazırlanması və həyata keçirilməsinə sövq etdi. Təsadüfi deyil ki, 1973-cü ildə prezident Nikson çıxışlarının birində bəyan etmişdir. «Bizim üçün dünyanın heç bir bölgəsi Orta və Yaxın Şərq kimi əhəmiyyət kəsb etmir». 1977-ci ildə isə prezident Karter 18 nömrəli direktivində bu bölgəni Amerika üçün həyati əhəmiyyət kəsb edən bölgə elan etdi [1, 94]. Çox güman ki, məhz o zaman Xəzər hövzəsinin gələcəcəkdə dünyada siyasi və iqtisadi sabitlik baxımından müstəsna əhəmiyyəti təsbitlənmişdir.

Neft uğrunda mübarizə dayanmır. Neft qaynaqları uğrunda mübarizə dalğası neft satan bir sıra keçmiş Sovet respublikalarını da bürüyüb.

Belə respublikalardan biri də dünyanın ən qədim neft ölkələrindən sayılan Azərbaycandır. Bakı neft sənayesi əsasən iki mərhələdə - ölkəmizi çar Rusiyasının işğalından 1920-ciilədək və 1920-ci ildən sonra - Sovet dövründə inkişaf edib. Hər iki dövrdə Azərbaycan özünün bu qiymətli təbii sərvəti üzərində yurisdiksiya hüququndan məhrum edilib.

20-ci illərdə Sovet Rusiyasının sənaye mərkəzlərinin neft məhsullarına olan ehtiyacı əsasən Bakı nefti hesabına ödənilirdi. İttifaq dövründə ölkə üzrə neft hasilatının 1940-cı ildə 71,5 faizini, 1945-ci ildə 58,3 faizini, 1950-ci ildə 39,1 faizini, 1956-cı ildə isə 21,6 faizini Azərbaycan istehsal edirdi [2, 340]. Təkcə 1941-1945-ci illər Böyük Vətən müharibəsi dövründə Azərbaycan ölkəyə 75 mln. ton neft, 22 mln. ton benzin və başqa neft məhsulları vermişdir [3, 340].

Azərbaycan istiqlaliyyət qazanandan sonra təbii sərvətlər üzərində xalqımızın yiyəlik hüququ bərpa olunub. Azərbaycan onilliklər boyu talan olunmuş sərvətinin sahibi olmuşdur. İlk növbədə Azərbaycan ən qiymətli təbii sərvəti olan nefti öz xalqının rifahı naminə istifadə etmək istəyir.

Azərbaycan neftinin istehsal edilib dünyanın müxtəlif yerlərinə göndərilməsi prosesinə qarşılıqlı fayda əsasında xarici şirkətlərin cəlb olunmasına hələ 1989-cu ildə başlanmışdır.

Danışıqlar nəticəsində 1990-cı ilin avqustunda «Ramko» kəşfiyyatı hələ 70-ci illərin axırı 80-ci illərin əvvəllərində aparılmış «Azəri», «Çıraq» və «Günəşli» yeni neft yataqlarının işlədilməsi haqqında Azərbaycan neft şirkəti olan «Xəzər Dəniz Neft Qaz» üçün investisiya partnyoru tapmağa razılaşdı [1, 97].

1991-ci ilin avqustun 30-da Azərbaycan Respublikası Ali Soveti tərəfindən Müstəqillik «Bəyannaməsi» və 1991- ci ilin oktyabrın 18-də «Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı»nın qəbul edilməsi ilə Bakı nefti ətrafında gedən danışıqlar öz xarakterini dəyişdi. Artıq danışıqların bir tərəfində Sovet İttifaqına daxil olan və mərkəzin diktəsi ilə hərəkət edən Azərbaycan yox, beynəlxalq hüquq və beynəlxalq münasibətlər sisteminin tam və bərabərhüquqlu subyekti sayılan Azərbaycan, digər tərəfdə isə ənənəvi olaraq Qərbin böyük neft kampaniyaları dayanırdı.

Lakin bütün təzyiqlərə baxmayaraq respublika rəhbərliyinin Qərbin neft kampaniyaları ilə danışıqları davam edirdi. 1992-ci ilin sentyabrın 7-8-də Böyük Britaniyanın sabiq baş naziri, «BiPi»-nin məsləhətçisi baronessa M.Tetçerin Bakıya səfəri müddətində ARDNŞ ilə Böyük Britaniyanın «BiPi» və Norveçin «Statoyl» neft şirkətləri arasında «Çıraq» və «Şahdəniz» neft yataqlarının işlənməsinə dair saziş imzalandı [1, 98].

1992-ci il noyabrın 9-da «Çıraq», «Günəşli» və «Azəri» yataqları üzrə vahid infrastrukturun yaradılması haqqında ARDNŞ və bir qədər əvvəl Bakıdakı neft kompaniyalarının yaratdığı konsorsium arasında V memorandum imzalandı. İmzalanmış bu memorandumun maraqlı cəhətlərindən biri də məhz ilk dəfə olaraq dikər xarici neft kompaniyaları ilə yanaşı Türkiyə şirkəti olan «TPAO» (Türkiyə Petrolları Anonim Ortaqlığı) konsorsiuma daxil edildi [4, 36].

1992-ci il dekabrın 28-də Azərbaycanın dövlət katibi P.Hüseynovun Tehrana səfəri zamanı İran tərəfinin bütün ciddi cəhdinə baxmayaraq iqtisadi və mədəni əməkdaşlıq haqqında hazırlanan ölkələrarası müqavilədə neftlə bağlı ciddi dəyişikliklər olmadı.

Rusiya tərəfi də Azərbaycan neftinə olan iddialarını gizlədə bilmirdi. Dəfələrlə, 1992-ci il ərzində Rusiya hökumətini təmsil edən «LUKoyl» neft şirkətinin rəsmi nümayəndələri müxtəlif görüşlərdə həmin şirkətin də konsorsiuma daxil edilməsini Azərbaycan hökumətindən xahiş etmişdir. Heç bir nəticə verməyən bu xahişlər sonda təzyiqlərə çevrildi. Açıq şəkildə heç nə edə bilməyən rəsmi Moskva diqqətini Dağlıq Qarabağ məsələsinin qızışdırılmasına yönəltdi. 1993-cü ilin aprel ayında Rusiyanın birbaşa hərbi yardımı ilə ermənilər Kəlbəcər rayonunu tutdular [3, 486]. İyun ayında bir ay əvvəl Gəncədən çıxan 104-cü rus hava-desant alayının silahlarına yiyələnən S.Hüseynov qiyam qaldıraraq respublika rəhbərliyinin istefasını tələb etdi və Bakıya yürüşə başladı. İqtidar tam heyətdə istefa verdi [5, 154, 159, 160]. Naxçıvan Ali Məclisinin sədri H.Əliyev Bakıya dəvət edilib Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi [6, 44]. Oktyabrın 3-də isə keçirilən prezident seçkilərində qalib gəldi.

İyul-noyabr ayları ərzində daha 5 rayon işğal edildi [7, 81]. Ölkədə qeyri-sabit vəziyyəti nəzərə alan H.Əliyev «Xəzərin Azərbaycan sektorundakı neftin işlədilməsi» haqqında Qərb konsernləri ilə ARDNŞ arasındakı danışıqların dondurulması barədə fərman verdi [1, 100].

Neft məsələsinin Qarabağ problemi ilə sıx surətdə bağlılığını aydın görən H.Əliyev əslində, sazişi ləğv etməklə Dağlıq Qarabağ konfliktinin həlli üçün böyük manevr sahəsinə sahib olmağa çalışırdı. Yeni iqtidar mövcud şəraitdə böyük dövlətlərin Azərbaycanda geostrateji maraqlarını nəzərə alaraq Bakı nefti ilə əlaqədar Azərbaycanın mövqeyini müəyyənləşdirmək və müqavilə konsepsiyasını təklif etmək məqsədilə 1993-cü ilin avqustunda növbəti bir qrup təşkil etdi. Noyabrda Rusiya ilə Azərbaycan arasında «LUKoyl» şirkətini Xəzərin Azərbaycan şelfindəki yataqların istismarında iştirak etməyə imkan verən saziş imzalandı [5, 210]. İran tərəfi ilə də müvafiq danışıqlara başlanıldı.

1994-cü il mart ayının 15-17-də «LUK oyl» prezidenti Vaqif Ələkbərov Bakıda ARDNŞ rəhbərləri ilə danışıqlar apardı. Moskvada onun etdiyi açıqlamaya görə danışıqlar nəticəsində «LUKoyl» konsorsiumun üzvü olması və Azərbaycanın 20 faizlik payından 10 faizinin «LUKoyl»a verilməsi qərara alındı [5, 210].

Lakin tezliklə Xəzər nefti ətrafında qızışan diplomatik müharibəni Türkiyənin boğazlardan kecəçək Rusiya tankerlərini məhdudlaşdırmaq xəbərdarlığı daha da alovlandırdı. Beləliklə Bakı nefti ətrafında iri dövlətlərin ziddiyyətlərinin dərinləşməsi Azərbaycanı əvəzsiz geosiyası və strateji əhəmiyyətə malik dövlətlər sırasına qaldırırdı.

Nəhayət sentyabrın 20-də Bakıda Gülüstan sarayında ARDNŞ ilə xarici neft kompaniyaları arasındakı Xəzər dənizinin Azərbaycan sektorundakı «Azəri», «Çıraq» yataqlarının bütövlükdə «Günəşli» yatağının isə suyun dərinliyinin 200 metrdən çox olan hissəsinin müştərək işlənməsi haqqında «Əsrin kontraktı» adlı müqavilə imzalandı. Müqavilə 30 illiyə nəzərdə tutulurdu. Müqavilədə 7 ölkənin (Azərbaycan, ABŞ, Böyük Britaniya, Norveç, Rusiya, Səudiyyə Ərəbistanı, Türkiyə), neft kompaniyası (ARDNŞ, «BiPi», «AMOKO», «LUKoyl», «Penizoyl», «YUNOKAL», «Statoyl», «TPAO», «Mark-Dermott», «Ramko Enerji», «Delta-Nimir») iştirak edirdi [8, 329].

Rusiya hökumətinin 1994-cü il sentyabrın 20-də Bakıda Xəzər neftinin istismarı barədə Azərbaycanın Qərbin iri neft şirkətləri ilə bağladığı «Əsrin müqaviləsi»nə münasibəti birmənalı deyildi. Hələ sentyabrın 20-də müqavilənin imzalanması mərasimindən dərhal sonra Rusiya Federasiyası xarici işlər nazirliyinin mətbuat xidmətinin rəhbəri Q.Karasin bildirmişdi ki, Xəzər dənizi və buradakı ehtiyatlarla bağlı birtərəfli aksiyalar beynəlxalq hüquqda mübahisələrə səbəb olur və dənizin ekoloji sisteminə zərər vura bilər. Bu baxımdan da Rusiya tərəfi bu müqaviləni rəsmi olaraq tanımayacaqdır. Neft müqaviləsinin imzalanması mərasimində Rusiya Federasiyası yanacaq və energetika nazirliyinin Baş İdarəsinin rəisi S.Puqaçın iştirak etməsinə və müvafiq sənədləri imzalamasına baxmayaraq, sentyabrın 22-də Rusiyanın xarici işlər naziri A.Kozırev də imzalanmış bu müqavilənin hüquqa zidd olduğunu və bununla əlaqədar Rusiya hökumətinin onu tanımayacağı haqqında rəsmi bəyanat verdi. A.Kozırevə görə «Xəzər dənizinin hüquqi statusu məsələsi müəyyən olunana qədər bu dənizin yataqlarının istismarı ilə əlaqədar imzalanacaq hər hansı bir müqavilənin heç bir hüquqi əsası yoxdur». Yalnız H.Əliyevin V.Çernomırdin və A.Kozırevlə telefon danışıqları və məsələnin mahiyyətinə aydınlıq gətirməsi ehtirasları səngitdi [5, 214].

Rusiya XİN-nin bu hərəkəti bir tərəfdən müqavilədə Rusiyaya nisbətən Böyük Britaniya və ABŞ şirkətlərinin daha çox mənfəət əldə etməsi, digər tərəfdən isə Azərbaycanın Qərbə olan inteqrasiya meyllərinin güclənməsi nəticəsində Rusiyanın bu regionda tarixi maraqlarının alt-üst ola biləcəyi ehtimalı ilə bağlı idi. Baxmayaraq ki, Rusiyanı təmsil edən «LUKoyl» şirkətinin müqavilədə pay nisbəti 10 faiz, gəlirlərin bölünməsində isə 2,5 faiz idi və «LUKoyl» müqavilədən Azərbaycan tərəfini çıxmaqla mənfəət əldə edəcək üçüncü neft şirkəti idi [1, 100]. Rusiya Xəzərin təbii ehtiyatlarına tam mütləq nəzarəti əlində saxlamağa can atırdı.

Rusiya Azərbaycanın xam neftinin Novorossiysk limanına nəql olunması, buradan isə Bosfor və Dardanel boğazları vasitəsilə Aralıq dənizinə çıxarılmasında maraqlı idi. Rusiya XİN-nin müavini A.Çernışov qeyd etdi ki, Rusiya neft boru xəttinin hamısının Türkiyədən keçməsinin əleyhinədir və «anlaşma təmin edilməzsə, 3-4 ölkəyə sıçraya bilən savaş ortaya çıxa bilər» [9].

Lakin Qərb və Türkiyə bu varianta ciddi müqavimət göstərirdilər. Rusiyanın Xarici işlər naziri A.Kozırev bağlanmış neft anlaşmasının Rusiyanın mənafeyinə zidd olduğu üçün ölkənin Baş naziri V.Çernomırdinə Azərbaycana təzyiq göstərmək məqsədilə ona qarşı ticarət, iqtisadi və maliyyə xarakterin tədbirlər görülməsi üçün məktub göndərdiyini bildirdi. Məktubda Azərbaycan, Qazaxıstan və Türkmənistanın Xəzərin mövcud statusunu dəyişmə səyləri Rusiya XİN tərəfindən pislənir, ölkənin milli mənafeyinə zidd olduğu göstərilirdi. Azərbaycan hökumətinə qarşı iqtisadi embarqo tətbiq edilməsini tələb edən A.Kozırev bu barədə əlaqədar nazirliklərə xəbərdarlıq edildiyini də bildirmişdi [5, 215].

«Əsrin kontraktı»na regionun digər aparıcı dövləti olan İranın münasibəti də böyük maraq doğururdu. İran jurnalisti Əmir Tahir qeyd edirdi ki, Xəzər dənizində neft hasilatının artması ilə yanacağın qiymətlərinin düşməsi ehtimalı İranı narahat edən əsas məsələdir. İran hakim dairələrində də Xəzərin statusu müəyyən edilmədən Xəzər şelfındəki yataqlardan neft çıxarılması ciddi narazılıqla qarşılanmışdı. «Əsrin kontraktı» imzalandıqdan dərhal sonra məlum oldu ki, İranın mövqeyi bir çox parametrlər üzrə Rusiyanın mövqeyi ilə üst-üstə düşür. Rusiyanın İrandakı səfirinin məsləhətçisi cənab Mustafabəyli qeyd edirdi ki, İran-Rusiya baxışları çox cəhətdən uyğun gəlir. İlk dəfə idi ki, Rusiya və İranın Azərbaycana münasibətdə maraqlarının ümumiliyi bu qədər açıq şəkildə bəyan edilirdi.

1994-cü ilin noyabrında Azərbaycan cənub qonşusunu «sakitləşdirmək» üçün İranın «neft kontraktı»nda iştirakını təmin etməyə söz verdi. Bu təklifdən sonra İran dərhal bir çox «inciklikləri» unudaraq, hətta Xəzər dənizinin statusu məsələsində Azərbaycanın tərəfini tutdu [10]. Xəzərin təbii ehtiyatlarından istifadə edilməsinə İranın da cəlb edilməsi Xəzərin statusu məsələsində onun Rusiya mövqeyindən çəkindirilməsi məqsədini güdürdü. Ona görə də bir sıra beynəlxalq problemlərdə Rusiya ilə həmrəylik göstərən İran «Əsrin müqaviləsi»ni nisbətən soyuqqanlılıqla qarşıladı. Ancaq Qərb şirkətləri İranın konsorsiumda iştirakına qəti etiraz etdilər.

1995-ci ilin aprelində İranın neft konsorsiumunda iştirakı məsələsi ABŞ-ın təzyiqi ilə gündəmdən çıxarıldı, ona ayrılmalı olan pay isə Türkiyəyə və ABŞ-ın Ekson şirkətinə verildi [10]. 1995-ci il aprelin 21-də İran İslam Respublikasının Bakıdakı müvəqqəti işlər vəkili M.Tahirini qəbul edən H.Əliyev yaranmış gərginliyi bir qədər azaltmaq üçün Azərbaycan-İran dostluğunun sarsılmazlığını bir daha bəyan edərək İranın gələcəkdə digər neft yataqlarının işlənməsinə cəlb edilə biləcəyini vurğuladı. İran tərəfinə bildirildi ki, Azərbaycan «Şahdəniz» yatağının birgə işlədilməsində maraqlıdır [10].

Yuxarıda qeyd edildiyi kimi Rusiya ilə İran neft kontraktının imzalanmasına eyni mövqedən yanaşırdılar. Rusiya Xarici işlər nazirliyinin mətbuat katibi Q.Karasin kütləvi informasiya vasitələrinə verdiyi müsahibəsində qeyd

etmişdir ki, Xəzərin bugünkü statusunun 1921 və 1940-cı illər SSRİ ilə İran arasında imzalanan anlaşmalara əsasən qəbul olunduğunu və bu statusun dəyişilməsi üçün ancaq region ölkələrinin yeni bir müqavilə imzalaması lazımdır. Q.Karasin «Xəzər ölkəsi olmayan tərəflərin bu ölkələrə problemi necə həll etmələri gərəkliyi məsələsində müdaxilə etmələri və ya direktivlər vermələrini on yumşaq dillə uyğun olmadığını» bildirmişdi [11]. Rusiyanın Baş nazirinin müavini A.Bolşakovun Tehran səfərindən sonra yayılmış birgə Rusiya-İran bəyanatında qeyd edilirdi ki, Xəzər dənizinin və onun mənbələrinin istismar edilməsi ilə bağlı məsələlər beynəlxalq müqavilələr çərçivəsində və sahilyanı beş ölkənin iştirakı ilə həll olunmalıdır. Bəyanatda daha sonra qeyd edilirdi ki, yalnız sahilyanı ölkələrin Xəzər dənizində strateji mənafeləri vardır. Bu xüsusda başqa ölkələrin iddiaları qəbuledilməzdir. Üçüncü ölkələrin haqları yoxdur ki, Xəzər dənizinin istismar edilməsi yollarını Xəzəryanı dövlətlərə sırısınlar [12].

ABŞ-ın təkidi ilə Xəzər neftinin istismarı və ixracı layihələrindən kənarda qalan İran təbii ki, Xəzərin statusu məsələsində öz mövqeyini sərtləşdirir, ilk növbədə Azərbaycanın milli maraqlarına təhlükə olan İran-Rusiya-Ermənistan alyansını möhkəmləndirməyə çalışırdı. Azərbaycan-İran münasibətlərinin bəzən ABŞ-ın zövqünə uyğun nizamlanmasının milli maraqlarımıza nə qədər müvafıq olduğunu məşhur Amerika siyasətçisi Z.Bjezinski daha dürüst aydınlaşdırmışdı: «Danılmazdır ki, Rusiya Ermənistandan Azərbaycana təzyiq vasitəsi kimi istifadə edir. Bu da həqiqətdir ki, ABŞ-ın İran barəsində sərt və müdriklikdən uzaq siyasəti Azərbaycanın təklənməsi üçün Rusiyanın göstərdiyi səyləri asanlaşdırır. Üstəlik, Azərbaycanda siyasi sabitlik bir insanın - prezident H.Əliyevin qətiyyətindən asılıdır...» [13, 154].

Bundan əlavə «Əsrin müqaviləsi»ndə Türkiyənin 1,75 faiz pay alması ölkənin müxalifət düşərgəsində, bir çox mətbuat orqanlarında mənfi hal kimi qiymətləndirilirdi. Bunun nəticəsi olaraq 1995-ci ilin aprelində Türkiyənin Baş naziri T.Çillərin Azərbaycana səfəri zamanı Beynəlxalq Neft Konsorsiumunda Türkiyənin payının 1,75%-dən 6,75%-ə qədər artırılması haqqında saziş imzalandı [14, 314]. Artıq Türkiyə ərazisindən keçərək Aralıq dənizinə gedən ikinci neft kəmərinin zəruriliyi nəticəsində dəhliz olmaq istiqamətində geniş imkanlar əldə etdi və onun geosiyasi əhəmiyyəti gücləndi.

1995-ci il oktyabrın 9-da Azərbaycan hökuməti və ABŞ ilkin Xəzər neftini iki istiqamətdə dünya bazarına çıxarmaq barədə qərar qəbul etdilər: l. Qərb marşrutu: Gürcüstanın Qara dəniz Sahilindəki Supsa limanına çəkiləcək neft kəməri; 2. Şimal marşrutu: Çeçenistan ərazisindən Rusiyanın Qara dənizdəki Novorossiysk limanına çəkiləcək neft kəməri [4, 312]. Göründüyü kimi, ilkin neftin ixrac marşrutları ilə bu marşrutların məhz Gürcüstan və Rusiya ərazisindən keçməsi bir çox siyasi faktorlarla bağlı idi. Bu məsələdə Rusiya amilinin nəzərə alınması və ona ixrac marşrutundan pay verilməsi şimal

qonşusunun regiondakı tarixi maraqlarından irəli gəlirdi. Həmçinin bu addımı atmaqla Azərbaycan rəhbərliyi əsas strateji boru kəməri məsələsində rəsmi Moskvanı neytrallaşdırmaq məqsədinə nail olmaq istəyirdi. Qərb isə əsas neft kəmərinin əvvəl-axır Türkiyə vasitəsilə Aralıq dənizinə çıxarılacağına əmin olduğu üçün ilkin neftin iki marşrut üzrə ixrac edilməsi qərarını məmnun qarşıladı.

1995-ci il dekabrın 8-də Türkiyə Prezidenti S.Dəmirəl və Azərbaycan Prezidenti H.Əliyevin imzaladıqları birgə bəyanatda da tərəflər Xəzər dənizinin Azərbaycan sektorundan çıxarılacaq ilkin neftin iki istiqamətdə dünya bazarına çıxarılması haqqında Azərbaycan Respublikasının və neft konsorsiumunun qərarından məmnun olduqlarını qeyd edərək, əsas neft kəmərinin Türkiyənin Ceyhan limanına yönəldilməsi barədə istəklərini təsdiq etdilər [15].

Azərbaycan rəhbərliyi haqlı olaraq ümid edirdi ki, Xəzərin neft yataqlarının işlənməsinə külli miqdarda investisiya qoymuş ABŞ da daxil olmaqla, Qərb ölkələri Azərbaycanı Ermənistan və Rusiya ilə mübarizədə daha fəal surətdə dəstəkləyəcək. Lakin bu ümidlər özünü qismən doğrultdu. H.Əliyevin qətiyyəti, əzmkarlığı və uzaqgörənliyi nəticəsində 1994-cü ilin mayında atəşkəsə nail olundu [16, 207]. Nəticədə beş ildən artıq davam edən hərbi əməliyyatlar dayandırıldı, münaqişənin sülh yolu ilə dayandırılması üçün ilkin şərait yarandı. “Əsrin müqaviləsi”nin imzalanması münaqişənin sülh yolu ilə həllinə ümidləri daha da artırdı.

H.Əliyev iqtisadi və hərbi faktorları nəzərə alaraq Azərbaycanın regionda ənənəvi tərəfdaşlarından olan Rusiyaya doğru üz tutsa da, öz yeni regional tərəfdaşlarını qoruyub saxlaya bildi. Rusiyaya doğru bu addım, beynəlxalq təşkilatların, İran və Türkiyə kimi regional dövlətlərin siyasi aktivliyi Dağlıq Qarabağ münaqişəsinin nizamlanması üçün yeni imkanlar yaradırdı.

## ƏDƏBİYYAT

1. P.Ş.Səfərov. 90-cı illərdə Azərbaycanın beynəlxalq vəziyyəti və xarici siyasəti. Bakı, 1999, 117 s.
2. Azərbaycan tarixi. Bakı, BDU, 2010, 544 s.
3. XX əsr Azərbaycan tarixi II cild. Ali məktəblər üçün dərslik. Bakı, Təhsil, 2009, 560 s.
4. Чернявский С.И. Новый путь Азербайджана. М., Молодая гвардия, 2002, 350 с.
5. Pərviz Səfərov. Azərbaycan Respublikası Rusiya, İran və Türkiyənin geosiyasi maraqlarında. Bakı, Elm və Təhsil, 2011, 260 s.
6. ARAS arxivi, fond 2941, siyahı 1, iş 205
7. Abdullazadə F. H.Əliyev. Bakı, XX əsr, 1987, 115 s.

8. Султанов Ч.А. Нефтегазовые стратегии и политика в XXI в. Б., Нурлан, 2008, 704 с.
9. “Hürriyet”, 1994, 20 ekim
10. Бюллетень агентства «Туран», 1995
11. “Posta”, 1995, 9 iyun
12. “Abrar”, 1995, 31 oktyabr
13.Бжезинский З. Великая шахматная доска. М., Международные отношении, 1999, 256 с.
14. Heydər Əliyev və Şərq (Türkiyə Respublikası) III kitab. Bakı, Təhsil, 2003, 472
15. “Azərbaycan” qəzeti. 1995, 12 dekabr
16. Məmmədov N. Dağlıq Qarabağ gerçəkliyi: soyqırımı, terror, deportasiya, işğal (XX yüzillilk). Bakı, Təhsil, 2009, 272 s.

**UOT 902**

# CƏNUBİ QAFQAZIN HOLESEN DÖVRÜNDƏ YENİ İSTEHSAL TƏSƏRRÜFATININ FORMALAŞMASINDA 8.2 Ka İQLİM AMİLİ

***Əjdər Yusif oğlu Babazadə***
***AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu***
***ejdererhun@gmail.com***

**Açar sözlər:** *Cənubi Qafqaz, Azərbaycan, Cənub-Şərqi Asiya, neolit mədəniyyəti, 8.2 Ka iqlim hadisəsi*

*Bəşər tarixinin önəmli iqtisadi modellərindən olan istehsal təsərrüfatının Cənub-Qərbi Asiyada formalaşması on min il bundan əvvələ təsadüf edir. Bildiyimiz kimi, Cənubi Qafqazda neolit dövrü üçün xarakterik olan təsərrüfat sistemi Ön Asiyadan təxminən 3000 il sonra meydana çaxmışdır. Cənubi Qafqazda neolit dövrü Cənub-Qərbi Asiyada "Neolit Paketinin Yayılması" deyilən bir prosesin e.ə.VII minilliyin ortalarından başlayaraq, neolitin nüvə mərkəzləri sayılan Şərqi Aralıq dənizi hövzəsi (Levant-Suriya-Fələstin), Mesopotamiya və Orta Anadoludan Qərbi Anadolu, Balkan, Cənub-Şərqi Avropaya, Şimali İran, Xəzər sahilləri və digər coğrafiyalara yayılması, həmçinin onun əsas səbəbi kimi 8.2 Ka iqlim hadisəsi ilə eyni dövrə təsadüf etməsi maraqlıdır. Təqdim olunan məqalədə Cənubi Qafqazda istehsal təsərrüfatına bağlı neolit modelləri, Cənub-Qərbi Asiyada ekoloji sistem və qlobal təsir gücünə malik 8.2 Ka iqlim amili tədqiq olunur.*

# ФАКТОР 8.2 КА В ФОРМИРОВАНИИ НОВОГО ПРОИЗВОДСТВЕННОГО ХОЗЯЙСТВА В ПЕРИОД ГОЛОЦЕНА НА ЮЖНОМ КАВКАЗЕ

***Аждар Бабазаде***

**Ключевые слова:** *Южный Кавказ, Азербайджан, Юго-Восточная Азия, культуры Неолита, климатическое событие 8.2 Ка*

*Неолитическая экономика, которая является первой производственной моделью, возникла 9-10 тысяч лет назад в Юго-Западной Азии. А на Южном Кавказе, модель производственного хозяйства появилась через 3000 лет после "первоначальной родины"*

*(исторической территорией именуемой Левантом, северными территориями Месопотамии и современной Сирии, юго-Восточной Анатолии) неолита. 3000-летняя разница во времени между кавказским неолитом заставляет задуматься над некоторыми вопросами. Представленная статья фокусируется на изучении климатического феномена 8.2 Ка, который представляется одним из факторов, влияющих на неолитическую экономику в целом, в том числе Кавказа. Совпадение возникновения неолита на Южном Кавказе, и начало так называемого процесса "Распространения Пакета Неолита" в Юго-Западной Азии с середины седьмого тысячелетия до н.э., от первоначального центра до западной и восточной Анатолии, Балкан, Юго-Восточной Европы, Ирана и в других географиях с климатическим явлением 8.2 Ка ставит исследователей перед еще до конца изученным фактом. Согласно некоторым исследованиям, климатическое явления 8.2 Ка является основной причиной этого процесса. Однако, согласно другой гипотезе, климатическое явление 8.2 Ка считается одним из стимулирующих эффектов, а не причиной распространения неолитического социально-экономического пакета в других регионах. Чтобы понять причины и истоки неолитического процесса на Кавказе, в этой статье были сопоставлены экологические системы и культурно-экономические ситуации на Кавказе и в соседних регионах в Среднем Голоцене.*

*Основываясь на сравнения неолитической жизни, социально-экономической модели, а также архитектурных структур, артефактов данного периода Кавказа и Анатолии, можно прийти к заключению, что между двумя соседними регионами существовали некоторые значимые различия. В целях изучения межкультурных сходств и различий между двумя регионами, мы полагаем, что применение археометрических методов в вопросе изучения мезолитических традиций в сложении южнокавказского неолита, а так же привлечение палеоклиматологии и палеогеографии в исследования производящих хозяйств Южного Кавказа будут способствовать решению этих проблем.*

## 8.2 KA CLIMATE EVENT FACTOR IN ARİSE OF NEW ECONOMIC AGRICULTURE İN HOLESEN PERIOD İN SOUTH CAUCASUS

***Ajdar Babazadeh***

**Key words:** *South Caucasus, Azerbaijan, South-east Asia, Neolithic Cultures, 8.2 Ka climate event*

*Neolithic economic system which was the first manfactured model emerged 9-10 000 years before in South-west Asia. The emergence of Neolithic economics in the South Caucasus, happened 3000 years later than South-west Asia, which known as a center of Neolithic. So, 3000 years time difference creates news questions about this issue. This article dedicated to learn influence of 8.2Ka climate event in formulation of Neolithic economics. The birth of Neolithic in Caucasus appeared after Emergence of Neolithic in its initial center-South-west Asia in B.C VII millenium and spreading to West Anatolia, Balkans, South-east Europe, East Anatolia, Iran and other regions, in addition, coincidence of this process with 8.2 Ka climate event is thought-provoking. According to some researchers, main cause or impetus of this process is 8.2 Ka climate event. But, according to the opposite opinion, 8.2 Ka event is not main cause of spreading Neolithic in these geographies, İt was just a stimulating influence. İn order to analyse the causes and origins of Neolithic in Caucasus in Middle Holocene period, we made an analogy by looking through ecological system in Caucasus and cultural and economical circumstances in neighboring regions in this article. The results of comparisons of Neolithic lifestyle and social-economic model between Caucasus and Anatolia illustrate remarkable differences. İn my opinion, in order to learn cultural similarities and differences between two regions, archeological researchs, to investigate Mesolithic period with new archaeometry methods, to learn South Caucasus according to paleoclimatology and paleogeography will help so solve this problem.*

**Cənub-Şərqi Asiyada və Cənubi Qafqazda yeni iqtisadi modellər.** Pleistosenin son mərhələsinə təsadüf edən, “Younger Dryas” (Gənc Diryas) (e.ə 12000-10000 illər arasını əhatə etmişdir) kimi bilinən quru və soyuq iqlim şəraitinin ardından gələn Erkən Holosendə şimal yarımkürəsində “iqlimdə optimallaşma”-yumşalma şəraiti yaşanmışdır. E.ə. 9000-6000-ci minilliklərə gəldiyimizdə, şimal yarımkürəsində qış və yay arasındakı fərqliliklər artmış, buzlar şimala doğru çəkilmiş, Sibirin meşələri genişlənmiş, musson yağışlar şiddətlənmiş, Böyük səhranın cənub bölgələri bitki çeşidləri ilə örtülmüşdür [24,s.114]. Eyni zamanda Şimali Afrika, Ərəbistan yarımadası və Mesopotamiya bölgələrində yağışların artması qeyd olunur. İqlimin əlverişliliyi, flora və faunanın da zənginləşməsi insan qruplarının fəaliyyətlərində ciddi dəyişiklik yaratmışdır [14,s.30]. Belə ki, Holosenin əvvəllərində iqlimin optimallaşmasından ən çox təsirlənən bölgələrin önündə Cənub-Qərbi Asiya gəlir. Arxeoloji tədqiqatlara görə yaranan ekoloji dəyişiklərin baş verdiyi ictimai-sosial-iqtisadi texnoloji kəşflərin izləndiyi bölgələr arasında Levant (Suriya-Fələstin), Anadolu (Cənub, Cənub-Şərqi və Orta Anadolu), Şimalı

Mesopotamiya, Şimal-Qərbi Zaqros (İran və İraq) xüsusilə önə çıxır. Bərəkətli torpaqlar və ya "Özək Bölgə (core area) olaraq adlandırılan coğrafiyada e.ə. IX-VIII minilliklərdə bir çox flora və fauna növlərinin mədəniləşməsinə və əhliləşdirilməsinə başlanmışdır [25,s.11598].

Bu gün əkinçiliyin və qida rasionumuzun təməlini təşkil edən bitkilərin səkkiz növünün *ekinorn* (Triticum monococcum), *emmer* (Triticum diccocum), *arpa* (Hordeum vulgare), *mercimek* (Lens culinaris), *noxud* (Pisum sativum), *acı vetch* (Vicia ervilia), *kətan* (Linum usitatissimum) və heyvanların dördünün: qoyun, keçi, donuz və inək (cattle) əhliləşdirilməsi 8-10 min il öncə Anadolu, Mesopotamiya, Levant kimi coğrafi bölgələrdə istehsal təsərrüfatının özəyini təşkil edir [11,s.618; 13,s.194]. Əkinçiliyin və maldarlığın ortaya çıxması və inkişafı, artıq məhsulun depolanması əhali sayının artmasına, sosial həyatda, dünyəvi və dini görüşlərdə, qruplar, ailələr və fərdlər arasında "sosial status" kimi fərqliliyə, fərdiləşməyə, təşkilatlanmaya, köç axınlarının artmasına gətirib çıxartdı [9,s.62-63].

Həmin dövrdə Qafqazın ekoloji və mədəni durumuna nəzər saldığımızda, Erkən Holosen dövründə ekoloji dinamik hərəkətlənmə daha çox özünü Xəzər dənizinin növbəti su səviyyəsinin çəkilməsi ilə göstərir. Holosenin əvvəllərində Qlobal dəniz səviyyəsinə diqqət etdiyimizdə, 13700 il öncə dünyada dəniz suyu bu günkü səviyyəsindən 75 m yüksək, 8700 il öncə isə 20 m yüksək idisə, yalnız Xalkolit (e.ə VI-V minillik) dövründə təxmini olaraq bu günkü səviyyəsinə yaxınlaşmışdır [16,s.365]. Belə ki, Xəzərin səviyyəsinin yüksəlişi Kiçik Qafqazın dağətəyi və yüksək teras bölgələrində sular altında qalan sahələrdə güclü allüvial çöküntülər və əkinçilik üçün əlverişli allüvial qat yaratmışdır. Həmin bölgələrdə-Mil, Muğan, Gəncə-Qazax, Kür və Araz çayının qollarında məskunlaşma prosesləri başlamışdır. Neolit, Xalkolit və Tunc dövrünün məskənlərinin böyük əksəriyyəti bu düzənliklərdə və su hövzələrində cəmlənmişdir [19,s.124-125].

E.ə. X-IX minilliklərdə (Erkən Holosen) Cənub-Şərqi Asiyada iqlim şəraitinin dəyişməsinin nəticəsi olaraq məskunlaşma modelləri və istehsal təsərrüfatının meydana gəldiyi dövrdə Qafqaz bir neçə mağara və qaya sığnağı kimi mezolit və ya "Proto neolit/Pre-neolit" düşərgələri ilə xarakterik sayılır. Həmin dövrün daş alətlərinin əsas xarakterik tiplərini geometrik mikrolitlər təşkil edir [2, s.37; 3,s.224-230; 4,s.281]. Daş alət çantasında dövrün ənənəvi mikrolitlərinin olması, ovçu-yığıcı-balıqçılıq təsərrüfatının hələ də davam etdiyini göstərir. E.ə. XII-VIII minillikləri əhatə edən dövrün ardından paleolitdən gələn mədəni-sosial ənənələr, e.ə. VII minillikdə Cənubi Qafqazda yeni istehsal təsərrüfatının ortaya çıxması ilə əvəz olunur. Bu özündən əvvəlki dövrlərdən həm alət texnologiyası, həm də sosial-iqtisadi formaların fərqli səciyyəsi, toplumun iqtisadi-ictimai-sosial quruluşununda yeni texnoloji modellərin yarandığını göstərir. Qafqazın yeni iqtisadi sisteminin özündən

əvvəlki proseslərdən fərqli bir forma ilə görünməsi bəzi məsələlər haqqında düşünməyə əsas yaradır. Minilliklər boyu davam edən sosial və iqtisadi sistemin yerini "ani" bir dəyişikliyin alması səbəbləri araşdırılarkən, ən çox üzərində durulan problemlərdən biri iqlim amili hesab edilir.

Aparılan araşdırmalar nəticəsində Orta Holosendə (e.ə VII-V minillik) "ani çıxış" olaraq görülən Qafqaz neolitinin əsas hərəkətverici qüvvəsi kimi "Yaxın Şərq" təsiri önə sürülsə də, ancaq Cənubi Qafqazın keramikalı neolit abidələrinin memarlıq quruluşu və digər artefaktlar, xüsusən daş və sümük alətlər Ön Asiyadakı neolit mədəniyyətindən ciddi dərəcədə fərqlənir. Belə ki, Qafqaz ilə Cənub-Qərbi Asiyanın keramikalı neolit saxsı məmulatlarında "toppuzlu" (knob) dekorativli qablardan başqa bənzərlik görmək çətindir [22,s.23-24].

Cənub-Qərbi Asiyanin PPN (Pre Pottery Neolit) sonunda bir "çöküşün" yaşandığı və "Neolit paketlərinin" qonşu bölgələrə yayılması ilə, Balkan, Avropa və o cümlədən Qafqazda "neolitləşmə" hadisəsi başlamışdır [21,s.37; 22,s.17]. Yeni yaranan iqtisadi və texnoloji modellərin ortaya çıxma səbəbləri araşdırılarkən e.ə. VII minillikdə Qafqazın cənub və cənub-qərb bölgələrindəki ekoloji və iqtisadi-sosial həyatda dəyişikliklərə səbəb kimi 8.2 Ka hadisəsinə baxmaqda fayda vardır. Cənub-Qərbi Asiyada tarixə qədərki dövrü öyrənən tədqiqatçılar Aralıq dənizinin şərq bölgələrində, Mesopotamiya, Anadolu və qonşu ərazilərdə e.ə. VII minillikdə iqtisadi və sosial həyatda "ani" dəyişikliyin ən əsas səbəblərindən birinin 8.2 Ka iqlim anomaliyaları ilə bağlı olduğunu ön plana çəkirlər [26,s.16; 7,s.66; 27,s.5].

**Holesendə Qlobal İqlim Dəyişikliyi: 8.2 Ka İqlim Fenomeni.** Erkən Holosen (e.ə. 10.000 ci illərdən) dövrü başladıqdan sonra Yer kürəsində 10 min il içində qlobal əhəmiyyətli ekoloji dəyişiliklər yaşanmışdır. Xüsusən elmi ədəbiyyatda RCC- *Rapid Climate Change* (sürətli iqlim dəyişikliyi) olaraq bilinən hadisələrin bir çoxu aşağı-yuxarı min illik zaman aralığı ilə diqqət çəkir: kalibrə edilmiş tarixlər e.ə. 9000–8000, 6000–5000, 4200–3800, 3500–2500, 1200–1000, 600–150-ci illəri əhatə edir [6,s.1257-1258; 8,s.285]. Mövzumuzla əlaqədər iqlim dəyişiklikləri içində bizim üçün önəm qazanmış olan 8.2 Ka hadisəsini araşdıracağıq.

Şimali Atlantikdə ortaya çıxan "8.2 Ka iqlim hadisəsi[1]" paleoklimatoloji proseslərin ümumi adıdır. Eyni zamanda bu ad "Norveç iqlim hadisəsi" kimi də elmi ədəbiyyata keçmişdir [1,s.484]. Tədqiqatlar Avropa iqlimində görünən dəyişikliyin insan qruplarının sosial və iqtisadi həyatına ciddi təsirini göstərirlər [5,s.192; 12,s.2]. Soyuq və quraq havaların ani gəlişi, Skandinaviyanın (Fen-

[1] 8.2 Ka: (kiloyears) ilk dəfə İsveçireli botanik uzmanı Heinrich Zoller tərəfindən 1960 cı ildə Alp dağlarında "Mixos" kimi bilinən Valle Mesolina adlı vadidə bir iqlim anomaliyası qeyd edir. Bu e.ə 6200-cü illərdə şiddətli bir buzlama dövrü olaraq tarixə "Mixos saldırısı" kimi keçmişdir [24, s.116].

noscandia) həm şimal, həm də cənub sahil bölgələrində yarımqazma evlərin (pit-houses) yox olması və yeni litik texnologiyanın inkişafı, mobil qrupların hərəkətlənməsi kimi mədəni hadisələr xronoloji olaraq e.ə. 6600-6200-ci illəri əhatə edir [17,s.293]. 8.2 Ka iqlim hadisəsinin Avropada ən yayğın görülən bölgələrindən biri Qrenlandiyadır. Burada temperatur 20 il içində 3.3 - 11°C (ortalama) soyumuş və atmosfer metan konsentrasiyası 40 il ərzində 80-25 ppb azalmışdır. Bir çox paleoklimatoloji proyeksiyadan əldə edilən yarımkeçirici miqyasda soyutma və qurutma, ehtimal ki, bu emissiyanın azalmasına səbəb olmuşdur [15,s 1213, Fiq.1].

Mezolit mədəniyyətinin sosial-iqtisadi həyat şəraitinə təsir edən 8.2 Ka iqlim hadisəsi sadəcə Avropa sərhədləri ilə məhdud qalmamışdır. Avropadan kənarda 8.2 Ka iqlim hadisəsinin materiallarla izləndiyi ikinci coğrafi bölgə Aralıq dənizi və Cənub-Qərbi Asiya hesab olunur. Soyuq və quraq iqlim şəraiti Aralıq dənizi ölkələrində önəmli mədəni-sosial-iqtisadi dəyişikliklərə səbəb olmuşdur [23,s.237].

Orta Holosenə təsadüf edən 8.2 Ka iqlim hadisəsi Cənub-Qərbi Asiyada keramikasız neolitdən (PPN) keramikalı neolitə (PN) keçid mərhələsində meydana çıxmışdır. Quru və soyuq iqlimin təsiri nəticəsində əhali Cənub-Qərbi Asiyanın cənubi Levant bölgəsində neolit mərkəzlərindən olan Ain Ghazal, Anadoluda Yumuktəpə, Çatal Höyük və Suriyada Tell Sabi Abyad kimi abidələrdə PPNC-dən (Pre Porrery Neolit C) böyük və kiçik ölçüdə köç etmişdir [18,s.192]. Eyni zamanda Şimali Mesopotamiyada Hassuna populasyonunda istehsal təsərrüfatında yağış sularının azalması ilə əkinçiliyin çöküşü və cənubi Mesopotamiyada dəmyə əkinçiliyinin ortaya çıxması kimi hadisələrlə xarakterizə edilən bir iqtisadi modeldən bəhs edilir [10,s.7].

**Mübahisəli arqumetlər.** Atlantik okeanının və Qrenlandiyanın soyuq, quru 8.2 Ka iqlim hadisəsinin Şərqi Aralıq dənizi və Cənub-Şərqi Asiyada e.ə. VII minilliyin sonu - VI minilliyin əvvəllərində yarada biləcəyi təsir gücü alimlər tərəfindən mübahisə obyekti olaraq qalır. E.ə 6500-cü ildən başlayaraq bu coğrafiyada neolit yaşam tərzində bir dəyişiklik görünür. İstehsal sahəsində yeni bir mərhələ-"ikinci məhsul" dövrü başlayır. Taxıl-buğda və digər bitkilərdən sonra, əhliləşdirilmiş heyvanlar sadəcə qida ehtiyacı üçün deyil, süd məhsulları, dəri və yunundan istifadə edilmək üçün də faydalı idi. Bununla bərabər, hesab və qeydiyyata alma vasitələri (jeton), sosial statusu və mülkiyyəti simvolizə edən möhürlər, gil qabların üz dekorativlərində zəngin boyama işçiliyi, daş və digər alətlərin geniş coğrafiyalarda bənzərlik göstərməsi faktları aşkarlanıb [24,s.118]. Bu və ya digər dərin köklü dəyişikliklər, "İkinci neolit inqilabı" olaraq dəyərləndirilir [9,s.139-140].

Əkinçilikdə və heyvandarlıqda irəliləyişlərin və iqtisadi texnoloji modellərin genişləməsinin başlıca təsiri olan iqlim amili, xüsusən də 8.2 Ka hadisəsi hipotezi dövrün elmi mübahisəsini yaradır. Bu dəyişikliklərin başlıca

səbəb olmadığını düşünən qarşı tərəf, bir neçə arqument irəli sürür: birincisi, başqa coğrafiyalarda əkinçilik və heyvandarlıq fəaliyyətləri üçün uyğun ekoloji vəziyyət olmadıqda, yeni teknologiyaların yaradılması imkansız görünür. İkincisi, bu dönəmin sosial-iqtisadi sistemini yıxacaq qədər təsirə sahib olsa da, Kiçik Asiyanın paleogeoloji qeydlərdə 8.2 Ka hadisəsini əks etdirən qalıqlara rast gəlinməyib. Üçüncüsü, Anadolu və Suriya-Mesopotamiya bölgələrində 8.2 Ka hadisəsindən əvvəl də geniş əkinçilik fəaliyyətinə rast gəlinir [9,s.141-142]. Lakin 8.2 Ka iqlim hadisəsinin təsir mexanizminin böyük olduğunu düşünən tədqiqat qrupu Tell Sabi Abyad üzərindən apardığı araşdırmalara dayanaraq e. ə. VII minilliyin sonunda neolit iqtisadi və sosial həyat tərzində ani dəyişikliklərin kökündə 8.2 iqlim pozulması olduğunu müdafiə edir [5; 23]. Lakin bir çox alim arxeoloq 8.2 Ka-nı PN məskənlərində görünən sosial-iqtisadi dəyişikliyin səbəbi olaraq deyil, sürətləndirici hərəkət mexanizmi olaraq qiymətləndirir [8; 9,s.142].

**Nəticə.** İnsan qrupları tərəfindən Paleolit dövründən məskən edilən Cənubi Qafqaz bölgəsi minillər boyu insanlar tərəfindən aktiv istismar edilmişdir. Paleolitdən bəri bilinən mağara və qaya sığnaqları və düşərgələri ilə Qafqaz, Asiyada ilk insan məskənlərindən biri statusuna malikdir. Lakin coğrafi şəraitin əlverişli olmasına baxmayaraq, Cənub-Qərbi Asiyadan təxminən 3000 il sonra Cənubi Qafqazda neolit iqtisadiyyatının görünməsi müəyyən suallar yaradır. Cənub-Qərbi Asiyada neolit mədəniyyətlərinin öyrənilməsində 8.2 Ka iqlim hadisəsinin araşdırmaların mərkəzində durmasına rəğmən, Cənubi Qafqazda bu tədqiqatlara rast gəlinməməsi problemli görünür.

Neolitin yayılmasında iqlim amilinin əsas göstərilməsinə rəğmən, sosial-iqtisadi amillər mühüm təsir olaraq diqqət çəkir. İstər iqlim təsirlərinin nəticəsi olsun, istər sosial-iqtisadi amillər olsun Cənubi Qafqazda neolitin cənub-qərb qonşularından 3000 min il sonra ortaya çıxması və bölgəyə "xarici" təsirin olması mübahisə mövzusudur. Belə ki, Cənubi Qafqazda erkən əkinçi-maldar təsərrüfatına və Cənub-Qərqi Asiyanın neolitinə nəzər saldıqda, bölgələr arasında fərqli mənzərəyə şahid oluruq. Xüsusilə, Anadolunun keramikalı neolitinin həm məskunlaşma modellerinə, həm də daş və sümük alətlər çantasına baxdıqda fərqlilik görünür.

Qafqazda neolitləşmə prosesinin səbəblərini və kökənlərini anlamaq üçün bu məqalədə Erkən Holosendəki ekoloji sistemə və qonşu bölgələrdəki mədəni-iqtisadi və ekoloji durumlara baxaraq analogiya aparılmışdır. Bütün bunlar Cənubi Qafqazın istehsal təsərrüfatında "xarici" amillərin rolu ilə bərabər, yerli ənənələrin də davamının olması faktını gücləndirir. Fikrimizcə, hər iki bölgə arasında mədəniyyətlərarası bənzərlik və fərqliliyin öyrənilməsində 8.2 Ka kimi iqlim proseslərinin tədqiqatlara cəlb edilməsi müsbət təsirini göstərəcəkdir.

## ƏDƏBİYYAT

1. Alley R.B., Mayewski P. A., M. Stuiver T., Taylor K. C., Clark P. U. Holocene climatic instability: A prominent, widespread event 8200 year ago. *Geology,* 25 (6)1997, s.483-486.

2. Rüstəmov C. Qobustan dünyası. Azərnəşr, 1994, 176 səh.

3. Rüstəmov, C. N., Muradova, F. M. (2008a). Azərbaycanın Mezolit Düşərgələri, *Azərbaycan Arxeologġyasi Daş Dövrü.* AMEA, Arxeologiya ve Etnografiya Ensititutu (s.321-335), c. 1, Baki: Şərq-Qərb.

4. Nishiaki, Y., Guliyev, F., Kadowaki, S. (2015a). Chronological Contexts of the Earliest Neolithic In The Southern Caucasus: Radiocarbon Dates for Göytepe And Hacı Elamxanlı Tepe, West Azerbaijan. *American Journal of Archaeology*, 119, 3, s. 279–294.

5. Budja M. The 8200 BPcal “climate event” and the process of neolithization in south-eastern Europe. *Documenta Praehistorica* XXXIV, 2007, s. 191-201.

6. Bond G., Showers W., Cheseby M., Lotti R., Almasi P., de Menocal P., Priore P., Cullen H., Hajdas I. and Bonani G. 1997. A pervasive millennial-scale cycle in the North Atlantic Holocene and glacial climates. *Science 29, 1997, s. 1257–1265.*

7. Clare L., Rohling E.J., Weninger B., Hilpert J. Warfare in Late Neolithic\Early Chalcolithic Pisidia, Southwestern Turkey. Climate induced social unrest in the late 7th millennium calBC. *Documenta Praehistorica* XXXV, 2008, s.65-92.

8. Clare L. and Weninger B. Social and biophysical vulnerability of prehistoric societies to Rapid Climate Change. *Documenta Praehistorica* XXXVII, 2010, s. 283-291.

9. During B.S. Küçük Asya'nın Tarihöncesi: Karmaşık Avcı-Toplayıcılardan Erken Kentsel Toplumlara. Koç Üniversitesi Yayınları, İstanbul, 2016, 392 s.

10. Flohr, P., Fleitmann, D., Matthews, R., Matthews, W. and Black, S. Evidence of resilience to past climate change in Southwest Asia: early farming communities and the 9.2 and 8.2 ka events. *Quaternary Science Reviews*, 136. 2016, s. 23-39.

11. Fuller Q., Willcox G., Allaby R.G. Early agricultural pathways: moving outside the ‘core area’ hypothesis in Southwest Asia Dorian. *Journal of Experimental Botany*. Vol. 63, No. 2, 2012, s. 617–633

12. Griffiths S and Robinson E. The 8.2 ka BP Holocene climate change event and human population resilience in northwest Atlantic Europe. *Quaternary International* XXX, 2017, s.1-7.

13. Hole F. Agricultural sustainability in the semi-arid Near East. *Climate of the Past,* 3, 2007, s. 193–203.

14. Kayan, İ. Jeoarkeoloji ve Paleocoğrafya araştırmalarının arkeolojideki yeri. Ünlüsoy. S, Çakırlar, C ve Çilingiroğlu, Ç red: Arkeolojide Temel Yöntemler. 2018. İstanbul. 404 s. s.17-63.

15. Kobashi, T., Severinghaus, J.P., Brook, E.J., Barnola, J.M., Grachev, A.M. Precise timing and characterization of abrupt climate change 8200 years ago from air trapped in polar ice. Quaternary Science Reviews 26, 2007, s 1212-1222.

16. Kuijt I və Goring-Morris A.N. Foraging, Farming, and Social Complexity in the Pre-Pottery Neolithic of the Southern Levant: A Review and Synthesis *Journal of World Prehistory, Vol. 16, No. 4, December 2002, s. 361-440.*

17. Manninen M. A., Tallavaara M., Seppa H. Human responses to early Holocene climate variability in eastern Fennoscandia. *Quaternary International* 465, 2018, s. 287-297.

18. Mercuri A.M Sadori L and Ollero P.U. Mediterranean and north-African cultural adaptations to mid-Holocene environmental and climatic changes. *The Holocene* (1), 2011, s. 189–206.

19. Ollivier, V., Fontugne, M. Holocene Landscape and Human Modes of Occupation in the Kura Valley Azerbaijan. B. Lyonnet, ve diğerleri (Ed). Ancient Kura 2010–2011: The First Two Seasons of Joint Field Work in the Southern Caucasus. *Archaologische Mitteilungen aus Iran und Turan,* 44, 2012, s. 126- 132.

20. Özdoğan, M. Anatolia and the Balkans: archaeology. *The Encyclopedia of Global Human Migration,* Edited by Immanuel Ness. 2013, s. 1-7

21. Özdoğan, M. “A new look at the introduction of the Neolithic way of life in Southeastern Europe: Changing paradigms of the expansion of the Neolithic way of life,” *Documenta Praehistorica*_41, 2014, s. 33-49.

22. Özdoğan, M. 2018. Some Considerations On The Emergence Of Neolithic Way Of Life In The Caucasus. Context And Connection Studies On The Archaeology Of The Ancient Near East In Honour Of Antonio Sagona Edited By Atilla Batmaz, Giorgi Bedianashvili, Aleksandra Michalewicz And Abby Robinson. 2018. Peeters Leuven – Paris – Bristol, Ct. 2018, s.15-29.

23. Plicht Van der J., Akkermans P.M.MG., Nieuwenhuyse O., Kaneda A., Russell A. Tell Sabi Abyad, Syria: Radiocarbon Chronology, Cultural Change, And The 8.2 Ka Event. *Radiocarbon,* Vol 53, Nr 2, 2011 s.229–243.

24. Tekin H. Tarihöncesinde Mezopotamya Yeni Yaklaşımlar, Yeni Yorumlar ve Yeni Kronoloji. Bilgin kültür sanat Yayın evi. 2017. 467 s.

25. Zeder A. M. Domestication and Early Agriculture in the Mediterranean Basin: Origins, Diffusion, and İmpact. Jeremy A. (ed). *University of Pennsylvania Museum of Archaeology and Anthropology*, vol. 105, 33, 2008, s. 11597–11604.

26. Weninger B., Clare L., Rohling E. J., Bar-Yosef O., Bohner U., Budja M., Bundschuh M., Feurdean A., Gebel H.-G., Joris O., Linstadter J., Mayewski P., Muhlenbruch T., Reingruber A., Rollefson G., Schyle D., Thissen L., Todorova H. and Zielhofer C. The Impact of Rapid Climate Change on Prehistoric Societies during the Holocene in the Eastern Mediterranean. *Documenta Praehistorica 36, 2009, s. 7–59.*

27. Weninger B., Clare L, Gerritsen F, Horejs B., Krauß R, Linstädter J, Özbal R., and Rohling E.J. Neolithisation of the Aegean and Southeast Europe during the 6600–6000 calBC period of Rapid Climate Change. *Documenta Praehistorica* XLI 2014, s. 1-32.

UOT 82 (091)

# MƏHƏMMƏD FÜZULİNİN "HƏDİSİ-ƏRBƏİN" ƏSƏRİNDƏ NƏZMƏ ÇƏKDİYİ BƏZİ HƏDİSLƏRİN QAYNAQLARI

***İbrahim Zöhrab oğlu Quliyev***
***AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu***
***quliyev.ibrahim.78@mail.ru***

**Açar sözlər:** *Məhəmməd Füzuli, "Hədisi-ərbəin", Azərbaycan hədisşünaslığı*

*Məhəmməd Füzulinin (öl. 1456) "Hədisi-ərbəin" əsəri Azərbaycan hədisşünaslığında mühüm yeri olan çox dəyərli bir əsərdir. Müəllif adı çəkilən əsərində Qurani-kərim başda olmaqla, həzrət Peyğəmbər (s), Əhli-beyt imamları (ə) və səhabələrdən bir çox nəql olunmuş səhih hədisləri nəzmlə bir araya toplamışdır. Onun burada istifadə etiyi hədislər daha çox əxlaqi mövzudadır. Füzulinin qırx mövzuda nəzmlə yazdığı bu əsərindəki bəzi hədislərin qaynaqlarına müraciət etdikdə, həqiqətən məlum olur ki, Füzuli özünəqədərki hədis mənbələrinə mükəmməl bələd olan bir hədisşünas olmuşdur. Burada onun adı çəkilən əsərindən bir neçə mövzunu seçib onların hansı hədislər əsasında və hansı mənbələrə istinadən nəzmə çəkildiyini aydınlaşdıraq.*

# ИСТОЧНИКИ НЕКОТОРЫХ ХАДИСОВ, ИЗЛОЖЕННЫХ МУХАММЕДОМ ФИЗУЛИ В ЕГО ПРОИЗВЕДЕНИИ «ХАДИС-И - ЭРБАИН»

***Ибрагим Гулиев***

**Ключевые слова:** *Мухаммед Физули, «Хадис-и-Эрбаин», Азербайджанском хадисоведении*

*«Хадис-и - Эрбаин» Мухаммеда Физули (умер 1456) - это ценное произведение, занимающее важное место в азербайджанском хадисоведении. В вышеупомянутой работе автор во главе с священным Кораном, собрал и изложил в стихосложении несколько достоверных хадисов Пророка, имамов Ахла - Байта (а) и многих сподвижников Пророка (мир ему). Хадисы, использованные им здесь, скорее всего, на*

*моральную тему. Когда обращаемся к источникам некоторых хадисов, использованных Физули и написанных в стихосложении на сорок тем, становится ясно, что Физули был известным хадисоведом, хорошо знакомым с источниками существовавших до него хадисов. Здесь разбираем некоторые из тем в его названной работе: уточним, на какие хадисы они ссылаются и ссылаясь на какие источники, они изложены в стихотворении.*

## THE SOURCES OF SOME HADITH MADE VERSES IN THE WORK "HADISI-ARBAIN" OF MAHAMMAD FUZULI"

***Ibrahim Guliyev***

**Keywords:** *Mahammad Fuzuli, "Hadisi-arbain", hadith studies of Azerbaijan*

*The work "Hadisi-arbain" of Mahammad Fuzuli is a very valuable work with an important place in hadith studies of Azerbaijan. The author has collected the exact hadiths written in poetry by the holy Prophet (s), Ahl al-Bayt Imams (ə) and companions at the top of Korani-Karim in his work named. The hadiths used here by him is in the theme of morality. While addressing the sources of some hadiths in this work written in poetry in forty themes by Fuzuli, it is really known that, Fuzuli was a hadith specialist being familiar perfectly with the hadith sources up to his age. Let's elect some themes from his works mentioned here, and explain on what basis and sources they have been versed.*

**1.Sadiq əməl və xeyir haqqında.**
**Müslim oldur ki, əhli-aləm ilə**
**Sidq olan qövli, xeyr ola əməli.**
**Zərərin görməyə müsəlmanlar.**
**Ola pakizə həm dili, həm əli.** (1, c. II, səh. 402).

( (Əsl) müsəlman odur ki, dünya əhli ilə danışığında (sözündə) doğru, əməlində (isə) xeyirli olsun, müsəlmanlar (ondan) zərər görməsin, həm dili, həm (də) əli təmiz olsun.) (2, səh. 48).

Allah Qurani-kərimdə belə bəyan edir:

**"Doğru danışan kişilər və qadınlar... Allah onlar üçün məğfirət və böyük bir mükafat hazırlamışdır."** (3, Əhzab, 35).

İbn Məsuddan rəvayət edilmiş bir hədisdə Peyğəmbər (s) belə buyurmuşdur:

"Doğruluq yaxşılığa aparır, yaxşılıq da cənnətə aparır. İnsan doğru danışa-danışa axırda Allah yanında doğru olaraq yazılır. Yalan insanı günahkarlığa aparır, günahkarlıq da cəhənnəmə aparır. İnsan danışa-danışa axırda Allah yanında yalançı olaraq yazılır." (4, c. I, səh. 86).

Bir əməlin doğru olmasının ən ümdə meyarı o əməlin Allahın razılığı üçün və heç bir təmənna güdülmədən yerinə yetirilməsidir. Allahın razılığından başqası üçün edilən əməl haqqında Uca Rəbbimiz belə bəyan edir: "Bu əməl mənim razılığım üçün görülməyib..." (5, c. 70, səh. 123).

**2.Pis əxlaqdan və xəsislikdən uzaq olmaq.**

Füzuli insanın pis əxlaqdan uzaq olmasını və xəsislik etməməsini belə tərənnüm edir:

**Qıl kərəm, xuyini yaman etmə**
**Ki, sana demək ola mömini-pak.**
**Olmaz, əlbəttə, əhli-imanda**
**Müctəme xuyi-zişt ilə imsak.** (1, c. II, səh. 402).

(Alicənab ol, xasiyətini yaman etmə ki, sənə pak mömin demək (mümkün) olsun. Əlbəttə, iman əhlində bəd xasiyyətlə xəsislik birləşə bilməz.) (2, səh. 50).

Məlum olduğu kimi, əxlaq sözü "xulq" sözünün cəmidir. Xulq təbiət və səciyyə (xarakter) deməkdir.

Peyğəmbər (s) belə buyurur:

"Paxıl, zahid olsa belə, cənnətə girə bilməz." (6, birr-39).

İmam Əli (ə) bu barədə buyurur: "Bədənin sağlamlığı az paxıllıq etməkdən asılıdır." (7, hikmət-248).

Həmçinin, buyurur: "Paxılların sağlamlıqlarını unutması, təəccüblüdür." (8, c. IV, səh. 199).

Əllamə Məhəmməd Təqi Şüştəri Əsməidən belə nəql edir: "Ömrünün 120 ilini arxada qoymuş köçəri bir ərəbdən uzunömürlü olmasının səbəbini soruşduqda, dedi: Çünki başqalarına həsəd aparmamışam."

Peyğəmbər (s) buyurub:

"Cənnət comərdlərin evidir."

Əbu Hüreyrənin rəvayətinə görə:

"Peyğəmbər (s) bir gün Bilalın yanına gəldi və onun yanında bir miqdar saxlanmış xurma gördü. Peyğəmbər (s): "Bunlar nədir ey Bilal?" - deyə soruşdu. Bilal: "Qış üçün saxlayıram Ey Peyğəmbər!" - deyə cavab verdikdə, Peyğəmbər (s) (s): "Saxlamaqdan ötrü Allahdan qorxmursanmı? Payla bunları ey Bilal! Ərşın sahibinin malının əksiləcəyindən qorxma!" (9, c. I, səh. 190) - deyə buyurdu.

**3.Saleh insanlarla yoldaşlıq etmək.**
**Xeyr görmək dilərsən, eylə müdam**
**Xübsurələrə bəyani-sual.**
**Rağibi-hüsni-surət ol ki, olur**
**Hüsni-surət dəlili-hüsni-xisal.** (1, c. II, səh. 403).

(Xeyir görmək istəyirsənsə, həmişə xoşüzlülərə müraciət eylə. Gözəl üzə rəğbət et ki, gözəl üz gözəl xasiyyətlərin nişanəsi olur.) (2, səh. 56).

Allah Qurani-kərimdə belə bəyan edir:

**“Ey iman gətirənlər! Allahdan qorxun və (**imanında, sözündə, işində**) doğru olanlarla olun!”** (3, Tövbə, 119).

Peyğəmbər (s) də sadiqlərlə bərabər olmağın əhəmiyyətini bu misalla nə gözəl ifadə edib:

“Yaxşı dostla pis dostun misalı misk dükanı ilə tütün çəkən insanlar kimidir. Misk sahibi ya sənə iyindən ikram edər və ya sən ondan pulla alarsan. Tütün çəkənə gəldikdə isə, o, ya sənin paltarını yandırar, ya da onun pis iyi sənə sirayət edər.” (10, büyu-38).

Peyğəmbər (s) buyurur: “Ey Əli! Üç dəstə insanla oturub durmaq qəlbi öldürər: alçaqlarla, valılarla və qadınlarla.” (11, səh. 67).

Mövzunu İmam Əli (ə) daha incəliklə belə bəyan etmişdir: “Dostunu de, kimliyini deyim.”

**4.Ölümdən ibrət almaq.**
**Ol səadtlüdür ki, dünya üçün**
**Hirsdən boynuna buraxmaya bənd.**
**Görmədən mehnəti-zəmanə hənuz**
**Ala bi ğeyr mehnətindən pənd.** (1, c. II, səh. 406).

(O (adam) xoşbəxtdir ki, (malı) üçün acgözlükdən boynuna bənd (zəncir) salmasın; hələ zəmanənin əziyyətini görməmişkən, başqa bir möhnətdən ibrət alsın.) (2, səh. 70).

Həzrət Peyğəmbər (s) buyurur:

“Bütün zövqləri kökündən yox edən ölümü çox xatırlayın.” (6, Qiyamət-26).

Qurani-kərimdə bəyan edilir:

**“De ki:** (Qorxub) **qaçdığınız ölüm sizi mütləq yaxalayacaqdır. Sonra siz gizlini də, aşkarı da bilən Allahın hüzuruna qaytarılacaqsınız. O da sizə dünyada nələr etdiyinizi** (bir-bir) **xəbər verəcəkdir!”** (3, Cümə, 8).

**5.Hədiyyələşmək və ziyarət.**
**Dustlardan həmişə xoş görünür**

**Bir-birin hədyə ilə etmək yad.**
**Hədyə irsalı bir müamilədir**
**Ki, məhəbbət olur onunla ziyad.** (1, c. II, səh. 408).

(Dostların bir-birini hədiyyə ilə yad etmələri həmişə xoş görünür. Hədiyyə göndərmə (elə) bir qarşılıqlı münasibətdir (əlaqədir) ki, məhəbbət onunla (daha da) çoxalır.) (2, səh. 79).

Möminlər arasındakı qardaşlıq əlaqələrini qüvvətləndirici gözəl adət və davranışlardan biri də hədiyyələşməkdir. Peyğəmbərimiz (s) ümmətinin bir-birinə qarşı olan məhəbbət və əlaqələrinin artması üçün hədiyyələşməyə təşviq etmişdir, özü də hədiyyə vermiş və hədiyyə qəbul etmişdir. Ummulmöminin Aişə belə nəql edir:

"Peyğəmbər (s) hədiyyə qəbul edər və ona qarşılıq verərdi." (10, hibə-11).

Peyğəmbərimiz (s) hədiyyələşməyin insanları bir-birinə necə yaxınlaşdırıb sevindirdiyini başa salmaq üçün belə buyururdu:

"Hədiyyələşin, ancaq hədiyyə qəlbdəki kin və nifrəti yox edər. Heç bir qadın qonşu qadına verdiyi hədiyyəni, qoyun budundan bir parça belə olsa, kiçik görməsin!" (6, vəfa-6).

Nəticə olaraq bunu deyə bilərik ki, Məhəmməd Füzulinin "Hədisi-ərbəin" əsərinin Azərbaycan hədisşünaslığında mötəbər bir mənbə kimi istifadə edilməsi zəruridir. Çünki bir neçə misaldan da göründüyü kimi, müəllif müsəlman aləmində hədislərlə əlaqədar yazılmış ən mötəbər və sanballı mənbələrə müraciət edərək onlarda olan hədisi-şərifləri o zaman üçün yeni bir üslubda, nəzmlə qələmə almış və beləcə, həm də hədislərin əzbərlənib yadda saxlanmasına yardımçı olmuşdur.

## ƏDƏBİYYAT

1. Füzuli Məhəmməd, Əsərləri, c. I-II, Azərbaycan Ensiklopediyası Nəşriyyatı-Poliqrafiya birliyi, Bakı, 1995.
2. Ataəmi Mirzəyev, Cami, Nəvai və Füzuli yaradıcılığında 40 hədis, Bakı, Ozan, 1997.
3. Qurani-Kərim, Azərbaycan dilinə tərcümə edənlər: Ziya Bünyadov, Vasim Məmmədəliyev, Bakı, Azərnəşr, 1991.
4. Salih Uçan , Riyazüs-salihin tərcüməsi, cild I, Çelik Yayınevi, İstanbul, 1993.
5. Məhəmməd bin İsa ət-Tirmizi, darül-hədis, Qahirə, 1419/1998 və darul-kutubil-ilmiyyə yayınları, Beyrut, 1989.
6. İmam Əli bin Əbu Talib, Nəhcül-bəlağə, (Feyz), hikmət-248.
7. Nəhcül-Bəlağənin qaynaqları və sənədləri, Nəcəf çapı, birinci çap, c. IV.

8. İsmail bin Məhəmməd əl-Əcluni, Kəşfül-xəfa, təhqiq: Yusif Məhəmməd Mahmud, məktəbətül-elmil-hədis, Qahirə, 1351 h/q. (2 cilddə).
9. Buxari, Əbu Abdullah Məhəmməd bin İsmail, Sahihu-l Buxari, Çağrı yayınları, İstanbul, 1992.
10. Ayətullah Meşkini, Nəsihətlər, tərc: Xəlifə Həmidov, Şəhriyar nəşriyyatı, 2006.

**УДК 94(479.24)**

## ИЗ ИСТОРИИ НАЦИОНАЛЬНЫХ МЕНЬШИНСТВ АЗЕРБАЙДЖАНА

***Гюнель Неман кызы Исламова***
***Института истории им.А.А.Бакиханова НАНА***
***islamova.gunel2019@mail.ru***

**Ключевые слова:** *Гейдар Алиев, тюрко-язычные народы, ирано-язычные народы, этнические меньшинства, права и свободы.*

*Азербайджан является этнически пестрой и многонациональной страной, где наряду с азербайджанцами гармонично проживали и проживают многие народы, национальные и этнические меньшинства. С установлением независимости Азербайджанской Республики возрос интерес к проблеме национальных меньшинств. В 1993-году, став во главе Азербайджанской Республики, Гейдар Алиев четко понимал насколько важна для многонациональной республики гибкая национальная политика. Он считал, что правительство должно сделать все для обеспечения "прав и свободы" национальных меньшинств, создать благоприятные условия для их демократического развития. Цель данной статьи – определить, как политические коллизии начала XX века повлияли на состояние этнических меньшинств Азербайджана.*

## AZƏRBAYCANIN MİLLİ AZLIQLARI TARİXİNDƏN

***Günel İslamova***

**Açar sözlər:** *Heydər Əliyev, türkdilli xalaqlar, irandilli xalqlar, etnik azlıqlar, hüquq və azadlıqlar*

*Azərbaycan bir çox xalqların birgə yaşadığı etnik cəhətdən çoxsaylı və çoxmillətli bir ölkədir. Azərbaycan Respublikasının müstəqilliyinin bərqərar olması ilə milli azlıqlar probleminə maraq artmış oldu. 1993-cü ildə Azərbaycan Respublikasının dövlət başçısı Heydər Əliyev çoxmillətli respublika üçün milli siyasətin nə dərəcədə mühüm olduğunu əsas tutaraq, milli azlıqların "hüquq və azadlıqlarını" təmin etmək, onların demokratik inkişafı üçün əlverişli şərait yaratmaq üçün bütün imkanları səfərbər etmişdir.*

# ON HISTORY OF ETHNIC MINORITIES IN AZERBAIJAN

***Gunel Islamova***

**Key words:** *Heydar Aliyev, Turkish-speaking couriers, Iranian peoples, ethnic minorities, rights and freedoms.*

*Azerbaijan is a multiethnic and multinational country where many people's live together. With the establishment of the independence of the Republic of Azerbaijan, the interest in the problem of national minorities has increased. In 1993, the President of the Republic of Azerbaijan, Heydar Aliyev, mobilized all the opportunities to ensure the rights and freedoms of national minorities and to create favorable conditions for their democratic development on the basis of the national policy of the multinational republic.*

Население Азербайджанской Республики, помимо азербайджанцев - титульной нации, составляют представители более чем двадцати компактно проживающих этнических меньшинств. Азербайджанское государство всегда старалось создать необходимые условия для этнических меньшинств, проживающих на этой территории.

Этнические меньшинства Азербайджана по лингвистическим параметрам делятся на две основные группы: Ирано-язычные, к которым относятся талыши, курды, таты и Кавказо-язычные лезгины, авары, рутульцы, удины, цахуры, ингилойцы и т.д. Каждый из этих народностей имеет богатую историю, культуру, обычаи и традиции, отраженные в исторической памяти и национальном самосознании. Географические границы проживания этнических меньшинств довольно широкие. Несмотря на наличие четких исторических линий их обитания, социальные процессы, ускоренные темпы урбанизации привели к серьезным изменениям в их географическом пространстве.

Талыши с древнейших времен обитают на юго-западном берегу Каспийского моря. Разделенные между Азербайджанской Республикой (в основном территория Мугань) и Исламской Республикой Иран (провинции Гилян и Ардебиль), предками талышей по одной концепции являются кадусии, а по другой гилянцы, т.е. древние гелы. Другой Ирано-язычный элемент, таты или так называемые Кавказские Иранцы являются пришлыми, поскольку само слово «тат» имеет тюркскую этимологию и используется для идентификации нетюркского народа. В зависимости от географической зоны расселения, таты Азербайджана называют себя «парсами» (жители Апшеронского полуострова и Баку), «даглы», т.е.

«горцы» (Сиязанский и Хизинский районы Азербайджана) и «лагиджами» (Исмаиллинский район Азербайджана). Курды Южного Кавказа, в том числе Азербайджана, говорят в основном на языке курманджи. Генетический анализ, проводимый в начале нашего века, подтверждает родственные связи курдов Азербайджана с тюрко-язычным населением северной части Исламской Республики Иран, армянами, грузинами и евреями северной части Ближневосточного региона [13]. Наиболее интенсивная миграция курдского населения на Южный Кавказ связана с продолжительными Османо-Сефевидскими войнами. Немалая заслуга в этом была у основателя Сефевидского государства Исмаила I, проигравшего Чалдыранскую битву в 1514 году и потерявшего тем самым почти все Курдо-населенные области Ирана.

Другая, более компактная этническая часть современного Азербайджана состоит из малочисленных Кавказо-язычных народов. Автохтонная часть населения республики, лезгины, авары, рутулы, цахуры, удины хиналуги, будухи и др. составляют Нахо-Дагестанскую языковую группу. Кавказо-язычные народы Азербайджана имеют четко определенную географическую границу расселения и обитают в основном в приграничных с Северо-Кавказским округом Российской Федерации и Республикой Грузия районах.

Драматические события, оказавшие сильное влияние на этнический и религиозный состав населения Кавказа связаны с походом имперской армии России и завоеванием ею этого региона в начале XIX века. Здесь уместно дать предысторию. Российская экспансия на Кавказ сопровождалась глубоким изучением флоры и фауны, истории, этнографии и археологии, экономики и политического строя народов этого края видными российскими и зарубежными, в основном немецкими учеными (С.Гмелин «Путешествие по России для исследования трех царств природы», Гербер И. «Описание стран и народов вдоль западного берега Каспийского моря», П.Паллас «Путешествие по разным провинциям Российского государства», Ю. Клапрот «Mémoires relatifs à l'Asie», С.Броневский «Новейшие географические и исторические известия о Кавказе», Н.Марр «Племенной состав населения Кавказа» и др.) Изучая этот край, российская администрация преследовала цель усовершенствования колониального управления, исследуя национальные и этнографические особенности, она регулировала политику русификации и христианизации местного населения. Колониальный режим при этом мало думал о социально-экономическом и культурно-просветительском возрождении завоеванных народов. Забегая вперед отметим, что эту миссию впервые стали проводить в первые годы советизации Кавказа большевики. В дальнейшем отказавшись от идеи национального

возрождения, они сделали ставку на строительства нового этноса, «социалистической нации», «интернационального советского народа».

В 1819 году главнокомандующий Кавказскими войсками русский генерал Алексей Ермолов достиг предела села Акуша, расположенного на высоте 2000 метров нагорного Дагестана. Остановившись на самой высокой точке региона, осмотрев весь Дагестан, русский генерал сказал: «эта земля не стоит и капли крови русского солдата». Однако, официальная российская историография утверждает, что в Кавказскую войну (1817-1864) была вовлечена 250.000 армия и империя потеряла в этой войне 70.000 жизни. Генералы, сражавшиеся на Кавказском фронте, были защитниками - славянофилами, противниками политики Западных держав на Востоке. Россия была первым государством, проводившим всеобщую перепись населения Кавказа с целью установления этнического происхождения и религиозной принадлежности своих новоприобретенных субъектов.

В начале XIX века министр финансов Г.Канкрин и главнокомандующий войсками наместник Кавказа генерал И.Паскевич предоставили Российскому императору специальный проект с детальным анализом этнической и религиозной структуры края. Проект под кратким названием «Обозрение Российских владений за Кавказом» развивал колониальную идею на Кавказе, где Российская администрация исключительно должна была «думать об экономическом процветании Империи» [Обозрение Российских владений за Кавказом]. Проект, представленный генералом и высшим государственным чиновником Российской империи, определил основные принципы гражданского управления на Кавказе с коренизацией местного управления. Базой для коренизации являлась не этническая идентификация, а религиозная принадлежность. Для Российской администрации мусульмане Азербайджана, Ирано-язычные таты, талыши и курды, Кавказо-язычные лезгины, авары, цахуры, Тюрко-язычные турки, татары были просто «басурманами», или же «магометанами». В XIX веке это было и не удивительно. Каждая мусульманская этническая группа Азербайджана, хотя и имела строгую национальную память, национальный язык и специфическую национальную культуру, идентифицировала себя в основном не этническим, а религиозным признаком. В этом отношении неразвитое национальное самосознание и расплывчатая этническая самоидентификация открывала широкие просторы для действий российской администрации. Социальные и образовательные проекты империи позволяли создать совершенно новый субстрат из новоприобретенных ненадежных мусульманских подданных. И не удивительно, что в течение целого столетия господства Российского

господства на Кавказе ни один мусульманин, независимо от этнической принадлежности, будь он курд, лезгин, татарин или турок не смог занять какой-нибудь высокий административный пост на Южном Кавказе. До 40-х годов XIX века Российская империя сохранила существующие границы бывших ханств Северного Азербайджана. Административно-территориальная реформа, проводимая на протяжении XIX века, делила завоеванную территорию следующим образом: Нахичевань был объединен с Ереваном, Ширван, Карабах, Баку, Шеки и Талыш вошли в состав Каспийской области, Джаро-Белоканские общины попали в состав Имеретинской провинции, бывшее Кубинское ханство, граничащее с Дагестаном, где пока шли ожесточенные бои с отрядами Российской империи, было выделено в специальный военный округ. Таким образом, основная территория нынешнего Азербайджана была сосредоточена в пределах Каспийской области, которая была заселена многонациональным, преимущественно мусульманским населением. Следует отметить, что перед российским завоеванием на территории Южного Кавказа проживало несколько крупных этнических конгломератов, исторические территории которых никогда не были четко разграничены. Несмотря на усилия азербайджанских ханов определить точные границы своих владений, внутренние раздоры и военные конфликты не позволили этому осуществиться. Российская империя разделила Южный Кавказ по собственному усмотрению, создав, таким образом, воображаемые границы своей новой колонии. В дальнейшем и «титульные нации» и их политические лидеры нашли эти границы не справедливыми и недопустимыми.

Во второй половине XIX века в основу национальной и восточной политики Российской державы легли теории славянофилов и русофилов. Являясь многонациональной и многоконфессиональной державой, Российская империя не имела единую национальную политику для всех своих подданных и во многом зависела от личностных воззрений самих правителей. Эта политика базировалась не на этническую идентификацию народов империи, а на религиозную принадлежность. И не удивительно, что имперские документы, удостоверяющие личность человека, указывали не национальность, а вероисповедание.

Национальная политика Российской империи на Кавказе менялась от насильственной христианизации в начале XIX века до русификации в 60-70-е годы того же века. Отмечая важную роль религии в жизни «Азиатских народов», русские генералы писали, что религия убила в них чувство национальности, превратив их в мертвые народы. Любые изменения и продвижения не возможны в таких обществах [12,с. 290]. Первое поколение завоевателей Кавказа, А.Ермолов, И.Паскевич,

М.Воронцов были сторонниками уничтожения местных традиций, религиозных предубеждений и подчинения культурного и духовного мира мусульман русской цивилизации, тогда как последующее поколение, А.Барятинский, А.Дондуков-Корсаков, Г.Голицын, пытались создать из Кавказца русского гражданина.

Перепись 1897 года установила 40 различных народностей на территории сегодняшней Азербайджанской Республики. В переписи не было специального пункта-индикатора национальной или же этнической принадлежности, все население делилось по языковому признаку. Согласно этому источнику в конце XIX века территорию Азербайджана заселяли народности трех языковых групп, Кавказская, Индо-Европейская, Турко-Татарская. Исторические обстоятельства, социальные проблемы и политические процессы, происходившие на территории Кавказа после Российского завоевания, оказали сильное влияние на этническую и религиозную структуру населения региона.

XX век начался революцией и этническим напряжением по всей территории Российской империи. Продвигая лозунг «разделяй и властвуй» имперские органы власти успешно маневрировали в национальных вопросах, манипулируя национальными чувствами населения. Так или иначе, в начале XX века не произошло ни одного столкновения между представителями мусульманского меньшинства, тогда как неприязнь к христианскому меньшинству было нескрываемо. Недружественное отношение между переселенными русскими и армянами имело глубокие корни. Захватывая Южный Кавказ, русские колонизаторы освобождали приграничные полосы, плодородные земли, сокращая тем самым частную собственность местного населения. Переселенцы обеспечивались оружием для самообороны, тогда как местное мусульманское население освобождалось от воинской обязанности. Российское законодательство закрыла некоторые сферы экономики для деятельности местного мусульманского бизнеса, создав благоприятные условия для христианских подданных. Мусульманское население ограничивалось и в образовательных, социально-культурных сферах. Создавая огромные препятствия для местного населения в экономическом, военном и культурном развитии, Российская империя, тем не менее, открывала двери в собственные и европейские университеты, способствовала приобщению молодого поколения прогрессивным, демократическим идеалам Европы. Молодежь, которая получала великолепное европейское образование, в дальнейшем сформировала идеи национализма и национальной идентичности среди различных этнических групп населения.

С распадом Российской империи начинается новый этап в истории народов Кавказа, в том числе и Азербайджана. После Октябрьской революции и свержения имперского правления на карте Южного Кавказа появились три независимых государств. 28 мая 1918-го года было объявлено о создании Азербайджанской Республики, которая декларировала равные права всем гражданам, независимо от расовой, этнической и религиозной принадлежности. Национальные меньшинства Азербайджанской Республики, армяне, евреи, немцы, поляки и грузины были представлены в первом парламенте, открывшимся в декабре 1918-го года. В парламенте не были отдельно представлены этнические меньшинства республики, курды, талыши, таты, а также лезгины, авары и другие кавказо-язычные [3]. Относили ли создатели независимой Азербайджанской Республики их к титульной нации или же они сами считали себя таковыми сказать трудно. Но несомненно, что такое поведение было напрямую связано с уровнем национального самосознания и этнической самоидентификации. Этнические меньшинства Азербайджана в начале XX века в основном жили в провинциях, и их образовательный уровень был намного ниже по сравнению с национальными меньшинствами.

Азербайджанская Демократическая Республика уделяла особое внимание этническому составу населения, и вела соответствующую языковую политику. В принятом 28 мая 1918 года Акте о независимости Азербайджанской Демократической Республики говорилось о гарантиях гражданских и политических прав всем гражданам республики без различия национальности, вероисповедания, пола и социального положения. [1,с. 5-7]. 27 июня 1918 года правительство приняло постановление об объявлении тюркского языка государственным языком республики. Национальная политика первой независимой республики базировалась на концепции тюркизма и мусульманства. Создатели первой республики проявили большую демократичность и гибкость в национальной политике, предоставив соответствующие места всем представителям национальных меньшинств республики. На каждого 24 тысячи человек в парламент делегировали одного представителя от каждого народа и таким образом в парламенте заседали кроме мусульман всех национальностей, армяне, русские, евреи, немцы и поляки. Мусульмане в целом имели 80 мест, из коих 44 принадлежало тюркам-мусульманам, избранным в 1917 году в Общероссийское Учредительное Собрание, остальные места достались мусульманам другой национальности. Коренной перелом в национальной политике Азербайджана произошел после советизации республики.

Начало XX века был периодом формирования нации и национальных государств, и в этом плане национальность самих идеологов этого процесса имело малое значение. Прогрессивные умы Азербайджана объединились вокруг идеи тюркизма. Азербайджанские интеллектуалы Али бек Гусейн-заде, Ахмед Агаоглы и другие «опираясь на языковую близость, пытались связать тюрков Османской Империи с народами Центральной Азии». По мнению турецкого ученого М.Хепера «становясь адептами оборонительного национализма, они развивали совершенно не агрессивный, а гуманистический тюркизм». [14, с.65] Рассматривая религию фундаментом национализма, тюркский идеолог Ахмед бек Агаоглы писал, что «религия оказывает огромное влияние.... даже на формирование национального языка, национальных традиций и воззрения, на формирование национальной формы мышления и жизни» [17, с. 344]. Таким образом, религия и язык были основными фундаментами национализма и в этом отношении Ирано и Кавказо-язычные элементы Азербайджана, которые являлись мусульманами и в основном говорили на азербайджанском языке вполне могли рассматриваться как одно целое.

Военные конфликты на базе этнической неприязни и территориальных притязаний не позволили осуществиться идеи Закавказской Федерации, которая после свержения царизма преобладала умами политических лидеров региона. Ослабив военный потенциал и силы трех Южно-Кавказских республик, эти конфликты, в какой-то степени, помогли ликвидации национальной государственности региона в 1920-1921-м годах. Большевики нашли раздавленную военными конфликтами на межнациональной почве, экономически разоренную, разрушенную страну. Советской власти предстояло решать запутанные национальные вопросы, территориальные претензии соседних государств, определить несуществующие государственные границы, установить мир и стабильность. Задачи были довольно сложные, трудные и требовали определенного времени. Но у большевиков были экстраординарные решения для всех запутанных вопросов. Завершив советизацию всего Южного Кавказа в феврале 1921 года, буквально через год большевики объединили все республики в составе Закавказской Федерации, на этот раз советской и социалистической. Грузия получила в свой состав две автономные республики и одну автономную область, Азербайджан одну автономную республику, Нахичеванскую, и одну автономную область, Нагорно-Карабахскую. Необходимо отметить, что все этнические конфликты, начавшиеся на территории Южного Кавказа сразу после развала Советского Союза, локализуются именно на этих территориях. В августе 1922 года советское правительство приняло специальное

постановление, ликвидирующее внутренние границы между Закавказскими республиками, сохранив лишь внешние границы Советского Союза. [7; д 2, л.4] Территориальные притязания и этническое напряжение потеряло всякий смысл, Южный Кавказ как целая административная структура превратилась в собственность Советского Союза, где руководили не русские, армяне, грузины или азербайджанцы, а большевики. «Успешно» решив территориальный вопрос, большевики взялись за религиозную и национально-языковую проблему.

Первая имперская перепись населения, проводимая в конце XIX века, выделяла 150 народностей на территории Российской империи. В первой демографической переписи Советского Азербайджана, проводимого в 1921 году, было указано 17 национальностей. В соответствии с этой переписью в Советском Азербайджане проживали чуть больше двух миллионов населения, из которых турки-азербайджанцы составляли большинство. В первой же всеобщей переписи населения Советского Союза, проводимой в 1926 году, отмечалось 172 народностей. Большинство народностей советского государства не имели своего письменного языка, и язык не являлся для их большинства определяющим фактором этнической идентичности. Анализируя ситуацию американский ученый Г.А.Ленор писал, что «Европейская Россия утверждала, что язык является главной идентифицирующей характеристикой, этнографы же работающие в Центральной Азии, где лингвистические границы были не ясны, больше всего выделяли физическую характеристику. Сами же народы Центральной Азии, наоборот, идентификационной характеристикой считали религию» [13,с.39]. Такое описание было характерно и для народов Кавказа. Находясь под властью христианского императора, используя арабский алфавит, двуязычные в основном мусульмане Кавказа, турки, курды, талыши, таты, лезгины, авары и другие народности чувствовали себя больше всего частью большой религиозной, нежели этнической общины. Говоря об этнических меньшинствах населяющих территорию Азербайджана, следует отметить, что в период 40-60-х годов их число пополнилось турками месхетинцами, депортированными в 1944-м году указом Сталина из Грузии, а в 1956-м году получили право на переезд во все республики СССР (кроме Грузии). Именно тогда они появились в Азербайджане, но как азербайджанцы. Позже они стали прибывать как этнические турки.

Последняя демографическая перепись населения, проведенная на территории Советского Союза в 1989 году, зафиксировала 114 национальностей на территории государства. К этому времени на территории Азербайджанской ССР кроме основных национальностей, т.е. самих азербайджанцев, русских и армян, проживало 171395 лезгин, 25190

евреев, 21169 талышей, 10239 татов и 12226 курдов [6]. Период Горбачевской либерализации и первые годы независимости сопровождались ростом периферийного национализма и этнокультурного партикуляризма. Экстремистско-настроенный национализм превратился в основу политики руководителей фактически всех бывших республик Союза. Национальная политика, проводимая советским государством в течение более семидесяти лет, подготовила серьезную почву для этнических напряжений и территориальных притязаний. Национальный вопрос, этническая идентификация и территориальный статус приобрели особую актуальность. Разжигание национальных чувств, взаимные обиды привели к кровавым вооруженным столкновениям, сепаратизму.

В начале 1990-х годов напряженная политическая обстановка (азербайджано-армянский конфликт) способствовал отъезду русскоязычного населения, среди которых были представители не только самого русского народа, но и коренные этносы Азербайджана. С целью приостановить миграцию коренных жителей республики и обеспечить им равные права в сентябре 1992 года был издан указ о «Государственной поддержке защиты прав и свобод, а также развития языка и культуры национальных меньшинств, проживающих на территории Азербайджана», которая сформировала основу национальной политики независимого Азербайджана. Таким образом, государству, его общественно-политическим, научно-образовательным, культурно-просветительским учреждениям предстояла реорганизовывать, пересмотреть старую советскую национальную концепцию и идеологию, создать новую, гуманную, демократическую законодательную базу по правам национальных и этнических меньшинств. Национальным меньшинствам суждено было пройти через большие испытания, от регулирования культурно-образовательных вопросов до осмысления роли и места в социально-политической структуре молодого независимого государства. Политические события начала 1990-х годов, вывод российских войск с территории республики, противостояние различных группировок, расширение географии военного конфликта с армянами из-за Нагорного Карабаха, наконец, сепаратистские вылазки, поддерживаемые из вне, требовали оперативного вмешательства компетентных органов, решения сложных вопросов национальной политики. Эту миссию пришлось выполнить третьему президенту современного Азербайджана Гейдару Алиеву. Г.Алиев всегда отмечал, что многонациональность Азербайджана является его богатством. В октябре 1993 года в своей речи он еще раз подчеркнул, что Азербайджан многонациональная страна. Это специфическая особенность республики. Все граждане республики независимо от этнической и религиозной принадлежности имеют равные

права, и после этого будут обеспечены все права для обеспечения участия всех граждан в общественно-политической жизни Азербайджанской Республики [2].

## ЛИТЕРАТУРА

1. Azərbaycanın müstəqil dövlət elan edilməsi haqqında Azərbaycan Milli Şürasının qərarı. //Azərbaycan Cümhuriyyəti hökumət qanun və binagüzarlıqları məcmuəsi.- 1919.- N1- s. 5-7.

2. Azərbaycan Respublikasının Prezidentinin andiçmə mərasimində nitqi. http://files.preslib.az/projects/toplu/v2/f3_3.pdf.

3. Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920), Parlament *(*Stenoqrafik hesabatlar*)*.

4. Cavadov Q. Azərbaycanın azsaylı xalqları və milli azlıqları. Bakı, Elm, 2000.

5. Dirəxşan H.F. Talişlarin etnik tarixinin öyrənilməsinin bəzi aspektləri. Tarix və onun problemləri, № 1, 2014 .

6. Всесоюзная перепись населения. 1989 г. http://www.demoscope.ru.

7. Государственный Центральный Архив Азербайджанской Республики, ф.379, оп. 40

8 . Миллер Б.В. Талышский язык, Москва, 1953

9. Мамедли А. Современные этнокультурные процессы в Азербайджане: основные тенденции и перспективы.Баку, издательство Университет Хазар,2008,246 с.

10. Перепись населения Азербайджанской ССР 1931 года. Вып. II. Баку: Азернешр, 1932. Всесоюзная перепись населения 1937 г.

11.Свод статистических данных о населении Закавказского края, извлеченных из посемейных списков 1886 года. Тифлис, 1898

12.Фадеев Р. Государственный порядок. Россия и Кавказ.–Москва: Институт Русской цивилизации. 2010.-992 с

13. Grenoble, Leonar A. Language Policy in the Soviet Union. - Dordrecht, Boston: Kluwer Academic Publishers, 2003. -210 c.

14. Heper, Metin, The States and Kurds in Turkey: The question of assimilation.-Palgrave Macmillan, 2007-186 c/

15. Khazaria, Kurdish Genetics: Abstracts and Summaries. http://www.khazaria.com/genetics/kurds.html

16. Mostashari, F., On the Religious Frontier: Tsarist Russia and Islam in the Caucasus. -London: I,B.Tauris, 2006- 203 c.

17. Shissler, A.Holly Excerpts from Ahmet Agaoglu. The Turkish World, 1912-1913. in Camron Michael Amin, Benjamin C. Fortna, Elizabeth Brown Frierson, The Modern Middle East: A Sourcebook for History.- Oxford University Press, 2006- 700 c.

**UOT 94**

# TÜRKİYƏDƏ HƏRBİ ÇEVRİLİŞLƏR

***Leyla Kərim qızı Nəbiyeva***
***Bakı Dövlət Universiteti***
***leyla_88@yahoo.com***

**Açar sözlər:** *Türkiyə, Hərbi çevriliş, Demokrat Partyası, Konstitusiya, ABŞ*

*Türkiyə Cümhuriyyəti qurulduğu gündən burada 27 may 1960-cı il, 12 mart 1971-ci il, 12 sentyabr 1980-ci illərdə hərbi çevrilişlər və çevrilişə cəhdlər baş vermişdir. Bu çevrilişlərin və çevrilişə cəhdlərin hər biri ölkədə müəyyən dəyişikliklərə səbəb olmuşdur. Demokratik həyatdakı ilk çevriliş 1960-cı ilin 27 mayında oldu ki, bu da cümhur başkanı Adnan Menderes və Demokrat Partiyası üzvlərinin edamı ilə nəticələndi. Eyni zamanda 1924-cü il Konstitusiyası yeni bir Konstitusiya ilə əvəz edildi. 12 mart 1971-ci il hərbi çevrilişi isə memorandum xarakterli müdaxilə hesab edilir. Həmin gün hökumət ləğv edilməsə də, yeni rəhbərlik təqdim edildi və beləliklə, bu memorandum Türkiyə tarixinə ikinci çevriliş olaraq daxil oldu. 1980-ci il çevrilişi də ölkədə yeni bir Konstitusiyanın qəbul edilməsi ilə nəticələndi. Bu zaman bütün partiyalar bağlandı.*

## ВОЕННЫЕ ПЕРЕВОРОТЫ В ТУРЦИИ

***Лейла Набиева***

**Ключевые слова:** *Турция, Военный переворот, демократическая партия, Конституция, США*

*Со дня учреждения Турецкой Республики, 27 мая 1960 года, 12 марта 1971 года, 12 сентября 1980 года были предприняты военных переворотов и попытки переворотов. Каждый из этих переворотов и попыток привел к изменению в стране. Первым переворотом в демократической жизни стал 1960-й переворот, который привел к свержению Демократической партии со смертью президента Аднана Мендереса и членов ДП. В то же время вместо конституции 1924 года была принята новая конституция. Вмешательство в 12 марта 1971 года является kak меморандумом. В этот день Ассамблея не была отменена, но было введено новое руководство для правительства. Этот*

*меморандум написан в истории Турции как второй переворот. Военный переворот 1980 года также привел к принятию новой конституции и нового совета. Все политические партии были закрыты в результате переворота 1980 года.*

## MİLİTARY COUPS İN TURKEY

**Leila Nabieva**

**Key words:** *Turkey, Military coup, Demokratic party, Constitution, USA*

*During the Cold War period, on the day of the establishment of the Republic of Turkey, on May 27, 1960, on March 12, 1971, on September 12, 1980, military coups and coup attempts were launched. Each of these upheavals and attempts led to a change in the country. The first coup in democratic life was the 1960th coup that led to the overthrow of the Democratic Party with the death of President Adnan Menderes and members of the DP. At the same time, instead of the constitution of 1924, a new constitution was adopted. Intervention on 12 March 1971 is a memorandum. On this day, the Assembly was not abolished, but a new guide for the government was introduced. This memorandum was written in the history of Turkey as a second coup. The military coup of 1980 also led to the adoption of a new constitution and a new council. All political parties were closed as a result of the 1980 coup.*

Türkiyə Cümhuriyyəti qurulduğu vaxtdan etibarən 27 may 1960, 12 mart 1971, 12 sentyabr 1980-ci il hərbi çevrilişlərinin şahidi olmuşdur. Bu çevrilişlərin və cəhdlərin hər biri ölkədə müəyyən dəyişikliklərə səbəb olmuşdur. Demokratik həyatdakı ilk çevriliş 1960-cı ilin 27 mayında oldu ki, bu da cümhur başkanı Adnan Menderes və Demokrat Partiyası üzvlərinin edamı ilə nəticələndi. Eyni zamanda 1924-cü il Konstitusiyasının yerinə yeni Konstitusiya qəbul edildi. 12 mart 1971-ci il hərbi çevrilişi isə memorandum xarakterli müdaxilə hesab edilir. Həmin gün hökumət ləğv edilməsə də, yeni rəhbərlik təqdim edildi və beləliklə, bu memorandum Türkiyə tarixinə ikinci çevriliş olaraq daxil oldu. Daha çox xəbərdarlıq xüsusiyyətində olan bu memorandum ikinci çevriliş olaraq Türkiyə tarixinə yazıldı. 1980-ci il hərbi çevrilişi də yeni bir Konstitusiyanın qəbulu və yeni bir məclis qurulması ilə nəticələndi. 1960-cı ilə nəzərən 1980-ci il çevrilişində bütün siyasi partiyalar

bağlanmış, 1983-cü il seçkilərinə qədər dövlət hərbi rejimdə idarə olunmuşdur. 1980-ci il çevrilişi Türkiyə Cümhuriyyəti tarixində son çevriliş olaraq qeyd edilir.

27 may 1960-cı il hərbi çevrilişi: Son illərdə Türkiyə ilə ABŞ arasındakı münasibətlərdə bəzi problemlər meydana gəlməyə başladı. Bu illərdə Türkiyə ABŞ-dan aldığı maddi yardımları öz istədiyi kimi istifadə etmək istəsə də, ABŞ-dan buna etiraz gəlirdi və tələb olunurdu ki, bu yardımlar ancaq iqtisadi yönümdə istifadə olunmalıdır. Türkiyə xarici işlər Nazirliyinin baş katibi Melih Esenbel öz çıxışlarının birində bildirdi ki, ABŞ Türkiyənin istehsalını azaldıb, inkişaf sürətini aşağı salmaq istəyir. Ölkənin sənayeləşməsinə və hətta inşa edilməkdə olan su anbarlarına qarşı çıxır. Ancaq buna baxmayaraq, Adnan Menderes başlanan proyektləri tamamlamaq istəyirdi. Bu da Türkiyənin iqtisadi inkişafı üçün əhəmiyyətli idi. Menderes hökumətinin 1945-ci ildə ABŞ-dan yeni borc istəməsi rədd cavabı ilə sonuclandı. Səbəb kimi isə kənd təsərrüfatının yetəri qədər inkişaf etmiş olması, göstərilən sahələrə yatırımların edilməməsi, Türkiyəyə qoyulan tələblərin yerinə yetirilməməsi və s. göstərildi, eyni zamanda 1958–ci ilə qədər Türkiyənin bütün kredit tələblərinin rədd ediləcəyi bildirildi [11, s.140]. Bu illərdə Türkiyə ilə ABŞ arasında gərginlik yaradan səbəblərdən biri də xaşxaş istehsalı oldu. Amerika Türkiyədə istehsal olunan xaşxaşın narkotik maddə kimi Amerikaya gətirilməsinə etiraz edərək Türkiyədən bunun istehsalının dayandırılmasını tələb etdi. Bu tələb 1959-cu ildə Vaşinqtonda keçirilən CENTO-nun yığıncağı zamanı Menderesə bildirildi. Lakin Menderes buna etiraz etdi [11, s.224].

Bu hadisələrdən sonra Adnan Menderes və Xarici İşlər naziri Fatin Rüştü Zorlu Türkiyənin xarici siyasətinə ABŞ təsirinin azaldılmalması qərarına gəldilər. ABŞ-ın Türkiyəni bu qədər sıxışdırmasından narahat olan Menderes SSRİ ilə münasibətləri az da olsa düzəltmək qərarına gəldi və onun Moskvaya səfəri planlaşdırıldı. 1960-cı ilin iyul ayında Menderesin Moskva ziyarətindən əvvəl ABŞ-a bu haqda xəbərdarlıq edildi. Lakin, ABŞ bu xəbəri normal qarşılayırmış kimi görünsə də, Menderesin planlaşdırılan Moskva ziyarətinin qarşısının alınması istiqamətində addımlar atdı. Çünki ABŞ tərəfindən soyuq müharibənin tam gücü ilə davam etdirildiyi bir vaxtda NATO-nun əsaslı üzvlərindən birinin Moskva ilə dialoqa girməyə çalışmasının başqa ölkələrə də mənfi təsiri ola bilərdi [6, s. 183].

14 may 1950-ci il seçimləri türk demokratiya tarixinin miladı hesab olunur. Qansız, döyüşsüz bir seçim nəticəsində Demokrat Partiyası iqtidara gəldi [10 s. 38]. Lakin Demokrat Partiyası 1960-cı il 27 may çevrilişinə qədər 10 il hakimiyyətdə olduğu müddətdə müxalifətə gəldiyi zaman verdiyi vədləri unutdu və ən çox üstünlüyü iqtisadi inkişafa verməyə başladı. Bu partiyanın hakimiyyətdə olduğu müddətdə müxalifətə və mediaya qarşı bir çox anti-demokratik hərəkətlər edildi. Belə ki, səlahiyyətlər məhdudlaşdırıldı, müxalifət

partiyası olan CHP-nin maliyyəsi alınaraq dövlət xəzinəsinə qatıldı [1, s.177-215].

Bu illərdə Demokrat Partiyasının dini icmalar ilə də münasibəti korlanmağa başlamışdı. Saidi Nursi adlı dini birləşmə tərəfdarları təqib edilir, həbs olunurdular. Bu şəraitdə isə DP həm müxalifətin tənqidinə tuş gəlir, həm də tələbə çıxışlarının artmasına səbəb olurdu. Müxalifət "iqtidar din ilə siyasəti qarışdırır" deyə çıxışlar etməyə başladı. Digər tərəfdən isə Türkiyədə gizlində çevriliş hərəkətləri formalaşırdı. Bir tərəfdə hökumət əleyhinə çıxışlar başlamış, digər tərəfdə isə ABŞ və NATO qurumlarına işləyən əsgər və zabitlər mövcud rejimə qarşı gizlin tədbirlər görür, insanları mitinqlərə səsləyirdilər. ABŞ bu hərbçilərə qarşı heç bir tədbir görmürdü. 1957-ci ildə olan Eyzenhauer anlaşmasına əsaslanan 5 mart 1959-cu il müqaviləsinə də məhəl qoyulmadı. Bu anlaşmaya görə Orta Şərqdə kommunizm hücumuna məruz qalan bir ölkə tələb etdiyi təqdirdə ABŞ ölkəyə silahlı yardım etməli idi. Həmin müqavilənin birinci maddəsinə görə Türkiyəyə olunan hər hansı bir hücum zamanı ABŞ hər cür lazımı yardımı göstərəcəkdi. Hər hansı hücum dedikdə, burada tələbə hərəkatı və ya gizlin aparılan hər hansı bir fəaliyyət də nəzərdə tutulurdu. 27 may hadisələrindən az əvvəl 19 may 1960-cı ildə, hansı ki, artıq hökumət əleyhinə çıxışlar davamlı olaraq başlamışdı: ABŞ ilə yeni bir müqavilə imzalandı ki, bu müqavilə yenə də hər hansı bir təhlükə zamanı ABŞ-ın ölkəyə müdaxilə ixtiyarını artırırdı. Ancaq yenə də Türkiyədə baş verən bu hadisələr zamanı ABŞ əvvəlcədən məlumatlı olduğu halda çevriliş xəbərdarlığını Menderesə bildirmədi və beləcə də Türkiyədə hökumətin hadisələrin qarşısını almaq üçün ABŞ-dan yardım tələb etmək imkanı da olmadı [9, s. 667].

Ölkənin iqtisadiyyatı pisləşdikcə Demokrat Partiyasının siyasəti daha da sərtləşirdi. DP və CHP mitinqlərində artıq ixtişaşlar çıxmağa başladı. DP CHP-nin fəaliyyətini müxtəlif yollarla məhdudlaşdırmağa çalışırdı. Yaşanan bu hadisələrdən sonra müxalifətə yönəlik bəzi tədbirlər almaq istəyən DP 18 Aprel 1960-cı ildə CHP-nin fəaliyyətinin araşdırılması üçün təhqiqat komissiyası yaradılması haqqında göstəriş verdi. Yaradılan bu komissiyaya qarşı Ankarada tələbə çıxışları başladı. Çıxışlar artdıqca iqtidarın siyasəti daha da sərtləşirdi. Baş verən bu hadisələri ABŞ yaxından izləyir, lakin qarşısının alınması üçün heç bir tədbir görülmürdü. Bəzi mənbələrə görə, 1950-ci illərin sonlarına yaxın ABŞ DP hökumətindən narazı qalmağa başlamış, bu səbəbdən 27 may çevrilişinə heç bir reaksiya verməmiş, çevrilişin qarşısının alınması üçün Türkiyəyə yardım etməmişdir. Hətta bu çevrilişin baş verməsindən razı qalmışdır [11, s.131].

1960-cı ilin ilk aylarından etibarən universitet tələbələrinin hökumətə qarşı çıxışları başladı. Komissiya tərəfindən ciddi rejim elan edildi. Bir neçə universitet bağlandı və hökumət əleyhinə çıxış edən bir çox insan həbs edildi. Məclisin təhqiqat komissiyasının qurulması qərarı Ankarada 28-29 aprel

hadisələrinə səbəb oldu. Bu zaman hərbi məktəb və digər universitetlərin tələbələri Kızılay meydanında mitinqə başladılar. Yaralanan və ölənlər oldu. Bu səbəbdən bu hadisə xalq arasında “Qanlı cümə” adlandırıldı. Türkiyədə baş verən bu hadisələr artıq ABŞ-ı da narahat etməyə başladı və burada Adnan Menderesin sərt siyasəti tənqid olundu.

1960-cı ilin 27 may günü ordu idarəetməni ələ keçirdikdən sonra universitet müəllimlərindən ibarət bir quruma Kontitusiya hazırlatdılar və qurucu məclisdən keçirdilər. Ölkənin idarə edilməsi mövzusunda iki fikir var idi: bunlardan biri hakimiyyəti CHP-yə verib, hərbçiləri geri göndərmək, ikincisi isə Türkiyədə bir neçə ölkələrdə olduğu kimi hakimiyyətin bir müddət hərbçilərin əlində qalması və hərbi rejimdə idarə edilməsi idi. Ancaq ikinci fikir “Soyuq müharibə”nin davam etdiyi bir dövrdə qərb tərəfindən qəbul edilməyəcəkdi [6, s.43]. Belə bir şəraitdə, 1966-cı ilin hakim qərarı ilə TBMM tərəfindən vəzifəsinə son verilənə qədər Cemal Gürsel bütün vəzifələri yerinə yetirə biləcək bir lider olmuşdu.

27 may çevrilişi ordunun qiyamından çox Demokrat Partiyasının siyasətinə qarşı edilmiş əks hücum xarakteri daşıyırdı. Türkiyədə sosial və iqtisadi vəziyyət bir ara müəyyən qədər düzəlsə də, yenə də bir sıra siyasi gərginliklər yaşanırdı və buna görə də Türkiyə artıq hər 10 ildən bir siyasi çevrilişlər baş verəcək bir dövrə qədəm qoyurdu. 27 may çevrilişi tərəfdaşları radio və televiziyalarda çıxışlar edərək, məqsədlərini açıqlayırdılar. Onlar partiyaları çıxılmaz vəziyyətdən qurtarmaq, sərbəst seçkilər keçirtmək və iqtidar olan partiyaya dövləti təhvil vermək kimi məqsədlər irəli sürürdülər. Cemal Gürsel məqsəd olaraq “Türkiyədə demokratiyanın yenidən qurulması”nı irəli sürürdü. Yeni seçki qanununun hazırlanmasından sonra idarəçilik xalqın sərbəst seçiminə veriləcəkdi. Bütün partiyaların seçkilərdə iştirakı nəzərdə tutulurdu [8, s.250].

1971-ci il martın 12-də Türkiyədə hərbi memorandum qəbul edildi. 1971-ci ildəki müdaxilə üsulu 27 may 1960-cı ildən fərqli şəkildə oldu və türk Silahlı Qüvvələrinin İdarə Heyəti iyerarxik (bütöv bir sistemin hissələrinin aşağıdan yuxarıya tabeçilik əlaqəsi əsasında düzümü, yerləşməsi) bir formada davranaraq, hökumətə yönəlmiş bir memorandum hazırlayaraq bunu cumhur başkanına, senat rəhbərinə göndərdi və eyni zamanda milli kanal TRT radiolarında oxutdurdu [5, s. 223-224]. Oxunan bu bildirişdə üç əsas mövzu var idi: 1. Parlament və hökumət hakimiyyətə gəldiyi gündən ölkəmizi qardaş döyüşləri, sosial və iqtisadi narahatlıqlar, anarxiya bürümüşdür. İctimaiyyət Atatürkün bizə hədəf verdiyi müasir sivilizasiya səviyyəsinə çatmaq ümidini itirmişdir; 2. Türk millətinin problemlərini atatürkçü bir görüşlə ələ alacaq, inqilab qanunlarını tətbiq edəcək və qanunları demokratiya çərçivəsində tətbiq edəcək bir hökumət qurulmasına ehtiyac vardır; 3. Bunlar yerinə gətirilməyəcəyi təqdirdə Türk Silahlı Qüvvələri qanunların ona verdiyi Türkiyə

Cümhuriyyətini qorumaq vəzifəsini yerinə yetirərək, idarəçiliyi birbaşa ələ almağa qərarlıdır [4, s. 19].

Bu hadisələr qarşısında Dəmirəl hökuməti bildiridə istənildiyi kimi və hər hansı bir əks reaksiya göstərmədən vəzifəsindən ayrıldı. Bundan belə bir qərara gəlmək olar ki, Süleyman Dəmirəl bu işin heç bir çevriliş olmadan həll olunmasını istəmişdir. Əks təqdirdə 9 mart 1971-ci ildə Hərbi Hava Qüvvələri rəhbəri Batur və Quru Qüvvələri rəhbəri Gülərin başçılığı ilə keçirilən iclasdan da göründüyü kimi, ehtimal olunan bir çevriliş 27 may 1960 çevrilişindən daha betər və qəddar olacağını göstərirdi. Çünki gedən hazırlıqlar o yönümlü idi və Dəmirəl bunun fərqində idi. 12 mart hadisəsi ilə Türk Silahlı Qüvvələri demokratik rejimə birbaşa bir müdaxilə etmədilər. Bildiriş ilə istənilən mövcud Ədalət Partiyası hökumətinin istefası və parlament içindən bütün partiyaların qatılması ilə bir milli razılaşma hökumətinin qurulması idi. Bildirişdə, eyni zamanda, əgər hökumət istefaya getməsə, Türk Silahlı Qüvvələrinin birbaşa idarəçiliyə əl qoyacaqları bildirilirdi [5, s.230-231]. Süleyman Dəmirəlin istefasından sonra, Cümhuriyyət Halk Partisindən (CHP) anidən istefa etdirilən Nihat Erim baş nazir vəzifəsinə gətirildi [3, s.1].

1980-ci ilin 12 sentyabr hərbi çevrilişi: 1980-ci il 12 sentyabr gecə saat 03:00 da əsgərlər hərəkətə keçərək, əvvəlcədən onlara verilmiş hədəfləri ələ keçirməyə başladılar. TRT və poçt binaları tutuldu. Ciddi qarşıdurma olmadı. Kənan Evren televiziya və radioda çıxış edərək ordunun idarəçiliyə bütünlüklə əl qoyduğunu bildirdi. İndi isə sıra ən kritik qərara gəlmişdi. Baş nazir və digər liderlərin taleyi necə olacaqdı? İki seçim var idi: ya edam ediləcəklər, ya da sürgünə göndəriləcəklər. Kənan Evren öz çıxışında bildirdi ki, edam qərarı verilməsi üçün ona müraciətlər olunur, lakin o, 27 may çevrilişindən sonrakı edamları nümunə göstərərək bildirdi ki, indi o edam olunmuş siyasətçilərə büstlər, heykəllər tikirik. Beləliklə, ikinci versiya tətbiq edildi. Süleyman Dəmirəl və Bülənt Ecevit səhəri gün Hamzakoy deyilən yerə sürgünə göndərildilər [3, s.185-186]

Dövlət başçısı, heyət başçısı və milli təhlükəsizlik şurası başçısı Kənan Evren 16 sentyabr 1980-ci il tarixdə etdiyi mətbuat açıqlamasında çevriliş hərəkatının məqsədlərini belə ifadə edirdi: 1. milli birliyi qorumaq; 2. anarxiya və terrorun qarşısını alaraq, əhalinin can və mal təhlükəsizliyini təmin etmək; 3. dövlət nüfuzunu qorumaq; 4. sosial barış, milli anlayış və bərabərliyi təmin etmək; 5. sosial ədalətə, fərdi haqq və hürriyətlərə, insan haqlarına əsaslanan Cümhuriyyət rejimini qurmaq; 6. və nəhayət, yetəri bir müddətdə qanuni işləri tamamlayıb yenidən sivil idarəni təsis etmək.

12 sentyabr çevrilişi iştirakçılarının ABŞ-ın iradəsi ilə hərəkət etdiklərinin, heç də Türkiyənin beynəlxalq mənafeyini güdmədiklərinin ən açıq və müzakirəsiz bir göstəricisi də Yunanıstanın NATO-nun hərbi qanadına geri qayıtması və bunu da Kənan Evren və tərəfdaşlarının təmin etməsi idi. K.Evren

12 sentyabrdan sonra 16 sentyabr 1980-ci ildə keçirdiyi mətbuat açıqlamasında bir jurnalistin "Türkiyə-Yunanıstan münasibətlərinin indiki vəziyyəti haqqında nə düşünürsünüz" sualına: - "Yunanıstanın NATO ittifaqına geri dönməsi üçün hər cür səy göstəriləcəkdir" - deyə cavab verməsi ilə 12 sentyabr çevrilişçilərinin bundan sonra yürüdəcəkləri siyasət aydın şəkildə görsənirdi. Çox keçmədən Yunanıstan NATO-ya geri qayıtdı və Türkiyə veto (ləğv etmə) haqqından istifadə etməyərək, buna mane olmadı. Daha əvvəl NATO-dan çıxmış olan Yunanıstanın geri qayıda bilməsi üçün bütün ölkələrin buna razılıq verməsi lazım idi. Ölkələrdən hər hansı birinin buna etiraz edəcəyi təqdirdə Yunanıstan NATO-ya qayıda bilməyəcəkdi. Ancaq onun qayıtması ABŞ-ın istəyi idi [11, s.195-196].

Ümumiyyətlə, Türkiyədə bu zamana qədər baş vermiş çevrilişlərdə ABŞ-ın təsiri və rolunu göstərən başqa işarələr də var idi. Misal üçün, adətən çevrilişlərdən əvvəl hava qüvvələri komandiri Amerikaya gedərdi. 1971-ci ildə Muhsin Batur, 1980-də isə Tahsin Şahinkaya belə bir ziyarətlər etdilər. Bir də CİA Türkiyə mütəxəssisi Paul Henz Kartерə "Sizin uşaqlar çevrilişi etdilər" deyə bir bildiri göndərmişdi. Eyni zamanda Türkiyədəki amerikalı səlahiyyətli şəxslər öz vətəndaşlarının can və mal varlıqlarını qoruya bilmək üçün çevrilişdən əvvəl onlara xəbərdarlıq etmişdilər. ABŞ-ın çevrilişdən sonrakı reaksiyası da bütövlükdə müsbət oldu. Bundan sonra iki ölkə arasındakı münasibətlər yaxşılaşdı [6, s.164].

Demokratiyanı, parlament sistemini hər fürsətdə müdafiə edən ABŞ bu ideyalar üçün hərbi çevriliş etməkdən çəkinmədi və Türkiyədə baş vermiş bu çevrilişi də simpatiya ilə qarşıladı. Türkiyədə baş verən çevrilişdən bir il əvvəl Polşada baş verən çevrilişi şiddətlə qınayan və qarşı çıxan Amerika bu reaksiyanı Türkiyə çevrilişi üçün göstərmədi. Çevrilişin baş verdiyi gün ABŞ Təhlükəsizlik Şurasında keçirilən iclasda hazırlanmış raport idarəni ələ keçirən hərbiçilərin Yunanıstanın NATO-ya qayıtmasını, Egey problemlərinin həlli mövzusunda əməkdaşlığa açıq olduqlarını bildirirdi. Bu raportu hazırlayan Henz çevrilişin müsbət bir hadisə olduğunu, Amerikaya, ya da NATO-ya qarşı edilmiş bir hərəkət olmadığını, bu səbəbdən ABŞ-ın çevrilişi müzakirə etməməli olduğunu bildirirdi [14, s.53-54].

Uzun illər boyunca türk mətbuatındakı müzakirələrdə ABŞ-ın 12 sentyabrla əlaqədar Henzin istifadə etdiyi "Bizim uşaqlar etdi ("our boys did")" ifadəsi müzakirə edildi. Nəyə görə barmaqların yalnız Henzi göstərdiyi hər kəsə maraqlı idi. Belə ki, Henz türk jurnalistlərinin çevrilişlə bağlı müxtəlif suallarına hər dəfəsində çevrilişi müsbət fikirlərlə ifadə etmişdir [2, s. 165].

## ƏDƏBİYYAT

1. Akşin S., "Siyasal Tarih (1950-1960)" // Çağdaş Türkiye Tarihi 1908-1980, İstanbul: 2008, Cem Yayınevi, s.s. 177-215.
2. Birand M.A., Bila.H., Akar R., 12 Eylül-Türkiye'nin Miladı, İstanbul: Doğan Kitap, 1999. 285 s.
3. Çavdar T. Türkiyenin demokrasi tarihi 1950-1995. Ankara: İmge kitab evi yayınları, 1996, 359s.
4. Günal E., Türkiyede demokrasinin Yüzyıllık serüveni 1908-2008, İstanbul: Karakutu yayınları, 2009, 528 s.
5. Günver S., Fatin Rüştü Zorlu'nun Öyküsü, Ankara: Bilgi yayın evi, 1985, 168 s.
6. İşyar Ö. G., Türk dış politikası sorunlar ve süreçler, bursa 2017, 648 s.
7. Kaçmazoğlu H. B., 27 Mayıstan 12 Marta Türkiyede siyasal fikir hareketleri, Birey yayıncılık, İstanbul: 1995, 224 s.
8. Kuru H., 27 Mayıs 1960 ihtilal dönemi, İktidar-muhalefet ilişkileri// Çağdaş Türkiye araştırmaları dergisi, cild III, say 8 İzmir:1998 ss 241-260, 428 s.
9. Oran B., Türk Dış politikası Kurtuluş savaşından bugüne. Olgular, belgeler, orumlar, 1980-2001. II cilt. İstanbul: İletişim yayınları. 2002. 638 s.
10. Sunay C., Türk siyasetinde 27 Mayıs Darbesi ve Sonrası // Demokrasi Platformu, Üç aylık fikir- kültür-sanat ve araştırma dergisi, sayı 18, Ankara 2009, ss. 23-69 s.
11. Uslu N., Türk-Amerikan İlişkileri, Ankara: 21. Yüzyıl yayınları, 2000, 408 s.
12. Yetkin Ç., Türkiyede Askeri darbeler ve Amerika. Ankara: Ümit yayıncılık, 1995,238 s.
13. 12 eylül öncesi ve sonrası. Milli güvenlik konseyi genel sekreterliği. Türk tarih kurumu basım evi, Ankara, 1981 331 s.
14. Özata M., USA and September 12 Coup: The perspective of a Democracy on the coup//Asia minor studies-international journal of social sciences, volume: 5 Kilis: 9 January 2017.

**UOT 930.85**

# ORTA ƏSR ƏRƏB MƏNBƏLƏRİNDƏ TƏBRİZ ŞƏHƏRİ

***Şahlar Şahbaz oğlu Şərifov***
***AMEA A.A.Bakıxanov adına***
***Tarix İnstitutu***
***shahlarsharifov@gmail.com***

**Açar sözlər:** *Azərbaycan, Təbriz, Ər-Rəvvad əl-Əzdi, Vəcna bin ər-Rəvvad, Əmir Vəhsudan, Nəriz*

*Təbriz qədim dövlərdən etibarən strateji mövqeyinə və əlverişli iqlim şəraitinə görə qədim Şərqdə şöhrət qazanmışdır. Ən qədim dövrlərdən mühüm ticarət yolları Cənubi Qafqaz, İberiya və Qafqaz Albaniyasından Cənuba doğru – Mesopotamiya və Hindistana gedən ticarət yolları bu şəhərdən keçib. Assur mixi yazılarında şəhərin adı Tavreş kimi çəkilir və burada nəhəng qalanın olması qeyd edilir. Təbriz şəhəri Manna dövründə Sanqbitu adlanırdı. Assur hökmdarı II Sarqonun Urartu dövlətinə yürüşü zamanı bu ərazi onun ordusunu un və şərabla, habelə yük və minik heyvanı ilə təmin etmişdi. Beləliklə, Təbriz şəhərinin üç min illik tarixi vardır. Təbriz şəhərinin tarixinin öyrnilməsi üçün Assur hökmdarı II Sarqonun (e.ə. 722-701) kitabəsi ən qiymətli sənəddir.*

## ГОРОД ТЕБРИЗ В СРЕДНЕВЕКОВЫХ АРАБСКИХ ИСТОЧНИКАХ

***Шахлар Шарифов***

**Ключевые слова:** *Азербайджан, Тебриз, Аль-Раувад аль-Азди, Ваджна бин аль-Раувад, Амир Вахсудан, Нариз*

*Тебриз завоевал славу на древнем Востоке за свое стратегическое положение и благоприятные климатические условия с древних времен. Важные торговые пути с самого раннего времени проходили через этот город с Южного Кавказа, Иберии и Кавказа на юг - Месопотамия и Индия. Название города названо Тавресом в ассирийских клинописных надписях, и здесь отмечается, что есть гигантский замок. Тебриз назывался Санкбит в эпоху Манны. Когда ассирийский правитель II Саргон отправился в урартское государство, эта территория предоставила его армии муку и вино, а также груз и крошечное*

*животное. Таким образом, город Тебриз имеет три тысячи лет истории. Надпись ассирийского правителя II Саргона (722-701) является наиболее ценным документом для изучения истории Тебриза.*

## TABRIZ CITY IN THE MEDIEVAL ARABIC SOURCES

***Shahlar Sharifov***

**Keywords:** *Azerbaijan, Tabriz, Al-Rawwad al-Azdi, Vajna bin al-Rawwad, Amir Vakhsudan, Nariz*

*Tabriz has gained fame in the ancient East for its strategic position and favorable climatic conditions since ancient times. Important trade routes from the earliest times passed through this city from South Caucasus, Iberia and Caucasus Albania to the south - Mesopotamia and India. The name of the city is named as Tavresh in the Assyrian cuneiform inscriptions and it is noted here that there is a giant castle. Tabriz was called Sanqbit during the Manna era. When the Assyrian ruler II Sargon marched to the Urartian state, this territory provided his army with flour and wine, as well as a cargo and tiny animal. Thus, the city of Tabriz has three thousand years of history. The inscription of Assyrian ruler II Sargon (722-701) is the most valuable document for learning the history of Tabriz.*

Azərbaycanın tarixi qədim şəhərlərindən biri də Təbriz şəhəridr. əl-Bəlazuri Təbrizdə əvvəlcə Ər-Rəvvad Əzdinin, sonra isə Vəcna bin ər-Rəvvadın hakimlik etdiklərini və burada onlar tərəfindən bir çox binaların tikildiyini qeyd edir [1, s.462-463]. Təbrizi qarış-qarış gəzən XIII əsr ərəbdilli müəlliflərdən olan Yaqut əl-Həməvi qeyd edir ki, Azərbaycanın məşhur şəhərlərindən olan Təbriz əhalisi sıx olan gözəl şəhərdir, ətrafında hasar vardır. Şəhər bağlarla əhatə olunmuş və meyvələr çox ucuzdur. Şəhərdə evlər əsasən rənglənmiş qırmızı kərpicdən və kəcdən tikilmişdir [18, II, s.13].

Təbriz şəhərinin genişlənməsi IX əsrin ortalarında Təbrizdə feodal dövləti quran Rəvvadilərin dövrünə düşür. Abbasi xəlifəsi Əbu Cəfər Mənsur Dəvaniqinin (754-775) dövründə Azərbaycana vali təyin edilən Yezid ibn Hatəm Bəsrədən yəmənliləri Təbrizə köçürərək Rəvvad əl-Əzdini buraya sakin təyin etdi. Təbrizin ardınca Nəriz və Miyaniyəyə də ərəbləri köçürdü [19, II, s.309]. Qeyd edilən fikirlər az fərqlə İbn əl-Fəqih tərəfindən də qeyd edilmişdir [10, s.582]. Təbrizi əlkimyanın saf qızılı adlandıran əl-Müqəddəsi qeyd edir ki, ətrafı müdafiə istehkamları ilə möhkəmləndirilən şəhərin içərisindən çay axır. Meyvə bağları bol olan şəhərdə ucuzluqdur. Şəhərin ortasında yerləşən Cümə

məscidinin gözəllikləri çoxdur. Təbriz və Muğan tamamilə bağlıqdır. Bu şəhərlər Rihab və İslam ölkələrinin fəxri sayılır [2, s.373].

Təxminən iyirmi dörd gün Təbrizdə qalan tacik şairi Nasir Xosrov da bu şəhərin Azərbaycan şəhərlərindən biri olduğunu qeyd edir. Hətta o, "Səyahətnamə" əsərində miladi 1042-ci ildə Təbrizdə baş verən zəlzələ və zələzələdən sonrakı hadisələr haqqında da məlumat vermişdir. Həmçinin məşhur Azərbaycan şairlərindən olan Qətran Təbrizi ilə görüşdüyünü qeyd edən Nasir Xosrov, onun "Məncik" və "Dəqiqə" divanları ilə tanış olduğunu da qeyd etdikdən sonra Əmir Vəhsudanın qoşunu ilə Təbrizdən Mərənd yolu ilə Xoya qədər getdiyini yazır [14, s.13-14].

Təbrizin əsasının nə vaxt qoyulduğu barədə müxtəlif fikirlər vardır. Şəhərin əsasının Sasanilər dövründə qoyulduğunu iddia edən Nadir Mirzə yazır: "Ola bilər ki, Təbrizin əsasını Xosrov qoymuş, sonralar xarabalığa çevrilmiş və kənd halına düşmüşdür" [13, s.17]. V.F.Minorski də Nadir Mirzənin fikrini təsdiqləyir [16, s.7-8].

IV əsrdə baş vermiş hadisələri (387-ci ilə qədər) öz əsərində əks etdirmiş erməni tarixçisi Favstos Buzand 375-376-cı illərdə Sasani hökmdarı II Şapurun (309-379) qoşunu ilə sərkərdə Vasaq arasında Təbrizdə baş vermiş vuruşmanı təsvir etmişdir: "...Sasani Şahı öz qoşunları ilə Ərməniyəyə, sonra Atropatenə yürüş təşkil edir. Sasani qoşunu Tavrejdə düşərgə salır. Vasaq 200 min nəfərlik qoşunu ilə orada olan Sasani şahının sarayını yandıraraq şahın portretini ox ilə deşir [16, s.32].

Qazıntılar zamanı şəhərdən tapılmış sikkələr Təbrizin bir şəhər kimi qədimdən mövcud olduğunu sübut edir. Təbrizin qədim şəhər olması haqqında bir sıra fikirlər irəli sürülmüşdür. Nadir Mirzə yazır ki, Təbriz VIII əsrdən əvvəl də abad bir yer olmuş və hasarı var imiş [13, s.18]. V. F. Minorski "Davrej" sözünə əsaslanaraq şəhəri Sasanilərdən əvvələ, hətta parfiyalılar dövrünə aid edir [16, s.33]. Əhməd Kəsvəriyə görə də Təbriz şəhəri ən qədim şəhərlərdən biridir [8, s.11]. Təbriz şəhərinin islamiyyətdən əvvəl (III-IV əsrlər) mövcud olduğunu söyləyən İran alim Cəmaləddin Fəqih, hətta onu qədim Midiyanın ən qədim və şöhrətli şəhərlərindən bir hesab edir [9, s.23].

Ümumiyyətlə, Azərbaycanda şəhərlərin təşəkkülü eramızdan əvvəl ikinci minilliyin ortalarına təsadüf edir. II Sarqonun kitabəsindən bizə məlum olur ki, Manna dövləti ərazisində İzirtu, Uşkaya, Aniaştaniya, Ulxu və s. şəhərlər mövcud idi [21, s.317, 327]. Urmiya gölünün şərq sahilində, Səhənd dağının şimalında, Surxab dağının cənubunda, Acıçay hövzəsində Tarui-Tarmakis (Təbriz) şəhəri vuruş meydanına çevrilmişdir [16, s.34].

E.ə. 715-ci ildə Manna ölkəsinə daxil olan II Sarqon (e.ə. 722-705) Uşkayanı aldıqdan sonra Bari mahalında yerləşən, möhkəmləndirilmiş varlı və möhkəm Tarui-Tarmakis qalasına gəlib çatır. II Sarqonun tərtib etdiyi kitabə ilə tanış olduqda Tarui-Tarmakis şəhərində Dalilər tayfasının yaşadığı aydın olur

[21, s.326]. II Sarqon Urartunun sərhədlərində yerləşən Uşkayaya gəlir. O, Uşkaya və Aniaştaniyanı aldıqdan sonra indiki Təbrizin yerində və ya azacıq kənarda yerləşən Tarui-Tarmakis qalalarını işğal edir. II Sarqonun kitabəsində deyilir: "Tarmakis qalasının divarları ikiqat idi. Orada Fərat çayı qədər geniş olan kanal var, onun ətrafı isə qalın meşəliklərlə əhatə olunmuşdu. Şəhərdə gözəl binalar var idi" [16, s.35].

E.ə. VIII əsrdə II Sarqonun etdiyi hücum nəticəsində tamamilə dağılan Təbriz şəhəri, sonralar yenidən eramızın III-IV əsrlərində bərpa olunaraq böyük bir şəhərə çevrilmişdir.

IV əsrin sonunda baş vermiş hadisələri öz əsərində əks etdirmiş Buzandlı Favstos Təbrizi "Tavrez", "Tavrej" kimi qeyd etmişdir [22, s.113, 119].

Ərəbdilli müəlliflərin Təbrizin iqtisadi və ictimai vəziyyəti haqqında verdikləri məlumatları olduqca qiymətlidir. Təbriz haqqında ilk məlumata məşhur ərəb tarixçisi əl-Bəlazurinin (IX) əsərində təsadüf edilir. Həmin mənbədə Rəvvad əl-Əzdinin, xüsusilə oğlu əl-Vəcna ilə qardaşlarının kənd kimi təsvir olunmuş Təbrizə hasar çəkdirərək əhalinin oraya köçürülməsindən və həmin yerin abadlaşdırılmasından bəhs olunur [1, s.462-463]. Bəlazurinin verdiyi həmin məlumatı IX əsrdə yaşamış başqa bir ərəbdilli müəllif Əbubəkr Əhməd ibn Məhəmməd əl-Həmədani ibn Fəqih eynilə təkrar edir [10, s.582].

İbn Xordadbeh (X əsrin əvvəlləri) Təbrizi kiçik şəhər adlandırdığı halda [3, s.119], İbn Hövqəl (X əsr) "gözəl, abad, bol məhsul, çoxlu əhaliyə malik, Azərbaycanın mərkəzi və ən abad şəhəri" adlandırmışdır [4, s.289].

X əsr ərəb coğrafiyaşünas səyyahlarının böyük nümayəndəsi əl-Müqəddəsi də Təbrizi "müsəlmanların fəxr etdiyi abad şəhər" adlandıraraq şəhərin təsərrüfat həyatı və memarlıq abidələrindən danışmışdır [2, s.378].

XIII əsrin əvvəllərində Təbrizdə olmuş Yaqut əl-Həməvi "Təbriz" sözünü "Tibriz" kimi yazaraq, şəhəri "Azərbaycanın ən məşhur, gözəl, abad, ətrafı əhəng və kərpiclə bərkidilmiş möhkəm hasarı olan" bir şəhər adlandırmışdır [18, s.13].

1275-1276-cı illərdə "Asar əl-bilad və əxbar əl-ibad" əsərini tərtib etmiş Zəkəriyyə ibn Məhəmməd əl-Qəzvini Təbrizi "Azərbaycanın paytaxtı" adlandırmaqla şəhər əhalisinin əksəriyyətinin sənətkarlıqla məşğul olduğunu bildirmiş və orada istehsal olunan sənətkarlıq malları barədə məlumat vermişdir [20, s.339-340].

Təbriz haqqında məlumat verən mənbələrdən biri də müəllifi məlum olmayan "Hüdud əl-aləm" əsəridir. X əsrdə yazılmış bu əsərdə Təbriz kiçik, lakin abad və bolluq şəhəri kimi təsvir olunur [12, s.164].

Təbriz haqqında məlumat verən orta əsr tarixçilərindən biri də Azərbaycanlı alim Əbubəkr Qütbi əl-Əhəridir. Əbubəkr Qütbi "Tarix-i Şeyx Üveys" adlı əsərində Azərbaycan şəhərləri, o cümlədən Təbriz haqqında bir sıra maraqlı məlumatlar verir. Daha çox Təbrizin siyasi tarixinə toxunan alim, eyni

zamanda Təbrizdə feodal zülmünə qarşı baş verən geniş xalq kütləsindən də bəhs edir [5, s.168-170, 173].

Orta əsr Azərbaycan tarixçisi Şam Qazanlı Nizaməddin Şami h.804 (1401-1402)-cü ildə Teymurun göstərişi ilə onun müharibə və fütuhatını qələmə almışdır. Ömrünün sonlarında Təbrizə qayıtmış Şami h.812 (1409)-ci ildə orada vəfat etmişdir. Həmin mənbədən h.798 (1395-96)-ci ildə Təbrizdə Miranşaha qarşı üsyan baş verdiyi məlum olur. Bundan əlavə, digər orta əsr tarixçiləri kimi Nizaməddin Şami də əhalinin aşağı təbəqəsini "dərviş", "züəfa", "füqəra", "rüaya" adlandırmışdır [15, s.129, 148].

Səfəvilərə qarşı müxalif mövqedən çıxış edən Osmanlı mənbələrində də Təbriz şəhəri haqqında müəyyən qədər məlumat vardır.

XVI əsrin sonlarına aid hadisələri özündə əks etdirən və Sovet tarixşünaslığında lazımi qədər tədqiqata cəlb olunmamış ilk mənbə İbrahim Rəhimizadənin "Ketabe-gəncine-ye fəthi-Gənce" əsəri h.1001 (1592-93)-ci ildə yazılmışdır. Əlyazma 8 fəsil (bab) və epiloqdan (xatimə) ibarətdir. Əsərin müəllifi Sultan III Muradın (1574-1595) Azərbaycan yürüşlərində, o cümlədən Təbriz uğrunda gedən vuruşmalarda iştirak etmiş və hadisələrin bilavasitə müşahidəçisi olmuşdur. İbrahim Rəhimizadə h.996 (1587-88)-cı ildəki hadisələrdən danışarkən Mustafa Əfəndinin Təbrizdə qazi vəzifəsində çalışdığını bildirir. Əlyazmada müəllif III Sultan Muradın işğalçılıq siyasətini qələbə, fütuhat kimi qələmə verməyə cəhd göstərir. O, Osmanlı ordusunun 1585-1586-cı illərdə Təbrizi almaq uğrunda yeddi dəfə hücumunun, şəhərin talan və qarət edilməsinin geniş təsvirini vermişdir. Bundan əlavə, osmanlıların h.993-cü ilin şəvval ayında (sentyabr, 1585) Təbrizdə qala tikdirməsi bütün təfsilatı ilə şərh olunmuşdur. Əsərdə Təbriz əhalisinin şəhərin hakimi Cəfər paşanın zülmü nəticəsində, 7 nəfərdən ibarət nümayəndə heyətinin diri-diri dənizə atılaraq öldürülməsi, osmanlıların Təbrizdə tikdirdiyi qalanı ələ keçirmək uğrunda Səfəvi ordusu ilə Osmanlı ordusu arasında 37 dəfə vuruşma baş verdiyi haqqında məlumat verilir [16, s.20].

Bəzi mənbələrdə verilən məlumatlara görə Təbriz şəhərinin əsasını Abbasi xəlifəsi Harun ər-Rəşidin arvadı Zübeydə xatun h.175 (m.791-792)-ci ildə qoymuşdur [11, s.85]. Lakin orta əsr ərəbdilli mənbələrə nəzər saldıqda bunun yalnış fikir olduğu ortaya çıxır. Yaqut Həməvi h.25 (645-46)-ci ildə Raşidi xəlifəsi Osman ibn Əfvanın xilafəti dövründə Abdullah ibn Şübeyl əl-Əhməsinin Muğana, Təbrizə, Teyləsana hücum edib, oradan qənimət əldə etməsini qeyd edir [18, II, s.13]. IX əsr ərəb müəllifi əl-Yəqubi h.141 (758-759)-ci ildə baş verən hadisələrdən bəhs edərkən yazır: "Əbu Cəfər, Yəzid ibn Üseyd əl-Süləmini Ərməniyyəyə, Yəzid ibn Hatəm əl-Mühəlləbini isə Azərbaycana vali təyin etdi. Yəmənliləri Azərbaycana köçürtdü. Azərbaycana ilk köçən yəmənlilər arasında Rəvvad ibn əl-Müsənna əl-Əzdi də var idi. Rəvvad Təbrizdən Bəzzə qədər hakim oldu" [19, II, s.309]. Buradan aydın olur

ki, hələ h.25-ci ildə Təbrizin adı çəkildiyi halda, hicri 175-ci ildə əsasının Zübeydə xatun tərəfindən qoyulduğu fikri tamamilə səhvdir. Əl-Yəqubiyə görə şəhər "Təbriz" deyil, "Tibriz" adlanırdı [19, II, s.309].

Orta əsr ərəbdilli məxəzlərdə Təbrizin adına hələ ərəblərin hücumu dövründə, h.25 (645-646)-ci ildə rast gəlinir. H.141 (758-759)-ci ildə xəlifə Əbu Cəfər Mənsurun (754-775) əmri ilə Yəzid ibn Hatəm Bəsrədən Azərbaycana xeyli yəmənli köçürür. Köçürülən ilk yəmənlilər arasında olan Rəvvad ibn əl-Müsənna əl-Əzdi Təbrizdən Bəzzə qədər əraziyə hakim təyin edilir, Təbrizi öz iqamətgahına çevirir. Rəvvad Təbrizə gələrkən ora qəsəbə tipli kiçik yaşayış məntəqəsi idi. Sonra Rəvvadın oğlu Vəsna və qardaşları Təbrizi abadlaşdırır, orada müxtəlif binalar tikdirib, hasarını möhkəmləndirirlər. Sonralar Əla ibn Əhməd ər-Rəvvadi əl-Əzdi Təbriz hasarını yenidən bərkidir, orada darvazalar saldırır [18, II, s.13; 19, II, s.309; 1, s.462-463; 12, s.164].

Ət-Təbəri h.220 (835)-ci il hadisələrindən bəhs edərkən İbn ər-Rəvvadın nəslindən olan Məhəmməd ibn Bəisin ixtiyarında "Təbriz" və "Şahi" adlı iki möhkəm qala olduğunu bildirmişdir [17, IX, s.12].

IX əsrin ortalarında Təbriz sənətkarlıq və ticarət mərkəzinə çevrilmişdi. Getdikcə inkişaf edən şəhər artıq X əsrin ortalarında məşhurlaşmışdı. İbn Misqəveyh h.330 (941-942)-cu il hadisələrindən bəhs edərkən Təbrizi möhkəm hasara malik, sıx meşələrlə əhatə olunmuş, bağlı-bağatlı bir şəhər kimi təsvir etməklə yanaşı, şəhər əhalisinin də qoçaq və dövlətli olduğunu qeyd edir [6, V, s.251; 7, VII, s.165-166].

Təbrizi "gözəl, abad, çoxlu əhalisi olan şəhər" adlandıran ibn Hövqəl yazır ki, çoxlu bazara malik bu şəhərdə qızğın ticarət gedir. Təbrizdə toxunan örtüklər misilsizdir [4, s.289]. Əl-Müqəddəsi (986-1038) Təbrizin abadlığından bəhs edərək yazmışdır: "Təbriz möhkəm şəhərdir...müsəlmanlar onunla fəxr edə bilərlər. Onun ortasından arxlardan su axır. Ətrafında ağaclar bir-birinə çulğalanmışdır. Meyvələri bol, qiymətləri ucuzdur. Şəhərin mərkəzində Came məscidi vardır... onun gözəllikləri çoxdur. Təbriz və Muğan tamamilə bağlıdır. Bunların hər ikisi Rihab və İslam ölkələrinin fəxri sayılır" [2, s.378].

1042-ci il zəlzələsi nəticəsində Təbrizdə 50 minə yaxın insan həlak oldu. Şəhərin bir hissəsi tamamilə dağılıb xarabalığa çevrilir. Təbrizin hasarı, əksər bina və bazarları dağılır [7, VIII, s.260].

Beləliklə, IX əsrin sonları - XI əsrin ortalarını əhatə edən dövr Təbrizin iqtisadi inkişaf mərhələsi olmuşdur. 1042-ci il zəlzələsi, sonrakı feodal ara müharibələri Təbrizin iqtisadi həyatına ağır zərbə vurmuşdur. Lakin Şəmsəddin Atabəy Eldənizin hakimiyyəti dövründə Təbrizin Atabəylər dövlətinin paytaxtına çevrilməsi onun iqtisadi-ictimai inkişafına müsbət təsir göstərmiş, şəhər çox böyümüş və bu inkişaf mərhələsi 1225-ci islədək davam etmişdir.

## ƏDƏBİYYAT

1. Əbul Abbas Əhməd ibn Yəhya əl-Bəlazuri. Fütuhul-buldan, Beyrut-Lübnan, h.1407/m.1987.
2. Əbu Abdullah Məhəmməd əl-Müqəddəsi. Əhsən ət-təkasim, Qahirə, h.1411/m.1991.
3. Əbulqasim Ubehdullah ibn Abdullah ibn Xordadbeh. Kitab əl-məsalik vəl-məmalik, Leyden-1989.
4. Əbulqasim ibn Hövqəl, Surət əl-arz, Beyrut-Lübnan-1992.
5. Əbu Bəkr Qütbi əl-Əhəri, Tarixi Şeyx Üveys, Lahə, h.1273/m.1964.
6. Əbu Əli bin Məhəmməd ibn Misqəveyh. Təcaribul-umm, Beyrut-Lübnan, h.1424/m.2002.
7. Əbul-Həsən İzzəddin Əli ibn Məhəmməd ibn əl-Əsir. əl-Kamil fit-tarix, Beyrut-Lübnan, h.1407/m.1987.
8. Əhməd Kəsrəvi. Azəri ya zəbane bastani-ye Azərbayqan, Tehran, 1304 ş.
9. Cəmaləddin Fəqih. Atropatekan və nehzəte ədəbi, Tehran, 1346 ş.
10. İbn əl-Fəqih. Əbu Abdullah Əhməd ibn Məhəmməd. Kitab əl-buldan, Beyrut-Lübnan, h.1416/m.1996.
11. Həmdullah Qəzvini. Nuzhət əl-Qülub, Tehran, 1958.
12. Hüdud əl-aləm, Qahirə, h.1423/m.2002.
13. Nadir Mirzə. Tarix və coğrafi-ye dar-üs-səltəneyi Təbriz, Tehran, h.1323.
14. Nasir Xosrov. Səyahətname, Tehran, h.1312.
15. Nizaməddin Şami. Zəfərnamə, Praqa, 1956.
16. Seyidağa Onullahi. XIII-XVII əsrlərdə Təbriz şəhəri, Bakı-1982.
17. Təbəri. Əbu Cəfər Məhəmməd ibn Cərir. "Tarix əl-üməm vəl-müluk, Misir-Qahirə, m.1985.
18. Yaqut əl-Həməvi. Şəhabuddin Əbu Abdullah. Mucəm əl-buldan, Beyrut-Lübnan, h.1397/m.1977.
19. Yəqubi. Əbu İshaq ibn Vazeh. Tarixi-Yəqubi, Beyrut-Lübnan, h.1431/m.2010.
20. Zəkəriyyə ibn Məhəmməd ibn Mahmud əl-Qəzvini. Kitab-i asar əl-bilad və əxbar əl-ibad, Beyrut-Lübnan, Dərus-sadr, h.1421/m.2000.
21. И.М.Дьяконов. Ассиро-вавилонские источники по истории Урарту. ВДИ 1951, № 2
22. Фавстос Бузанд. История Армении. Пер. с древнеармян. и коммент. М. А. Геворгяна. Ереван, 1953.

**UOT 376**

# RİNOLALİYALI UŞAQLARIN KORREKSİYASI ZAMANI TƏDQİQAT PRİNSİPLƏRİNDƏN İSTİFADƏ QAYDALARI

***Nailə Tofiq qızı Hüseynova***
***Azərbaycan Dövlət Pedaqoji Universiteti***
***nailyahuseyn72@gmail.com***

**Açar sözlər:** *tədqiqat prinsipləri, səs tələffüzü, artikulyasiya tapşırıqları, loqopedik iş, nitq sistemi.*

*Nitq qüsurunun spesifik xüsusiyyətlərini, kompleks təsirin düzgün təşkilini və rinolaliyalı uşaqlarla korreksiya işlərinin təkmilləşməsi yollarının müəyyənləşməsi üçün kliniki və psixoloji-pedaqoji məlumatların hərtərəfli öyrənilməsi vacibdir. Nitq pozulmasının diaqnostikasının mürəkkəb məsələləri uşağın keçirdiyi xəstəlikləri sübut edən patoloji simptomların düzgün kvalifikasiyasını tələb edir.*

*Korreksiya təlimi, tapşırılarının uğurlu həlli nitq pozulmasının nə dərəcədə düzgün və zamanında müəyyənləşdirilməsindən, onun ağırlıq səviyyəsindən və korreksiya tapşırıqlarının başlanmasından asılıdır.*

# ПРАВИЛА ИСПОЛЬЗОВАНИЯ ПРИНЦИПОВ ИССЛЕДОВАНИЯ ПРИ КОРРЕКЦИИ ДЕТЕЙ С РИНОЛАЛИЕЙ

**Ключевые слова:** *принципы исследования, звукопроизношение, артикуляционные упражнения, логопедическая работа, речевая система.*

*Для определения правильной коррекционной работы, правильной организации комплексного воздействия и изучения специфических особенностей речевых дефектов, важно всесторонне изучить клинические и психолого-педагогические данные. Сложные вопросы перенесенных ребенком заболеваний, доказательство их патологических симптомов требует их правильной классификаций.*

*Коррекционное обучение, зависит от правильного подбора упражнений, от уровня тяжести и начала коррекционных занятий.*

# THE USED RULES OF RESEARCH PRINCIPE DURING CORRECTION THE CHILDREN WITH RHINOLALIA

**Keywords:** *research principe, voice pronounce, logopedic work, speech system, articulation exercises*

*It is important to thoroughly study clinical and pedagogical data for specific features of speech defect, the organization of complex effects and the ways to improve the correction of children with rhinolalia. Diagnostics complex issues of speech violations require proper qualification of the pathological symptoms of the child's illness. Correction training, successful solution of tasks depends severity of speech spoiling and when the correction began*

**Açar sözlər:** *tədqiqat prinsipləri, səs tələffüzü, artikulyasiya tapşırıqları, loqopedik iş, nitq sistemi*

Nitq qüsurunun spesifik xüsusiyyətlərini, kompleks təsirin düzgün təşkilini və rinolaliyalı uşaqlarla korreksiya işlərinin təkmilləşməsi yollarının müəyyənləşməsi üçün kliniki və psixoloji-pedaqoji məlumatların hərtərəfli öyrənilməsi vacibdir.

Loqoped nitq sisteminin hansı komponentlərinin zərər gördüyünü, qüsurun hansı mürəkkəb səviyyədə olmasını, qüsurun quruluşunda nəyin əsas, nəyin ikinci dərəcəli olduğunu müəyyənləşdirməyi bacarmalıdır. Nitq pozuntusunun diaqnostikasının mürəkkəb məsələləri uşağın keçirdiyi xəstəlikləri sübut edən patoloji simptomların düzgün kvalifikasiyasını tələb edir.

Korreksiya təlimi, tapşırılarının uğurlu həlli nitq pozuntusunun nə dərəcədə düzgün və zamanında müəyyənləşdirilməsindən, onun ağırlıq səviyyəsindən və korreksiya tapşırıqlarının başlanmasından asılıdır.

Prosesdə müxtəlif tədqiqat metodlarından istifadə olunur:

- tibbi sənədlərlə tanışlıq;
- sərbəst ünsiyyət şəraitində və xüsusi məşğələlərdə uşaqların pedaqoji müşahidəsi;
- həkimlərlə, valideynlərlə, uşaqla söhbət;
- tədqiqatın obyektiv metodları;
- nazofarinqoskopiya, rentgenoqrafiya.

İstənilən nitq pozulmasının yaranması və daha sonra aradan qaldırılması prosesində loqopediyanın başlıca prinsiplərini izləmək vacibdir. Üst dodaq və damağın anadangəlmə yarığı ilə doğulan uşaqların tədqiqi zamanı

komplekslik prinsipindən istifadə olunur. Dodağın və damağın anadangəlmə yarığı zəminində yaranmış rinolaliya mürəkkəb nitq pozulması hesab olunur, onun aradan qaldırılması tibbi-psixoloji-pedaqoji kompleks müdaxilə tələb edir. Belə uşaqların tədqiqində loqopedlərlə yanaşı cərrahlar, ortodontlar, pediatorlar, LOR-lar, nevroloqlar, genetiklər, psixoloqlar da iştirak edir. Bu ona görə əlverişlidir ki, yarıqlar nitq aparatının funksional problemlərinə gətirib çıxaran anatomik qüsurlara səbəb olur (tənəffüs, qidalanma, eşitmə və nitq pozuntularına səbəb olmaqla uşağın inkişafına mənfi təsir edir). Artikulyasiya orqanları sahəsində olan üzvi pozuntular cərrah-stomatoloqun vacib məsləhətini tələb edir. Əməliyyata qədərki müddətdə cərrah bu kateqoriyalı xəstələrin müalicə müddətini, mərhələlərini və üsullarını təyin edən aparıcı mütəxəssis sayılır.

Bəzi hallarda əməliyyat müdaxiləsindən sonra tikişlərin aralanması müşahidə olunur ki, bu da sərt damağın ön və ya orta hissəsində qüsurların əmələ gəlməsinə gətirib çıxarır. Buna səbəb kimi müdaxiləyə məruz qalmış hissənin mikroflorasında pozuntular, uşağın ümumi somatik vəziyyətinin pisləşməsi hesab olur. Bu cür hallarda təkrar əməliyyatın aparılması və müalicənin davamını təyin etməsi üçün cərrah konsultasiyası vacibdir. Rinolaliya zamanı səs tələffüsünün tam korreksiyasına yarıqla birgə diş sırasında olan çoxsayılı pozuntular mane olur. Bəzi hallarda səs tələffüzünün düzgünlüyünə ortodont aparatından istifadə təsir göstərir. Buna görə də tədqiqat zamanı ortodontun rəyini almaq vacibdir. Tədqiqat zamanı eşitmə qabiliyyətinin xarakteri, burun-udlağın vəziyyəti haqqında (iltihabi proseslərin, poliplərin, adenoidlərin, burunda çəpər əyrisinin olub olmaması) otorinolarinqoloqun rəyini almaq, eşitmə qabiliyyətinin zəifləmə dərəcəsini müəyyənləşdirmək vacibdir. Pediatorun konsultasiyası loqopedik məşğələlərə yüklənmənin planlaşdırılması haqqında məsələlərin həlli üçün tələb olunur. MSS-də mümkün üzvi və funksional pozuntuların ortaya çıxarılmasına öz növbəsində nevroloq və psixoloqun müayinəsi kömək edir.

Rinolaliya zamanı loqopedik işlərin prinsipi həmin qüsurun mövcudluğundan və onun səbəblərindən qaynaqlanır.

Rinolaliya zamanı səs tələffüsünün total pozulması müşahidə olunur. Bununla əlaqədar olaraq, loqopedik işlərdə bütün səslərin düzgün tələffüzünü yenidən formalaşdırmaq lazımdı.

Bəzi səslər nitqdə düzgün səslənmə kimi görünə bilər, lakin bu təsürat yanıldıcıdır, belə ki, artikulyasiya aparatı əzələlərinin gərginliyi və dilin yanlış mövqeyi normal artikulyasiyanı təmin etmir. Buna görə də bu düzgün zənn edilən səsləri loqopedik məşğələlərdə istifadə etmək olmaz.

Beləliklə, rinolaliyalı şəxslə işə başlayarkən onun tələffüz etdiyi bütün səslərdən imtina edib işə yenidən başlamaq lazımdı. Rinolaliya zamanı səslər üzərində işlərin davamı səslərin artikulyasiya bazasının hazırlığı ilə müəyyənləşdirilir.

Nitq səsləri həm qarşılıqlı asılıdırlar həm də qarşılıqlı əlaqədədirlər və buna görə də bir qrupa aid olan bütün səslərin mövcudluğu növbəti qrup səslərin formalaşması üçün törəmə bazası hesab olunur: bir səs digəri üçün törədicidir. Səslərin sahib olduğu artikllar yeni səslərin öyrənilməsi üçün vacib əsas olacaq. Ayrı-ayrı səslərin öyrənilməsi üçün fərqli dayaq səslərindən istifadə oluna bilər.

Müxtəlif inkişaf pozulması olan uşaqların təlim və tərbiyə keyfiyyətinin artırılması müasir dövrdə aktual problem olaraq qalır. Nitq inkişafı ləngiməsi olan uşaqlar çoxsaylı qrup təşkil edir. Fonetik-fonematik inkişaf ləngiməsi - müxtəlif nitq pozulması olan uşaqlarda fonemin qavranılması və tələffüzü qüsurlarının nəticəsi olaraq, doğma dilin tələffüz sisteminin formalaşma prosesinin pozulmasıdır. Fonetik-fonematik inkişaf ləngiməsi olan uşaqların nitqində incə artikulyasiya və ya akustik əlamətinə görə fərqlənən səslərin formalaşması prosesində çətinliklər qeydə alınır. Bu zaman uşaqların nitqində differensiallaşmamış səslər, səslərin qarışdırılması, nitqdə onlardan davamlı istifadə olunmaması, əhəmiyyətli sayda səslərin təhrif olunmuş tələffüzü müşahidə olunur. Düzgün səs tələffüzünün mənimsənilməsi prosesi nitq sisteminin vahidliyini təmin edən sensor və motor funkaiyalarının sıx qarşılıqlı fəaliyyəti əsasında həyata keçir. Bir tərəfdən nitqin səs sahəsinin düzgün mənimsənilməsi daha çox qavrayışın perseptiv və fonematik səviyyəsinin inkişafı ilə təyin olunur. Digər tərəfdən, nitqin inkişafı gedişatında eşitmə analizatoru nitq-hərəkət tərəfdən təsirə məruz qalır: uşaq səsləri necə tələffüz etdiyinə uyğun olaraq eşidir və qavrayır. Uşağın düzgün tələffüz etdiyi səslər daha yaxşı eşidilir və əksinə. Beləliklə, nitqin səs sahəsinin düzgün formalaşması üçün uşaq yalnız buna hazırlanmış artikulyasiya aparatına sahib olmalı deyil, həmçinin özünün və başqasının nitqində düzgün və yanlış tələffüz olunan səsləri yaxşı eşidə və fərqləndirə bilməlidir.

R.Y.Levina uşaqların nitqinin psixoloji öyrənilməsi əsasında belə nəticəyə gəldi ki, nitqin səs sahəsinin tam mənimsənilməsi üçün fonematik qavrayışın mühüm əhəmiyyəti var. "Fonematik eşitmə" və "Fonematik qavrayış" anlayışları bir-birindən nə ilə fərqlənir? Fonematik eşitmə — doğma dilin fonemlərini fərqləndirməyə və tanımağa imkan verən incə, sistemləşdirilmiş eşitmədir. Fonematik eşitmə fizioloji eşitmənin bir hissəsidir, eşidilən səsin onların etalonları ilə uyğunlaşdırılması və qarşılaşdırılmasına istiqamətləndirilmişdir. Bu normalda 6 aydan 1 il 6 aya qədər formalaşır. Təxminən 3 yaşın əvvəllərində uşaq bütün nitq səslərini eşitmə ilə fərqləndirə bilmə bacarığına malik olur və uşaqların nitq eşitməsinin bir çox məşhur tədqiqatçılarının fikrincə uşaqda fonematik eşitmə yetəri qədər formalaşmış olur. Fonematik eşitmənin pozulması qeyri-nitq səslərinin, kvaziomonim-sözlərin fərqləndirilməsində; səsin yüksəkliyi, gücü, tembrinin fərqləndirilməsində; hecaların və fonemlərin differensiallaşdırılmasında özünü göstərir. "Fonematik eşitmə"

anlayışını "Fonematik qavrayış" anlayışından ayırmaq lazımdır. Fonematik qavrayış — fonemləri fərqləndirmə və sözün səs tərkibini müəyyən etmək, yəni səs analizi üzrə əqli əməliyyat aparmaq bacarığıdır. Dağ sözündə neçə heca var? Bu sözdə neçə səs var? Sözün sonunda hansı samit var? Sözün ortasında hansı sait var? Bu suallara cavab verməyə məhz fonematik qavrayış kömək edir. Fonematik qavrayış, xüsusi təlimlər prosesində formalaşır. Fonematik eşitmənin və fonematik qavrayışın düzgün formalaşması məktəb təlimi prosesində yazının və oxunun səhvsiz mənimsənilməsi əsasında olur. Təhsil prosesinin əsas komponenti bütünlükdə diaqnostikadır. Onun köməyilə qarşıya qoyulmuş hədəf və məqsədlərin nailiyyət nəticələri müəyyənləşdirilir.

Zamanında və keyfiyyətli aparılmış diaqnostika effektli loqopedik korreksiya təsir prinsipini həyata keçirilməsi yolunda ilkin mərhələ hesab olunur. Fonematik proseslərin diaqnostikasının təqdim edilmiş variantında müxtəlif müəlliflərin diaqnostik metodikaları toplusundan istifadə olunmuşdur: N.İ.Dyakova, T.B.Filiçeva, Q.A.Kaşe, Q.V.Çirkina və b.

Fonematik eşitmənin təklif olunan müayinə sistemi uşaqların nitqinin qiymətləndirilməsi üçün loqopedik təcrübədə ənənəvi olan üsulları özündə birləşdirir.

Sistem test xarakteri daşıyır, onun keçirilmə proseduru və bal sistemi ilə qiymətləndirməsi standartlaşdırılmışdır ki, bu da qüsurun rəsmini əyani şəkildə təsəvvür etməyə və fonematik eşitmə pozulmasının qabarıqlıq dərəcəsini təyin etməyə imkan verir. Bundan başqa, sistem uşağın fonematik eşitməsinin dinamik inkişafını izləmək üçün və korreksiya təsirinin effektivliyi üçün rahatdır. Fonematik eşitmə pozulmasının daha dəqiq kvalifikasiyası məqsədilə uşaqda hansı əməliyyatların daha böyük səviyyədə formalaşmadığını müəyyən etmək faydalıdır. Nəticələrin bütövlükdə balla qiymətləndirilməsi pozulmanın şəkli haqqında tam təsəvvür verir və ən əsası, korreksiya işlərinə yönəlmiş strategiya hazırlamağa imkan verir. Sistem silmə dizartriyalı uşaqlarda fonematik eşitmənin müayinəsi üçün adaptasiya edilmişdir. O, silmə dizartriyalı uşaqlarda fonematik eşitmənin formalaşma zəmininin və fonematik eşitmənin özünün müayinəsi üçün bir sıra yoxlamalardan ibarətdir. Nitq səslərinin eşitmə ilə qavranılmasının müayinəsindən əvvəl uşağın fiziki eşitməsinin tədqiqi nəticələri ilə tanış olmaq vacibdir.

Səsin artikulyasiya bazasının hazırlığı prinsipi xüsusi artikulyasiya gimnastikasının köməyi ilə aparılır. Bu gimnastika hər zaman uşağın nitq tənəffüsünün inkişafı ilə uyğunlaşır. Artikulyasiya gimnastikası əlavə borunun ön hissəsində müxtəlif orqanlar üçün fərqli aparılır. Artikulyatorların hər bir mövqe hərəkəti dəqiq, güzgü nəzarəti olmadan və müəyyən ritmə uyğun olaraq işlənilir.

Alt çənə üçün tapşırıqlar:

1. Ağız yarımaçıq - geniş açılmış - bağlı tələffüz: lya-lya-lya, Alya-Alya-Alya.

2. Ağız yarımaçıq olduğu halda alt çənənin önə hərəkəti ilə tələffüz: rvı rıli, vı vıli.

3. Alt çənənin sağa-sola ixtiyari hərəkəti.

4. Çeynəmə imitasiyası, hansı ki, bu zaman qırtlaq, udlaq, yumşaq damaq, dil və dodaq əzələlərinin enerjili yığılması baş verir.

5. Alt çənəni önə hərəkət etdirmək və eyni zamanda alt dişlərlə üst dodağı "qaşımaq" və alt dişlərə tərəf buraxmaq və alt dodağı üst dişlərlə "qaşımaqla" onu geriyə hərəkət etdirmək.

Çənəni aşağı salarkən əli çənə oynaqlarına qoymaqla alt çənənin və çeynəmə əzələlərinin boşaldığını əyani şəkildə göstərmək lazımdır. Daha sonra sait səsləri tələffüz edərkən alt çənənin bir qədər qabarıq hərəkətini əlavə etmək lazımdır: İ, E, I. Çənəni bir qədər aşağı, bir az da önə gətirmək səslərin ağız rezonansı əldə etməklə daha geniş açıq və aydın tələffüz olunmasına gətirib çıxarır. Məlumdur ki, nitq zamanı ağız boşluğu və udlaq boşluğu bir birindən əks asılılıqda olurlar: nitq zamanı ağız boşluğu nə qədər geniş olarsa, udlaq o qədər dar olur.

Dodaqlar üçün tapşırıqlar.

Dodaq hərəkətlərinin lazımi qədər rahat və aktiv olması üçün növbəti tapşırıqlar tövsiyə edilir:

1. Dodaqların titrədilməsi (arabaçı kimi "pprrrr").

2. Alt və üst dodağın qaldırılıb endirilməsi (növbə ilə və eyni zamanda), tələffüz.

3. Çənəni sıxmaqla və açmaqla dodaqların boru kimi önə çıxarılması və onları "dairə" şəklinə salmaq. Tapşırığın yerinə yetirilməsi şərh edilir.

4. Dodaqların kənarlara hərəkət etdirilməsi, tələffüz.

5. Dodaqlar boşalaraq, üst dodağın alt dodağa vurulması, tələffüz: dodaqların şıppıltısı.

6. Dodaqlarla taxta qaşığı saxlamaq, onlarla kiçik boruları tutmaq.

7. Dodaqlar dartılaraq və dişlərə sıxılaraq "mmm' mmm' mmm' " tələffüz etmək.

8. Dodaqlara kəskin təzyiq etməklə dişlərin yaxalanması imitasiyası, daha sonra onların rahatlanması və nəfəs verilməsi.

9. Dodaqların geniş çuxur kimi açılması sonra isə fitlə birlikdə yarıq əmələ gətirilməsi.

10. Sıxılmış dişlərlə - dodaqları önə çıxarmaqla havanın sovrulması.

11. Dodaqlarla sağa-sola sorma hərəkəti.

12. Önə çıxarılmış dodaqların sağa-sola hərəkəti.

13. Ağızdan tüstü buraxmaq imitasiyası.

14. Yaxınlaşdırılmış dodaqlarla "paltarlara su çiləmək".

15. Tələffüzlə birlikdə dodaqların aktiv hərəkəti.
16. Möhkəm sıxılmış dodaqlarla alt çənəni yuxarı aşağı etmək.
17. Möhkəm sıxılmış dodaqları iti hərəkətlərlə yuxarı-aşağı aparmaq cəhdi ilə sağa-sola etmək.

Üst dodağın masajı.

Çapıq-dəyişilmiş üst dodaq hər iki əlin 2-ci 3-cü barmaqlarının son buğumu ilə burundan üst dodağın kənarlarına doğru masaj edilir, həmçinin çapıq özü də yüngülcə dartılır; hərəsi 2dəqiqə olmaqla sığallama, sürtmə, əzmə və titrətmə işləri aparılır.

Artikulyasiya praksisinin inkişafı üzrə tapşırıqlar sistemində nitq aparatının əzələlər qrupunun fizioloji cəhətdən qarşılıqlı fəaliyyətindən, yəni onlar arasındakı qarşılıqlı əlaqədən və qarşılıqlı asılılıqdan istifadə başlıca olmalıdır.

Hər hansı bir səsin artikulyasiya əsası hesab olunmayan kobud artikulyasiya tapşırıqlarından qaçmaq lazımdır (dili çölə çıxarmaq , çölə çıxarılmış dili üst dodağa doğru qaldırmaq və s.) belə ki, bunlar ayrı-ayrı səslərin artikulyasiyasının möhkəmlənməsi üçün vacib olan ixtiyari hərəkətlərlə heç cür uyğunlaşmır. Bu və ya digər səsin tələffüzü üçün vacib olan hərəkətlər məşq olunur, bununla belə diqqət yetirmək lazımdır ki, uşaq hərəkətləri rahat, gərilmədən yerinə yetirsin, belə ki, gərginlik nitq aparatının digər qrup əzələlərini irradiasiya edə bilər.

Əlavə artikulyasiya tapşırıqlarını yalnız ciddi differensial planda və yalnız vacib hallarda istifadə etmək olar. Bunların hamısı təbii, fizioloji olmalı və uşaq tərəfindən heç bir gərginlik olmadan yerinə yetirilməlidir. Bu tapşırıqlar daha çox qarışıq pozuntu zamanı tətbiq olunur. Belə ki, rinolaliyanı müşayiət edən ağır dizartriya zamanı əzələlər qrupu üçün vacib olan hərəkətlərin inkişafı üçün mexaniki yardım və masaj tətbiq olunur, dilin birtərəfli zəifliyini aradan qaldırmaq üçün hərəkətlər məşq edilir və s. Tapşırıqlar bunların hər biri üçün vacib və faydalı olması nəzərə alınmaqla ciddi differensiallaşdırılır. Beləliklə, artikulyasiya aparatının gimnastikasının həyata keçirilməsi zamanı diqqət yetirmək lazımdır ki, bütün məşq edilən hərəkətlər nitq səslərinin müəyyən artikulyasiya qaydasının formalaşmasına xidmət etsin. Səslərin tələffüzü zamanı uşağın diqqəti ilk öncə onun artiklına yönəlməlidir; eşitmə nəzarətini cəlb etməklə uşağın diqqətini səsə cəmləmək lazım deyil ki, onun keçmiş artikulyasiya vərdişləri sonradan yaranmış düzgün tələffüzün möhkəmlənməsinə mane olmasın. Uşaq hansı səs üzərində işlədiyini əvvəlcədən bilməməlidir.

Düzgün nitq bacarıqların formalaşdırılması prinsipi, loqoped tərəfindən və yalnız qismən loqopedin rəhbərliyi ilə valideynlər tərəfindən möhkəmləndirilir. İlk 10-15məşğələdə düzgün nitq bacarıqlarının formalaşmasına nəzarəti loqoped həyata keçirir, yəni uşağa ev tapşırığı verilmir. Artikulyasiyalar

mənimsənildikdən sonra səslərin hərf mənalarına keçilir: loqopedlə dərslərdə üzərində işlənilmiş nitq materialını müstəqil məşğələlərdə valideynin rəhbərliyi ilə möhkəmləndirmək olar.

Ayrı-ayrı səslərin tələffüzünün möhkəmləndirilməsindən sonra loqopedin rəhbərliyi ilə uşağın tələffüz etdiyi sözlərdə və ifadələrdə onların avtomatikləşdirilməsi işləri aparılır.

Nitqin həcmi məşğələlərdə getdikcə kontekst nitqinə qədər mürəkkəbləşərək genişlənir və ən son öyrənilmiş nitq vərdişləri uşaq üçün yeni şərtlər altında, dialoq şəklində möhkəmlənir.

## ƏDƏBİYYAT

1. Ермакова И.И. Коррекция речи при ринолалии у детей и подростков. - М.: Просвещение, 1984. 140 с.
2..Ермакова И.И. Коррекция речи при ринолалии у детей и подростков. - М.: Просвещение, 1984. 140 с.
3. Ипполитова А.Г. Открытая ринолалия: Учеб. пособие для студентов дефектол. фак. пед. ин-тов / Под ред. О.Н. Усановой.— М.: Просвещение, 1983. - 95 с.

**UOT 376**

## AUTISTIK SPEKTR POZULMASI ZAMANI NITQ VƏ KOMMUNIKASIYA

***Səbinə Ramiz qızı Aslanova***
***Azərbaycan Dövlət Pedaqoji Universiteti***
***sabina-aslanova@bk.ru***

**Açar sözlər:** *autizm, autistik spektr pozulması (ASP), nitq, kommunikasiya, tipik inkişaf (Tİ), nitqin spesifik (NSP), prosodika, proqmatika, semantika, exolaliya.*

*Autistik spektr pozulması olan insanlarda nitq və kommunikasiya inkişafı pozulmasına həsr edilmiş xarici tədqiqatların icmalı təqdim edilmişdir. Autistik pozulması olan insanların nitqində çox zaman onun ilk növbədə qrammatik sahəsinin pozulması, qeyri-adi intonasiya, exolaliya ilə ortaya çıxan spesifik xüsusiyyətlər olur; həmçinin həmsöhbətinin nitqini qavramaqda çətinliklər çəkir. Eyni zamanda bu problemlər üzrə tədqiqatların nəticələrində ziddiyyət qeydə alınır ki, bu da müxtəlif səbəblərlə bağlıdır və müasir zamanda bir sıra məsələlər üzrə vahid fikrə gəlməyə imkan vermir.*

## РЕЧЬ И КОММУНИКАЦИЯ ПРИ НАРУШЕНИИ АУТИСТИЧЕСКОГО СПЕКТРА

***Сабина Асланова***

**Ключевые слова:** *аутизм, расстройства аутистического спектра (РАС), речь, коммуникация, типичное развитие (ТР), специфические расстройства речи (СРР), просодика, прагматика, семантика, ехолалия*

*Проблемам развития речи и коммуникации личностей с расстройствами аутистического спектра посвящено несколько зарубежных исследовательских работ. Они находят свое отражение в представленной работе. В данной работе показано что, речь людей с аутистическими расстройствами имеет специфические особенности развития. Они проявляются, прежде всего в прагматической стороне речи и в просодической стороне речи. Одноко имеются сложности при восприятии речи собеседника, бывает нарушена грамматическая (семантика, морфология, синтаксис) и лексическая структуры речи. В том числе, в речи аутичной личности свойственны эхолалии.*

*Одновременно, со сказанным, отмечаются противоречивые результаты исследовательских работ, по данной проблеме. Эти противоречия обусловлены разными причинами, которые не позволяют в настоящее время перейти к единому мнению ряда авторов.*

## SPEECH AND COMMUNICATION IN AUTISM SPECTRUM DISORDERS

***Sabina Aslanova***

**Keywords:** *autism, autism spectrum disorder (ASD), speech, communication,typical development (ID), spesifik speech disorders (SSD), prosodic, pragmatics, semantics,echolalia*

*The problem of development of speech and communication of personality disorders of the autism spectrum is devoted to several foreign research works. They are reflected in the presented work. In this works, it is shown that the speech of people with autistic disorders have spesific features of speech development. They are manifested primarily in the praqmatics side of speech and prosodic side of speech.*

*However, there are difficulties in the perception of the interlocutors speech, aswellas the he qrammatical structure of speech (semantics, morphologu, syntaxs) and lexical structure of speech in particular, the speech of an autistic personalitys characterist of echolalia. However, there are conflicting results of research on this problem. These contradictions are due to various reasons, which do not currently allow to come to a common opinion of a number of authors.*

Autistik spektr pozulması (ASP) - fərqli inkişaf pozulmasıdır. ASP üçün müxtəlif sosial amillərin davamlı kasadlığı xarakterikdir: verbal və qeyri-verbal kommunikasiya, empatiya, emosional inkişaf və sosial ünsiyyətin qavranılmasında çətinliklər. ASP olan insanlar üçün həmçinin davranış stereotipləri, rituallara bağlılıq və məhdud maraqlar xarakterikdir. Nitq inkişafı, mənimsənilməsi normadan kənar olmaya bilər, məsələn, Asperger sindromu. Lakin çox vaxt bu sahədə pozulma olur. Məlumatlara əsasən, belə hallarda, beynin nitqlə əlaqədar olan hissəsinin atipik həcmi bu fərdlərdə müşahidə olunur. Bu hallar beyində nəzərə çarpan yayınmalar olmayan, lakin ASP olan şəxslərdə müşahidə olunmur.

Nitq inkişafı ləngiməsi - ASP məruz qalmış uşaqların valideynlərinin ən geniş yayılmış şikayətlərindən biridir. Çox vaxt ləngimə çox ciddi olur: normal inkişafda 8-12 ayda olduğu halda bu uşaqlar ilk sözləri 38-ci ayında tələffüz

edir. Bəzi məlumatlara görə ASP olan şəxslərin 25%-dən 50%-ə qədəri funksional nitq bacarıqlarına malik olmurlar. Demək olar ki, ASP olan bütün şəxslər üçün proqmatika sahəsində spesifik problemlər, qeyri-adi intonasiya və çox vaxt exolaliya xarakterikdir. Bu nitqin digər aspektlərinə də təsir edir: sintaksis, morfologiya, semantika və fonologiya; çox vaxt digər insanların nitqinin qavranılmasında çətinliklər əmələ gəlir. ASP olan şəxslərdə nitqin praqmatik tərəfi xüsusi rol oynayır.

Proqmatika nitqin bəlkə də, ən "sosial" hissəsi sayılır, belə ki, həmsöhbətin ehtiyacları və xüsusiyyətləri haqqında məlumatlılığı nəzərdə tutur. Proqmatika dedikdə, nitqin adətən kommunikasiya vasitəsi kimi istifadəsi başa düşülür, hansı ki, özündə həm verbal (həmsöhbətin səviyyəsindən asılı olaraq, leksikanın seçilməsi, işarə və digər əvəzliklərdən istifadə) həm də qeyri-verbal hissəni birləşdirir: jestlər, üz ifadələri, göz kontaktı və s. Geniş yayılmış fikrə görə bu nitq aspekti idrak nəzəriyyəsi və ya psixi modellə sıx əlaqəlidir. ASP zamanı nitqin proqmatik sahəsi daha çox və daha sabit təsir görür. Məlumatlara əsasən, bir çox hallarda bu məktəb təhsilində çətinliyi olmayan, ASP olan uşaqlarda və hətta uşaq vaxtında ASP diaqnozu qoyulmuş şəxslər üçün də problem olaraq qalır. Bundan başqa digər kommunikasiya pozulmalarından fərqli olaraq, ASP olan şəxslərdə proqmatik nitq problemləri nitq fəallığının artması ilə ağırlaşır.

Tədqiqatlar göstərir ki, bir qayda olaraq, ASP olan şəxslər formal və ya konkret seçilmiş sözlərdən və sosial kontekstdən asılı olmayaraq qeyri-standart qrammatik quruluşlardan istifadə etməyə meyllidirlər. Onlar həmçinin nitq arasında boşluqları əlavə səslərlə, hecalarla doldurmurlar. Başqa çətinliklər də qeydə alınır: həmsöhbətin sualına və ya replikasına adekvat ölçüdə və mövzuda cavab vermək, yerində sual vermək və informasiyanı həmsöhbətə çatdırdıqda onun reaksiyasına diqqət etməyi bacarmamaq.

Eləcə də, nitqin "bərpa edilməsi" - öz ifadəsini düzəltmək və dəqiqləşdirmək, yəni deyiləni həmsöhbətin reaksiyası ilə, onun korreksiya barədə xahişi ilə uyğunlaşdırmaq bacarıqları problemli hesab olunur, ASP olan insanlarda dəqiqləşdirmək üçün nəyə ehtiyac duyulduğunu anlamaq çətinləşir. Bəzi eksperimentlər isə göstərir ki, ASP olan insanlar müvafiq "bərpanı" bacarır, lakin bununla yanaşı, çox sayda uyğun olmayan düzəlişlər də edirlər.

Proqmatik bacarıqlara həmçinin yalançılıq bacarığı da aiddir. ASP olan uşaqların valideynləri çox vaxt iddia edirlər ki, onların uşağı yalan danışmır. Aparılmış tədqiqatlar göstərir ki, ASP olan şəxslər, ən azı eksperimental şəraitdə aldatmaqda və aldatmaq məqsədini başa düşməkdə çətinlik çəkirlər. Lakin yaradılmış situasiyada, onlar məcburi olmadan öz xeyirləri üçün yalan danışmalı olduqları zaman rahatlıqla yalana üz tuta bilirlər. Belə ki, Linin və digərlərinin eksperimentində ASP olan uşaqlar arxadan səs siqnalı assosiasiyası ilə oyuncaqların adlarını tapmalı idilər (məsələn, uşaq proqramında müvafiq

oyuncağa işarə edən personajın gülüşü). Eksperimentin əsas anında səs siqnalının oyuncaqla heç bir əlaqəsi olmadıqda, eksperiment aparan guya otaqdan çıxmalı olur və o, qəti xəbərdarlıq edir ki, uşaq arxasına baxmasın. Qayıtdıqdan sonra eksperiment aparan uşaqdan baxıb baxmadığını, arxasında hansı oyuncaq olduğunu və niyə onun belə düşündüyünü soruşdu. Arxasına baxmış olan uşaqların çoxu — həm ASP diaqnozu verilmiş, həm də tipik inkişafı olan uşaqlar (Tİ) baxdıqları faktını inkar etdilər, baxmayaraq ki, birincilər üçün yalan hekayə üzərində dayanmaq daha çətin idi [1, 25 ].

Bundan əlavə, ASP olan şəxslər "ağ yalan"ı da bacarırlar (adətən, başqalarının xətrinə dəyməmək və ya məyus etməmək üçün istifadə edirlər),baxmayaraq ki, əvvəlki eksperimentlər göstərmişdir ki, onlar "ağ yalan" danışa və onun səbəbini başa düşə bilmirlər. Li və digərlərinin eksperimentinin ikinci hissəsində "ağ yalan" bacarığı testlərində uşaqlar tapşırığın yerinə yetirilməsinə mükafatlandırma kimi xoşlarına gəlməyən hədiyyə alırdılar (bu məlumatları eksperimentin ilkin mərhələsində, eksperiment aparan iştirakçılara hədiyyələrdən birini — oyuncaq və ya sabun tikəsi təqdim edib bunlardan hansını əldə etmək istədiyini soruşduqda alırlar). Cavab üçballıq sistemlə onun əminliyindən asılı olaraq qiymətləndirilir. ASP olan uşaqlar bu parametrlər üzrə yoxlama qrupundan fərqlənmədilər. Lakin məlum deyil ki, "ağ yalan"a motivasiya nə hesab olunur: xətrinə dəymək istəməmək və ya uşağın öyrəndiyi sadə nəzakət qaydaları.

ASP olan şəxslərin xüsusiyyətlərindən biri "işarə konstruksiyalarını əlaqələndirən" (cohesive ties of reference) tətbiqində çətinliklərinin olması hesab olunur, hansı ki, bundan istifadə mətnin qavranılmasını asan edir. Bu terminlə eyni bir bölməyə aid müxtəlif elementləri adlandırmaq olar, məsələn, (Baltaxe və D'Angiola tədqiqatında) "o" əvəzliyi, işarə konstruksiyaları, məsələn, "bu pişik" və müqayisə konstruksiyası. Baxmayaraq ki, ASP olan iştirakçılar bu nitq elementlərindən istifadə edə bilirlər, onlar bunu spesifik nitq pozulması olan (SNP) və cümlə uzunluğuna görə eyni olan göstərici ilə tipik inkişaf (Tİ) edən uşaqlardan daha az edirdilər.

Proqmatik bacarıqlar proqmatika ilə - ritmik və intonasiya xarakteristikası ilə sıx əlaqəlidir. Prosodik xüsusiyyətlər də ASP olan insanlarda həmçinin ən geniş yayılmış kommunikasiya problemi hesab olunur. Məsələn, tədqiqatlardan birində 30 klassik autizmli və Asperger sindromlu şəxslər və 53 kontrol şəxslər iştirak edirdi. ASP olan şəxslər ortalama olaraq, uyğun olmayan leksik vurğu və nitq rezonansı da daxil olmaqla, çox monotonluğa və ya əksinə, ahəngdarlığa bərabər "qeyri-adi" intonasiyadan istifadə edirlər. Onların nitqi həm çox asta, həm də çox sürətli olmaqla xarakterizə oluna bilər. Bundan başqa qeydə alınmışdır ki, birinci qrup ortalama daha "yüksək səsli" idi, lakin onların səs yüksəkliyi norma həddindən çıxmamışdır.

Nitqin proqmatik və prosodik xüsusiyyətlərindən başqa nitqin qrammatik tərəfinin də bir sıra xüsusiyyətlər və pozulmaları müşahidə olunur.

Sintaksis sabit və konkret dil sistemi qaydaları üçün stabil və xüsusidir,yəni, söz birləşmələri və cümlələr ona uyğun olaraq qurulur. Müəyyən vaxta qədər hesab olunurdu ki, ASP olan şəxslərin nitqində sintaksis pozulmur, lakin daha sonra bu tezisi sual altında qoyan tədqiqatlar aparıldı (və ASP zamanı bu nitq aspektilə bağlı bütünlükdə vahid bir fikir mövcud deyil). Məsələn, qeyd olundu ki, autizmli uşaqlar Tİ və Daun sindromlu uşaqlarla müqayisədə təsirli feli olan cümlələrin başa düşülməsində daha çox problemlə üzləşdilər (məsələn, "qız boşqabı yuyur"), nəinki təsirsiz felli cümlələrdə ("qız qaçır"). Bunun yoxlanılması üçün belə tapşırıqdan istifadə olundu ki, burada iki şəkildən cümləyə ən uyğun olanını seçmək tələb olunurdu. Bununla belə, Pierce və Bartolucci tərəfindən qeydə alınmışdır ki, onların ASP olan uşaqlarla apardıqları müsahibə zamanı orta hesabla daha sadə qrammatik quruluşlardan istifadəyə meyllidilər, nəinki verbal İQ-sü eyni göstəricidə olan inkişaf ləngiməsi olmayan uşaqlar. Lakin qeyd etmək lazımdır ki, bu eksperimentlərin aparıldığı ildə autizm üçün vahid və dəqiq tərif və diaqnostik meyarlar yox idi, buna görə də bu diaqnozlu şəxslər qrupu son dərəcə dəyişkən idi.

Eyni zamanda aparılan tədqiqatlar sırasında sintaktik sahədə konkret olaraq ASP olan insanlar üçün xarakterik pozulmalar aşkar olunmamışdır. Misal olaraq, Tager-Flusberg və başqalarının apardığı longityud tədqiqatlar göstərdi ki, ASP olan uşaqlarda və Daun sindromlu uşaqlarda sintaksisin və mürəkkəb qrammatik quruluşun öyrənilməsi bacarıqlarının inkişafı təxminən eyni tempdə gedir, lakin ASP olan uşaqlar köməkçi nitq hissələrinə aid olan sözlərdən daha az istifadə edirlər. Orta uzunluqlu cümlə üzrə və ya psixoloji yaş göstəricisinə görə bərabər olan autizmli və tipik inkişaflı uşaqları müqayisə edən bir neçə tədqiqatlarda, daha məhdud şəkildə sintaktik quruluş və ilkin halda onların bəzi sadələşdirilməsi nəzərə alınmasa, bu qruplar arasında ciddi fərq tapılmadı. Daha əvvəlki tədqiqatlardan biri autizmli və nitq ləngiməsi olan dislektiv uşaqların nitq inkişafı arasında oxşarlıq aşkar etdi (hansı ki, indi yəqin spesifik pozulma kimi kvalifikasiyalaşdırıla bilər). Daha müasir tədqiqat belə düşünməyə əsas verir ki, aşağı intellekt koeffisentinə malik olan ASP şəxslərin yalnız bir qisminin nitq inkişafı minimal olaraq, bir neçə sintaktik aspektinə görə eyni nitq inkişafı olan NXP (nitqin xüsusi pozulmaları) şəxslərlə oxşardır. Dildə mövcud olan morfoloji qaydalara uyğun olaraq, sözü təşkil edən və dəyişən kök və ön şəkilçi kimi minimal mənalı söz komponentləri morfemlər adlanır. ASP zamanı sözlərin qrammatik anlayışlarının inkişafı üzrə çox az sayda tədqiqatlar mövcuddur. Tədqiqatların bir qismi bu sahədə ciddi pozulmalar aşkar etmədi və ya başqa sözlə desək, danışığın inkişafının erkən mərhələsində verbal autistlərdə morfoloji qaydalardan istifadə bacarığı tipik inkişaf edən uşaqların bacarığı ilə təxminən analojidir [2, 101 ]. Fellərin

keçmiş zaman formalarının əmələ gətirilməsi üzrə tapşırıqların yerinə yetirilməsi zamanı Valenski və digərlərinin eksperimentində yüksək funksiyalı autizmli oğlanlar və onların tipik inkişaf edən həmyaşıdları səhvlərinin və düzgün cavablarının sayına görə fərqlənmədilər. Lakin birincilər, Turetto sindromu üçün də xarakterik olan “pattern” cavablarla fərqləndilər: qaydalı feillərlə olan suallarda deyil, qaydasız feillərin keçmiş zamanını düzəldilməsi üzrə çalışmalarda cavabın sürəti yoxlama qrupundan daha yüksək idi. Nümunə olaraq, ayrı-ayrı hallarda ASP olan istedadlı uşaqlar, məsələn, Lake J.K., Humphreys K.R., Cardy S., həmçinin görünür ki, bu fərdlər nitqin morfoloji tərəfinə orta səviyyədən yüksək dərəcədə malikdirlər. Bunun müqabilində, bir sıra digər tədqiqatların əks nəticələri var. Beləliklə, autik və dislektik uşaqların analizi (yəqin ki, müasir terminologiyada ASP) göstərdi: tədqiq edilən doqquz morfemin istifadəsi hər iki qrupda oxşardır. ASP olan ingilis dilli uşaqlarda NXP meyarlarında yoxlanılmış daha yeni tədqiqat da həmin bölmədə bu iki diaqnozlu uşaqlar arasında oxşarlıq aşkar etdi [3, 801 ].

Nitqdə keçmiş zamanın formalaşdırılması bacarığının test edilərkən uşaqdan nümunə üzrə şəkli təsvir etmək tələb olunur: iştirakçılar bir-biri ilə əlaqəli iki şəkil gətirirlər: onlardan biri personajın fəaliyyəti yerinə yetirmə prosesi, ikinci isə onun başa çatdırıldığından sonranı göstərir. Eksperiment aparan birinci şəkli göstərir və onu təsvir edir ("bu şəkildə insan quyu qazır"), sonra ikinci şəkli göstərir və uşaqdan soruşur ki, “insan nə etdi?” İştirakçılar arasında iki yarımqrup bölündü: birinci qrupa normal və yüksək intellektli uşaqlar daxil idi və onlar normalara uyğun olan vacib morfemlərdən istifadə etdilər, ikincilər üçün isə aşağı İQ xarakterik idi və morfoloji səhvləri ASP zamanı buraxılan səhvlərlə oxşar idi. Bunlara əlavə olaraq, yalnız ASP olan insanlara xarakterik olan səhvlər mövcud idi, yəni cavab zamanı exolaliya və ya əvvəlki sualın cavabının təkrarı müşahidə olunurdu. Bu vəziyyətdə semantikaya sözlərin mənasının başa düşülməsi və bu mənaların real dünyadakı obyektlərlə və mücərrəd konsepsiya ilə əlaqəsi kimi baxılır. Həmçinin autizmli insanların nitq inkişafının nisbətən güclü tərəfi hesab olunur, lakin dilin bu aspektinin öyrənilməsi zamanı da, autizmin bir çox digər tədqiqat sahələrində olduğu kimi, nəticələr birmənalı olmur. Tədqiqatların bir qismi ciddi gerilikləri aşkarlamır: məsələn, Ramondo və Milechin təcrübəsi göstərdi ki, autik uşaqlar da tipik inkişaf edən uşaqlar kimi semantik cəhətdən əlaqəli sözləri və bütöv cümlələri daha yaxşı yadda saxlayır, nəinki təsadüfi sözlər toplusunu. Hərçənd ki, ASP olan uşaqların nitqində qrammatik əlaqələr daha zəifdir. Bundan başqa, onlar cümlələrdə aktiv və passiv quruluşların anlaşılması üçün söz sıralarından istifadə etməyi bacarırlar. Bu eksperimentdə iştirakçılardan, eşitdikləri cümləni fərqli formada ifadə etmək tələb olunur: cümlənin bir hissəsi aktiv növdə olur (məsələn, "insan alma yedi"), digər hissəsi passiv ("alma insan tərəfindən yeyildi"). Cümlə həmçinin həqiqətə uyğunluq mənasına görə fərqlənir: həqiqətə

uyğun olmayan, neytral və həqiqətə uyğun. ASP olan iştirakçılar qrammatik quruluşların anlaşılmasında eyni reseptiv nitq (dinləmə, oxuma) göstəricisi olan yoxlama qrupuna bərabər səviyyə nümayiş etdirdilər. Lakin qeyd etmək lazımdır ki, onlar mənanın həqiqətə uyğunluğunun təsirinə daha az məruz qalmışdılar (məsələn, "şir antilop tərəfindən yeyildi"), yəni onlar nitqdə müəyyən cümlənin mövcudluğunun statik ehtimalından daha az istifadə edirdilər, nəinki tipik inkişaf edən uşaqlar. Bu fakt maraqlıdır ki, ASP şəxslər inkişaf pozulması olmayan şəxslər kimi sözlərin semantik idarəsinə, gücləndirilməsinə davam gətirə bilmir, təsvirlərin gücləndirilməsi, sözlərin gücləndirilməsindən daha güclü təsir etdi. Yoxlama qrupunda bu iki şərt arasında fərq aşkar edilməmişdir [4, 2850 ].

Bir sıra tədqiqatların nəticələrinə görə autik uşaqlar tipik inkişaf etmiş uşaqlarla semantik anlayışın eyni inkişaf trayektoriyasını izləyirlər . Lakin müəyyən aspektlərdə ləngiyirlər. Bunu Tek və başqalarının ASP və Tİ olan uşaqlarda passiv lüğət ehtiyatının genişlənməsini müqayisə edən tədqiqatı təsdiq edir. İş iki hissədən ibarət idi: biri isim formasında - yeni sözləri hərəkətlərlə deyil əşyalarla əlaqələndirən tendensiya və digəri sifət formasında - yeni sözləri obyektin digər xarakteristikaları ilə deyil, forması ilə əlaqələndirmə tendensiyası. Test bir neçə videonun nümayişinin köməyilə aparılır (birinci hissədə sözlər elə seçilir ki, ingilis dilli uşaqlar üçün onlar feil və isimlə eyni səviyyədə səslənsin), bundan sonra iki başqa video göstərildi və onlardan hansında təsvir olunanı yeni sözlə ifadə etmək mümkün olduğunun göstərməsi tələb olundu. ASP olan uşaqlar (orta yaş - 33 ay) yeni sözləri yeni obyektlərlə yoxlama qrupu ilə eyni müvəffəqiyyətlə əlaqələndirdilər. Lakin ikinci hissədə onlar əvvəlcə nümayiş etdirilmiş obyektlə eyni formalı deyil, eyni məzmunlu obyektləri seçməyə daha çox meylli idilər. Tipik inkişaf zamanı birincidən ikinciyə keçid iki yaşa çatana qədər baş verir. Charman və başqaları aşkar etmişlər ki, ilk sözlərin əmələ gəlməsində gerilik başqalarının nitqini anlamağın ilk əlamətlərinin əmələ gəlməsi geriliyindən daha azdır. Lakin söz əmələ gəlməsi onu anlamağın ardınca gəlir ki, bu da normal inkişafa uyğundur.

Yuxarıda qeyd olunduğu kimi, ASP şəxslərin ayrı-ayrı sözlərlə interpretasiyası kontekstin təsirinə daha az məruz qala bilər. Bu ASP diaqnozu olmayan tələbələrlə aparılmış tədqiqatla təsdiq olunur. Burada autistik əlamətlərin mövcudluğu testi və “Qanonqa effekti” gücünün nəticələri arasında mənfi əlaqə aşkar edildi: müstəsna mənaları sat (mövcud olan söz) və şat (mövcud olmayan söz) olan, orta variantları isə bir-birindən eyni dərəcədə fərqlənən bir sıra sözlərə qulaq asdıqda birincinin anlaşılmasından ikincinin anlaşılmasına keçid daha qabarıq autistik cizgiləri olan insanlarda daha tez müşahidə olunur. Narre və başqalarınınnın tədqiqatında ASP olan insanlar cümlə konteksti içərisində omoqrafları (yazılışına görə uyğun olan müxtəlif sözlər) qavrama bacarıqları və bununla da düzgün məna və tələffüz hasil edə

bilməklərini nümayiş etdirdilər. Bu fenomen mərkəzi sinir sisteminin zəif nəzəriyyəsi ilə əlaqələndirilir.

Kontekstin başa düşülməsi problemləri potensial olaraq, yazı nitqinin başa düşülməsi çətinlikləri nəticəsində yaranan faktorlardan biridir. Həqiqətən, bir sıra tədqiqatlar göstərdi ki, ASP olan şəxslər oxunanın məzmunu üzrə suallara cavab verməkdə daha çox səhv edirlər. Lakin bu, mənanın başa düşülməsi üçün artıq mövcud olan biliklərin, istifadə edilən informasiyanın emalının birinci səviyyəsi proseslərinin qüsuru ilə əlaqədar deyil. Problemlər bütünlüklə daha yüksək səviyyələrdə mövcuddur. ASP olan şəxslərdə nitqin səs xarakteristikasını qavrama bacarıqları da pozulmuşdur: Diehl və başqalarının eksperimentində ASP olan yeniyetmələr iki mənalı cümlələrin başa düşülməsi üçün intonasiyadan istifadə etməyə daha az meylli idilər. Eyni zamanda, ikili mənanın başa düşülməsinə konstruksiyanın sintaktik təhlili yolu ilə nail olunduğu halda iki qrupun nəticələri bir-birindən fərqlənmədi. ASP diaqnozlu böyüklərdə nitqlərində istifadə edilən frazaların intonasiyasının rəngarəngliyində çətinlik çəkirlər. Tapşırıqda qadın adı çəkilən, emosiyanı identifikasi etmək tələb olunduğu hissədə bu qrupda olan şəxslər daha da çox səhv edirdilər. Bu hallar qismən uzunsov beyinin səsin hündürlüyünə cavabdeh ola bilən hissəsinin anomaliyası ilə əlaqədar ola bilər. Eyni zamanda eksperiment göstərir ki, bu qrupda olan ASP şəxslərin 20 %-i nitqli və nitqsiz səslərin dəyişkən tezliklərinə daha həssasdırlar. Böyük ehtimalla bu hal nitq kontekstində fonemlərin fərqləndirmə bacarığına təsir edir, çünki onların diqqəti daha xırda detallara mərkəzləşmiş olur. Bundan irəli gələrək, nitqin xarakterik linqvistik hissələri nəzərdən qaçırılır. ASP şəxslərin nitqinin qavranılmasına təsir edən dıgər bir amil kimi Gervais və başqalarının aşkar etdikləri nitq stimullarının emalı zamanı beyin qabığın qeyri normal aktivləşdirilməsi göstərilir [6, 1617 ]. Daha dəqiq desək öz gicgah qırışının aktivləşməsinin olmaması. Çünki bu qırış nitqin emalına cavabdehdir. Bu müşahidələr göstərir ki, autik uşaqlarda nitq stimullarına diqqətin yönəlməsi və saxlanılması çətin olur.

Nitqin leksik tərəfinin təhlilinə gəldikdə ASP olan uşaqlarla tipik inkişaf edən uşaqların lüğət ehtiyyatının tərkibi və həcmi bir sıra fərqlərlə müşayət olunur. Məsələn: Brucknerin tədqiqatında passiv söz ehtiyyatının mahiyyətinə görə yoxlama testində elə qrup sözlər var ki, onların autistik qrup uşaqlar tərəfindən anlaması daha çox ehtimal olunur, nəinki tipik inkişaf edən uşaqlar tərəfindən. ASP uşaqlarla Daun sindromlu uşaqların spontan nitqinin müqayisəsinə baxdıqda, psixoloji halları təsvir edən sözlərin (düşünmək, yadda saxlamaq, təsəvvür etmək və s.) ilk istifadəsində kasadlıq müşahidə olunur. Eyni zamanda arzu (istək), emosiya (gülümsəmək, sevinc, təbəssüm və s.) və duyğular (görmə, eşitmə, dadma, taktil və s.) kimi sözlərin, ifadələrin sayı

təxminən eynidir. Ziatas və başqaları göstərilən kasad söz ehtiyyat qrupunu idrak nəzəriyyəsi ilə əlaqələndirirlər.

ASP uşaqların nitqində fərqlilik xarakterini onların istifadə etdikləri jarqonlar göstərir. ASP uşaqların nitqində jarqon olan qrup sözlər dildə olmayan və istifadədə olmayan sözlərdir. Bu sözlərlə həmin şəxs ətrafla ünsiyyət aparır, danışır və bu sözlər onun öz uydurduğu, düzəltdiyi real sözlərə müvafiq olan sözlərdir. Belə hal, səhvlərin düzəliş olunma prosesinin probleminin kodlaşdırılması ilə bağlı olur. Yəni burada ASP olan şəxs hansısa sözü düz eşitmədikdə onu hansısa obyektlə əlaqələndirir. Nəticədə məlumat yenilənmir. Digər tərəfdən baxdıqda bu vəziyyət ASP şəxsin obyektlə sözün əlaqəsini görmə çətinliyi ilə əlaqələndirmə olar [5, 2161 ].

ASP şəxslərin nitqində exolaliya kimi patologiya xarakterikdir. Nitqin hissəsinin və ya səsin sadə təkrar olunması prosesinə nitqin exolaliyası deyilir. Exolaliya tələffüzdən dərhal və ya bir müddətdən sonra baş verə bilir. Exolaliyanın iki növü ayırd edilir : dərhal və gecikmiş. İlkin olaraq onlar heç bir funksiya daşımayan, düşünülməmiş, sadə avtomatik təkrarlar sayılırdı. Lakin sonradan belə bir nöqteyi-nəzəriyyəyə yenidən baxılmışdır. Tarplee və Barrow aşkar etmişlər ki, ASP uşaqlar üçün exolaliya xüsusi bir kommunikasiya üsulu kimi hesab oluna bilər. Müəlliflər ananın autik oğlu ilə spontan kommunikasiyasını izlədilər və qeydə aldılar ki, cizgi filmindən cümlələrin exolaliyalı təkrarından istifadə edərək, uşaq anasının tamamilə müəyyən bir reaksiyasını yaratmağa cəhd edir – həmin ifadəni bir daha təkrar edərək. Bununla yanaşı uşağın hər hansı bir digər cavabı ananı qane etmirdi. Bununla birlikdə, ana özü də oğlu ilə ünsiyyət üçün bu cümlələrdən istifadə edirdi. Əlavə olaraq, digər tədqiqatda qeydə alındı ki, hər ifadə uşaq tərəfindən yalnız müəyyən kontekstdə istifadə olunur. Gecikmiş exolaliya, həmçinin uşaq üçün daha maraqlı mövzular ilə əvəzlənmək və uşağı idarə edən mövqeyi tutmaq kimi məqsədlərə də xidmət edə bilər. Dərhal yaranan exolaliya zamanı, Violette və Swisher tərəfindən təqdim edildiyi kimi, müəyyən situasiyalarda, məsələn , uşaq direktiv tonda tanış olmayan söz eşitdikdə istifadə edilir. Bununla yanaşı, uşaq ona verilən göstərişə etirazı bildirmək istədikdə və onun nitqinin düzəldilməsi ilə razılaşmadıqda bundan istifadə edir.

Bütünlükdə ASP olan şəxslərin nitqinin və kommunikasiyasının tədqiqinin nəticələrinin eyni olmaması, bir-birini təkzib etməsi nəticəsində onun hər hansı bir aspekti haqqında birmənalı nəticəyə gəlməyə imkan vermir. Bunun bir qisim səbəbi ASP olan şəxslər qrupunun və onların bacarıqlarının eyni olmamasıdır, hansı ki, aşağı funksiyalı autistlərdə nitqin tamamilə olmamasından Asperger sindromlu insanlarda nitqin praktiki saxlanılmasına qədər dəyişir. Tədqiqatçıların bir qismi, artıq qeyd edildiyi kimi, öz nitq inkişafına görə spesifik nitq pozulması olan insanlara oxşar olan qrup da daxil olmaqla, ASP olan şəxslərin bir neçə yarım növü olduğunu düşünürlər. Mübahisəli nəticələrə

gətirən digər amil odur ki, son dövrlərə qədər autizmin vahid və dəqiq təyini yox idi. Çox zaman belə diaqnoz yüngül əqli geriliyi olan və ya digər pozulmaları olan uşaqlara qoyulurdu.

Gələcəkdə tədqiqat istiqaməti kimi nitq meyarları üzrə ASP yarım növlərinin və onların dəqiq xarakteristikasının təsviri təklif edilməlidir. Bu da belə diaqnozlu insanların terapiyası zamanı böyük tətbiqi əhəmiyyətə malik ola bilər.

## ƏDƏBİYYAT


1. «Детский аутизм» - хрестоматия, составитель-Л.М. Щипицина; Санкт-Петербург, 1997 г.
2. К.Гилберг, Т.Питерс «Аутизм», Медицинское и педагогическое воздействие, М.Владос, 2005 г. 144 стр.
3. Abnormal cortical voice processing in autism /Gervais H. [et.al ] // Nature Neuroscience. 2004. 7. 801-802
4. Auditory discrimination and auditory sensory behaviours in autism spectrum disorders /Jones CRG [et.al ] // Neuropsychologia. 2009.47 (13). 2850-8
5. Auditory perception and attention as reflected by the brain event-related potentials in child with Asperger syndrome /Lepisto T. [et.al ] // Clinical Neurophysiology.2006.117 (10).2161-2171
6. Behavioral and physiological responses to child-directed speech of children with autism spectrum disorders or typical development / Watson L. R. [et.al] //Journal of Autism and Developmental Disorders. 2011.42 (8).1616-29.

**UOT 376**

## UŞAQ SEREBRAL İFLİCİNİN ETİOLOGİYASI

***Səlbi Ağamehdi qızı Abasova***
***Azərbaycan Dövlət Pedaqoji Universiteti***
***s-asadzade@mail.ru***

**Açar sözlər:** *Dayaq-hərəkət aparatı sistemi, baş beyin, onurğa beyni, intellekt səviyyəsi, natal asfiksiya.*

*"Uşaq serebral iflici" termini (USİ) beyin zədəsi ilə əlaqədar yaranan bir sıra sindromları birləşdirir. Serebral iflic baş və onurğa beynin bətndaxili dövrün müxtəlif mərhələlərində,eləcə də doğuş zamanı zədələnməsi nəticəsində inkişaf edir. Serebral iflicin əsas klinik simptomu geridə qalan inkişaf və statokinetik reflekslərin düzgün olmayan inkişafı, tonsun patologiyası və parezlərlə əlaqəli olan motor funksiyasının pozulmasıdır. Mərkəzi sinir sistemindəki pozulmalardan əlavə, ikincili olaraq, həyat boyu sinir əzələ liflərində,oynaqlarda, bağlarda və qığırdaqlarda dəyişikliklər baş verir. Serebral iflicin əsas simptomuna – hərəki pozulmalara, əksər hallarda psixikanın pozulmaları, nitq qüsurları, görmə , eşitmə və s. pozulmalar da əlavə olunur. Bəzi uşaqlarda qıcolma da təzahür edir. Serebral iflicin ilk klinik təsviri 1853-cü ildə V. Littl tərəfindən təsvir edilmişdır. Serebral iflic təxminən 100 il ərzində Littl xəstəliyi adlandırıldı. "Uşaq serebral iflici" termini Zigmund Freydə məxsusdur.*

## ЭТИОЛОГИЯ ДЕТСКОГО ЦЕРЕБРАЛЬНОГО ПАРАЛИЧА

***Сальби Абасова***

**Ключевые слова:** *Система опорно-двигательного аппарата, головной мозг, спинной мозг, интеллектуальный уровень, натальная асфиксия.*

*Термин «церебральный паралич» объединяет ряд синдромов, связанных с повреждением головного мозга. Церебральный паралич вызван инсультом и повреждениями спинного мозга на различных стадиях внутриутробного периода, а также во время родов. Основным клиническим симптомом церебрального паралича является недоразвитие и несформированность статокинетических рефлексов, патологии и*

*расстройства моторных функций связанные с парезами. В дополнение к расстройствам центральной нервной системы, вторичные изменения в нервных волокнах, суставах, в связках и хрящах происходят в течение всей жизни. Основной симптом ДЦП - двигательные расстройства, в большинстве случаев соправаждаются психологическими расстройствами, дефектами речи, зрения, слуха и т. д. У некоторых детей также наблюдаются судороги . Первое клиническое описание церебрального паралича было описано В. Литтлом в 1853 году. Церебральный паралич назывался болезнью Литтла в течение почти 100 лет. Термин «церебральный паралич» принадлежит Зигмунду Фрейду.*

## ETIOLOGY OF CHILDREN'S CEREBRAL PARALICH

***Salbi Abasova***

**Key words:** *System of the musculoskeletal system, brain, spinal cord, intellectual level, natal asphyxia.*

*The term "cerebral palsy" is associated with the syndrome associated with the scrotal mucosa. Cerebral paralytic pulmonary insulin and intercostal mucus at different stages of the prenatal period, as well as during childbirth. The clinical symptom of cerebral palsy is unstable and has not been reformed with statokinetic reflexes, pathologies and motor function disorders associated with parasites. In addition to disorders of the central nervous system, second changes in nerve fibers, joints, joints and cartilage occur throughout life. The main symptom of cerebral palsy is movement disorders, in most cases co-justified by psychological disorders, defects in speech, vision, hearing, etc. Some children also have cramps. The first clinical description of cerebral palsy was described by V. Little in 1853. Cerebral palsy has been called Little's disease for almost 100 years. The term "cerebral palsy" belongs to Sigmund Freud.*

Dayaq-hərəkət aparatı sisteminin pozulması olan uşaqlar bir neçə onilliklər ərzində xüsusi pedaqoqların, psixoloqların, loqopedlərin və klinisistlərin xüsusi diqqət obyekti olmuşdur. Təhsil sistemində bu xəstələrin özünəməxsusluğunu nəzərə alaraq, onların tərbiyəsi, təhsili və reabilitasiyası üçün xüsusi məktəbəqədər və məktəb müəssisələrinin şəbəkəsi yaradılmışdır.

Dayaq-hərəkət aparatı sisteminin pozulması olan uşaqlar fiziki şəxslər kateqoriyasında klinik, psixoloji və pedaqoji cəhətdən polimorfdurlar. Onları şərti olaraq üç qrupa ayırırlar:

1. Dayaq-hərəkət aparatı sisteminin pozulmalarına sinir sisteminin üzvi zədələnmələri səbəb olan uşaqlar:
- baş beyin (uşaq serebral iflici, şişlər və travmalar);
- aparıcı yollar (qolların iflici , əyri boyun və s.);
- onurğa beyni (poliomielitin fəsadları, travmalar).
2. Doğum travmaları nəticəsində sinir sisteminin və dayaq-hərəkət aparatı sisteminin pozulması olan uşaqlar.
3.İntellekti qorunmuş qalaraq dayaq-hərəkət aparatı sistemi (artroqrippoz, xondrodistrofiya, skolioz və s.) pozulmuş olan uşaqlar.

Hazırda dayaq-hərəkət aparatı pozulmaları olan uşaqlara psixoloji və pedaqoji yardımın təşkilinin təkmilləşdirilməsinin zəruriliyi daha aydındır, çünki bu patologiya geniş yayılaraq inkişaf etməkdədir. Bu uşaqların kontingentinin tədqiqi göstərir ki, bir çox hallarda mərkəzi sinir sisteminin pozulmaları dayaq-hərəkət sisteminin pozulmaları ilə müşayət olunur.

Əlil uşaqların hərəkətlərində çətinliklər olur və bir sıra hallarda valideynlər uşaqlarını hansısa müəssisəyə aparıb-gətirməkdə çətinlik çəkirlər. Amma dövlətimiz belə problemləri olan insanlar üçün xüsusi nəqliyyatın və ya kütləvi nəqliyyatda xüsusi pandusların zəruri olduğunu və hətta digər avadanlıqlara (xüsusi olaraq, mebeldan başlayaraq) da tələbatın təmin edilməsini, o cümlədən dayaq-hərəkət aparatı problemləri olan uşaqlar üçün evdə hərtərəfli psixoloji və pedaqoji yardımın təşkil edilməsini mütəmadi nəzərdə saxlayır.

Təcrübə göstərir ki, bu uşaqlar kütləvi məktəbdə uğurla təhsil ala bilərlər, lakin ibtidai təhsil dövründə onlara müalicə, psixoloji və korreksiya-pedaqoji yardımı dəstəkləyən bir rejim lazımdır. Hal-hazırda bu cür uşaqlar adi kütləvi məktəblərə göndərilir, burada adaptasiya dövründə onların nevrotik reaksiyaları müxtəlif olur və bir sıra hallarda əlverişsiz nəticələrə gətirib çıxarır. Beləliklə, dayaq-hərəkət aparatı xəstəlikləri olan uşaqlara yardım sistemində sosial uyğunlaşma və müasir cəmiyyətə inteqrasiya olunmasına mane olan bir sıra problemlər ortaya çıxır:
- fərqli psixo-pedaqoji və tibbi-sosial yardımın yetərincə olmaması;
- dayaq-hərəkət aparatı sisteminin müxtəlif xəstəlikləri olan uşaqlarla işləmək üçün mütəxəssislərin ixtisaslarını artırmaq ehtiyacı;
- bu uşaqlarla tibbi, psixoloji və korreksiya-pedaqoji iş metodlarının elmi əsasda təkmilləşdirilməsi;
-nəqliyyat vasitələri, protez təchizatı, əmək sisteminin peşə hazırlığı, mümkün ev işinin yüngülləşdirilməsi [1, 98 ].

Bu problemlərin həlli qismən dayaq-hərəkət aparatı sistemi ilə problemi olan uşaqlar üçün kompleks psixo-pedaqoji- tibbi-sosial (PPTS) və reabilitasiya mərkəzlərində həyata keçirilir. Bu mərkəzlərin işlərinə dəstək olaraq dayaq-hərəkət aparatı pozulmaları olan uşaqların erkən diagnostikası onların reabilitasiyası üçün son dərəcə zəruridir. Bu məqsədlə ağır doğuş və çətin hamiləlik keçirmiş analar, ensefalopatiyalı uşaqlar üçün artıq doğum evində xüsusi mütəxəssislər- ortopedlər, psixoloqlar, nevropotoloqlar olmalıdır ki, doğuşdan dərhal sonra uşaqların vəziyyətini düzgün qiymətləndirərək, zərurət olduqda, həyatın birinci ilindən başlayaraq müvafiq müalicə və korreksiya aparılsın.

Zərərin dərəcəsindən və intellekt vəziyyətindən asılı olmayaraq, bütün patologiyalı uşaqları ]əhatə edən bir uşaq bağçasının təşkil edilməsi vacibdir . Bu qurumlar dayaq-hərəkət aparatı, intellekt və müxtəlif nitq pozuntuları olan uşaqların tərbiyəsi üçün zəruri kömək edə biləcək fərdi proqramlara malik olmalıdırlar. Dayaq-hərəkət pozulmaları olan uşaqların yeniyetmələrin sağlam adamlar cəmiyyətinə inteqrasiyası bu günün aktual problemlərindəndir. Təcrübə göstərir ki, dayaq-hərəkət pozulmaları olan uşaq və yeniyetmələrin fiziki qüsurları ilə əlaqədar mikrososial mühitin neqativ təsiri ilə şərtlənən bir sıra psixoloji problemləri olur. Onların adaptasiyası emosional sahədə və davranış pozuntularının aşkara çıxması ilə üzləşən dezadaptasiya uğursuzluqları və böhranlar ilə xarakterizə olunur. Sosial adaptasiya və inteqrasiya prosesində uşağın fərdi inkişaf xüsusiyyətləri əsas rol oynayır. Bu xüsusiyyətlər öz-özlüyündə şəxsiyyətin kompesator potensialını əks etdirir və ətraf mühitə adekvat olan davranış və həyat fəaliyyəti üçün tənqidi, fərdin kompensasiya potensialını əks etdirən və ətraf mühit şəraitinə uyğun davranış və həyat fəaliyyətinin inkişaf etdirilməsinə imkan verən uşağın inkişafının fərdi xüsusiyyətləridir. Bu zaman vaxtlı-vaxtında və effektiv diaqnostika, profilaktika və davranış, sinir-psixi, patoxarakterioloji pozulmaların korreksiyası mühüm rol oynayır [2, 19 ] .

Əfsanələrə görə qədim Hindistan və qədim Misir istisna olmaqla, digər cəmiyyətlərdə fərdi (fiziki) çatışmazlığı olan uşaqlar dünyaya gələn kimi öldürülürdü. Köçəri xalqlar arasında yalnız cəmiyyətə faydalı ola biləcək fərdlər yaşamaq hüququna malik idi.

Qədim Yunanıstanda fiziki əlilliyi olan insanlar qorxaqlıq, kinlilik, kobudluq kimi mənfi insani xüsusiyyətlərlə assosasiya olunurdular. Bu cür təsəvvürü Homer Tersit obrazında əks etdirmişdi. Hətta Spartalılarda həyatda yaşamaq üçün çox təəssüf doğuran bir test də mövcud idi . Bu, testin şərtlərinə əsasən fiziki əlilliyi olan uşaqları dağlarda təbiətin və vəhşi heyvanların ümidinə buraxırdılar.

Təxminən e.ə. VI əsrdə, hər bir insanın hər hansı bir ictimai xidməti yerinə yetirməsi lazım olan bir fəal vətəndaş kimi yetişdirilməsi ideyası mövcud

idi. İnkişaf əlilliyi olan uşaqlar yalnız "davamlıdır" şərti ilə təhsil ala bilərdilər. Bu baxımdan ən yaxşı nümunə Sokrat idi. Onun fiziki qüsuru təhsili üçün maneə olmamışdır.

Antik dövrün ən görkəmli alimləri fərqli fikirlərə malik idilər. Məsələn, Platon hesab edirdi ki, dövlətin təhsilə dair "vətəndaşların uyğunluğu" məsələsini həll etmək hüququ saxlanılmalıdır. Təlimə uyğunluq yalnız cəmiyyətin iki yuxarı sinfi - əsgərlər və hərbi liderlər üçün tanınırdı. Aristotel vətəndaşların təhsilində aparıcı rolu dövlətə verirdi , eşitməyən və danışa bilməyənləri öyrətməyə cəhd etməyi də lüzumsuz hesab edirdi.

Bir çox əsrlər boyunca Romada ailə başçısı, yəni, ata nəinki, hüquqi cəhətdən qanuni olaraq, həm də dövlətin fərmanına əsasən övladı anomaliya ilə doğulduğu halda onu tələf etməyə məcbur idi. Sonra Roma qanunu bir qədər yumşaldıldı, Roma ailələri qullardan müəllim kimi çox istifadə etməyə başladılar,bu da humanistik təfəkkür üçün baza yaratdı.

Erkən xristianlıq dövründə əlilliyi olan insanların sığınacaq və yardımı yalnız ruhani icmalarindan ola bilərdi. Eyni vəziyyət orta əsrlərdə də , mıvcud idi. Əlilliyi olan adamlar monastır divarlarından və ya abbatlıqlardan kənarda ancaq dilənmək məcburiyyətində qalırdılar. Fiziki və əqli pozulmalar iblisin əlaməti olaraq qəbul edildi. İnkvizisiya bu cür adamları yandırmağı tələb edirdi. Ən “diribaş” əlillər isə müxtəlif bayramlarda və yarmarkalarda camaatı güldürməklə, məzhəkəçiliklə özlərinə pul, yemək qazanırdılar.

H.L.Vives (1492-1540), V. Ratne (1571-1635), Y.A. Komenski (1592-1670) İntibah dövrünün görkəmli nümayəndələri olaraq, əlillərə yardım göstərməyə çalışdılar. Ancaq maarifləndirmə dövrünədək, cəmiyyətin əlil insanlara münasibəti az dəyişmişdi. C. Lokk (1632-1704) və J. J. Russonun (1712-1778) sayəsində əlillərə münasibət dəyişmişdi. Artıq bu dövrdən etibarən əlil insanların məcburi olaraq dilənmək zərurəti aradan qalxdı, insan ancaq qürur və sosial mənfəət anlayışı daşıdı.

XVIII əsrin sonu və XIX əsrin əvvəllərində İ.Q. Pestalotsinin (1746-1827) və F. Frebelin (1788-1852) işlərində orto-pedaqoji təlimin elementləri (Ortopedaqogika-düzəldici pedaqogika ) görünməyə başlayırdı. . Pestolotsinin “İnkişafında pozulmalar olan uşaqlarda praktik bacarıqların formalaşdırılması” ilə bağlı tərbiyə nəzəriyyəsində əsas yeri əyanilik və müstəqillik tutur. Frebel tərbiyənin ayrılmaz hissəsi kimi bu uşaqların erkən diaqnoz və müalicəsinin əhəmiyyətinə toxunmuşdu.

Sənaye İnqilabı (1760-1880), əlverişsiz iş şəraiti, təhlükəsizliyə nəzarətsizlik səbəbiylə fiziki ziyan və yaralanmaların artması ilə qeyd edildi, fiziki qüsurlu, əlil insanların sayı artdı. Şəhər ailəsi əlil üzvünün qayğısını çəkmək iqtidarında deyildi. Bu səbəbdən tibbi-pedaqoji müəssisələr yaranır. 1832-ci ildə D. N.fon Kurtz yoxsul, axsaq uşaqlar üçün texniki məktəb təşkil edərək, onları fabrik və zavodlarda iş üçün təlim keçirdi.

Əlillərin mövcud vəziyyətinə reaksiya olaraq, 1850-ci ildən başlayaraq çoxsaylı, əsasən dini xeyirxah qayğı təşkilatları yaranmağa başlamışdır. Ortopedik klinikalar meydana çıxdı, tibbin əsas maraq dairəsi ilk növbədə əlil uşaqlara və yeniyetmələrə yönəldildi. Bu mənada bir addım geri atıldı: pedaqoji-müalicəvi yanaşma terapevtik yanaşmaya yer verdi.

Uşaq serebral iflicinin ilk klinik təsvirini ingilis cərrahı V.D. Littl (1810-1894) tərəfindən verilmişdir. O, sol tərəfli əyripəncəlikdən əziyyət çəkirdi və 1853-cü ildə "İnsan skeletinin deformasiyasının təbiəti və müalicəsi haqqında" tədqiqat işi nəşr etdirmişdi. 1861-ci ildə, spastik rigidlik haqqında bir məruzədə, o ciddi və spesifik xəstəliklərlə doğula biləcək uşaqları vurğulamışdı. O, İngiltərə Kral Cəmiyyətinə bu barədə məlumat verərək, doğuşdan sonra başın zədələnməsi nəticəsində yaranmış ekstremal iflicli uşaqları müşahidə etməyə başlamışdır. Demək olar ki, 100 il müddətində bu xəstəlik Little xəstəliyi adlanırdı.

1906-cı ildə alman ortopedi Bizalski "axsaqlığın statistikası" açıqladı. Bu məlumatlar normal psixi və intellektual inkişafı olan məktəblilər arasında bu cür uşaqların çoxlu sayda olduğunu üzə çıxardı. Bu uşaqların təhsil sistemini və sosial müdafiəsini yaxşılaşdırmaq lazım idi. Beləliklə, 1920-ci ildə dünyada ilk dəfə Almaniyada " Əlillərə kömək haqqında" qanun yarandı və bu qanuna görə əlilliyi olan şəxslərə profilaktik tədbirlər, tibbi, pedaqoji və peşə reabilitasiyası zəmanəti verilirdi.

Cəmiyyətin inkişafının müxtəlif mərhələlərində serebral iflicli uşaqların tibbi və sosial-pedaqoji reabilitasiyası müxtəlif yollarla həll olunurdu. XVIII əsrin sonu və XIX əsrin əvvəllərində Avropada “nifrət” evləri ilə yanaşı, həm də hərəkət əlilliyi olan uşaqlar üçün müalicə müəssisələri də yaradılmağa başlanılmışdır. Onlar London, Kopenhagen, Stokholm, Münhen və s. paytaxtlarda və böyük şəhərlərdə yaradılırdı.

Dayaq-hərəkət aparatı xəstəliklərindən əziyyət çəkən uşaqların bərpası üçün ən qədim qurum Belçikada 1921-ci ildə açılmış "Əlil qızlar üçün sığınacaq"-da 15 uşağın ibtidai təhsili bazası yaradıldı. 1947-ci ildə Niderlandda fiziki qüsurlu uşaqlar üçün ilk məktəb yaradıldı. Məktəb Meterlinqin məşhur “Göy quş” pyesinin qəhrəmanı olan qızın adı ilə “Mitil” adlandırılmışdı. Bu məktəb hərəkət qüsurları olan uşaqların təhsil alacağı nümunəvi məktəb oldu. Təxminən eyni dövrdə bu cür məktəblər digər qitələrdə də ABŞda, Yaponiyada, Avstraliyada yaranmağa başladı.

İki dünya müharibəsi sayəsində əlillər üçün reabilitasiya sisteminin yaradılması sürətləndi. Müharibə zamanı zərərçəkmişlərin əmək reabilitasiyası işçilərin sıralarını artırmaq üçün zəruri olan bir iqtisadi amil idi.

Konslaqer düşərgələrinə dərin nifrət və Hitler ideyası köməyin mənəvi amilini çox gücləndirdi.Çünki Hitler, ilk növbədə, əlillərin, yəhudilərin, qaraçıların məhv edilməsini əmr etmişdi.

Rusiyada belə patologiyası olan uşaqlar üçün ilk təşkilat olaraq 1890-cı ildə Sankt-Peterburqda açıldı. "Göy xaç" Cəmiyyəti 20 nəfərlik "əlil-uşaq və paralitiklər üçün sığınacaq" açır. Bu qurumda uşaqlar həkimlər tərəfindən müayinə edilir, ibtidai təhsil alır və sənətlə məşğul olurdular. 1904-cü ildən etibarən sığınacaq üzrə məsləhətçi və müalicə prosesinin rəhbəri yerli ortopediyanın banisi Hərbi Tibb Akademiyasının professoru Q.İ. Turner oldu. 1936-cı ildə dayaq hərəkət aparatı xəstəliklərinə məruz qalan uşaqlar üçün tibbi-pedaqoji müəssisənin bazasında Uşaq Ortopediyası və Travmatologiya Elmi-Tədqiqat İnstitutu təşkil edildi.

1950-ci illərə qədər dayaq-hərəkət aparatı sisteminin ciddi zədələnməsi olan əlil uşaqlar əsasən tibbi müayinədən keçmiş və Rusiyanın səhiyyə sistemində qeydiyyata alınmışdır. 1950-ci illərin sonunda Moskva və Leninqraddakı dayaq-hərəkət pozulmaları olan uşaqlar üçün təşkil olunmuş ilk məktəblər əsasən poliomielitə yoluxan uşaqlar üçün nəzərdə tutulmuşdu.

Leninqradda Q.İ. Turner adına institutda nəinki uşaqların ortopedik və cərrahi müalicəsi üzrə, həm də beyin iflici olan uşaq və yeniyetmələrlə tibbi-pedaqoji və psixoloji iş üzrə böyük təcrübə toplanılmışdır.

50-ci illərin sonunda Leninqradda və Rusiyanın digər iri şəhərlərində dayaq-hərəkət aparatı pozulmaları olan uşaqlar üçün sanatoriya və internat məktəbləri yaradılmışdı. Bu məktəblərin əsas kontingenti serebral iflicli uşaqlar idi. Sankt-Peterburqda serebral iflicli uşaqlar üçün ilk ixtisaslaşdırılmış təşkilatlardan biri sanatoriya və spa müalicəsində uzun illər təcrübəsi olan Komarovo sanatoriyası idi. Burada S.A Bortfeldin rəhbərliyi altında serebral iflicli uşaqlar üçün terapevtik bədən tərbiyəsi üsulları hazırlanmışdır. 1970-ci illərin əvvəllərində Moskva şəhərində serebral iflicli uşaqlar üçün Ümumittifaq Bərpaedici Müalicə Mərkəzi açılmışdır.

Sosial müdafiə sistemində (ağır fiziki əlilliyi olan uşaqlar üçün) əlil uşaqlar da yaşayır və onlardan yarısından çoxu serebral iflicin nəticələrinə görə müxtəlif vasitələrin köməyi ilə yaşayırlar.

"Uşaq serebral iflici" termini (USİ) beyin zədəsi ilə əlaqədar yaranan bir sıra sindromları birləşdirir. Serebral iflic baş və onurğa beynin bətndaxili dövrün müxtəlif mərhələlərində,eləcə də doğuş zamanı zədələnməsi nəticəsində inkişaf edir. Serebral iflicin əsas klinik simptomu geridə qalan inkişaf və statokinetik reflekslərin düzgün olmayan inkişafı, tonsun patologiyası və parezlərlə əlaqəli olan motor funksiyasının pozulmasıdır. Mərkəz sinir sistemindəki pozulmalardan əlavə, ikincili olaraq, həyat boyu sinir əzələ liflərində, oynaqlarda, bağlarda və qığırdaqlarda dəyişikliklər baş verir.

Serebral iflicin əsas simptomuna – hərəki pozulmalara, əksər hallarda psixikanın pozulmaları, nitq qüsurları, görmə , eşitmə və s. pozulmalar da əlavə olunur. Bəzi uşaqlarda qıcolma da təzahür edir. Yuxarıda qeyd olunduğu kimi, serebral iflicin ilk klinik təsviri 1853-cü ildə V. Littl tərəfindən təsvir

edilmişdır. Serebral iflic təxminən 100 il ərzində Littl xəstəliyi adlandırıldı. "Uşaq serebral iflici" termini Zigmund Freydə məxsusdur. 1893-cü ildə o bətndaxili mənşəli oxşar klinik əlamətlərlə bütün spastik iflic formalarını serebral iflic qrupunda birləşdirməyi təklif etdi.

1958-ci ildə Oksfordda ÜSM üzrə VIII iclasda bu termin təsdiq edilərək belə qəbul eildi : “ uşaq serebral iflici - beyinin hərəkətlərə və bədənin vəziyyətinə cavabdeh olan şöbələrini zədələyən qeyri proqressiv xəstəliyidir. Bu xəstəlik baş beyinin inkişafının erkən mərhələlərində yaranır”.

Amma bu günə qədər bu pozulma müxtəlif ədəbiyyatlarda fərqli terminlərlə ifadə olunur. Məsələn, ingilis ədəbiyyatlarında əsasən "serebral iflic" və "spastik iflic" terminlərindən istifadə olunur.

Alman ədəbiyyatında "hərəkət aparatının serebral pozulması", bəzən isə “serebral iflic” adlandırılır.

Fransız müəlliflərinin əsərlərində " motorikanın serebral mənşəli pozulması" ifadəsinə rast gəlinir.

Nəticə olaraq, bu xəstəliyə "uşaq serebral iflici" kimi istinad edərək, həyatın ilk illərində təzahür edən qeyri proqressiv, qismən funksional korreksiyaya tabe ola bilən, inkişaf məhdudluğu və ya baş beyinin zədələnməsi ilə izah olunan qamətin və hərəkət funksiyalarının pozulması olduğunu nəzərə almaq lazımdır. Serebral iflicli uşaqlarda hərəkət pozulmaları üstünlük təşkil etsə də, onlar əsas problem deyildir.

XX əsrin əvvəllərində aparılan tədqiqatlara əsasən USİ-li uşaqların çoxunda intellekt zəifliyi və nitq inkişafsızlığı vurğulanırdı. Məsələn, M.Y Breytman ilk dəfə olaraq serebral iflicin patoloji-anatomik və klinik təsvirini verərək bu xəstəliyin təkcə motor sahəsinə deyil, həm də intellektə və nitqə təsir etdiyini qeyd etmişdi.

XX əsrin 60-80-ci illərində serebral iflicli uşaqlarda idrak proseslərinin və nitqin öyrənilməsinə həsr olunmuş işlər üzə çıxdı [4, 118 ].

Hal-hazırda serebral iflic prenatal dövrdə beyinin zədələnməsi və ya beynin əsas strukturları və mexanizmlərinin tam formalaşmaması nəticəsində yaranan, nevroloji və psixi pozulmalarla şərtlənən xəstəlik hesab olunur. Bu zaman nəinki, psixi inkişaf ləngiməsi, həm də ayrı-ayrı psixi funksiyaların qeyri bərabər, disproporsional (qeyri-mütənasib) formalaşması müşahidə edilir.

Serebral iflicli uşaqlarda psixi pozulmaların patogenezində vacib zəncir postnatal dövrdə filogenetik və ontogenetik cəhətdən ən gənc beyin strukturlarının inkişaf etməməsi və ya anormal inkişafıdır. Serebral iflicli uşaqda ən mühüm funksional sistem olan hərəki sistemin fəaliyyəti pozulmuşdur. Hərəki patologiya sensor çatışmazlıqla müşayət olunduqda idrak fəaliyyətinin və intellektin inkişafsızlığına səbəb olur.

Serebral iflicin səbəbləri çoxdur. Serebral iflicin mənşəyi ilə bağlı prenatal, natal və postnatal mənfi amilləri ayırd edilir. Təcrübədə inkişafın

müxtəlif mərhələlərində təsir edən bu amillərin kombinasiyası tez-tez müşahidə olunur. Serebral iflicin inkişafının səbəblərini təhlil edərkən, serebral iflicin müəyyən bir inkişaf dövrü ilə əlaqəsi adətən "risk dövrü" termini ilə müzakirə edilir. Bu və ya digər dövrlərdə serebral iflic riskinin olması məsələsi Littl və Freyd dövründən etibarən ədəbiyyatda geniş müzakirə olunur, lakin bu günədək geniş fikir müxtəlifliyi var.

Bir sıra tədqiqatçıların məlumatları serebral iflicin yaranmasında həlledici rolu prenatal faktorlara aid edir – 37 %-dən 60% -ə qədər, natal - 27% -dən 40%-ə qədər, postnatal - 3% -dən 25% -ə qədərdir.

Müəyyən bir dövrün üstünlüyünün müzakirəsi, əlbəttə ki, ikincilidir. Əsas əhəmiyyət daşıyan yeni doğulmuşun və ya dölün müəyyən inkişaf dövründə üzə çıxan etioloji faktorlardır.

<u>Prenatal faktorlar .</u>

Adətən bu faktorların üç qrupu fərqləndirilir:
- ananın sağlamlıq vəziyyəti;
- hamiləlik dövründə kənaraçıxma hallar;
- dölün inkişafına mane olan amillər.

Faktorların I qrupuna daxildir:
- ananın konstitusiyası;
- ananın somatik, endokrin, yoluxucu xəstəlikləri;
- pis vərdişlər;
- əvvəlki hamiləlikdən qalan fəsadlar və s.

Məsələn, ananın ürək-damar sistemi zədələndikdə, 45% -ində metabolik asitoz inkişaf edir ki, bu da dölün oksigen çatışmazlığına səbəb olur. Nəticədə doğuş prosesi asfiksiya ilə çətinləşir.

Serebral iflicin inkişafında bətndaxili infeksiyaların mənfi təsiri danılmazdır. Xüsusilə də ən təhlükəlisi məxmərək virusudur. Anadangəlmə məxmərəyin kliniki təzahürü spastik parezlərlə üzə çıxa bilər. Bütün prenatal zədələnmələrin 17% -nə səbəb toxoplazmozdur.

Dölün sinir sisteminin ağır patologiyasının səbəbi ananın və dölün immun uyğunsuzluğu ola bilər.

Amillərin II qrupuna (hamiləlik zamanı kənaraçıxma hallar) əvvəlki hamiləliyin natal prosesinin ağır keçməsi, hamiləlik dövründə tireoid hormonları ilə müalicə, ananın estrogen hormonlarından istifadə etməsi, uşaqlıqdaxili zədələnmələr aid edilir.

III qrup amillərə (dölün inkişafınnın pozulması) aşağıdakılar daxildir: 1500 gramdan az çəki, dölün düzgün olmayan mövqeyi, plasentanın aşağı çəkisi, 37 həftədən aşağı hamiləlik, doğum qüsurları, ətrafların anormaliyası, mikrosefaliya, genetik amillər.

Serebral iflicin sadalanan risk faktorlar arasında, ədəbiyyatlarda ən geniş yayılmış müzakirə mövzusu bədən çəkisinin çox aşağı olmasıdır.

Serebral iflicli uşaqlar arasında ən yüksək faiz körpənin anadan gəlmə çəkisinin çox aşağı olması (43% -dən 50% -ə qədər) arasında olub. Bu cür uşaqların doğuş zamanı serebral iflic riski normal bədən çəkisi olan uşaqlara nisbətən 6 dəfə çoxdur. Zəif çəki ilə spastik tipli serebral iflic arasında aydın əlaqə aşkar edilmişdir.

Bir sıra hallarda (2 %), genetik amil serebral iflicin inkişafında əsas rol oynayır. İntellektual pozulmalarla müşayət edilən 12-13% anadangəlmə ataksiyalı uşaqlardakı pozulmaların genetik olması müəyyən edilir. Bu halda pozuntuların əksəriyyəti autosomatik - ressessiv tipə aiddir. Əkizlərdə serebral iflicin təbiətinin ayrı-ayrı tədqiqatlarla öyrənilməsi serebral iflicin genetik etiologiyasının lehinə nəticələr vermişdir.

Natal faktorlara aşağıdakılar aiddir:
- doğuşda asfiksiya;
- doğuş travması.

Asfiksiya mexanizmi daha ətraflı araşdırılmışdır: doğuş zamanı oksigen çatışmazlığı damarların genişlənməsinə və trombların yaranmasına səbəb olur, beyin işemiyası meydana gəlir və nəticədə şiddətli serebral pozulmalar inkişaf edə bilər. Tədqiqatların nəticələrinə görə asfiksiya ilə doğulmuş uşaqlar arasında USİ 3%-lə 20% arasında dəyişir. Erkən doğulmuş uşaqlarda doğum asfiksiyası ilə serebral iflic arasında aydın əlaqə ola mövcuddur .

Natal asfiksiyanın USİ-nin risk amili kimi qiymətləndirilməsində 1897-ci ildə Z.Freydin fikirlərini xatırlamaq məqsədəuyğundur. O qeyd edrdi ki, asfiksiyanın bilavasitə göstəriciləri olan iradi tənəffüsün ləngiməsi, göbək arteriyasının qanında PH-ın enməsi, dölün ürək ritminin tezləşməsi-bütün bunlar artıq mövcud olan beyin zədələnməsinin nəticələridir. Asfiksiyanın sadalanmış göstəriciləri serebral iflicin erkən əlamətidir , əksinə bu göstəricilər asfiksiya üçün indikator deyildir. Freydin nəzəriyyəsinə görə USİ natal anomaliyanın nəticəsi deyil, əksinə prenatal dövrdə dölün beyninin zədələnməsi natal anomaliyaya gətirib çıxarır.

Doğuş travmalarına səbəb doğuş zamanı mexaniki zədələnmələr, dölün düzgün olmayan gəlişi, sürətli doğum, uzun müddətli doğum, süni doğum və sair ola bilər.

Doğum mərhələsində serebral iflicin inkişafı üçün digər risk faktorları da ola bilər: plasenta və ya göbək ciyəsi patologiyası, göbək ciyəsinin dölün boynuna dolanması, uzun müddətli doğum spazmları, doğum fəaliyyətinin zəifliyi, erkən doğum.

Postnatal faktorları .

Doğum sonrası mərhələdə aşağıdakı səbəbləri fərqlənir:
- travma: kəllə və sümüklər, subdural hematomlar və s .;
- infeksiyalar: menengit, ensefalit, beyin absesi;

-intoksikasiya: dərmanlarla, antibiotiklərlə ¬ (streptomisin), qurğuşunla və s.;
- oksigen çatışmazlığı: mexaniki boğulma, suda boğulma və s.
- beyin şişləri, kistalar, hidrosefaliya və s.

Bu xəstəliyin etiologiyası ilə bağlı daha dəqiq fikirlər, motor disfunksiyasının ayrı-ayrı formalarının inkişafının səbəblərini təhlil etməklə əldə edilə bilər.

Serebral iflic olan uşaqlarda beyin struktur dəyişiklikləri 2 qrupa bölünür:
- hüceyrələrin özlərində qeyri spesifik dəyişikliklər;
-beyinin inkişafının pozulması,yəni dizontogenez ilə bağlı dəyişikliklər.

Həmin anda daha aktiv olan proseslər ən həssas olur. Bunu ölən uşaqların beynində müşahidə edilən morfoloji dəyişikliklərin müxtəlifliyi ilə izah etmək olar.

## ƏDƏBİYYAT

1.Под редакцией И.В.Добрякова, Т.Г.Щедриной «Детский церебральный паралич: лечение в школьном возрасте», Санкт-Петербург Издательский дом СПбМАПО , 2008, 439 стр.

2.Ермоленко НА., Скворцов И.А., Неретина А.Ф. Клинико-психологический анализ развития двигательных, перцептивных, интеллектуальных и речевых функций у детей с церебральными параличами // Журнал неврологии и психиатрии, 2000, № 3, с. 19-23

3. Ипполитова М.В. Коррекционно-воспитательная работа с детьми дошкольного возраста, страдающими церебральными параличами // В сборнике: Очерки по патологии речи и голоса /Под ред. С.С. Ляпидевского. Вып. 3. М, 1967, С. 214-223

4.Л.М. Щипицына, И.И. Мамайчук «Детский церебральный паралич»,Санкт-Петербург Издательство "Дидактика Плюс", Москва Институт общегуманитарных исследований, 2001, 291 стр.


Рамиз Мехтиев
ГРИГОРИАНСКАЯ ЦЕРКОВЬ
КАК ИНСТРУМЕНТ ШПИОНАЖА
ПРОТИВ СЕФЕВИДСКОГО
ГОСУДАРСТВА

**UOT 01**

# TARİXİMİZƏ VƏ TARİXÇİLƏRİMİZƏ DƏYƏRLİ ALİM TÖHFƏSİ

***Qasım Əhəd oğlu Hacıyev***
***AMEA Qafqazşünaslıq İnstitutu***
***gasimh@mail.ru***

**Açar sözlər:** *Akademik, Səfəvilər, Qriqoryan kilsəsi, casusluq, Osmanlı, İran*

*Akademik Ramiz Mehdiyevin "Qriqorian kilsəsi Səfəvilər dövlətinə qarşı casusluq aləti kimi (XVII əsr - XVIII əsrin birinci rübü)" adlı monoqrafiyası müasir geosiyasətdə öz aktuallığını saxlamış Azərbaycan türklərinin böyük imperiyalarından biri olmuş Səfəvilər dövlətinin tarixinə dair maraqlı problemə həsr edilmişdir. Bu əsər XVII - XVIII əsrin birinci rübündə Səfəvilər dövlətinə qarşı Qriqorian kilsəsinin kəşfiyyatı və siyasi-ideoloji fəaliyyətini Azərbaycan tarixi və siyasi elmində təfərrüatlı, dəqiq anlamaq, qiymətləndirmək üçün son dərəcə dəyərli mənbədir.*

# ЦЕННЫЙ ВКЛАД В ИСТОРИИ И ИСТОРИКОВ ОТ УЧЕНОГО

***Гасим Гаджиев***

**Ключевая слова:** *Академик, Сефевиды, григорианская церковь, шпионаж, Османская империя, Иран*

*Монография академика Рамиза Мехтиева «Григорянской церкви как инструмент шпионажа против Сефевидского государства (XVII - первая четверть XVIII в.в)» посвящена интересной проблеме истории государства Сефевидов, одной из великих империй тюрок Азербайджанцев, которая сохранила свою актуальность в современной геополитике. Это чрезвычайно ценный источник для детального, точного понимания и оценки изучения разведовательной и политико-идеологической деятельности григорианской церкви в XVII - первой четверти XVIII в.в.*

# VALUABLE SCIENTIST CONTRIBUTION TO OUR HISTORY AND HISTORIANS

***Gasim Gajiyev***

***Keywords:*** *Academician, Safavid, Gregorian Church, against, Ottomon, İran*

*The monograph of academician Ramiz Mehdiyev "The Gregorian Church as a spy tool against the Safavid state (XVII - the first quarter of the XVIII century)" is devoted to the interesting problem of the history of the Safavids state, one of the great empires of the Azerbaijani Turks, which kept its relevance in modern geopolitics. In the history and political science of Azerbaijan, it is an extremely valuable source for accurate, detailed understanding and evaluation of secret service and political-ideological activity of the Gregorian Church against Safavid Empire in the XVII-the first quarter of the XVIII century.*

Akademik Ramiz Mehdiyev Azərbaycan tarixinin müxtəlif dövrləri və problemlərinə çoxlu sayda sanballı əsərlər həsr etmişdir. Onun digər əsərləri ilə bərabər tarixi və siyasi baxımdan dəyərli olan "Gorus - 2010: absurd teatr mövsümü” (Bakı, Şərq-Qərb, 2010, 96 s.), "Dağlıq Qarabağ - məxəzlərdən oxunmuş tarix» (Moskva, Avarius, 2014, 280s.) kitabları Azərbaycan tarixşünaslığında xüsusi yer tutan qiymətli tədqiqatlardır. "Şah İsmayıl Səfəvi: hökmdarın və döyüşçünün portreti» (Bakı, Şərq-Qərb, 2014, 256 s.) monoqrafiyası da akademikin Azərbaycan tarixşünaslığında və şərqşünaslığında xüsusi yeri olan əsərlərindəndir.

Haqqında bəhs edəcəyimiz monoqrafiya da müasir geosiyasətdə öz aktuallığını saxlamış və Azərbaycan türklərinin böyük imperiyalarından biri olmuş Səfəvilər dövlətinin tarixinə dair maraqlı problemə həsr edilmişdir. Akademikin "Qriqorian kilsəsi Səfəvilər dövlətinə qarşı casusluq aləti kimi (XVII əsr - XVIII əsrin birinci rübü)” adlı bu kitabı XVII əsr - XVIII əsrin birinci rübündə Səfəvilər dövlətinə qarşı Qriqorian kilsəsinin kəşfiyyatı və siyasi-ideoloji fəaliyyətini Azərbaycan tarixi və siyasi elmində təfərrüatlı, dəqiq anlamaq və qiymətləndirmək üçün son dərəcə dəyərli mənbədir (Рамиз Мехтиев: «Григорианская черковь как инструмент шпионажа против Сефевидского государства (XVII – первая четверт XVIII вв.)», Баку, Шарг-Гарб, 2018, 160 с.).

Müəllif monoqrafiyada göstərilən dövrün ən mühüm siyasi prosesləri ilə bağlı bir sıra aktual məsələləri ardıcıl və diqqətli şəkildə araşdırır. Burada, Vatikanın Səfəvilərə göndərdiyi katolik missiyasının ideoloji və agentlik fəaliyyətinin strategiya və taktikası çərçivəsində bu missiyalardakı Qriqorian

kilsəsinin qarşılıqlı əlaqəsi, onun antisəfəvi düşmənçilik fəaliyyəti, Səfəvi şahlarının erməni ruhaniləri və Qərb agentliklərinin siyasi-ideoloji təxribatlarının qarşısını almaq üçün mübarizə məqsədi daşıması şərh edilir. Həmçinin, erməni ruhanilərinin Qərblə gizli siyasi əlaqələr məsələsinə xüsusi diqqət yetirilmişdir.

Akademikin yeni kitabında Qərb dövlətlərinin, xüsusilə Rusiyanın əlində Səfəvilər dövlətinə qarşı casusluq, şantaj, separatizm alətinə çevrilmiş Qriqorian kilsəsinin siyasi-ideoloji, kəşfiyyat fəaliyyəti ilk dəfə olaraq tədqiq və şərh edilmişdir. Azərbaycanın tarixi torpaqlarının işğalında, başqa dövlətlərə, xalqlara qarşı ermənilərin əsassız ərazi iddialarında Eçmiədzin kilsəsinin roluna dair faktların üzə çıxarılması, və təhlili həm yeni, həm də olduqca maraqlı materiallardır.

Sözü gedən monoqrafiyada milli tariximizə aid olan bir problem yüksək səviyyədə araşdırılır. Orta əsrlərdə mövcud olmuş Azərbaycan Səfəvilər dövlətinin tarixinə və həmin tarixlərdə baş verən, lakin bu günə qədər məlum olmayan bəzi sirlərin üstü açılır. Tədqiqatın əhəmiyyəti həm də ondadir ki, akademikin Azərbaycanın ictimai və humanitar elmlər sahəsində olan mövcud vəziyyət və doğru fəaliyyət istiqamətinə dair fikirləri tədqiqatçıları bundan nəticə çıxarmağa yönəldir.

Əvvəlki əsərlərində olduğu kimi, bu əsərdə də məxəzlərdən istifadə edilmiş, tarixşünaslığa yüksək həssaslıqla yanaşılmışdır. Monoqrafiya dərin məzmunlu olduğu qədər, rahat oxunaqlı, səlis və maraqlı məlumatlarla zəngindir.

"Əlbəttə, hər şeydən əvvəl, fəal iş aparılmalı, erməni milli ideyası adlandırılan orijinal hədəfləri ortaya çıxaran, eləcə də Azərbaycan dövlətinə və xalqına qarşı şüurlu şəkildə hazırlanmış erməni yalanlarına səbəb olan erməni mənbələri əsaslı şəkildə öyrənilməli, onların ifşa olunmasın üçün iş aparılmalıdır” deyən Ramiz Mehdiyev elmi ictimaiyyətə, xüsusilə də bu problemlərlə məşğul olanlara fəal iş aparmağı tövsiyə edir. Düşünürük ki, yerində olan bu çağırışa müsbət cavab vermək üçün hələ XIX əsr-XX əsrin əvvəllərində erməni kilsəsinin təşəbbüsü ilə Cənubi Qafqazın, xüsusilə də Azərbaycanın tarixini saxtalaşdırmaq yolunu tutan M.Çamçyan, K.Şahnazaryan, N.Emin, K.Patkanov və başqalarının ənənəsini davam etdirən ideoloqların (tarixçilərin, siyasətçilərin, şərqşünasların) ifşası intensiv olaraq davam etdirilməlidir. Əgər erməni tarixinin “atası” kimi qələmə verilən Movses Xorenatsinin anonim müəllif olması, Mesrop Maştosun əlifba yaradıcısı deyil, saxtalaşdırıcı birisi olması meydana çıxırsa, daha yeni məsələlərin aşkar ediləcəyinə şübhə qalmır.

Tarixi tədqiqatlar hüquqi tədqiqatlardan ona görə çox fərqlənir ki, tarixi faktlar ortaya qoyulursa, onu sübut etməyə ehtiyac olmur. Çünki fakt faktlığında qalır. Hüququn tarixi əsaslandırılması və yaxud baş verənlərə hüquqi qiymətin verilməsi isə çox çətin və bəzən nəticəsi olmayan bir fəaliyyət olaraq qalır.

Akademik Ramiz Mehdiyevin haqlı tövsiyələrindən biri kitabın proloqunda təqdim edilir: "Ümid edirəm ki, bu iş bizim tədqiqatçılarımızı ermənilərin siyasi doktrinasının, həyat tərzinin, erməniliyin xarakterinin və psixologiyasının formalaşması tarixində Qriqorian kilsəsinin rolu ilə bağlı yalnız elmi dəlillərlə əsaslandırılmış arqumentlər və ciddi tarixi materiallara əsaslanaraq daha aktiv şəkildə, yaradıcılıqla tədqiqat aparmağa sövq edəcəkdir" (s. 152). Buna heç bir şübhə ola bilməz ki, indiyə qədər orta əsrlərə dair tədqiqatlarda köhnə stereotiplərdən uzaqlaşa bilməyən, Azərbaycana əyalət gözü ilə baxan imperiyaların, etnik və milli düşmən gözü ilə baxan dövlətlərin, onların radikal millətçilərinin təsiri ilə yazılan "mənbə" və "tədqiqatlar"dan istifadə etməklə davam edən yaradıcılıqdan uzaqlaşmaq, yeni metodologiyaya yiyələnərək orijinal materiallardan çıxış etmək lazımdır.

Kitabda Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin Osmanlı Türkiyəsi ilə münasibətlərinə və Türkiyənin Qara dəniz sahillərindəki Trabzona nəzarəti ələ keçirməsindən də yazılır. Eləcə də, bir sıra dövlətlərin və regionların tarixinə tarixçilərin münasibəti qeyd edilir. Müəllif yazır: "Tarixçilərin sözlərinə görə, bütün Cənubi Azərbaycan, Qarabağ, indiki Ermənistan, Kürdüstan, İraq və bütün Xorasan, eləcə də İran torpaqlarının Fars körfəzinə qədər mühüm bir hissəsi bu dövlətin hakimiyyəti altında idi" (s. 21).

Akademik göstərir ki, "çox vaxt "orta əsr Ermənistanı" ifadəsinə müraciət edən erməni müəlliflər bununla Azərbaycan torpaqlarında 1918-ci ildə yaranmış Ermənistan Respublikasının ərazisinin orta əsrlərdə hansısa erməni dövlətinə məxsusluğunu sübut etməyə cəhd göstərirlər. Halbuki orta əsrlərdə hansısa erməni dövləti, onun hökmdarı, paytaxtı, konkret sərhədləri olmamış, digər dövlətlərlə diplomatik əlaqələr qurulmamışdır" (s. 22). Belə bir məntiqi arqumentlə erməni tədqiqatçılarının uydurmalarına münasibət bildirmək uğurludur. Əks halda, müəllifin özünün vurğuladığı kimi, "Bu cür ciddi elmi müzakirələr üçün belə kateqoriyaya müraciət etmək qəbuledilməzdir və yolverilməzdir" (s. 22).

"20-ci yüzilliyin geosiyasi və coğrafi reallıqlarını orta əsr dövrünə köçürmək yolu ilə nəticələr çıxaran və hətta bəzi fərziyyələr irəli sürən bu cür tarixçilərdən biz hansı ciddi və mötəbər arqumentlər və nəticələr gözləyə bilərik?" (s. 22) deyə soruşan akademik belə iddiaların nə qədər əsassız olduğunu göstərir.

Diqqəti çəkən bir məsələ də akademikin: "Son orta əsrlərdə Ermənistan haqqında danışarkən, ən yaxşı halda, İran və Türkiyənin müəyyən bölgələrinin xristian cəmiyyətinin az bir faizini təşkil edən kompakt erməni əhalisini təsəvvür etmək olar" (s. 22-23) deyərək, ermənilərin hər hansı bir şəkildə, həm də Azərbaycana məxsus ərazilərdə qədim və orta əsrlərdə hansısa bir dövlətinin olmasının qeyri-mümkünlüyünü bildirməsidir. Bu fikri bir daha dəqiqləşdirmək üçün müəllifin şərhləri maraqlıdır: "Təbiidir ki, ciddi tarixçilər sualın bu cür

qeyri-elmi şəkildə qoyulmasını qətiyyətlə rədd edirlər. Lakin təəssüf ki, onların çoxu Azərbaycanın tarixi və mədəniyyəti ilə bağlı erməni saxtakarlığına gəldikdə prinsipiallıq göstərmir və beləliklə onların ermənilərə simpatiyası dəfələrlə ortaya çıxır" (s. 24).

Müəllif yuxarıda qeyd edilən məsələlərlə yanaşı, guya Səfəvilərin ardıcıl ermənipərəst siyasəti və həmin siyasətin erməniləri Qərb və Moskva ilə əməkdaşlığa təhrik etməsi barədə rus və Qərb tarixşünaslığında möhkəm kök salmış ənənəvi erməni uydurmaları üzərində də ətraflı dayanır. Bu uydurmaları ilkin, əsasən erməni mənbələrindəki məlumatlarla, eləcə də, bir sıra nüfuzlu tədqiqatçıların gəldikləri nəticələrlə müqayisə etməklə tədqiqatçı belə yanaşmanın əsassızlığını və məqsədli olmasını inandırıcı şəkildə sübut edir ( s. 2).

Akademik ermənilərin tarixdəki yerinə və onların xarakterinə dair maraqlı fikir bildirir: "Ermənilərin tarixindəki faktlar sübut edir ki, satqınlıq və başqa millətdən olan insanları qəbul etməmək ayrı-ayrı epizodlar deyil, konkret məqsədlərə nail olmağa yönəlmiş şüurlu hərəkətlərdir... Bədrəftarlıq onların xarakterinin mühüm cəhətidir" (s. 6). Bunun müqabilində onlardan (ermənilərdən) yalnız vergiləri vaxtında ödəmək, qanunlara riayət etmək və hakimiyyətin iradəsinə tabe olmaq tələb olunurdu. Demək olar ki, imperiyaların xarakterik xüsusiyyətindən irəli gələn "parçala və hökm sür" siyasətinə uyğun olan etnik münaqişələr törətmək, xalqlar və millətlərarası ədavət yaratmaq, onu dərinləşdirmək siyasəti mühüm rol oynamışdır.

Bu həqiqətdir ki, bir sıra xalqlar arasında münaqişələr əzəldən mövcud olmuşdur. Bunların bir qismi mənafelərin toqquşmasından təbii olaraq meydana çıxmışdısa, digərləri süni şəkildə, istənilmədən, kənar qüvvələrin təsiri ilə yaradılmışdır. Maraqlıdır ki, ermənilərlə digər xalqlar arasında münaqişələr məlum olanlardan fərqli şəkildə - özünəməxsus xüsusiyyətlərlə seçilir. Bu xüsusiyyətlərin nədən ibarət olduğu və tarixdə nə kimi rol oynadığı əsər boyu konkret və hərtərəfli şəkildə əks olunur.

Əsərdə erməniliyin müasir mahiyyətini də xarakterizə edilir: "Üstəlik, güclü dövlətçilik və xarici dəstəyin olmaması ilə, ermənilər öz niyyətlərini açıq şəkildə göstərmirdilər. Buna baxmayaraq, təvazökarlıq forması və onun həyata keçirilməsi yolları əsrlər boyu ermənilərin mövcud xarakterinin mahiyyətini dəyişmir" (s. 7).

Müəllif xəbərdarlıq edir: "Vətən tariximiz Azərbaycan xalqına və dövlətçiliyinə qarşı erməni xəyanəti ilə çox sayda nümunələrlə doludur. Təəssüf ki, yalnız ötən əsrin hadisələri ətraflı şəkildə işıqlandırılmışdır" (s. 6). Ermənistanın Azərbaycana təcavüzünün davam etdiyi, hələ də Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həll olunmadığı vaxtda bu xəbərdarlığın nə qədər haqlı olduğunu görürük.

Kitabın ikinci fəslində maraqlı bir fikir söylənilir: "Satılmağa hazır olan erməniləri satın alırdılar”. Alim bundan irəli gələn bir sıra nəticələri diqqətə çatdırır: "Başqa səbəb yoxdur. Erməni xalqının bütün bəlaları Qriqorian kilsəsi başda olmaqla onun siyasi elitasının satqınlığından irəli gəlir” (s. 91). Ermənilərin bu spesifik xüsusiyyətlərinin Azərbaycan üçün təhlükə mənbəyi olduğu diqqətə çatdırır: "XX əsrin əvvəllərində ermənilər satqınlıqları və "beşinci kolon” rolu müqabilində Azərbaycanın tarixi torpaqları hesabına Cənubi Qafqazda müstəqil dövlət yaradılması ilə mükafatlandırıldılar” (s.8). Burada ermənilərin arzu və istəklərinin əsas hədəfini müəyyənləşdirməkdə akademikin dəqiqliyi və diqqətliliyi özünü göstər və başlanğıcın nəticə ilə uyğunluğunun tarixi proseslərlə təsdiqi öz əksini tapır.

Akademikin dəqiq faktlarla proseslərin mahiyyətini şərh edərkən istifadə etdiyi fəlsəfi, məntiqi ifadələri çox maraqlıdır. Buradakı hər hansı bir fikri ifadə edərkən onun çatdırılma mexanizmi, fikrin inkişafi səviyyəsinin düzgün müəyyənləşdirilməsi və icrası metodoloji baxımdan çox qiymətlidir. Məsələn, münasibətləri müəyyənləşdirərkən "maraqların gizli müharibəsində” ifadəsindən istifadə edilməsi araşdırılan məsələnin düzgün anlaşılmasına kömək edən şərt kimi yadda qalır.

Müəllif yazır: "Əsla mübaliğə etmədən faktlar belə deməyə əsas verir ki, həmin dövrdə Səfəvilər dövlətinin ətrafında baş vermiş bir çox proseslər bu gün Azərbaycana münasibətdə müşahidə etdiklərimizlə çox oxşardır. Bu proseslər əvvəlki əsrlərdə baş vermiş və ölkəmizin vətəndaşlarının əksəriyyətinə, hətta ümumi şəkildə də məlum olmayan hadisələrin, bir növ davamıdır” (s. 8). Bundan nəticə çıxararaq düşünmək olar ki, akademikin Azərbaycan Respublikasının ətrafında baş verən hadisələrə ciddi yanaşması və bu proseslərə münasibət bildirməsi siyasi analitik ifadəsini tapan bir məsələdir. Tədqiqatçı əvvəlki monoqrafiyalarında da Azərbaycan dövlətinin taleyüklü məsələlərinə məntiqli elmi münasibətlər bildirib. Belə təhlil və şərhlər ciddi elmi, siyasi münasibətlərin nədən qaynaqlandığını dərk etməyə əsas verir.

"Tarix absurd teatrında tamaşa şəklində təkrarlanır. Bu, tarixdən lazımi dərs götürənlər üçün gələcək təhlükələrin və itkilərin qarşısını almağa kömək edir. Bu dərsləri mənimsəmək iqtidarında olmayanlar üçün isə keçmişin müasir "don geydirilmiş” hadisələri yeni faciəyə çevrilə bilər ki, bu da təkcə Cənubi Qafqaz regionuna aid deyil” (s. 12) deyən müəllif dünyanın qlobal məsələlərinə güclü təsir edə bilən supergüclərin varlığını və təsir dairəsini düzgün dərk edərək nəticə çıxarmağın, düzgün yol tutmağın əhəmiyyətli olmasına diqqət yetirməyi tövsiyə edir.

Kitabda Səfəvilər tarixinə dair əsər yazan müəlliflərdən fərqli olaraq onların əldə edə bilmədiyi materiallardan, həmçinin məlum mənbələrdən də ustalıqla istifadə edilmişdir. Çox maraqlıdır ki, monoqrafiyada respublikada humanitar elmlərin taleyi barədə şərhində bir alim kimi bu elmlərin təhlilə və

obyektiv tənqid metoduna keçməli olduğu məsləhət görülür və bununla bərabər gərəksiz pafosa, sözçülüyə son qoyulmasının vacibliyinə dair tənqidi fikirlər bildirilir.

Akademik müasir tədqiqat metodikasını daha fəal şəkildə mənimsəməyə çağırır. Bu çağırış vaxtında və yerində olduğu qədər də müqəddəs bir işdir. Çünki dünyanın bu həqiqətləri başa düşməsi və qəbul etməsi üçün onları bilməsi vacibdir. Həqiqətləri müasir oxucuya çatdırmaq üçün də müasir və aktual metodologiyaya yiyələnmək lazımdır. Müasir tədqiqat metodları dedikdə ilk növbədə ən azı yaşı yüz ildən artıq olan mənbələrə və qədim məxəzlərə dövrünün gözü və eləcə də müasir gözlə baxmaqla obyektiv tədqiq etmək başa düşülür.

Əsərdə xüsusi olaraq xəbərdarlıq edilir: "Elmimizin rəqabətə davam gətirməsi və Azərbaycan xalqının tarixi, mədəni irsini yenidən yazmaqda, özlərinin xeyrinə təhrif etməkdə, mənimsəməkdə maraqlı olan qüvvələrin güclü, ardıcıl təbliğatına qarşı dözüb dayanması çox çətin olacaq" (s.153). Azərbaycan alimləri humanitar sahədə olduğu kimi, ictimai elmlər sahəsində də diqqətli olmadıqca "bizim tarixi yaddaşımız beləcə qısa və səthi səviyyədə qalacaq" deməklə akademik yeni metodlara uyğunlaşmaq əvəzinə yeni tədqiqat metodlarını elmə gətirmək istəyənlərin qarşısını "qılınc-qalxan"la kəsmək, "div rolu" oynamaqdansa, onlara yol açmağın, şərait yaratmağın zəruriliyini xatırladır.

Ermənilərlə bağlı tarixi proseslər müasirliklə əlaqələndirilərkən qeyd edilir: "Ermənilərin yalnız azərbaycanlılara və ya türk xalqlarına qarşı münasibətdə belə kökləndiklərini deyə bilmərəm. Onlarda bu xüsusiyyətlər uzun əsrlər boyu məcburiyyətdən məskunlaşma metodunu dağıtmaq üçün formalaşmışdır. Bu, həmçinin müxtəlif mənşəli etnosların və müxtəlif psixologiyaların iştirak etdiyi ermənilərin etnogenezinin tarixi ilə bağlıdır. Hartlessness onların xarakterinin əsas xüsusiyyətidir. Keçmişin gerçəklikləri bizdən həmişə ayıq olmağımızı və onlarla ünsiyyət zamanı erməni xəyanətkarlığını xatırlamağı tələb edir" (s.7). Akademik burada erməni xarakterinin digərlərinə, o cümlədən Azərbaycan xalqına nə bəlalar gətirdiyini yaddan çıxarmamaq xəbərdarlığını edir.

Akademik bir sıra tədqiqat sahələrinin spesifik xüsusiyyətlərinin olduğunu nəzərə almaqla tarixi tədqiqatların bu sırada mühüm rol oynamaq imkanlarına xüsusi diqqət yetirirməklə mövcud vəziyyəti qeyd edirsə, eyni zamanda ermənilərin Azərbaycan tarixinə münasibətinə dair alim fikrinin səviyyəsinə münasibət bildirir: "...Azərbaycan alimləri bütün güclərini XIX əsrin sonu - XX əsrin əvvəllərində ermənilərin cinayətlərini işıqlandırmaq üçün sərf edərkən erməni xalqının psixologiyasına lazımi diqqət ayırmağı unudurlar. Ermənilərin antidövlət fəaliyyəti faktını, Qriqorian kilsəsinin xüsusiyyətini, erkən dövrlərdə - Qafqaz Albaniyası, Səfəvilər, Əfşarlar, Qacarlar və d.

Azərbaycan dövlətlərinin əleyhinə mübarizəsini müəyyənləşdirmək və başa düşmək çətindir. Məhz orta əsrlər dövründə Qriqorian kilsəsinin razılığı və əlbirliyi sayəsində Səfəvi imperiyasını öz iqtisadi və siyasi təsiri altına salmaq, həm də Yaxın və Orta Şərqdə effektli kəşfiyyat şəbəkəsi yaratmaq məqsədilə ermənilərdən casusluq, təhdid və separatizm aləti kimi əvvəlcə Qərb dövlətləri, sonra isə Rusiya aktiv istifadə etməyə başlamışdır" (s.7).

Qriqorian kilsəsinin məqsədyönlü şəkildə antiazərbaycan fəaliyyətinin əsas səbəbi belə şərh edilir: "Bütün tarixi faktlar bizə Səfəvilər dövləti ərazisində olan Qriqorian kilsəsinin fəaliyyətinin bir məqsədini - Azərbaycanın və İranın zəngin bazarları və çoxsaylı material resurslarından istifadə etməsi üçün xristian dövlətlərinin köməkliyi ilə bu torpaqlarda müstəqil erməni dövləti yaratmaq naminə daim cəhd göstərməsini düşünməyə əsas verir" (s.8).

Monoqrafiyada Qriqorian kilsəsinin fəaliyyət məqsədi olduğu kimi şərh edilir. Bununla birgə, ermənilərin vaxtilə əlverişli bir ərazidə özləri üçün dövlət yaratmaq niyyətində olduğuna işarə vurulur. Eyni zamanda göstərilir: "Doğrudur, ədalət naminə qeyd etmək lazımdır ki, bu məsələ bəzi azərbaycanlı müəlliflər tərəfindən qaldırılıb, lakin bu işlərin davamı və müvafiq cavabı olmayıb" (s.10).

Tarixdə ermənilərin xarakteri, erməniliyin mahiyyəti konkret şəkildə şərh edilməklə bərabər, bu problemin müasir tarixdə roluna da diqqət yetirilir: "Keçmişdə bu belə idi. Biz bunu əyani şəkildə müasir dövrdə də görürük. Buna görə heç bir dövlət hakimiyyəti belə fikirlərə aldanmamalıdır ki, ermənilərin xidmətindən istifadə edir. Vaxtilə Azərbaycan türk imperiyasının və Osmanlı Türkiyəsinin hökmdarları bu səhvi etmişlər. Onlar bu dövlətlərin ərazisində yaşayan erməni azlığının özünəməxsus xarakterik xüsusiyyətlərini nəzərə almamış, bunun da hesabını ödəmişlər" (s.7).

Burada tarixi prosesləri düzgün qiymətləndirməməyin acı dərslərindən nəticə çıxarmaq tövsiyə olunur: "Belə mürəkkəb problemlərin öyrənilməsi prosesində müşayiət olunan bütün çətinlikləri mən çox yaxşı dərk edir, vətən tarixçilərini bu mövzuya üz tutmağa çağırıram. Bu mövzunun tədqiqi mənbələrdən yaxşı baş çıxaran, Şərq, Qərbi Avropa dillərində, eləcə də erməni dilində məlumatlı professional mütəxəssislərin olmasını tələb edir" (s.10) deyən müəllif problemə ciddi yanaşmağı, belə mövzuları dərindən tədqiq etməyi qeyd edir.

Monoqrafiyada elmi tədqiqatların düzgün aparılması üçün vacib olan məsələlərə diqqət yetirilməsi tövsiyə olunur: "Biz yalnız bu cür mütəxəssislərin birgə səyləri nəticəsində təkcə ictimaiyyətimiz tərəfindən deyil, ən başlıcası, ermənilərin təbiətini öyrənən xarici alimlər və ekspertlər tərəfindən məmnuniyyətlə qəbul edilən keyfiyyətcə yeni nəticələr əldə edə bilərik" (s.10).

Məsələnin mahiyyətini və qoyulmuş problemin həllinin vacibliyini nəzərdə tutaraq bildiririk ki, Azərbaycanda bu istiqamətdə işlər aparılır. Belə ki,

gec də olsa, belə mütəxəssislərin bir araya toplanması və fəaliyyəti başlanmışdır. Bu, öz təsdiqini AMEA Qafqazşünaslıq İnstitutunun yaradılmasında tapmışdır. Bu imkandan səmərəli istifadə etməklə akademikin istəklərini həyata keçirmək mümkündür. Bunun üçün yalnız diqqət, qayğı və həmçinin tələbkarlıq lazımdır.

Kitabda qeyd olunur: "Sirr deyil ki, son illərdə Azərbaycanın ictimai elmlər sahəsi yüksək səviyyədə mütəxəssislərin olmamasından çox ciddi əziyyət çəkir. Bu da tədqiqat mövzusunun seçilməsinə və həyata keçirilən işlərin keyfiyyətinə ciddi təsir göstərir. Bu vaxta qədər elmi ictimaiyyətin nümayəndələrinin - şərqşünaslar, tarixçilər və mənbəşünasların uğursuzluğunu ən azı bu fakt əyani şəkildə göstərir ki, Heydər Əliyev Fondunun aktiv köməyi ilə Vatikan arxivindən gətirilmiş zəngin tarixi materialları cəmiyyətə təqdim etmək mümkün olmamışdır" (s.11). Və yaxud: "Şübhəsiz ki, mövcud olan problemlərin obyektiv şəkildə aradan qaldırılması müəyyən vaxt tələb edir. Lakin biz o faktı nəzərə almalıyıq ki, hər bir itirilən ildə bizim opponentlərimiz yalanlarını dünya ictimaiyyətinin şüuruna maneəsiz təqdim etməklə, onu aldatmaqla davam etdirir" (s.11). Burada söhbət hər şeyi vaxtı keçmədən etməyin əhəmiyyətinə diqqət yetirməkdən və əks məlumatların çox yayılmadan qarşısının alınmasından gedir. Həqiqətən də elmi prinsipiallıq olmadan, bu prinsipiallığı dövlətinin və millətinin mənafeyinə uyğun olaraq səfərbər etmədən göstərilən fəaliyyətə heç nə ilə bəraət qazandırmaq mümkün deyil. Əsərdə qeyd olunduğu kimi: "Bununla bərabər, Azərbaycan xalqının və dövlətinin tarixinin ağ səhifələrini doldurmağa başlamaq üçün bu gün bütün şərait var. Burada nəyin üzərində düşünmək üçün də əsas var" (s.11). Papa Fransiskin sözlərinə müraciət edilərək bildirilir: "Bu gün bəzi dövlətlərin hökumətlərinin məsuliyyətsizliyi səbəbindən bütün dünya müharibə vəziyyətindədir. Xalqların məcburi köçləri var. Dünyadakı problemli bölgələrdən Avropaya kütləvi miqrasiya buna açıq bir sübutdur" (s.12). Müasir dünyanın, baş verən faciələrin fəlsəfi mənasına, məntiqi dərkinə diqqət yetirilir. Bunlar Azərbaycan Respublikasının ən ağrılı problemi ilə əlaqələndirilir: "Bölgəmizdə baş verən proseslər, o cümlədən Dağlıq Qarabağa aid olanlar və Ermənistanın təcavüzkar ambisiyaları beynəlxalq geosiyasətin tərkib hissəsidir. Buna görə yalnız obyektiv düşünmək, vətən tarixini və regionumuzdakı müasir prosesləri işıqlandırmaq bizi yeni səhvlərdən xilas edə bilər" (s.12).

Akademik qeyd edir ki, erməni tarixşçilərinin Dağlıq Qarabağın xristian əhalisinin etnik ermənilərə məxsus olduğunu sübut etmək üçün çoxsaylı, davamlı cəhdlərinə baxmayaraq, regionda alban təbəqəsinin aparıcı rol oynaması bir çox şərqşünaslar və tarixçilər arasında şübhə doğurmur. Həmçinin fikirlərə elmi misallarla şərh verilir. V.N. Leviatovun fikirlərinə müraciət edilir: "Demək lazımdır ki, Dağlıq Qarabağ ermənilərinin əksəriyyəti, azərbaycanlılar kimi, albanların nəsillərindən, yerli əhalinin köklü sakinlərindən idi. Qədim

zamanlardan etibarən Qarabağda məskunlaşan albanların bir hissəsi Ərəb xilafətinin hakimiyyəti dövründə müsəlmana çevrilmiş, digər hissəsi xristianlıqda qalmaqda davam etmişdir. Alban xristianlar ermənilərlə dini yaxınlıqları olduğu üçün erməniləşdirilməyə məruz qaldılar. Beləliklə, zaman keçdikcə Qarabağ əhalisi arasında fərq əmələ gəldi” (s.25). Belə olduğu halda bu fərqdən istifadə edərək imperiya nökərlərinin Qarabağ regionunu "etnik münaqişə poliqonu”na çevirməsinə, burada bitib-tükənməyən faciələr törətməsinə nə ad vermək olar?! Ona görə də bu proseslərə müxtəlif üfüqlərdən baxmaq məcduriyyəti yaranır ki, bu da təbiidir.

Hər dəfə söhbət Dağlıq Qarabağın xristian məliklərindən gedəndə erməni tarixçiləri nədənsə Qarabağın qərbindəki Qıştaq məliklərinin üzərindən sükutla keçərək, yalnız tanınmış Xaçın, Gülüstan, Vərəndə, Dizak və Çaraberd haqqında məlumat verirlər. Monoqrafiyada bu məsələ barədə yazılır: "Bunun səbəbi, çox güman ki, bu məliklərin alban mənşəli, eləcə də onun Səfəvi oriyentasiyasının tutarlı olması idi. Ümumiyyətlə, demək olar ki, Dağlıq Qarabağın bütün məliklərinin erməniləşdirilmələrinə baxmayaraq, onlar alban mənşəli idilər” (s.27).

"Qarabağ məlikləri haqqında sonrakı dövrün rəsmi sənədləri susur” (s.27) deyən müəllif XIX əsrin əvvəllərində baş verən prosesləri yığcam şəkildə xatırladaraq vurğulayır: "...Xarici yazarlar Dağlıq Qarabağ ərazisində erməni məliklərinin tarixi mövcudluğunu sübut etməyə çalışmazdan əvvəl, düzgün düşünməlidirlər” (s.27).

Azərbaycan tarixinin obyektiv və hərtərəfli mənzərəsi milli özünüdərkin möhkəm dayaqlarının formalaşması baxımından da vacibdir. Keçmişini bilməyən, düşmənləri və ənənəvi problemləri ilə tanış olmayan bir millət özünü dərk etmək, qorumaq iqtidarında deyildir. Bu aksiom xalqların tarixində artıq çoxdan sübut edilmişdir. Buna görə bizim tədqiqatçılarımız vətən tarixinin ən mürəkkəb və problemli məsələlərini cəsarətlə qaldırmalı, onların fəal şəkildə öyrənilməsinə çalışmalıdırlar. Prioritet sahələri müəyyənləşdirmək, həssas cəhət və aspektləri üzə çıxarmaq, onların keyfiyyətli həllinə girişmək lazımdır. Akademik bu cür problemlərin təkcə Səfəvilər dövlətinin deyil, Qafqaz Albaniyasından başlamış Azərbaycan Xalq Cümhuriyyətinə qədər olan dövrlərdə Azərbaycan ərazisində mövcud olmuş digər dövlətlərin tarixində də olduğunu xüsusi vurğulayır. O, bildirir və təkrarən vurğulayır ki, tədqiqatçılar "tarixin artıq çeynənmiş, özünün praktiki və elmi əhəmiyyətini çoxdan itirmiş mövzu və problemlərini bir kənara atmalıdırlar” (s.151).

Monoqrafiyada taleyüklü məsələlərin şərh edilməsi üçün daha nələrin əhəmiyyət kəsb etməsi xüsusi bir ustalıqla verilir: "Dünya ermənilərinin siyasətini təbliğ etməkdə Qriqorian kilsəsinin konsolidə və siyasi təşkilatçılıq rolunun az öyrənilməsi və eləcə də xarici arxiv materiallarının çatışmaması bu işin hazırlanmasında mənə çox sayda mənbədən istifadə etmək imkanı vermədi.

Bununla əlaqədar mən bu məsələ ilə bağlı bəzi istiqamətləri göstərməyə, onun ideoloji əsasını tərtib etməyə çalışdım. Şübhə etmirəm ki, o dövrün orijinal mənbələrinin aşkarlanması, öyrənilməsi və tərcüməsi sayəsində sonralar zəngin faktiki əsasla daha geniş tədqiqat həyata keçirilə bilər" (s.12). Yüksək elmi və zəngin həyat təcrübəsinə malik olan müəllifin taleyüklü məsələlərlə bağlı tövsiyələri bu sahədə işlər aparmaq üçün tərtib etdiyi ideoloji əsasın böyük əhəmiyyətinin olacağına, zəngin faktiki əsaslarla daha geniş tədqiqatların həyata keçiriləcəyinə heç bir şübhə doğurmur.

Maraqlıdır ki, dünyada bəzi xalqların dinc həyatına müdaxilə edərək onu pozmağa çalışan çox böyük qüvvələr var. Həmin qüvvələr istənilən xalqın nümayəndələrindən ibarət agentləri, xəyanətkarları tapıb yetişdirə bilirlər. Onları alətə çevirib, istədiklərinə nail ola bilirlər. Buna məcbur edilənlərin nə dərəcədə tarixi cinayət törətməsini bilib-bilməməsindən asılı olmayaraq, belə əməllərin dəhşətli nəticəsini əvvəlcədən dərk edə bilmirlər.

Məlumdur ki, vaxtilə Rusiya və Osmanlı imperiyaları kimi nəhəng dövlətləri bu yolla dağıtdılar. Bütün bunlar millətlərarası ədavəti qızışdırmaq yolu ilə həyata keçirildi. Ədavət yaratmağa və onu dərinləşdirməyə xidmət edən vasitələr Qərb ölkələrində meydana çıxır və öz rolunu oynayırdı. Belə ki, bir sıra ölkələrdə məqalələr, kitablar və broşürlər nəşr edilir, müxtəlif dillərə tərcümə edilərək yayılır, faciələrin baş verməsinə səbəb olurdu.

Beləliklə, hesab edirik ki, akademik Ramiz Mehdiyevin XVII əsr - XVIII əsrin birinci rübündə Səfəvilər dövlətinə qarşı Qriqorian kilsəsinin siyasi-ideoloji fəaliyyətini əks etdirən "Qriqorian kilsəsi Səfəvilər dövlətinə qarşı casusluq aləti kimi" adlı monoqrafiyası son dərəcə dəyərli əsər olaraq alimlərin, xüsusilə də humanitar və ictimai elmlər sahəsində çalışanların, tədqiqatçıların masaüstü kitabı olacaqdır.

**Ədəbiyyat:**

1.Рамиз Мехтиев, Григорианская церковь как инструмент шпионажа против Сефевидского государства (XVII – первая четверт XVIII вв.)», Баку, Шарг-Гарб, 2018, 160 с.).

**MÜNDƏRİCAT**

***Cəfər Məmməd oğlu Cəfərov.***GƏLƏCƏYİN MÜƏLLİMİ MÜASİRLİK KONTEKSTİNDƏ ........................................................... 3
***Vüqar Gəncəli oğlu Rəhimzadə .***SÖZ AZADLIĞI SİYASİ VƏ İCTİMAİ SİSTEMİN SABİTLƏŞDİRİCİ FAKTORUDUR ....................................12
***Abbas Qadir oğlu Seyidov.*** QƏDİM TÜRK ULULARINI ƏBƏDİLƏŞDİRƏN DAŞ HEYKƏLLƏR ..................................................18
***Dmitri Aleksandroviç Kiriçenko, Vüsal Paşa oğlu Həsənov.*** TOVUZ RAYONU ƏRAZİSİNDƏN TƏSADÜFİ AŞKAR EDİLMİŞ İNSAN KƏLLƏ SÜMÜYÜNÜN TƏDQİQİNƏ DAİR: ORBİTAL SELLULİT .......27
***Elnurə Akif qızı Əzizova.*** ƏBU MİXNƏFİN "MƏQTƏLÜL-HÜSEYN" ADLI ƏSƏRİ TARİXİ MƏNBƏ KİMİ ......................................................34
***Mais İsrail oğlu Əmrahov, Eldəniz Əliş oğlu Məmmədov.*** MÜHARİBƏ İLLƏRİNDƏ AZƏRBAYCAN SSR-İN TƏHSİL MÜƏSSİSƏLƏRİNİN İŞİNDƏ NÖQSANLAR VƏ ANTİSOVET MÜLAHİZƏLƏRİN FORMALAŞMASI ARXİV SƏNƏDLƏRİNDƏ .......................................48
***Pərviz Səfərov.*** XX ƏSRİN 90-cı İLLƏRİNİN BİRİNCİ YARISINDA AZƏRBAYCAN RESPUBLIKASININ RUSİYA, İRAN, TÜRKİYƏ İLƏ XƏZƏRİN ENERJİ EHTİYATLARININ İŞLƏNMƏSİ SAHƏSİNDƏ ƏMƏKDAŞLIĞI .......................................................................................56
***Əjdər Yusif oğlu Babazadə.*** CƏNUBİ QAFQAZIN HOLESEN DÖVRÜNDƏ YENİ İSTEHSAL TƏSƏRRÜFATININ FORMALAŞMASINDA 8.2 Ka İQLİM AMİLİ .........................................65
***İbrahim Zöhrab oğlu Quliyev.*** MƏHƏMMƏD FÜZULİNİN "HƏDİSİ-ƏRBƏİN" ƏSƏRİNDƏ NƏZMƏ ÇƏKDİYİ BƏZİ HƏDİSLƏRİN QAYNAQLARI ..........................................................................................75
***Гюнель Неман кызы Исламова .*** ИЗ ИСТОРИИ НАЦИОНАЛЬНЫХ МЕНЬШИНСТВ АЗЕРБАЙДЖАНА .......................................................81
***Leyla Kərim qızı Nəbiyeva.*** TÜRKİYƏDƏ HƏRBİ ÇEVRİLİŞLƏR ...........92
***Şahlar Şahbaz oğlu Şərifov.*** ORTA ƏSR ƏRƏB MƏNBƏLƏRİNDƏ TƏBRİZ ŞƏHƏRİ ..........................................................................100
***Nailə Tofiq qızı Hüseynova.*** RİNOLALİYALI UŞAQLARIN KORREKSİYASI ZAMANI TƏDQİQAT PRİNSİPLƏRİNDƏN İSTİFADƏ QAYDALARI ................................................................107
***Səbinə Ramiz qızı Aslanova.*** AUTISTIK SPEKTR POZULMASI ZAMANI NITQ VƏ KOMMUNIKASIYA .............................................115
***Səlbi Ağamehdi qızı Abasova.***UŞAQ SEREBRAL İFLİCİNİN ETİOLOGİYASI ....................................................................................125
***Qasım Əhəd oğlu Hacıyev.*** TARİXİMİZƏ VƏ TARİXÇİLƏRİMİZƏ DƏYƏRLİ ALİM TÖHFƏSİ ...........................................................136

# YAZI QAYDALARI

- Məqalələr **Azərbaycan, ingilis** və **rus** dillərində jurnalın elektron ünvanına – **sevinc0610@mail.ru** göndərilir.

- Məqalələr **Microsoft Word** proqramında Times New Roman şrifti ilə 12 pt. ölçüdə 1,0 intervalla yazılmalıdır. Səhifə ölçüləri: sağdan və soldan 2,0 sm, yuxarıdan 2,5 sm, aşağıdan 2,2 sm olmalıdır.

- **Başlıq** ortada qara və böyük hərflərlə yazılmalıdır.

- Məqalənin quruluşu aşağıdakı bölümlərdən ibarət olmalıdır: müəllifin adı, ata adı və soyadı, iş yeri, elmi dərəcəsi və elmi adı, üç dildə açar sözlər və xülasə (100-150 sözdən ibarət, 12 pt. ilə) ədəbiyyat siyahısı. Hər üç dildə yazılmış xülasələr bir-birinin eyni olmalı və məqalənin məzmununa uyğun olmalıdır.

- Məqalələrdə verilən **şəkil, rəsm, qrafik və cədvəllər** düzgün, aydın və mətn içərisində olmalı, onlara aid olan yazılar altında yazılmalıdır.

- **İstinadlar** mətn içərisində kvadrat mötərizədə göstərilməklə məqalənin sonunda əlifba ardıcıllığı ilə nömrələnməlidir. Məsələn: [1, 8].

- Ədəbiyyat siyahısında verilən hər bir istinad haqqında məlumat tam və dəqiq olmalıdır. İstinad olunan mənbənin biblioqrafik təsviri onun növündən (monoqrafiya, dərslik, elmi məqalə və s.) asılı olaraq verilməlidir. Simpozium, konfrans materiallarına və ya tezislərinə istinad edilərkən məqalə və ya tezisin adı göstəriməlidir.

- Məqalələrin həcmi: 5-12 səhifə.

- Məqalələr mütəxəssis rəyi (məxfi olaraq) əsasında jurnalın redaksiya heyətinin qərarı ilə çap olunur. Redaksiya düzəlişlər etmək üçün məqaləni müəllifə qaytara bilər.

- Məqalədə gedən hər hansı bir elmi yenilik, tezis və s. üçün müəllif şəxsən məsuliyyət daşıyır.

- Jurnalda dərc olunmayan məqalələr geri qaytarılmır.

# Tarix, insan və cəmiyyət

*Elmi-nəzəri və elmi-metodiki jurnal 2019, 1 (24)*

***Çapa imzalanmış*** *18.03.*2019-cu ***il***
***Kağız formatı*** *60x84 1/16,* ***çap vərəqi 9,5***
***Sifariş*** *108 ,* ***sayı*** *200*

***Bakı, Ü.Hacıbəy****li* ***küçəsi****, 68*
Telefon: (+994 12)493 05 85
E-mail: sevinc0610@mail.ru
www.adpu.edu.az